AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

TƏHMİNƏ ƏLƏMDAR QIZI NƏBİYEVA

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASINDA MƏKTƏB VƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ

5804.01- ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş

D İ S S E R T A S İ Y A

Elmi rəhbər: pedaqogika üzrə elmlər doktoru,
professor Şahin Tağı oğlu
Tağıyev

B A K I – 2017

# M Ü N D Ə R İ C A T

GİRİŞ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

I FƏSİL. KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASINDA MƏKTƏB VƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ PROBLEMİNİN QOYULUŞU

1.1. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması üzrə işin məqsədi, vəzifələri, mahiyyəti və məzmunu . . . . . . . . . . . . . . . . . . . . . . . 14

1.2. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin pedaqoji və psixoloji əsasları . . . . . . . . . . 27

1.3. Problemin mövcud elmi-pedaqoji ədəbiyyatda qoyuluşu . . . . . . . . . . . . 40

1.4. Problem baxımından mövcud vəziyyətin öyrənilməsi və təhlili . . . . . . . 69

II FƏSİL. KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASINDA MƏKTƏB VƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİNİN İMKAN VƏ YOLLARI

2.1. Məktəb və ailənin birgə fəaliyyəti kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanması vasitəsi kimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 82

2.2. Ailədə kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanması imkanları.............................................................................................91

2.3. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasını şərtləndirən amillər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 100

2.4.Təlim və sinifdənxaric tədbirlər zamanı kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanması imkanları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 124

2.5. Pedaqoji eksperiment və onun nəticələri . . . . . . . . . . . . . . . . . . . . . . . . 137

NƏTİCƏ VƏ TƏKLİFLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 145

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 149

# G İ R İ Ş

Mövzunun aktuallığı. Azərbaycan özünün həm şərəfli və çətin, həm də mürəkkəb və məsuliyyətli bir dövrünü yaşamaqdadır. Xalqımızı şablon həyat tərzində yaşamağa məcbur edən sosializm quruluşu dağıldıqda onun çoxilliklər ərzində yaratdığı müxtəlif münasibətlər də yeni məzmun aldı. Köhnə və əsarətdə olan Azərbaycan Sovet Sosialist Respublikasının yerində Ulu Öndər Heydər Əliyevin memarı olduğu azad, demokratik, müstəqil, bütün sahələrdə öz sözünü deməyi bacaran Azərbaycan Respublikası yarandı. Bununla da yeni insanın formalaşdırılması və müasir düşüncə tərzinə malik azərbaycanlıların milli ruhda tərbiyəsi problemi zərurətə çevrildi.

Bu gün müstəqil və demokratik Azərbaycan Respublikasına ani olaraq düşünüb nəticə çıxarmaq səriştəsi olan, problemləri bacarıqla ümumiləşdirməyə qadir fəal təfəkkürə, zəngin milli-mənəvi dəyərlərimizə möhkəm yiyələnmiş, cəsur vətənpərvər, milli düşüncə tərzinə, milli təfəkkürə, hədsiz vətən sevgisinə, milli-mənəvi şüura, möhkəm milli ideologiyaya, milli qürura, milli əxlaqa, milli təəssübkeşliyə malik gənclər-vətəndaşlar lazımdır. Ulu Öndərin təbirincə desək, "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir" (3, 11). Bunun üçün bütün təlim-tərbiyə prosesi milli ideologiyamız olan azərbaycançılıq ideologiyası əsasında qurulmalı, o cümlədən kiçik yaşlı məktəblilərdə milli qürur hissinin aşılanması və bu sahədə yaranmış keyfiyyətlərin tədricən formalaşdırılmasında müəllim-şagird-valideyn əməkdaşlığının yeniləşmiş məzmunu, onun daha səmərəli imkan və yolları müəyyən edilməlidir. Sözü gedən cəhət başqa bir məsələni - təhsilin bütün strukturlarında təhsil alanın bir şəxsiyyət, milli qüruru olan bir vətəndaş kimi tərbiyə olunması amilini zəruriləşdirir, çünki yaxşı təhsillə bərabər, yaxşı tərbiyə də cəmiyyətin tələb etdiyi vacib şərtlərdəndir.

Sovet imperiyası dağıldıqdan sonra böyük qürur hissi ilə deyilən "böyük qardaş", "qüdrətli sovet adamı", "azad sovet vətəndaşı", "SSRİ vətəndaşı" anlayışları öz mahiyyətini itirmiş, əvəzində öz müstəqilliyini, ana dilini, dinini, milli mənsubiyyətini, milli mənəvi dəyərlərini, milli qürurunu uca tutan millətlərin

müstəqil dövlətləri yaranmışdır. Milli qürur yalnız şəxsin milli mənsubluğunu bildirən sənədlə və hüquqi aktlarla deyil, eyni zamanda kamil şəxsiyyət-insan-vətəndaş keyfiyyətləri ilə səciyyələnir.

Müasir dövrdə müstəqil və suveren dövlətimizin qarşısında duran mühüm dövləti vəzifələrdən biri Azərbaycan dövlətinin siyasi və iqtisadi qüdrətini daha da möhkəmlətməkdir. Bu qlobal və həyati problem çoxsaylı etnik qrup və millətlər arasında düzgün, nəzəri cəhətdən əsaslandırılmış milli siyasət yeridilməsini tələb edir. Etnik münasibətlər sahəsində bir sıra problemlərin uğurla həll edilməsi heç də o demək deyildir ki, bu məsələ müstəqil respublikamızın milli ideologiyasına – azərbaycançılıq ideologiyasına uyğun surətdə yenidən qurulub tənzim edilmişdir. Xüsusilə milli dövlət quruluşunun, onun Ulu Öndər tərəfindən işlənib hazırlanan milli ideologiyasına uyğun vətəndaşların tərbiyə olunması istiqamətində həllini gözləyən problemləri üzə çıxarmağı, onlara yeni tərzdə yanaşmağı tələb edir. Qeyd edək ki, SSRİ kimi çoxmillətli bir ölkədə milli münasibətlər özünəməxsus səciyyəvi xüsusiyyətlərə malik idi. Bu xüsusiyyətlərin diqqətlə izlənilməməsi, lazımı səviyyədə ümumiləşdirilməməsi və obyektiv nəticələrin çıxarılmaması, “sovet vətəndaşı olmaqla qürur duyuram” kimi yalançı şüarlar əsasında qurulan ideoloji işlər Sovetlər ölkəsini və sosializm sistemini dağıdan amillərdən birini təşkil etmişdir. V. Mayakovskinin “Mən sovet vətəndaşıyam!” məşhur şeiri yaşlı nəslə o dövrün dərsliklərindən yaxşı məlumdur.

Respublikamızda da milli ideoloji tərbiyə ilə bağlı meydana çıxan pedaqoji problemləri vaxtında görmək, onların milli tərbiyə konsepsiyası baxımından real qiymətini vermək, vətəndaş tərbiyəsi prinsiplərindən irəli gələn məsələlərə düzgün yanaşmaq və uğurla həll etmək milli siyasətimizin başlıca istiqamətlərini təşkil edir.

Sovet dönəmində yazılan əsərlərin birində deyilir: “Milli həyatın ünsürü olan milli iftixar hissinin mahiyyətinin öyrənilməsi, bu hissin zəhmətkeşlərin kommunist tərbiyəsindəki rolunun aydınlaşdırılması partiyamızın milli siyasətinin mahiyyətinin kütlələrə çatdırılmasında misilsiz əhəmiyyətə malikdir. Millətin mənəvi simasının mühüm tərəfi kimi milli iftixar hissi, ictimai-siyasi həyatın bütün

sahələrində çox dinamik təsir etməklə sovet adamlarının dünyagörüşünün, onların həyata baxışının formalaşmasında böyük rol oynayır.

Odur ki, milli münasibətlərdə son zamanlar yaranmış kəskin ziddiyyətlər sovet adamlarının, xüsusilə gənc nəslin sovet vətənpərvərliyi, sosialist vətəni üçün iftixar hissi uğrunda tərbiyə edilməsinin daim genişləndirilməsi və təkmilləşdirilməsinin zəruriliyini daha da artırır. Bu bir də ona görə vacibdir ki, cəmiyyətin hər bir üzvündə beynəlmiləl mənəvi keyfiyyətlərin formalaşdırılması, onlarda millətçilik, milli müstəsnalıq hallarına qarşı barışmazlıq hisslərinin tərbiyə edilməsi indi xüsusilə böyük əhəmiyyət kəsb edir" (57, 4).

Müəllif sübut etməyə çalışır ki, guya sovetlər birliyində "milli məsələnin çarizmdən miras qalmış problemlərinin həll edilməsi, millət və xalqlar arasında dostluq və əməkdaşlıq prinsiplərinin bərqərar olması milli münasibətlərin nəzəriyyə və praktikasında müəyyən təcrübə toplamağa imkan yaratmışdır....

Cəmiyyətdə gedən demokratikləşdirmə və aşkarlıq prosesləri milli dil, mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində yeni vəzifələr irəli sürmüş, milli şüur və milli mənlik şüurunun inkişafına güclü təkan vermişdir. Bu isə xüsusi bir məsələni millətlərarası ünsiyyət mədəniyyəti məsələsini tam kəskinliyi ilə ortaya atmışdır (57, 4).

Yüksək pafosla səslənən sosialist milli qürurunun tarixin gedişində nə qədər çürük, nə qədər özünü doğrultmayan cəfəngiyat fikirlər olduğu sübuta yetirildi. SSRİ kimi millət və xalqları əzən bir imperiyanın parçalanıb dağılmasına məhz milli münasibətlər, millətlər arasında yaradılmış ədavət, düşmənçilik münasibətləri oldu.

Sovet ideologiyası Azərbaycan Respublikasında da milli münasibətlərə ağır zərbələr vurmuş, bu sahədə indi də öz həllini gözləyən problemlərin yaranmasına, kök salmasına gətirib çıxarmışdır. İmperiya süqutunun son vaxtlarından hadisələr göstərdi ki, milli problemlərə ötəri diqqət yetirilməsi, yeri gəldikcə onların imperiyanın mənafeyi xatirinə malalanması millətçilik meyllərinin oyanmasına, xalqların yalançı "Lenin dostluğuna" xələl gətirilməsinə, nəticə etibarilə isə, ölkədə dərinləşməkdə olan ixtilaflara, milli münaqişələrə, toqquşmalara, sonda

müharibələrə gətirib çıxarırdı. Uydurma Dağlıq Qarabağ problemi ətrafında yaranmış vəziyyət, separatizm cəhdləri, qabaqcadan gizli şəkildə icazə verilmiş tətillərin keçirilməsi, ekstremist metodlarla hökumətə təzyiq göstərilməsi, nəticə etibarilə təsdiq etmişdir ki, millətlərarası münasibətlər problemi imperiyanın özünün yaratdığı problemlərdəndir.

Milli qürur hissi milli mənəviyyatın tərkib hissələrindən, onun komponentlərindən biridir. Ona görə də Azərbaycanda yaşayan hər bir vətəndaş xalqın milli qüruruna ehtiram və hörmətlə yanaşmalıdır. Çünki, milli qürur birlikdə yaşadığımız xalqlarla, birliyi, əlaqəliliyi hiss etmək, onların təhlükəsizliyi və çiçəklənməsi üçün məsuliyyət daşıdığını anlamaq, vətənin inkişafı naminə tərəqqiyə xidmət göstərməkdir.

Təhsilalanlara, o cümlədən ibtidai sinif şagirdlərinə milli qürur hissini aşılamaq və bu hisslər əsasında yaranmış keyfiyyətləri formalaşdırmaq-dövlətin, ölkənin həm yaxın, həm də uzaq gələcəyi üçün onun işlərini idarə etməyə, qanunla müəyyən olunmuş tələbləri yerinə yetirməyə, hazır olan, milli qüruru və milli təəssübkeşliyi olan zəhmətsevər azərbaycanlı yetişdirməkdir.

İnsanda milli qürur hissinin formalaşmasının əsas mərhələsi onun ümumtəhsil məktəbində təhsil aldığı dövrə, o cümlədən də təhsilalanın təlim və tərbiyəsi işində məktəbin ailə ilə əlbir fəaliyyəti prosesinə təsadüf edir. Məhz buna görə də kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması probleminin həllini zəruri hesab etmişik.

Problemin həllinin vacibliyi Azərbaycan Respublikasının Konstitusiyasının tələblərinə uyğun olaraq Azərbaycan xalqının qürur mənbəyi olan dövlət rəmzlərinin öyrədilməsi ilə əlaqədar müəyyən əməli işlər görülmüşdür. “Azərbaycan Respublikasının dövlət rəmzləri” adlı kitabı bu baxımdan böyük əhəmiyyət kəsb edir (14).

Respublikamızın Konstitusiyasının 75-ci maddəsində göstərilir: “Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməli, onunla qürur duymalıdır” (15, 19). Əsas qanunun bütün tələbləri kimi, bu tələbini də hər bir Azərbaycan vətəndaşı yerinə yetirməyə,

dövlət rəmzlərinə hörmət etməyə, bunu başqalarından da tələb etməyə borcludur. Ona görə də körpəlikdən başlayaraq hər bir uşaq bu ruhda tərbiyə olunmalı, hazırlaşdırılmalıdır. Hər kəs dövlətin müstəqilliyi, milli-mənəvi adətləri, dövlət atributları ilə fəxr etməli, azərbaycanlı olması ilə qürur duymalıdır.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin 1 mart 1998-ci il tarixli 759 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında"kı dövlət sənədində deyilir: "Azərbaycan Respublikasının dövlət bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xüsusən gənclərimizə müstəqillik əldə etmiş xalqımızın qüruru, iftixar mənbəyi olan dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə xidmət edir" (13).

Kiçik yaşlı məktəblilərdə milli mənəvi dəyərlərlə, müstəqilliyimizlə, doğma dilimiz və dinimizlə fəxr etməyi, onları qorumaq və inkişaf etdirməklə qürur duymağı aşılamaq və formalaşdırmaq uzun prosesdir, ümumxalq və dövlət əhəmiyyətli bir problemdir. Bu problemin müvəffəqiyyətli həlli məktəbin ailə ilə birlikdə quracağı işin uğurundan bilavasitə asılıdır.

Görkəmli pedaqoqlar, filosoflar, psixoloqlar, metodistlər bu aktual problemə müəyyən vaxtlarda müxtəlif prizmalardan müraciət etmişlər.

Azərbaycan alimlərindən N.M. Kazımov (63; 64), Ə.Ə. Ağayev (6; 7; 8; 10), Z.İ. Qaralov (69), Y.R. Talıbov (105; 106), F.B. Sadıqov (97), A.N. Abbasov (3; 4), S.İ. Quliyev (74; 75), L.N. Qasımova (72), Ş.Q. Əliyeva (39), F.A. Rüstəmov (94), R.İ. Əliyev (36; 38), O.Q. Həsənli (52), H.H. Əhmədov (35), M.İ. İlyasov (59), N.M. Muxtarova (89), M.H. Şirzadova (103) və başqaları öz yaradıcılıqlarında vətəndaşlıq keyfiyyətlərindən bəhs edərkən kiçik yaşlardan başlayaraq şagirdlərdə milli vüqar, qürur, iftixar hisslərinin aşılanmasında Azərbaycan ailələrinin rolu, məktəbin bu istiqamətdə ailə ilə birgə qura biləcəyi işlərlə əlaqədər, müəyyən fikirlər söyləmişlər. Lakin sırf uşaqlara milli qürur hissinin aşılanması problemi üzrə tədqiqat ilk dəfə müəllif tərəfindən aparılmışdır.

Digər tərəfdən, uzun müddət asılı şəraitdə yaşadığımız sovet quruluşu dağıldıqdan sonra yaranan müstəqil, azad və qüdrətli Azərbaycan dövlətində illərlə yasaq edilmiş əksər milli mənəvi dəyərlərimizə, milli-tarixi kökümüzə üstünlük verildiyinə görə milli qürur, milli özünüdəyər, milli iftixar, milli ləyaqət kimi keyfiyyətlərin məzmunu, onların məktəblilərdə, o cümlədən ibtidai sinif şagirdlərində formalaşdırılması imkanları və yolları, vasitə və metodları da yeni məzmun kəsb etməklə dəyişməlidir. Bu vacib problem öz həllini gözləyir.

Tədqiq olunan problemin məktəb təcrübəsində vəziyyətinin öyrənilməsindən aydın oldu ki, problem məktəb təcrübəsində də problem olaraq qalır və respublikamızın ümumtəhsil məktəblərinin bu problemin həllinə böyük ehtiyac var. Bütün deyilənlər "Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyəti" mövzusunda dissertasiya işinin aktuallığını etiraf etməyə əsas verir.

Tədqiqatın obyekti – məktəblə ailənin birgə əməkdaşlığı zəminində kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması prosesidir.

Tədqiqatın predmeti – kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin forma, metod və vasitələrinin müəyyənləşdirilməsidir.

Tədqiqatın məqsədi kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin elmi-pedaqoji tələblərini, məzmununu, məktəb təcrübəsində onun həyata keçirilməsinin forma, vasitə və metodlarını müəyyənləşdirməklə bu işin səmərəliliyini yüksəltməkdir.

Tədqiqatın işçi fərziyyəsi. Müasir şəraitdə məktəbin ailə ilə birgə fəaliyyətində kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması işinin daha keyfiyyətli təşkili aşağıdakılarla şərtlənir:

- milli qürur hissinin aşılanması üzrə işin məqsədi, əhəmiyyəti, mahiyyəti, imkanları və təşkili yolları ibtidai sinif müəllimləri tərəfindən aydın təsəvvür olunarsa və bu məsələyə tərbiyə nəzəriyyəsinin ən mühüm vəzifələrindən biri kimi yanaşılarsa;

- milli qürur hissinin formalaşdırılması məqsədi ilə məktəblə ailənin birgə fəaliyyəti zamanı kiçik yaşlı məktəblilərin əldə etdiyi bilik, bacarıq və vərdişlərdən varisliyin, ardıcıllığın və sistematikliyin gözlənilməsi şərti ilə metodik cəhətdən daha məqsədəuyğun istifadə olunarsa;

- məktəbin ailə ilə birgə fəaliyyətinin təşkilində valideyn və şagirdin şüurluluq və fəallığına daha çox üstünlük verilərsə;

- kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması məqsədilə müəllimlərin ailələr ilə qurduğu birgə iş interaktiv tərbiyə metodlarından səmərəli istifadəyə əsaslanarsa;

Tədqiqatın vəzifələri. Tədqiqatın məqsədinə müvafiq olaraq onun aşağıdakı vəzifələri müəyyənləşdirilmişdir:

- müasir dövrdə milli qürur hissi məfhumunun mahiyyətini, kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin məqsəd və vəzifələrini, məzmununu müəyyənləşdirmək;

- kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanmasında məktəb və ailənin birgə fəaliyyətinin pedaqoji-psixoloji əsaslarına aydınlıq gətirmək;

- problemin mövcud elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu öyrənmək, təhlil edib ümumiləşdirmək;

- problem baxımından ümumtəhsil məktəbində mövcud vəziyyəti öyrənərək təhlil etmək;

- kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasını şərtləndirən amilləri müəyyən etmək;

- təlim və sinifdənxaric tədbirlər zamanı kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin təşkili imkanlarını aşkar etmək;

- kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması üzrə işin səmərəliliyini pedaqoji eksperiment vasitəsilə yoxlamaq.

Tədqiqatın metodoloji əsasını pedaqoji gerçəkliyin, pedaqoji faktlar, hadisələr və proseslərin dərk edilməsi və dəyişdirilməsi məqsədilə tətbiq edilən nəzəri müddəaların, metodların, vasitə və prinsiplərin məcmusu təşkil edir.

Elmi araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

1. Ədəbiyyatın təhlili. Tədqiq olunan problemlə bağlı elmi metodik, pedaqoji və psixoloji ədəbiyyat öyrənilmiş, təhlil edilərək ümumiləşdirilmiş, mövzunun işlənməsi üçün müvafiq nəticələr çıxarılmışdır.

2. Məktəb təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi. Respublikanın 30-a qədər şəhər və kənd məktəblərində çalışan 45 sinif müəlliminin 580 şagirdin valideynləri ilə apardığı tərbiyəvi işlər tədqiq olunan məsələ baxımından öyrənilmiş, təhlil edilmiş və ümumiləşdirilmişdir. Xüsusən Gəncə şəhər 4, 8, 14, və 39 nömrəli, Samux rayonu 2 nömrəli, Göy-göl rayonu Üçtəpə və Aşıqlı kənd orta, Daşkəsən rayonu Aşağı Quşçu və Şəmkir rayonu Morullu, Tovuz rayonu Əlibəyli kənd məktəblərində işləyən qabaqcıl sinif müəllimlərinin iş təcrübəsi öyrənilərək müvafiq nəticələr çıxarılmışdır.

3. Pedaqoji müşahidə. Tədqiqatla bağlı ibtidai sinif müəllimlərin və valideynlərin birgə fəaliyyətini, kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasına bu fəaliyyətin təsir dərəcəsini müəyyənləşdirmək məqsədilə 28 müəllimin, tərbiyəçi və məktəb rəhbərinin və 164 valideynin, 420 ibtidai sinif şagirdinin məsələyə münasibəti öyrənilmişdir.

4. Pedaqoji müsahibə və intervü. Tədqiqat apararkən Azərbaycan Respublika-sının görkəmli alimləri, metodistləri, sinif müəllimləri, tərbiyəçi və məktəb rəhbərləri, valideynlər, ictimaiyyət nümayəndələri və şagirdlərlə müsahibə və intervülər keçirilmişdir.

5. Anket sorğusu. Tədqiq olunan məsələyə münasibətini öyrənmək məqsədi ilə 64 müəllim və 350-yə qədər şagirdlə yazılı və şifahi anket sorğusu keçirilmişdir. Sorğunun köməyilə alınan məlumatların təhlili və qruplaşdırılması nəticəsində ümumiləşdirmələrin aparılması, cavablardakı keyfiyyət və kəmiyyət asılılıqlarının müəyyənləşdirilməsi mümkün olmuşdur. Bu asılılıqlar pedaqoji eksperimentin göstəricilərinin müqayisəsinə, nəticələrin etibarlılığına, nəzəri ümumiləşdirmələrin uğurlu aparılmasına imkan və şərait yaratmışdır.

7. Pedaqoji eksperiment. Eksperiment 2012-2017-ci illərdə 3 mərhələdə (müəyyənedici, öyrədici və yoxlayıcı) Gəncə şəhəri 4, 39 nömrəli şəhər, Samux rayo-nu 2 nömrəli və Göy-göl rayonu Üçtəpə kənd məktəbində aparılmışdır.

Tədqiqatın elmi yeniliyi. Dissertasiyada ibtidai sinif şagirdlərində milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin pedaqoji imkanları araşdırılaraq üzə çıxarılmış və elmi cəhətdən əsaslandırılmışdır. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması məqsədilə məktəbin ailə ilə birgə fəaliyyətinin məzmunu, imkanları, yolları və vasitələri bir pedaqoji sistem şəklində işlənilmiş, problem baxımından təlim və tərbiyə prosesinin imkanları və səmərəli yolları müəyyənləşdirilmişdir.

Tədqiqatın praktik əhəmiyyəti. İbtidai sinif şagirdlərində milli qürur hissinin formalaşdırılmasında məktəbin ailələrlə birgə fəaliyyətinin təşkili ilə bağlı tədqiqat materialları, dissertasiyada öz əksini tapmış iş sistemi, əsas ideyalar, tədqiqatın nəticələri, tərbiyə metodikası kiçik yaşlı məktəblilərdə azərbaycançılıq ideologiyasının formalaşdırılmasında ibtidai sinif müəllimlərinə kömək göstərəcəkdir. Tədqiqat materialları yuxarı siniflərdə də təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilər. Tədqiqat materialları məktəblilərin azərbaycançılıq ideologiyası ruhunda tərbiyəsinin məzmun və metodlarının təkmilləşdirilməsində də faydalıdır.

Tədqiqatın nəzəri əhəmiyyəti. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəbin ailə ilə qurduğu iş sisteminin məzmunu, onun yeni imkanlarını və yollarını müəyyən edən müddəalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, milli-mənəvi və ideoloji tərbiyənin daha məzmunlu qurulmasına imkan verəcəkdir.

Alınan elmi və praktik nəticələrin etibarlılığı. Tədqiqatdan alınan nəticələrin düzgün, inandırıcı və etibarlı olması üçün, həmçinin məktəb təcrübəsindəki müşahidələrdən, anket sorğusundan, müsahibə və intervülərdən əldə edilən ilkin nəticələrin nə dərəcədə həyati olduğuna bir daha əmin olmaq üçün onlar başqa məktəblərdə sınaqdan keçirilmişdir.

Müdafiəyə təqdim olunan müddəalar: 1. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması məqsədilə məktəbin ailə ilə birgə fəaliyyəti şagirdlərin azərbaycançılıq ruhunda tərbiyəsinə, əsl Azərbaycan vətəndaşı kimi yetişmələrinə münasib şərait yaradır.

2. İbtidai siniflərdə təlim və tərbiyə zamanı Azərbaycan dövlətçiliyi və onun atributları ilə bağlı məktəb və ailənin birgə, məqsədyönlü fəaliyyəti şagirdlərdə milli qürur hissinin formalaşdırılmasında mühüm vasitədir.

3. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin mənəvi və pedaqoji imkanları genişdir.

4. İbtidai siniflərdə fənlərin tədrisi və sinifdənxaric tədbirlər zamanı məktəbin ailələrlə birgə fəaliyyəti şəraitində aparılan məqsədyönlü, planlı, sistemli iş kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasını təmin edir.

5. İbtidai siniflərdə pedaqoji kollektiv və valideynlərin qarşılıqlı fəaliyyəti nəticəsində kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması eyni zamanda ümumtəhsil məktəblərində tərbiyə işinin səmərəsinin və keyfiyyətinin yüksəldilməsini təmin edir.

Tədqiqatın aprobasiyası. Tədqiqatın əsas ideyaları və nəticələri Gəncə Dövlət Universitetində müəllifin yerinə yetirdiyi illik elmi-tədqiqat işlərində, Bakıda Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi ("Gənc tədqiqatçıların və doktorantların XVIII Respublika konfransı"nda (Bakı, 2013), "Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş **"**Müasir təhsilin aktual problemləri**"** mövzusunda respublika elmi-praktik konfranslarında (06 may 2013-cü il); Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda respublika elmi konfransında (Bakı, 28 iyun, 2012), Rusiya Elmlər Akademiyası və Rusiya AAK-nın ənənəvi olaraq hər il "Фундаментальные и прикладные проблемы науки" mövzusunda birgə təşkil etdiyi VII (Moskva, 2012-ci il) və VIII (Moskva, 2013-cü il) Beynəlxalq Simpoziumda; Naxçıvan Müəllimlər İnstitutunun "Ümumi orta təhsilin müasir

problemləri" mövzusunda beynəlxalq elmi konfransında (Naxçıvan, 24 noyabr, 2012) məruzələrlə çıxışlar etmiş, məruzələrin tezisləri çap olunmuşdur.

Tədqiqatın nəticələri ilə bağlı iki məqalə "Vestnik Kazaxskiy Naçionalnıy Pedaqoqiçeskiy Universitet imeni Abaya" (2015, № 1) və "İzvestiya vuzov Kırkızıstana" elmi-nəzəri jurnallarında dərc olunmuşdur.

Tədqiqatın əsas məzmunu müəllifin "Pedaqoji Universiteti xəbərləri"ndə, "Gəncə Dövlət Universitetinin Elmi xəbərləri"ndə və "Bakı Slavyan Universitetinin "Humanitar elmlərin öyrədilməsinin aktual problemləri" jurnalında çap olunmuş məqalələrində də öz əksini tapmışdır.

Dissertasiyanın quruluşu. Dissertasiya işi giriş, doqquz yarımfəsli əhatə edən iki fəsil, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASINDA MƏKTƏB VƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ PROBLEMİNİN QOYULUŞU

## 1.1. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması üzrə işin məqsədi, vəzifələri, mahiyyəti və məzmunu

Milli qürur hissinin mahiyyətini düzgün anlamaq üçün ona konkret tarixi şəraitdən yanaşılmalı, mühüm, əhəmiyyətli cəhətlər ön plana çəkilməlidir. Konkret tarixi şəraitin dəyişməsi vətənpərvərlik və onun başlıca tərəfi olan milli qürur hissinin məzmununa da bir özünəməxsusluq gətirmişdir. Bu hissin məzmununa yanaşma milli qürurun milli ideologiya - azərbaycançılıq ideologiyası baxımından təhlilinin əsasını təşkil edir.

Milli qürur hissi nədir? Onun əsas mahiyyəti nədən ibarətdir? Kiçik yaşlı məktəblilərin milli qürur hissinin məzmununa nələr daxildir?

Q.İ. Hüseynov "Milli iftixar hissi" adlı əsərində məfhumun mahiyyətini belə şərh edir: "Vətən hissi, torpaq hissi... Uşaqlıqdan, bəlkə də körpəlikdən canımıza, qanımıza, lap iliyimizə hopan, ruhumuzu yerindən oynadıb pərvazlandıran, bizi ən müqəddəs duyğulara qovuşduran və beləliklə də mənəvi dünyamızı ən uca dəyərlərlə zənginləşdirən bir hiss. Onun sehrkar təsiri adamı ovsunlayır, cəhdlərimizi adilikdən, bəsitlikdən uzaqlaşdırır, uca-uca mətləblərə, misilsiz fəaliyyətə səsləyir. Bu ecazkar duyğu eli, obanı, xalqı, milləti mənəvi tellərlə bağlayır, bu canlı orqanizmi monolit birliyə çevirir... Milli iftixar adlandırdığımız bu hiss mənəviyyatımızın ayrılmaz hissəsi olur" (57, 7).

Müəllif daha sonra göstərir ki, "Milli iftixar hissi milli varlığın əsas cəhətlərindən biri kimi ictimai-iqtisadi və milli inkişafın çoxcəhətli və ziddiyyətli meylini özündə əks etdirir. O, millətin mənəvi simasının mühüm tərəfi olmaqla vətənpərvərliyin məzmununa daxil olur və orada əsas yer tutur". Müəllif söylədiyi kimi, doğrudan da milli iftixar hissi vətənpərvərliyin yaranıb formalaşdırılmasında aparıcı və təkanverici rol oynayır. Onun fikrincə, milli həyatın ayrı-ayrı cəhətlərini özündə əks etdirən milli mənlik şüuru, milli adət və ənənələr və s. vətənpərvərliyin məzmununa bütövlükdə deyil, qismən daxil olur və həm də milli iftixar hissi kimi

geniş mövqeyə malik olmurlar. Çünki vətənpərvərlik inkişafın mütərəqqi meyllərini əks etdirdiyindən, təbii ki, məhdud meyilli, arxaik cəhətlər onun məzmununa daxil ola bilməz. Milli iftixar və eləcə də milli həyatın digər cəhətləri ictimai münasibətlərin milli münasibətlər sahəsindəki mühüm tərəfini təşkil edir. Bu mənada milli iftixar hissini ictimai münasibətlərin ümumi məzmunundan ayırmaq olmaz. Çünki milli iftixar hissi milli gerçəkliklə yanaşı, mövcud ictimai-siyasi münasibətlərlə sıx şərtlənir (56, 7).

Milli müstəqillik əldə etmiş və bu yolda inamla irəliləyən, günbəgün mədəni, iqtisadi və siyasi cəhətdən qüdrətlənən Azərbaycan Respublikası çoxmillətli, müxtəlif etnik qruplara malik bir ölkədir. Bu baxımdan ölkəmizdə elmi cəhətdən əsaslandırılmış milli siyasət yeridilməlidir. Milli qürur milli siyasətin tərkib hissəsi olduğundan onun vətəndaşlarımıza, o cümlədən şagirdlərə aşılanması problemi çox diqqətli, ehtiyatlı olmağı tələb edir.

Bu baxımdan milli həyatın mühüm ünsürü olan milli qürur hissinin kiçik yaşlarından başlayaraq məktəblilərə düzgün aşılanmaması, son nəticədə Azərbaycan vətəndaşlarının ayrı-ayrı üzvlərinin şüurunun bəsit şəkildə başa düşülən yalançı, hayküylü vətənpərvərlik tərbiyəsinə gətirib çıxarır. Bu hissin təsiri ilə beyinlər dumanlanır, hərəkətlər azğınlaşaraq hədəğadən çıxa bilir. Belə hallarda yüksək emosionallıq şüura daha sürətli və daha güclü təsir göstərir, onu riqqətə gətirir. Şüur həm yüksək yaradıcı enerjiyə, həm də yıxıb dağıtmağa qadir olur. Milli qürur hissi insanın niyyətindən, xislətindən, amalından asılıdır. Çirkin, xəbis niyyətlərin psixoloji təsiri ilə bu hiss əqlin, zəkanın nəzarətindən çıxaraq, idarə olunmaz hal ala bilir.

Belə halda məktəblilər özünə qapılacaq, milli lovğalıq, milli mənəmlik, boşboğazlıq, milli xudbinlik təşəkkül tapacaq, ifrat dərəcəli milli xülyaların, ekstremist iddiaların əlamətləri baş qaldıracaqdır. Bu cür psixoz halların məktəblərdə tədricən formalaşması gələcəkdə insanın fikir və qərarını əlindən alır, onu qeyri- bəşəri duyğuların, antihumanist niyyətlərin müti kölərsinə çevirir. İnsan psixikasının belə bir qeyri-normal halı çılğın hərəkətlərə, kobud niyyətlərə, ağlın, zəkanın aşınmasına, ruhun lüzumsuz vəcdə gəlməsinə gətirib çıxarır. Belə olduqda

vətəndaşlarımızın yaradıcı imkanları zəifləyər, sosial gərginlik əlamətləri artır. Sosializm dağıldıqdan sonra ölkəmizdə baş verən hadisələrin acı təcrübəsi bunu təsdiq edir.

Milli qürur, milli iftixar hissi doğma diyara, xalq həyatının bütün səhifələrinə, onun mütərəqqi ruhlu adət və ənənələrinə hörmət və ehtiramın təcəssümü kimi vətənpərvərlik hissinin müəyyənləşməsində, onun formalaşıb inkişaf etməsində də böyük rol oynayır.

Xalqın milli mentaliteti əsasında yaranıb formalaşmış və xalqın minillik həyat tərzi ilə bağlı mənəvi sərvətlərə münasibətin psixi tərzdə ifadəsi kimi milli qürur hissi milli birliyin, milli həyatın digər tərəflərinin yaranıb inkişaf etməsinin mühüm amilidir. Bu hiss milli birliyin sabit və ardıcıl istiqamətdə inkişaf etməsini təmin edir – deyən onu da xüsusi vurğulayır ki, "mühüm tarixi məsələlərin həllində, milli dövlət birliyinin, milli suverenliyin qorunub saxlanılmasında milli iftixar hissi tarixi rol oynayır. Çünki millətin bütün dəstələrini vahid məqsəd ətrafında cəmləməkdə, milli ayrılığın, mərkəzdən qaçma, əyalətçilik kimi zərərli təsirlərin aradan qaldırılmasında bu hissin səfərbəredici rolu inkar edilməzdir. Milli iftixar hissinin bu cəhəti tarixi keçmişin ayrı-ayrı səhifələri qiymətləndirilərkən, habelə millətin adı, onun ləyaqət və heysiyyəti ilə bağlı olan məsələlərdə daha qabarıq və emosional tərzdə özünü büruzə verir" (38, 49).

Deməli, milli qürur hissinin səciyyəsinə şagird şüurunun bütün formaları ilə, şagird şəxsiyyətinin inkişafının konkret səviyyəsi ilə sıx əlaqədə yanaşmaq lazımdır.

Milli qürur istənilən milli zehniyyətdən, milli müstəsnalıq və əsassız iddialardan uzaq olan bir məfhumdur. Milli qürur hissi milli birliyin, milli tərəqqinin qüdrətli amili, hər bir şəxsin mənəvi dünyasının yol göstəricisidir. Bizi mənən qüvvətli edən, nikbin duyğular oyadan təkcə öz şəxsi həyatımızın uğurları və qayğıları deyildir. Hər birimizi doğma diyarla minlərlə, bəlkə də on minlərlə gözəgörünməz tellər bağlayır. Xalqın keçmişi, onun tarixinin ləyaqətli və qəhrəmanlıq səhifələri, dünənin və bu günün uğurlu nailiyyətləri qəlbimizə, mənəvi dünyamıza daxil olur, varlığımızı dərin iftixar hissi ilə doldurur. Ana südü ilə, yediyimiz

çörəklə, udduğumuz hava ilə canımıza hopan, bizi sözün əsl mənasında yerdən göyə qaldıran bu hiss nəsildən-nəsilə, eldən-elə ötürülür, dərin ideya birliyi, möhkəm mənəvi varislik ənənələri yaradır. Bu hissin qadir qüdrəti yaradıcı əməyə, misilsiz xariqələrə səsləyir. Bu, bir həqiqətdir ki, ləyaqətli, zəhmətkeş, qeyrətli və namuslu olmadan əsl vətənpərvər olmaq mümkün deyildir.

Mahiyyəti etibarıilə milli qürur hissi insanın digər hissləri ilə qohumdur, yəni o, insanın psixi-emosional fəaliyyətinin bir növünü təşkil edir. Lakin məzmun zənginliyi, məqsədyönlülüyü ilə, ideologiya ilə sıx əlaqəsinə görə o, digər hisslərdən xeyli fərqlənir. Həm də insan hisslərini təsnif etmək lazım gələrsə, milli qürur hissini ən ali, ən uca hisslər qrupuna daxil etmək lazım gəlir. Milli qürur fəaliyyətinə cəlb olunan insan adilikdən tamamilə uzaqlaşır, adi emosiyalar, cılız ovqatlar, şəxsi arzular qınını tərk edir, millətin, xalqın, son nəticədə isə bəşəriyyətin adı ilə bağlı böyük mətləblərin, ali duyğuların dünyasına daxil olur. Belə olduqda milli qürur hissi və şəxsi əhval-ruhiyyənin, milli mənlik şüurunun və bütövlükdə ictimai şüurun qüdrətli tənzimçisinə çevrilir (57, 10).

Milli qürur hissinin fəal təsiri ilə tarixin səhifələrinə dərindən nüfuz edilir, xalqın yaddaşı sanki yenidən dirilir, ulu babaların, keçmiş nəsillərin bu günümüzlə, sabahımızla güclü mənəvi estafeti yaranır.

Milli qürur hissi milli xüsusiyyətlərin bütün toplusunu özündə cəmləşdirir, millətə aid cəhətləri bütün aydınlığı ilə əks etdirir. “Milli əlamətlərlə bağlı sabit meyillər milli iftixarın məzmununa daxil olmaqla onun formalaşıb daha da inkişaf etməsində böyük rol oynayır (57, 11)”. Ona da diqqət etmək vacibdir ki, bu zaman tarixi şəraitdən doğan motivlər xüsusi rol oynayır. Bu mənada konkret-tarixi səciyyəli cəhətləri (məsələn, Gülüstan müqaviləsini, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsini, böyük dövlətlərin tarixi-seperatçı mövqeləri və s.) ön plana çəkməklə bu hissin mahiyyətini düzgün anlamaq olar. Çünki tarixi, ictimai-siyasi cəhətlərin timsalında milli qürurun mütərəqqi xüsusiyyətləri özünü qabarıq büruzə verir. Yalnız bu səpkidə onun xalqla, xalq həyatı ilə bağlılığı bütün təfərrüatı ilə üzə çıxır.

Mənfur, xain qonşularımız üçün milli qürur hissinin məzmununda milli və etnik cəhətlərin ön plana çəkilməsi mühüm əhəmiyyətə malikdir. Bununla erməni ideologiyası milli qürurun inkişafını çox məhdud və birtərəfli amillərlə müncər edir və onu digər mühüm bir amildən-beynəlmiləl cəhətlər üzrə inkişaf stimulundan məhrum edir. Bu isə son nəticədə ermənilərin işğalçı fəaliyyətini, digər xalqlara qarşı eqoist mənafeyini pərdələmək məqsədlərinə xidmət göstərir.

Araşdırmalardan görünür ki, erməni ideoloqları tarixən milli iftixar hissini müxtəlif variantlarda yozmuş, bu hissin məzmununa bir sıra hallarda qeyri-insani müddəalar da (terorçuluq) əlavə etmişlər. Onların uşaqların erkən yaş dövrü üçün xarakterik olan hadisələrə subyektiv münasibətləri milli iftixar hissinin izah edilməsində özünü qabarıq şəkildə büruzə verir. Bunun nəticəsidir ki, bu hiss əsl mahiyyətindən, bir çox səciyyəvi cəhətlərindən təcrid edilərək qonşuların torpaqlarını işğal etməklə böyük dövlətçilik ideya və psixoloji keyfiyyətlərin məcmusuna şamil edilir. Milli iftixar hissinin məzmununa belə yanaşma bu hissin milli həyatın, millətin mənəvi simasının inkişafındakı mürtəce rolunu nümayiş etdirir.

Milli qürur, milli iftixar hissinin mənşəyinə münasibət bildirən şəxsiyyətlərdən biri də böyük alman filosofu Hegeldir. Onun fikrincə, milli xarakterin təzahür forması olan milli iftixar hissi “tarixi inkişaf etdirən amilləri özündə cəmləşdirir” (111, 81). Deməli, xalqların təbiətində tarixən mövcud olan milli-mənəvi keyfiyyətlər aparıcı rol oynayır, milli inkişafın əsas cəhətlərini şərtləndirir. Hegel milli iftixarı iqlim və digər təbii amillərlə sıx bağlayır və çox haqlı olaraq belə hesab edirdi ki, vətənpərvərlik hisslərinin əsasını mövcud dövlət quruluşunun mütləqiliyinin dərk edilməsi təşkil edir. Yəni o, dövlətçiliyə tabe olmağı iftixar hissi üçün ən məqbul bir hal hesab edirdi.

Belə yanaşmada millətin əsas əlaməti kimi psixoloji ümumiliyə, habelə milli birliyin mühüm amili olan milli qürur hissinə çox az yer qalır, bunların daşıyıcısı olan insan isə ünvansız, simasız bir varlığa çevrilir.

Milli qürur hissinin mənşəyinə bioloji (irsi) yanaşma hallarına da rast gəlinir. Belə alimlər, məsələn S.L. Rubinşteyn milli iftixar hissinin mahiyyətini bioloji

mövqelərdən aydınlaşdıraraq göstərirlər ki, bu hisslər insanın irsi keyfiyyəti olub, onun bioloji əlamətlərinin ümumiliyini əks etdirən psixi aktdır (115, 213).

X. Spruel milli iftixar hissinin millətin özünü başqa millətin təcavüzündən qorumaq instinkti kimi təsvir edərək, onun məzmununda tərbiyənin rolunu inkar edir. İngilis bioloqunun təbii instinkt kimi təqdim etdiyi bu hiss özünün qneseoloji kökləri etibarilə faktik olaraq millətçilik və şovinizmlə səsləşir (121, 334-335). Qeyd etməliyik ki, digər hisslər kimi milli hisslərdə də insanların daxili vəziyyəti ifadə olunur. Lakin bu hissələri yeganə meyar kimi təqdim etmək, sadəcə olaraq, problemin mahiyyətini təhrif etmək olardı.

Milli qürur hissinin mənşəyinə, onun mahiyyətinə münasibətdə ən mürtəce mövqeyi marksizm nəzəriyyəsi tutmuşdur. "Kommunist partiyasının manifesti" əsərində K. Marks və F. Engels göstərirlər ki, "fəhlələrin vətəni yoxdur" (113, 129). Bu, o demək idi ki, zəhmətkeş siniflər hər cür milli iftixar hissindən məhrumdurlar, onları doğma vətənə heç bir vətənpərvərlik hissi bağlamır. Guya zəhmətkeşlərin milli iftixar hissini qidalandıran cəhətlər "vətən" anlayışının ictimai-siyasi amilləri ilə sıx bağlı olduğundan sinifli cəmiyyətlərdə proletariatın bu mənada vətəni yoxdur. İctimai-siyasi hüquqsuzluq onu insan kimi yaşamaqdan məhrum edir, o özünün sinifli cəmiyyətdəki kölə vəziyyəti ilə fəxr edə bilməz.

Fikrimizcə, milli qürur hissinin məzmununun aydınlaşdırılmasında ölkənin sosial, iqtisadi və siyasi şəraiti ön plana çəkilməli, bu sahələrdə olan böyük naliyyətlər milli qürur hissinin məzmununa daxil edilməlidir.

V.İ. Lenin özünün bir sıra əsərlərində milli iftixarın mahiyyətinə və məzmununa münasibət bildirmişdir. Guya kapitalist istehsal üsulu milləti, millətə aid olan bir sıra mənəvi keyfiyyətləri, o cümlədən də milli iftixar hissini formalaşdırsa da, bunların hamısının məzmununda çox vaxt burjaziyanın xudbin sinfi niyyət və mənafeləri aparıcı yer tutur (79,15).

Əslində onun yaratdığı sosializm cəmiyyəti, Sovet imperiyası vətənpərvərlik şüarları ilə pərdələnərək, ilk növbədə özünün müstəmləkə tələbləri üçün imtiyazlı mövqe yaratmağa çalışmışdır. Sovetlər birliyi bir "humanist dövlət ictimai həyat kimi" sahəsinə atıldı, yüksək milli iftixar duyğularından dəm vurdu, lakin onun

vətənpərvərliyinin, milli iftixarının “mən sovet vətəndaşıyam” şüarının sonu onun parçalanmasına, dağılmasına, milli represiyalara, “millətlərin qardaşlığının” sonunda millətlərin bir-birini qırmasına səbəb oldu. İndi də bunun acısını müstəqillik əldə etmiş bütün respublikaların xalqları hiss edir. Ukraynada, Azərbaycanda, Gürcüstanda, Moldaviyada və s. qanlı olaylar səngimək bilmir.

Sovet iftixarı əsil, həqiqi milli mənafeyin ifadəsi olmayıb, yalnız dar mənafe zəminindən çıxış etdikdə bu hiss başqa xalqlara etinasız, hətta düşməni münasibətin, yəni faktik olaraq millətçilik və Şovinizim ideyalarının yayılmasına gətirib çıxarmışdı. Bu zaman milli qürur milli həyatın rəngarəng cəhətlərini özündə əks etdirə bilmir. Sovetlər birliyində milli qürurun məhdud xarakter daşıması ona millətin bütün dəstələrinin adından çıxış etmək imkanı verə bilməzdi, çünki imperiyanın mənafeyi imkan vermirdi ki, bu hiss millətlərə aid olan bütün cəhətləri özündə əks etdirə bilsin. Bu, başqa cür də ola bilməz. Çünki milli qürur hissi onda əsil məna və dolğun mahiyyət kəsb edir ki, özündə xalqın milli azadlığını, müstəqilliyini, müstəqil siyasətini, iqtisadi və siyasi inkişafdakı böyük nailiyyətlərini, beynəlxalq aləmdəki nüfuzunu birləşdirsin.

Onu da qeyd edək ki, milli qürur hissini ucuz şöhrət və xudbin niyyətlər mənbəyinə çevirən müxtəlif qüvvələrə cəmiyyətimizdə rast gəlmək olur. Beləlləri milli problemləri az qala milli faciə səviyyəsinə qaldırır, milli qeyrətdən, milli qürur və təəssübkeşlikdən danışırlar. Saxta vətənpərvərlik şüarları və terminləri ilə maskalanmış belə insanlar xüsusi canfəşanlıq edirlər. Millətin adından çıxış edən, onun ehtiyac və problemləri barədə çox danışmağı sevən, hakimiyyət hərisliyi göstərən belə adamlar əməli işlərə gəldikdə fəaliyyətsiz olur, özlərinin avantürist niyyətlərini gizlədirlər. Onlar vətənpərvərliyin birinci şərtinin millətə xidmətdən ibarət olmasını unudur, milli duyğularını əsil alver mənbəyinə çevirirlər, həm də Ulu Öndər Heydər Əliyevin memarlığı ilə yaranıb formalaşmış, çətin sınaqlardan çıxmış və hazırda regionun ən qüdrətli dövlətlərindən birinə çevrilmiş Azərbaycan Respublikasının taleyi onları əsla maraqlandırmır. Beləlləri tez-tez tarixə də müraciət edir, özlərinin əsassız millətçi mövqelərini uydurma faktlarla sübuta yetirməyə çalışırlar. Çünki milli qürur hissini qidalandıran, onun emosional

inkişafını təmin edən amillərdən biri də tarixi milli mentalitetimiz və konkret faktlardır.

Azərbaycan xalqının tarixi qanlı-qadalıdır, soyqırımlıdır. Quba tarixi məzarlığı, Xocalı soyqırımı, azərbaycanlıların doğma torpaqlarından deportasiya dövrləri millətin yaddaşında yaşamaqdadır. Əsas məsələ bu faktlara obyektiv, hər cür qondarmalardan uzaq münasibətdədir. Buna görə, bu gün tarixin öyrənilməsinə diqqət və maraq daha da artmış, keçmişin qaranlıq səhifələrinin yeni prizmadan öyrənilməsinə başlanmışdır. Bu axında, həmçinin tarixi öz xeyirlərinə yazmağa, bütöv xalqları fanatik zehniyyətin doğurduğu yalançı iddialarla mənfur qonşularımız və onların havadarları daha çox fəallaşmışlar. Qonşu xalqlara ərazi iddiaları, süni surətdə öz tarixini qədimləşdirmək, başqalarının tarixini isə saxtalaşdımaq, bütün mədəni sərvətlərdə az qala özünün ilkinliyini axtarmaq cəhdləri millətlərarası müharibəyə gətirib çıxarmışdır. Millətlərarası zəmində baş verən son müharibələrdə, millətlər arasında yaranmış gərginlikdə belə saxta tarix bilicilərinin səyləri az deyildir.

Erməni və digər muzdlu ideoloqlar düşmənçilik, millətçilik və qarşıdurma ehtiraslarını qızışdırmış və nəhayət, milli hisslərin fəaliyyətini səhv axına yönəltmiş, Azərbaycan torpaqlarının beşdə bir hissəsini işğal etmiş, bir milyondan çox soydaşlarımızı qaçqın və köçgün hala salmışlar. Xain qonşularımız unudurlar ki, davakar millətçiliyin sonu əvvəl-axır uğursuzluqdur. Azərbaycanın qüdrətli dövləti, onun hər bir vətəndaşı vətənini, xalqını, özünün milli qürur və ləyaqətini, milli mənliyini qorumaq iqtidarına malikdir.

... Tarixdən külü yox, odu götürmək! Yalnız belə olduqda milli qürur hissi ciddi əxlaqi kateqoriyaya çevrilir, təkcə şəxsiyyətin mənəvi aləmini deyil, həm də millətlərarası münasibətləri əxlaqi sərvətlərlə, ümumbəşəri normalarla zənginləşdirir. Çünki insanın mürəkkəb psixi fəaliyyətinin bir növü olan milli qürur hissi konkret hissi fəaliyyətin digər növlərindən onunla fərqlənir ki, o, fərdin emosional aləminin bir çox başqa təzahürləri kimi keçici olmayıb sabit və sistemli xarakter daşıyır, ictimai və milli praktikanın zəngin və çox tərəfli cəhətlərini dinamik surətdə özündə əks etdirir.

Milli qürur hissi müxtəlif amillərdən asılıdır. O gah ya adi emosiya, gah da güclü sosial hiss şəklində özünü göstərir. Bu həm hər bir adamın ümumi inkişaf səviyyəsindən, həm də bu hissi fəaliyyətə gətirən, onu tənzimləyən amillərdən xeyli dərəcədə asılıdır. Burada həm xalqın sosial yaddaşı, həm şəxsiyyətin siyasi yetkinlik dərəcəsi, həm də konkret sosial vəziyyət müəyyənedici rol oynayır. Məsələn, son zamanlar, yəni respublikamız istiqlaliyyət qazanıb surətlə və uğurla inkişaf etdiyi bir vaxtda, elan olunmamış müharibənin getdiyi bir vaxtda milli zəmində baş verən hadisələr milli hislərin, o cümlədən də milli qürur hissinin təsirliliyini, onun fəaliyyət dairəsini xeyli artırmışdır. Bu prosesdə millətçilikdən uzaq olan milli qürur hissinin təsiri ilə mənəviyyat və əxlaq daha da ülviləşir, insanın sosial duyumu qüvvətlənir, o, millət və xalq qarşısındakı məsuliyyətini daha aydın təsəvvür edir.

Buradan belə qənaətə gəlmək olur ki, milli qürur hissi millət və xalqın mənəvi simasının ayrılmaz ünsürü kimi təzahür edir. Bu hiss, o halda özünü daha aydın büruzə verir ki, onun inkişafını ləngidən milli iddialara, pis niyyətlərə imkan verilməsin, milli qürur hissi milli niyyətlərə, primitiv ovqatlara son qoyulsun, milli azərbaycançılıq ideologiyasının təsiri altında inkişaf edə bilsin.

Ayrı-ayrı tarixi mərhələlərdə milli iftixar hissinin məzmununda şovinizm və irqçilik kimi formalar əsas yer tutmuş və son nəticədə bu cəhətlər xalqlar arasında düşmənçiliyin qızışdırılmasında mühüm rol oynamışdır.

Məsələn, faşizm ideologiyasında başqa xalqlara nifrət hissi, onların milli ləyaqətinə alçaldıcı münasibət, alman irqinin dünyada ali irq olması ideyası üstünlük təşkil edir. Bu fikirləri Ermənistan rəhbərliyinə, qondarma Dağlıq Qarabağın qondarma rəhbərlərinə və tərəfdarlarına da aid etmək mümkündür.

Milli qürur hissinin səciyyəvi cəhətlərindən biri də, uzun tarixi inkişaf prosesinin məhsulu olması, özündə inkişafın bütün rəngarəngliyini cəmləşdirməsidir. Bu hiss tarixi əsrlərlə, ayrıca vətənlərdə yaşamaqdan doğan mürəkkəb sosial hisslər qrupuna daxildir. Buradan da onun sabit xarakteri, dərin mahiyyəti ortaya çıxır və bu mənada o, digər sosial səciyyəli hisslərdən fərqli olaraq daha gec-gec dəyişikliyə məruz qalır.

Milli qürurun inkişafı üçün ən vacib şərtlərdən biri milli mənəvi mühitin, milli mənəvi gerçəkliyin yaranıb formalaşmasıdır. Çünki milli mənəvi mühit elə bir amildir ki, onun tənzimləyici rolu vasitəsi ilə millətə aid bir çox cəhətlər insanın mənəvi aləmində dərindən kök salır, özünün emosional gücü ilə milli iftixarı qidalandırır (57, 24-25). Söhbət milli dil və mədəniyyətin, milli-mənəvi dəyərlərin varlığından, onların inkişafı üçün lazımi şəraitin və bir sözlə, milli təfəkkürün formalaşması üçün lazımi sosial mühitin olmasından gedir.

Dünya dövlətləri içərisində özünü layiqincə tanıdan, stabil inkişaf edən respublikamızda milli həyatın bütün sahələri dil, mədəniyyət, milli şüur, o cümlədən də milli iftixar hissi özünün yeni dövrünü yaşayır. Mənəvi həyatda baş verən köklü dəyişikliklər xalqımızın tarixi yaddaşını təmizləmiş bütün tarixi keçmişi, milli-mənəvi sərvətlərin bütöv sistemini yenidən qiymətləndirməyə, tarixin "qaranlıq" səhifələrini yenidən araşdırmağa və özünüdərketmə proseslərini surətləndirməyə imkan verir. Belə bir sosial şərait milli hisslərin coşqun inkişafına təkan vermiş, hər bir azərbaycanlının milli qürurla bağlı fəaliyyət sahələrini canlandırmışdır.

Bütün bunları maneəsiz və asan inkişaf edən bir proses hesab etmək olmaz. Respublikamızda təhsil sisteminin milli zəmin əsasında yenidən qurulmasına, təhsilimizin Avropa standartlarına uyğunlaşdırılmasına baxmayaraq, milli qürur hissinin formalaşdırılması problemi tam və yüksək səviyyədə həll edilə bilməmiş, kiçik məktəb yaşı dövründən başlayaraq uşaqlarda milli qürur hissinin aşılanması işi reallaşdırılmır.

Milli qürur hissinin mahiyyətini düzgün müəyyən etmək üçün onun "Vətən" və doğma ölkə anlayışları ilə qarşılıqlı əlaqəsinə ciddi diqqət yetirmək lazımdır.

"Vətən" anlayışı, hər şeydən əvvəl özündə ictimai, iqtisadi və mənəvi xüsusiyyətləri birləşdirir. Bu xüsusiyyətləri nəzərə alan bir çox tədqiqatçı filosof, sosioloq və psixoloqlar haqlı olaraq, milli qürur hissini vətən, vətənpərvərlik hissi anlayışları ilə sıx əlaqələndirmişlər.

"Vətən, yəni müəyyən siyasi, mədəni və sosial mühit mübarizədə ən qüdrətli bir amildir" (79, 205). Onsuz da müəmmalı ifadə olunan bu fikirdə Vətən

anlayışının məzmunundakı sosial xarakterli amillər milli iftixarın formalaşmasında müxtəlif şəkildə rol oynaya bilər. Belə ki, hər hansı bir şəxsin siyasi, mədəni və sosial mühitə mənfi münasibəti hələ o demək deyildir ki, o, milli iftixar hissindən məhrumdur.

Azad, müstəqil və demokratik respublikamızda milli qürur hissi yeni məzmun və əhəmiyyət kəsb edir. Azərbaycan suveren dövlət, vətən kimi milli qürurun məzmuna daxil olduqda onun inkişafında yeni mərhələlər açılır. Doğma diyar, xalq həyatı ilə bağlı cəhətlərə olan məhəbbət hissi milli azadlıq, müstəqillik hissi ilə üzvü surətdə birləşərək mühüm milli-əxlaqi sərvətlərin daşıyıcısına çevrilir.

Artıq bu mərhələdə bu hiss özünün sosial bazasını genişləndirib bütün Azərbaycan vətəndaşlarının, o cümlədən kiçik yaşlı məktəblilərin milli qüruruna çevrilir.

Son vaxtlar respublikamızda ölkə rəhbərinin apardığı böyük işlərə qısqanc münasibətlərin də şahidi oluruq. Belə ki, ölkəmizin siyasi, iqtisadi, sosial, hərbi və s. sahələrdə qazandığı nailiyyətlərin əhəmiyyətinin aşağı salınmasına cəhd göstərilir. Hər şeyi qara donda təqdim etməyə çalışanlar var. Həm xaricdə, həm də daxildə. Özündə ifrat yanaşma tərzini birləşdirən bu cür mövqelər əslində vətənimizin düşmənlərinin baxışları ilə səsləşir.

Milli qürur hissi birbaşa vicdan, namus, şərəf və ləyaqətlə bağlı olan anlayışdır, milli qüruru şərtləndirən atributlardır. Vicdanlı, şərəf və ləyaqətini qoruyan, uca tutan hər bir insan həm öz şəxsi qürurunu, həm də milli qürurunu qorumağa hazır olur. L. Tolstoy yazırdı ki, mən həyatda yalnız iki şeyi həqiqi fəlakət, bədbəxtlik hesab edirəm: vicdan əzabını və xəstəliyi. Vicdan əzabı itirilmiş ləyaqətdir (72, 20).

L.N. Qasımova yazır: “Namus azərbaycanlılar üçün ən müqəddəs, ən ülvi mənəvi dəyərdir. Onlar harada olurlarsa olsunlar, öz namuslarını mühafizə etmək məqsədi ilə hər şeydən: vardan, dövlətdən, hətta canından keçməyə hazırdırlar” (72, 21).

Milli qürur hissi yüksək idealların, mütərəqqi mənəvi sərvətlərin daşıyıcısı kimi vətəndaşlarımızın mənəvi simasının mühüm meyarına çevrilməlidir. Çünki, Ə.Ə. Ağayevin, Y.R. Talıbovun, İ.N. İsayevin və A.O. Eminovun birgə tərtib etdikləri "Pedaqogika" dərsliyində göstərildiyi kimi, "Məktəblilərlə aparılan sinifdənkənar işlər onlarda mənəvi əqidənin, vətəndaşlıq borcu və dəyanətinin, milli şüur və milli ləyaqətin, Vətən torpağına, xalqına dərin məhəbbətin formalaşmasına kömək edir". Ona görə də, bu hiss bütün vətəndaşlarımızın, o cümlədən kiçik yaşlı məktəblilərin valideynlərinin, digər ailə üzvlərinin də duyğularını, onların doğma vətənlə bağlı arzu və istəklərini ifadə etməlidir.

Qeyd olunmalıdır ki, respublikamızda vətəndaşlar tərbiyəsi zamanı milli qürurun varislik xarakterini nəzərə almaq vacib şərtdir. Xalqımızın tarixi-milli-mənəvi dəyərlərinə inkaredici münasibət göstərmək yox, əksinə milli qüruru bu sərvətlər üzərində qurmaq və inkişaf etdirmək lazımdır. Çünki, Azərbaycan xalqının milli qürur hissi keçmişin ən yaxşı nümunələrini özündə ehtiva edir, tarixin və nəsillərin mənəvi varisliyini qoruyub saxlamağa çalışır. Çünki, suveren Azərbaycan Respublikasında  milli qürur fəaliyyətinə daha geniş kütlələrin cəlb olunması imkanı vardır, milli qürurun inkişafını şərtləndirən amillər daha rəngarəngdir. Bu, ilk növbədə müstəqil dövlətçiliyimizə, iqtisadi və mədəni inkişafdakı nailiyyətlərimizə, təbii sərvətlərimizə, tarixi qəhrəmanlıqlarımıza və bunlarla bağlı olan mənəvi həyat sahələrimizə aiddir. Yəni ölkəmizdə milli qürurun inkişafını şərtləndirən amillər həm özünün əhatəliliyi, həm miqyaslılığı, həm də məzmun dolğunluğu ilə seçilir.

Milli qürur hissi ictimai şüurun bütün formaları da daxil olmaqla cəmiyyətin mənəvi həyat sahəsinə dərin təsir göstərir, bir növ inkişaf gedişində cəmiyyət üzvlərinin əxlaq və davranış normasına çevrilir. Məhz bu səpkidə milli qürur hissi fərdin həm konkret emosional fəaliyyəti, həm də sosial fəallığı kimi cəmiyyətin ictimai-siyasi həyatında böyük rol oynayır.

Milli qürur hissi müəyyən tarixi müqəddərat məsələlərində emosional-tənzimləyici və milli səfərbəredici rola malikdir. Fövqəladə vəziyyətlər milli qürurun məzmununa daha güclü və zəngin çalarlar daxil edə bilir.

Digər tərəfdən, milli həyatın, milli xüsusiyyətlərin insan psixologiyasında, onun əxlaq və davranış normalarında mühüm təzahür forması kimi milli qürur hissi səciyyəvi ümummilli xüsusiyyətlərin formalaşmış yekunu kimi çıxış edir.

Milli qürur hissi, qeyd olunduğu kimi, həm də mənəvi münasibətlər sahəsində çox böyük tarixi hadisə, millətin və xalqın mənəvi simasını müəyyən edən ən mühüm cəhətdir (57, 29). Odur ki, milli qürurun kiçik yaşlı məktəblilərdə formalaşması o deməkdir ki, milli-mənəvi və əxlaq tərbiyəsi sahəsində əsl vətəndaş yetişdirmək üçün çox münbit, əlverişli tərbiyəvi mühit yaranır. Bunlar da çoxmillətli xalqımızın ictimai-siyasi və ideya birliyinin yaranması yolunda çox böyük rol oynayır.

## 1.2. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəb və ailənin birgə fəaliyyətinin pedaqoji və psixoloji əsasları

Milli qürur hissi məfhumu ədəbiyyatda iki mənada - fəlsəfi və pedaqoji mənada şərh edilir. Pedaqoji mənada milli qürur hissi deyəndə hər bir şəxsin həyatda qazandığı milli-mənəvi keyfiyyətlərin məcmusu başa düşülür.

İnsanlarda milli qürur hissinin əlamətləri müxtəlif olur. Birində milli təəssübkeşlik, digərində biganəlik, birində milli-mənəvi dəyərlərimizə məhəbbət və qayğı, digərində dağıtmaq və talamaq, birində torpaqlarımızı qorumaq və bundan qürur duymaq, digərində laqeyd olub ölkənin taleyi ilə maraqlanmamaq və s. müşahidə olunur.

İnsanların milli-mənəvi dünyasını, onun milli qürurunu səciyyələndirən bu kimi keyfiyyətlərin formalaşmasına imkan yaradan amillər hansılardır?

İnsanlarda müxtəlif əxlaqi-estetik keyfiyyətlər kimi milli qürur hissinin formalaşmasına təsir göstərən səbəblər barədəki fikirlər də müxtəlifdir. Qədim Yunanıstanda Platon öz nəzəriyyəsində (sonradan bu ideyanı onun tələbəsi Aristotel də müdafiə və inkişaf etdirmişdir) əsaslandırır ki, şəxsiyyət, əzəmət, vüqar (qürur – T.N.) gendən gəlir. Qullar sahiblərin canlı əşyalarıdır, onların vəzifəsi yalnız itaət etməkdir.

Nəzəriyyədən aydın olur ki, qürur hissi, iftixar hissi, məğrurluq hissi anadangəlmə qul sahiblərinə verilir, qullara yox.

Təəssüf ki, belə yalnış fikirlərə bu gün də təsadüf olunur. F.T. Quliyev “Milli qürur milli ideologiyanın təkanverici qüvvəsidir” adlı kitabında yazır: “Milli qürurun əsasən genlə (irsən) ötürülməsinə baxmayaraq, onun formalaşmasında ananın rolunun əhəmiyyəti müqayisə olunmazdır. Ümumiyyətlə, ana tərbiyəsi, ana laylasından alınmış ilk həzin, ürəyə yatan nəğmələrdəki sözlər, ananın övladının milli şüuruna təsir edəcək hər bir söz uşaq zehninə elə həkk olunur ki, onun silinməsi heç bir halda mümkün olmur”(73, 3). Göründüyü kimi, bu fikirdə əsasən irsiyyətə üstünlük verilir, ailə tərbiyəsinin rolu da inkar edilmir.

Milli qüruru şərtləndirən keyfiyyətləri bioloji əsaslarla izah edən alimlərdən biri də rus psixoloqu D.İ. Dubrovskidir. O, özünün məşhur “Beyin və psixika”

əsərində göstərir ki, beynin genetik xüsusiyyətləri hər bir fərdin beyninin milli xüsusiyyətlərinin məcmusunu müəyyən edir və bu xüsusiyyətlər toplusu fərdin psixoloji fərqlərinə səbəb olur. Yaxud akademik N.O. Bexterevanın fikrincə, uşaqların bir qismində körpəlik dövründən təəssübkeşlik, digərində biganəlik kimi anadangəlmə keyfiyyətlərin əlamətləri müşahidə olunur.

Göründüyü kimi, milli qürur hissinin yaranma əlamətlərini, o cümlədən psixoloji xüsusiyyətlərini bioloji amillərlə izah edən alimlər insanın ətraf mühitlə əlaqə formalarını və məzmununa əhəmiyyət vermir, tərbiyənin, o cümlədən ailə və məktəb tərbiyəsinin rolunu, mühitin danılmaz təsirini nəzərə almırlar. Milli-mənəvi keyfiyyətlərin, o cümlədən milli qürur hissinin formalaşmasının bioloji amillərlə izahına atalar sözlərində və zərb-məsələlərdə də rast gəlinir: "Ana çıxan ağacı qızı budaq-budaq gəzər", "Namərd gəlib mərd olmaz, mərd olmasa atası", "Ot kökü üstündə bitər" və s.

Respublikamızın qərb regionunda tədqiqat mövzusu ilə bağlı müxtəlif ailələrlə aparılan söhbətlərdən, müəllimlərlə keçirilən müsahibələrdən aydın oldu ki, bəzi natamam, uğursuz ailələrdə uşağın tərbiyəsində problemlərlə rastlaşan ailə üzvləri, valideynlər və hətta müəllimlər belə həmin atalar sözlərinə və zərb məsələlərinə tez-tez müraciət edir, valideynlərdən biri digər valideyni nəzərdə tutaraq "Qozbeli qəbir düzəldər", "Qurda nə qədər yaxşılıq etsən, yenə də meşəyə baxar", "İlanın balası da ilan olar" deyir.

Belə ailələrdə valideynlər uşaqların tərbiyəsində aciz qalır, ailənin tərbiyəvi imkanlarından istifadə edə bilmir, məktəbin, pedaqoji prosesin, pedaqoji mühitin rolunu görə bilmirlər. Əslində belə valideynlər uşaqlarında bu və ya digər, o cümlədən də milli qürur hissinin formalaşdırılması məsələsini irsi köklə, genlə izah etməyə, irsiyyət nəzəriyyəsi əsasında həll etməyə çalışırlar.

Böyük Azərbaycan alimi Nəsrəddin Tusi yazmışdır ki, insan xarakteri anadangəlmə deyil, belə olsaydı ağıllı adamlar öz uşaqlarının tərbiyəsi ilə məşğul olmazdılar.

Bu təhlildən belə bir nəticə çıxarsaq ki, uşaqlarda milli qürur hissinin formalaşdırılması zamanı irsiyyətin rolu yoxdur, onda da səhv etmiş olarıq. Bütün

mənəvi-əxlaqi keyfiyyətlərin, o cümlədən milli qürur hissinin formalaşdırılmasında irsiyyət müəyyən qədər təsir gücünə malikdir.

Ümumiyyətlə, uşaq orqanizmində gedən irsi-fizioloji prosesləri valideyn və müəllimlər nə qədər dərin bilsələr, uşaq qüruruna onların təsir gücünü nə qədər dəqiq müəyyənləşdirsələr, uşaqlarda milli qürur hissinin formalaşdırılmasına sosioloji ailə və məktəb mühitinin tərbiyəvi təsirləri bir o qədər artıq olar.

Müəllim, valideyn və digər tərbiyəçilər də uşaqlarda formalaşdırmaq hər hansı bir milli qürur hissi atributlarının hansı fizioloji zəmində, hansı irsi əlamətlər üzərində qurulacağını bilməlidir. Bu bütün tərbiyə işində müvəffəqiyyət qazanmağın ən mühüm şərtlərindən biridir.

Uşağın malik olduğu irsi və anadangəlmə əlamətlər onlara milli qürur hisslərinin aşılanmasında da müəyyən zəmin, imkan rolunu oynayır. Məktəbin ailə ilə birlikdə apardığı tərbiyə işində də bu imkan nəzərə alınmalıdır.

Pedaqoji nəzəriyyədən məlumdur ki, tarixən tərbiyədə mühitin rolunu həddindən artıq şişirdən və irsiyyətin rolunu qəbul etməyən alimlər olmuşdur (Con Lokk, Siracəddin Urməvi, Jan Jak Russo və b.). Məsələn, Siracəddin Urməvi isbat edirdi ki, insan xasiyyəti fitri deyil, həyatda formalaşır. Onun fikrincə, uşağın saya (ağ) beynində xeyir və ya şər, yaxşı və ya pis sonralar iz qoyur.

İnsan xarakterinin formalaşmasında mühitin rolunu mütləqləşdirmək hallarına müasir dövrdə də təsadüf edilir. Həmin nəzəriyyə üçün əsas fikir mühitin dəyişməz olduğunu qəbul etməkdir. Bu nəzəriyyənin tərəfdarları mühit məfhumuna əsasən ictimai-iqtisadi quruluşu deyil, yalnız ailə mühitini daxil edirlər və buna görə də adamlarda şəxsiyyətin xüsusiyyətlərinin səbəblərini müxtəlif səviyyəli alimlərin mühitində axtarmağı məsləhət görürlər. İctimai-iqtisadi və ailə mühitini dəyişdirməyin mümkünlüyü və hətta zəruriliyi həmin nəzəriyyədən kənarda qalır. (58, 63-64).

Milli qürur hissinin formalaşdırılmasında ailə və məktəb mühitinin əvəzolunmaz rolunu babalarımızın ifadə etdikləri atalar sözləri və zərb məsələlərdə də görmək olur: “Atı atın yanına bağlayanda həmrəng olmasa da, həmxasiyyət olar”, “Yaxşı yoldaş adamı bay edər, pis yoldaş zay”.

Məktəblilərdə və ailələrdə apardığımız müntəzəm müşahidələrdən və müsahibə materiallarından aydın olur ki, ailələrin böyük bir qismində uşaqların milli qürur hissinin formalaşdırılması üzrə konkret işlər aparılmır, bəzi ailələrdə isə şəxsi qürur hissi, "mənəm"lik iddiası üstünlük təşkil edir. Bu hal, yəni uşaqlarda milli qürur hissinin formalaşdırılması sahəsində məktəblərdə görülən tədbirlər də lazımı səviyyədə deyildir. Müəyyənləşdirdik ki, bu halda kiçik məktəb yaşlı uşağa ailənin neqativ təsir dairəsi nə qədər geniş, məktəbin isə tərbiyəvi təsir dairəsi nə qədər məhduddursa, tərbiyəçi müəllimin işi bir o qədər çətinləşir. Yaxud əksinə, ibtidai sinif şagirdinə məktəbin, müəllimin təsir dairəsi nə qədər genişdirsə, neqativ ailənin təsir dairəsi nə qədər məhdudlaşarsa, müəllimin işi bir o qədər səmərəli nəticə verər.

Deməli, ailə və məktəb mühitinin imkanlarından kiçik yaşlı məktəblilərin milli qürur hissi tərbiyəsinin təşkilində geniş və əlaqəli istifadə edilərsə, milli qürur hissi tərbiyəsi bir o qədər kütləvi xarakter alar; milli qürur hissinin formalaşdırılmasına həsr olunan tərbiyəvi tədbirlərin təşkili zamanı həmin tədbirin müvəffəqiyyətlə keçməsini şərtləndirən zəruri şərait, milli qürur hissinin atributlarını reallaşdıran mühit yaradılmalıdır.

Milli qürur hissinin məktəblilərdə formalaşdırılmasının yüksək elmi səriştəliliklə araşdırılması, ona təsir edən amillərin dəqiq təyinatının verilməsi, bu hissin milli müstəqillik qazandıqdan sonrakı inkişafımızdakı yerinin və rolunun dəqiq müəyyənləşdirilməsi milli tərbiyə konsepsiyasının mühüm şərtlərindəndir. Ona görə də respublikamızın milli mənafeyinə, insanların milli hisslərinə, xalqımızın milli-mənəvi dəyərlərinə aid nə varsa, hamısına xüsusi həssaslıq və ehtiyatla yanaşmaq, eyni zamanda milli məhdudluq və təkəbbürlük, millətçilik və şovinizm təzahürlərinə qarşı prinsipial mövqe nümayiş etdirmək lazımdır.

Milli qürur hissi Azərbaycan millət və xalqına mənsub olan milli qürurun ən yaxşı ənənələrinin davamı və onun yüksək formada inkişafı olduğundan bunların hər ikisinin kiçik yaşlı məktəblilərdə formalaşdırılması üçün səciyyəvi olan bəzi psixoloji cəhətlər üzərində dayanaq.

Milli qürur hissi xalqımızın milli mənəvi inkişaf tarixini, onun çoxçalarlı cəhətlərini özündə əks etdirdiyindən elmi və mədəni inkişafımızın bütün sahələri və spesifikası ilə sıx əlaqədardır. Bu hiss insanlığın mənəvi dünyası ilə, onun gündəlik psixi fəaliyyəti ilə bağlı olduğu üçün kiçik yaşlı məktəblilərdə müxtəlif əhval-ruhiyyələri, emosional hissi fəaliyyət növlərini, habelə irsi xarakterli ünsürləri birləşdirir. Burada bir cəhəti də qeyd etməliyik ki, bu hiss sırf psixi fəaliyyət növü olsa da, pedaqoji prosesdə tədricən milli mənəvi dəyərlərimiz bu hissin məzmununda mühüm yeri tutur və onun inkişaf edərək daha tutumlu, daha məzmunlu bir hissə çevrilməsini hazırlayır. Müasir Azərbaycan vətənpərvərlərinin vətəninə emosional münasibətin ifadəsi olan ümummilli qürur hissinin məzmununda milli-mənəvi dəyərlərin üstün yer tutması o deməkdir ki, bu hiss tarixi inkişafın bir çox cəhətlərinin təsirinə məruz qalır, ideoloji və sosial amillər onun inkişafında mühüm rol oynayır.

Gəldiyimiz qənaətə görə milli qürur hissinin formalaşdırılmasına onun psixoloji tərəflərinin aydınlaşdırılmasından başlamaq daha düzgün olardı. Çünki bu hiss sırf psixoloji fəaliyyət növü tək yaranır və ona irsi keyfiyyətlərin, sosial amillərin, tərbiyənin təsir göstərməsi yalnız pedaqoji prosesin müəyyən pilləsində daha da aktiv olur.

Deməli, bu hissi şagirdlərin elmi dünyagörüşü ilə, çoxşaxəli mürəkkəb psixi aləmi ilə bağlı tədqiq etmək daha düzgün olar. Öz növbəsində bir faktı da unutmaq olmaz ki, kiçik yaşlı məktəblilərdə psixoloji amillər yalnız ideoloji cəhətdən düzgün istiqamətləndikdən sonra düzgün tərbiyəvi mahiyyət kəsb edərək milli şüurun məzmununa daxil ola bilər.

Burada bir cəhəti də qeyd edək ki, ibtidai sinif şagirdlərinin mənəvi siması, bir tərəfdən, tərbiyə ilə mühitin və irsi keyfiyyətlərin, digər tərəfdən, milli ideologiya ilə milli psixologiyanın qarşılıqlı əlaqəsi kimi öyrənilməlidir. Mənəvi sima isə bütövlükdə millətin ictimai-iqtisadi, təbii-coğrafi, habelə maddi həyat şəraitinin inikası kimi çoxcəhətli prosesləri ifadə edir.

Keçdiyi tarixi inkişaf yolundan, milli xarakterindən, adət və ənənələrindən asılı olaraq azəri-türk millətinin mənəvi siması özündə emosional və intellektual

cəhətləri birləşdirir. Ona görə də məktəblilərdə emosionallıq əsasən psixoloji, intellektuallıq isə təhsil və tərbiyəvi amillər şəklində ifadə olunur. Həm də məktəblilərin mənəvi simasının bu iki tərəfi sıx dialektik vəhdət təşkil edir. Bu tərəflərdən hər biri milli həyatımızın ayrı-ayrı xüsusiyyətlərini, şəxsiyyətin inkişafını və formalaşmasını özünəməxsus formada ifadə edir və onu istiqamətləndirir.

Məktəblilərin milli yetkinlik halına gətirilməsi istiqamətindəki işlər, milli vəzifələrin körpəlikdən dərk edilməsi, uşaqların milli-mənəvi tərbiyəsinə millətin və xalqın ən tanınmış nümayəndələrinin, ailə başçılarının və digərlərinin cəlb edilməsi bu iki amilin təsir gücündən və onların qarşılıqlı əlaqəsindən xeyli dərəcədə asılıdır.

Məlumdur ki, milli psixologiya millətə aid ümumi cəhətlərin, milli özünəməxsusluğun psixoloji tərzdə ifadəsi, millətin ayrı-ayrı üzvlərinin vərdiş və davranışlarının ümumiləşmiş ifadəsi kimi milli iftixarın inkişafı ilə sıx bağlıdır (57, 33). Deməli, milli psixologiya milli həyatı milli hiss, əhvali-ruhiyyə, xarakter, davranış və vərdişlər şəklində, milli pedaqoji tərbiyə isə baxışlar, dünyagörüşlər, ideyalar, nəzəriyyələr və s. formalarda ifadə edir. Milli psixologiya millətin gündəlik həyat şəraitini, adi həyat səviyyəsini əks etdirdiyi halda, milli tərbiyə nəzəriyyəsi konsepsiyası onun varlığına aid ən başlıca, ən əsas ümumpedaqoji cəhətləri sistemli və məqsədyönlü ifadə edir.

Bu mürəkkəb kompleks tərbiyə sistemində məktəblilərin milli dünya-görüşünün, mənəvi simasının tərbiyəvi tərəfi psixoloji tərəfinə daim təsir göstərir, onu vətənpərvərlik və azərbaycançılıq ideologiyası cəhətdən istiqamətləndirir. Çünki ideoloji amillərin təsiri altında məktəblilərin psixologiyası kortəbii inkişaf meylindən, hər cür adilikdən uzaqlaşaraq aydın və yığcam istiqamət alır. Xüsusən bu hal müasir şəraitdə özünü daha qabarıq şəkildə onda büruzə verir ki, o, yaradıcısı Ümummilli liderimiz Heydər Əliyev olan azərbaycançılıq ideologiyasının təsirinə məruz qalır, yeni, müstəqil, güclü Azərbaycanın milli-ideoloji-siyasi təsisatları ilə sıx əlaqədə inkişaf edir. Deməli, kiçik yaşlı

məktəblilərin milli qürur hissinin izahında həm də milli ideologiyanın xarakterinin nəzərə alınması ciddi əhəmiyyətə malikdir.

Müasir Azərbaycan məktəblərində azərbaycançılıq ideologiyası əsasında hazırlanmış milli tərbiyə nəzəriyyəsi ilə milli psixologiyanın ünsürləri bir-birini üzvi surətdə tamamlayır.

Milli tərbiyə nəzəriyyəsi (konsepsiyası) ilə milli psixologiyanın dialektikası özünü pedaqoji prosesin bütün sahələrində, o cümlədən ibtidai sinif şagirdlərinin milli qürur hissi tərbiyəsi zamanı büruzə verir. Bu həm də Azərbaycana əsl vətəndaş, qeyrətli, namuslu, şərəfli, vətənpərvər insan yetişdirilməsində böyük rol oynayır.

Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasının psixoloji köklərinin müəyyənləşdirilməsi şagirdlərin mənəvi simalarında milli özünəməxsus cəhətləri daha düzgün başa düşməyə şərait yaradır. Milli qürurluluq məktəblilərin psixologiyasına düzgün istiqamət və həyati məzmun verirsə, milli psixologiya da öz növbəsində milli qürur hissinin məzmununa millətə xas olan müəyyən xüsusiyyətlər əlavə edə bilir.

Milli psixologiya ilə milli iftixar hissini ideoloji baxımdan qarşılıqlı əlaqədə araşdıran Q.İ. Hüseynov yazır: “Milli psixologiya ilə milli ideologiyanın vəhdəti milli həyatın bütün sahələri kimi, milli hisslərə də təsir göstərir, milli psixologiya və ideologiyanın ayrı-ayrı cəhətləri toplanaraq onun məzmununa daxil olur. Həm də qeyd etməliyik ki, psixologiya mütəhərrikdir, daha tez dəyişəndir və ideologiyanın təsiri altında müxtəlif formalara düşə bilir.

Sosializm cəmiyyəti milli psixologiyanın, millətin psixi həyat tərzinin beynəlmiləl platforma üzərində tənzimlənməsində və bu mənada milli iftixarın məzmununa daha yüksək bəşəri motivlərin daxil edilməsində çox böyük rol oynayır. Belə ki, milli psixologiyalardan hər biri bütün millət və xalqlara xas olan ümumi əlamətlərin müəyyən cəhətləri əxz edir, millətlərdən hər birinin əhvali-ruhiyyəsi onların hamısı üçün səciyyəvi olan ictimai əhvali-ruhiyyə ilə zənginləşir”.

Milli iftixar hissinə fərdin spesifik həyat şəraiti ilə bağlı müxtəlif əhvalı-ruhiyyələr, emosiya və ovqatlar daxil olduğundan o, ictimai şüurun ictimai məzmununda ideologiyaya nisbətən bazisə daha yaxındır. Odur ki, bu hiss mənəvi hadisə olmaqla, onda maddi istehsal münasibətlərinin ən mühüm cəhətləri, cəmiyyət hadisələrinin maddi münasibətlərlə bağlı səciyyəvi əlamətləri küll halında təzahürünü tapır (57, 34-35).

Müəllifin birinci abzasdakı fikri ilə müəyyən qədər razılaşmaq mümkündürsə, lakin ikinci və üçüncü abzasdakı fikir tamamilə qəbul olunmazdır. Uzun müddət belə bir cəfəngiyyat marksizm-leninizm nəzəriyyəsi ilə təhsilimiz qurulmuş, bunu da Q.İ. Hüseynov öz əsərində müdafiə edir. Şübhəsiz ki, belə də olmalı idi. Bu həmin dövrün tələbi idi. Müəllifin şərhi yalnız tarixə qovuşmalıdır, hazırda onlar nə cəmiyyətimizə, nə məktəblərimizə, nə də ki, ailələrə gətirilə bilməz.

Yuxarıda deyilənlərdən aydın olur ki, milli qürur hissi azəri-türk millətinə aid olan milli mənəvi və əxlaqi dəyərləri sistemli və əlaqəli şəkildə əks etdirdiyindən milli psixologiya ilə sıx bağlıdır. Bu mənada kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşmasının psixoloji dayaqlarından biri kimi milli hissin özünün əsas cəhətləri üzərində dayanırıq.

Milli hiss və onunla sıx bağlı olan milli qürur hissi ibtidai sinif şagirdlərinin həm məktəbdə təlim-tərbiyə, həm də məktəbdənkənar tərbiyə prosesindəki psixi-hissi fəaliyyətinin bütün sahələrini əhatə edir. Bu baxımdan milli qürur hissi məktəblinin gündəlik həyat tərzi, yaşayış şəraiti ilə bağlı, eyni zamanda onun milli nailiyyətləri, milli-səciyyəvi motivli amillərin hamısını özündə cəmləşdirir.

Psixologiya üzrə araşdırmalardan (44) məlumdur ki, məktəblinin psixi-hissi fəaliyyəti çoxsahəli və ziddiyyətlidir. Məktəblinin gündəlik məişət, məktəb və məktəbdənkənar həyatı sosial-hissi və konkret-psixi prosesləri əhatə edən mürəkkəb fəaliyyət növlərini özündə birləşdirir. Bu psixi-hissi proseslər ailə hadisələrindən tutmuş məktəblilərin bir-birinə, habelə onun öz şəxsi “mən”inədək olan münasibətləri əhatə edir. (44, 68) Məhz bu çoxtərəfli münasibətlər prosesində kiçik yaşlı məktəblilərin konkret hissi fəaliyyəti və onun konkret forması kimi milli

qürur hissi formalaşıb inkişaf edir. Bu hal həm də vətəndaş tərbiyəsi işinin bir tərəfi olduğundan respublikamızın iqtisadi, ictimai, siyasi, hərbi, mədəni və s. inkişaf səviyyəsi ilə sıx bağlı olur.

Problemin psixoloji əsaslarının təhlili zamanı belə bir fikrə də rast gəlirik: “İnsanın mürəkkəb psixi fəaliyyətinin bir növü olan mili iftixar hissi konkret hissi fəaliyyətin digər növlərindən onunla fərqlənir ki, o, fərdin emosional aləminin bir çox başqa formaları kimi keçici olmayıb, sabit və sistemli xarakter daşıyır, ictimai-milli praktikanın zəngin və çoxtərəfli cəhətlərini özündə dinamik surətdə əks etdirir” (57, 35).

Kiçik yaşlı məktəblilərin milli qürur hissi müxtəlif amillərin təsiri ilə ya adi emosiya, yaxud da güclü hiss şəklində təzahür edə bilir. Bu həm məktəbli şəxsiyyətindən, konkret fərd kimi səviyyəsindən, həm də bu hissi fəaliyyətə gətirən, onu tənzimləyən amillərdən xeyli dərəcədə asılıdır. Burada həm azəri-türk millətinin və Azərbaycan xalqının sosial yaddaşı, məktəblinin elmi dünyagörüşünün səviyyəsi, həm milli qürur hissinin formalaşdırılmasının inkişaf trayektoriyası, həm də konkret həyat şəraiti güclü rol oynayır.

Məsələn, Azərbaycan xalqının sosial yaddaşında elə ümummilli əhəmiyyətli hadisələr həkk olur ki, bunlar milli idrakın süzgəcindən keçərək milli qürurluluq obyektinə çevrilir, ayrı-ayrı vətəndaşlarımızda dərin milli qürur hissi tərbiyə edib formalaşdırır. Bu mənada tarixi hadisələr, ayrı-ayrı görkəmli simalar – ictimai-siyasi xadimlər, milli qəhrəmanlar, yaradıcı dühalar xüsusi əhəmiyyət kəsb edir. Bu cür adamları, onların xalq yolunda etdiyi əməllər nəsillərin yaddaşında hifz olunur, milli qürur hissini qidalandıran milli-mənəvi ideala çevrilir.

Milli mənəvi ideallar azəri-türklərinə xas olan milli mənəvi dəyərlərlə birbaşa bağlıdır. Onlar özlərinin yüksək ülviyyəti ilə xalqımızın bütün üzvlərini qırılmaz əxlaq və mənəviyyat telləri ilə birləşdirir, ümummilli ləyaqət və iftixar hissi tərbiyə edir. Bu prosesin yüksək emosional təsirliliyi bir də onda görünür ki, kiçik yaşlı məktəblilərin bir qrupu adi şüur, cılız ovqatlar, bəsit hisslər səviyyəsini aşaraq daha yüksək milli mənəvi duyğuların, amalların qayğıları ilə yaşamağa başlayırlar. Məhz milli qürurun ovsunlayıcı, səfərbəredici cazibə qüvvəsi ilə

məktəbli şəxsiyyətinin formalaşması, onun cəmiyyətimizin, təhsilimizin fəaliyyət orbitinə cəlb edilməsi işi daha da intensivləşir. Millətçilik ideyalarından uzaq olan Azərbaycan milli iftixarının təsiri altında məktəbli mənəviyyatı və əxlaqı daha da ülviləşir, onun milli duyumu daha da qüvvətlənir, məktəb-müəllim və ailə-valideyn qarşısındakı məsuliyyətini daha aydın təsəvvür edir.

Milli həyatın cərəyan etdiyi tarixi şərait, millətlərin yaşayış və həyat tərzi dəyişdikdə, bu mənada milli qürur hissinin məzmununda da dəyişkənlik baş verir. Yəni, "ayrı-ayrı tarixi mərhələlərin bir-birini əvəz etməsi, habelə istehsal üsulunun dəyişməsi ictimai şüurun bütün formaları kimi milli qürur hissinə də təsir edir".

Məktəblilərdə milli qürur hissinin formalaşdırılmasının özünəməxsus fizioloji mexanizmi də vardır. Belə ki, milli qürur hissinin fizioloji təbiəti ilə bağlı qeyd etməliyik ki, o, insanda yaranan instinktlər kimi fəaliyyət göstərsə də, bununla belə onu bioloji amillərin təsiri altında meydana gələn təbii instinktlərlə heç vəchlə qarışdırmaq olmaz. Çünki milli "instinkt" və yaxud da milli iftixar hissi ictimai proseslərlə, milli keçərlilik, milli həyat şəraiti və millətin mənəvi varlığı ilə sıx əlaqədar olub ictimai-siyasi və milli münasibətlərin bütün rəngarəngliyini özündə cəmləşdirir. Odur ki, fərdin mənəvi aləmində aparıcı rol oynayan, nisbətən sabit xarakter daşıyan ictimai motivli əhvali-ruhiyyələr milli hissin bütün formalarına, o cümlədən milli iftixar hissinə çox böyük təsir göstərir (57, 37).

Bir çox tədqiqatçılar (117) milli qürur hissini təbiət etibarilə, anadangəlmə instinkt sayır və belə hesab edirlər ki, bu hər bir adama sosial gerçəkliyin reflektiv təsiri altında baş verən fizioloji hadisədir. Əlbəttə, psixoloji planda bu hiss insanın daxili ovqatı, onun psixi keyfiyyətləri ilə şərtlənir. Bu mənada xeyli dərəcədə tipik və özünəməxsus xarakter daşıyır. Lakin fərdin yetkinliyinin, onun sosial münasibətlərlə təmas səviyyəsinin və deməli, sosial maarifliyin bu məsələdə həlledici əhəmiyyətə malik olduğu xüsusilə qeyd edilməlidir. Milli iftixar tərbiyəsi vəzifələrin az və ya çox dərəcədə başa düşən və yaxud da bu hissdən tamamilə məhrum olan adamların mövcud olması təsdiq edir ki, məsələ heç də canla, qanla, ana südü ilə keçən təbii keyfiyyətlərlə bitmir. Məsələ mühit və onunla bağlı sosial xarakterli amillərlə xeyli dərəcədə bağlıdır. Etnik irsiyyəti, soy, kök yaddaşı öz

rolunu oynasa da, tənzimləyici və aparıcı rol müasir Azərbaycan cəmiyyəti, onun təhsili və ondan doğan digər amillərə aiddir.

Onu da qeyd edək ki, uşağın ailəsindəki sosial durum, onun psixi həyat tərzi, psixi fəaliyyət formaları hələ büsbütün milli psixologiyanı və deməli, milli qüruru təşkil edə bilməz. Millətin adı ilə bağlı olan qürur, iftixar hissinə fərdi psixi-emosional fəaliyyətinin ayrı-ayrı cəhətləri, həm də amillər daxil ola bilər. Məhz ayrı-ayrı fərdi cizgilərdən milli qürur ailədən və ətraf mühitdən milli mənəvi dəyərlər, respublikamızın müasir inkişafına xidmət edən hissi yaranıb formalaşır. Öz növbəsində də bu hiss məktəblinin fərdi keyfiyyətlərinə güclü emosional təsir göstərir. Tədqiqatdan görünür ki, bu emosional təsir milli qürur hissi tərbiyəsində bir növ güclü detonotor rolunu oynayır.

Deməli, kiçik yaşlı məktəblilərin mürəkkəb psixi aləmində müxtəlif hisslər, əhvali-ruhiyyələr üstünlük təşkil edə bilər. Lakin məktəblidə onun formalaşması, incə tərbiyəvi xarakter daşıması etibarilə milli qürur hissi fərqlənir. Müşahidə və araşdırmalarımızdan görünür ki, müasir həyatımızın bütün sahələrində olduğu kimi, milli qürur hissinin məzmununda da milli şüurun ayrı-ayrı formaları kök salır və eyni zamanda milli şüurun özünün inkişafında milli qürur hissi fəal formada iştirak edir. Bu qarşılıqlı əlaqəli təsirin özü də ziddiyyətli səciyyə daşıyır. Bu cəhət milli qürur hissinin təzadlı inkişaf meylində öz əksini tapır.

Belə ki, bəzi tədqiqatlarda milli iftixar hissi milli inkişafla sıx bağlı olduğundan onun müsbət cəhətləri ilə yanaşı bir sıra ziddiyyətlərini də əks etdirir. Burada milli həyatın rəngarəng çalarları - həm millətin strukturu, həm ictimai quruluş, həm onun cinsi əlamətləri və yaş xüsusiyyətləri öz rolunu oynayır. Məhz bu təbii və obyektiv rəngarənglik mahiyyətcə fərqli milli qürur hisslərinin daşıyıcısı ola bilər.

Milli qürur hissi məktəbli şüurunun tərkib hissəsi kimi vətəndaşların milli-mənəvi tərbiyəsində qüdrətli tərbiyə mənbəyinə çevrilir, ləyaqətli, təəssübkeş, məğrur Azərbaycan vətəndaşlarının hazırlanmasında böyük rol oynayır.

Milli qürur hissi məktəblinin mürəkkəb psixi aləmində baş vermiş dəyişikliklərlə qırılmaz surətdə əlaqədar olsa da, onun şüuru kimi nisbi

müstəqilliyə malik deyildir. Bu hissin bir tərəfi məktəblinin yaşadığı, fəaliyyət göstərdiyi ailə mühiti, ailə tərbiyəsi ilə bağlı olub, onun ayrı-ayrı cəhətlərinin təsirinə məruz qalır. Məktəblinin ailə şəraiti və tərzi onun mənəvi keyfiyyətləri, habelə onu əhatə edən mühit bu hissin inkişafına xeyli dərəcədə təsir göstərir. Lakin milli qürur  hissi daha çox millətin həyat şəraiti, düşüncə tərzi, tarixən formalaşmış adət-ənənələri və əxlaq normaları ilə qırılmaz surətdə bağlıdır.

Bu hissin məktəblilərdə formalaşdırılmasının mühüm əhəmiyyəti bir də ondadır ki, gələcək Azərbaycan vətəndaşlarının elmi dünyagörüşünə, milli simasına, milli xarakterinə, habelə milli psixologiya və milli şüuruna milli qürur hissinin də bir çox cəhətləri daxil olur. Bu mənada tarixən eyni mənşədən, eyni etnik qrupdan olan, müəyyən ərazi hüdudları daxilində yaşayan, ümumi dil, adət-ənənə qohumluğuna malik olan insanların özlərinin keçmişinə, düşüncə və həyat tərzinə hörmət və ehtiram kimi formalaşan milli qürur hissi millətin mənəvi simasının əsas cəhətini ifadə edir.

Azərbaycan Respublikası ikinci dəfə milli müstəqilliyinə nail olduqdan sonra məktəblilərin milli qürur hissi tamamilə yeni mahiyyət kəsb edir. Yeni dünyagörüşün, yeni milli psixologiyanın və azərbaycançılıq ideologiyasının, yeni həyat tərzinin daşıyıcısı kimi milli qürur hissi daha zəngin və geniş məzmuna malik olur, azəri-türk millətinin mənəvi simasını bütün qabarıqlığı ilə özündə əks etdirir. Həm də milli qürurun bu növü hər cür nihilizmdən uzaq olmaqla xalqımızın həyatının keçmiş səhifələrinin bütün nümunələrini özündə toplayır və müasir şəraitə uyğun olaraq öz məzmununda əks etdirir.  Bu cəhət özünü xüsusilə o zaman daha aydın büruzə verir ki, o müstəqil milli psixoloji və ideoloji istiqamət alır. Bu mərhələdə milli qürur hissi özünün məhdud xüsusiyyətlərindən azad olaraq respublikamızın bütün sahələrdəki uğurlu tərəqqisinin başlıca cəhətlərini özündə birləşdirir.

Bu işlərin nəticəsində, gələcəkdə milli qürur hissi özünün dar fəaliyyət sahəsindən çıxaraq vətəndaşlarımızın maddi-hissi fəaliyyətinin əsas obyektinə, onların ideya-siyasi baxışlarını əlaqələndirməyin mühüm vasitəsinə çevrilir.

Başqa bir xüsusiyyət ondan ibarət olur ki, artıq milli qürurun məzmununda psixoloji amillər və azərbaycançılıq məfkurəsi sıx birləşir. Əgər bu vaxta qədər Azərbaycan xalqının milli qüruru daha çox əxlaq, vətənpərvərlik sahəsini, daha az siyasət sahəsini əhatə edirdisə, artıq indi o, aydın siyasi istiqamət almalıdır. Milli şüurca yetkinləşən hər bir azərbaycanlı ölkənin, müharibə şəraitində yaşayan respublikamızın xarici düşmənlərlə mübarizəsində aparıcı qüvvəyə malik olmalıdır.

Deməli, gənclərimizin milli qürur hissi yalnız işğalçı düşmənimiz və onun havadarlarına qarşı mübarizə motivlərilə birləşdikdə tam milli mahiyyət kəsb edir.

## 1.3. Problemin mövcud elmi-pedaqoji ədəbiyyatda qoyuluşu

Mövcud elmi-pedaqoji ədəbiyyatın zamanı məlum oldu ki, kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması problemi ilə bilavasitə və bilvasitə əlaqədar olan tədqiqatlar aparılmışdır. Bu baxımdan ən önəmli əsərlərdən biri A.N. Abbasovun təkrar nəşr olunmuş, "Milli əxlaq və ailə etikası (Bakı, 2016)" adlı dərsliyidir. Dərslik respublikamızda universitetlərin magistratura səviyyəsi üçün yazılmışdır. Dərslikdə milli əxlaq və ailə etikasının ümumi məsələləri, əxlaqın əsas kateqoriyaları, ailə etikasının mahiyyəti və məzmunu, ailə və uşaq problemləri və onların həlli imkanları müstəqilliyimiz və milli dövlətçiliyimiz baxımından çox uğurlu şərh edilməklə bərabər vətən sevgisi, vətənpərvərlik, milli iftixar və qürur hissi tərbiyəsi məsələlərinə də yer ayrılır. O, yazır: "Vətən sevgisi milli-mənəvi dəyərlərimizdəndir ki, onun əsasında da vətənpərvərlik hissi pərvəriş tapır. Vətənpərvərlik hissi hər bir şəxsə xas olmalıdır. Bu hiss lap körpə yaşlarından uşaqlara təlqin edilməlidir. Həm də Vətəni sözdə sevmək azdır, özünün hərəkəti, təəssübkeşliyi, dövlət rəmzlərimizi, torpağımızı, maddi və mənəvi sərvətlərimizi, xalqımızı, dövlət başçılarımızı, tarix və mədəniyyət abidələrimizi sevmək, onlara görə *iftixar və qürur* hissi keçirmək, ölkəmizin tərəqqisi, çiçəklənməsi və möhkəmlənməsi, Azərbaycanı dünyada tanıtmaq və şərəflə, ləyaqətlə təmsil etmək, vətənimizi hər cür təcavüzdən qorumaq lazımdır" (3, 11). Əsərdə müəllifin milli əxlaq və milli tərbiyə ilə bağlı verdiyi digər elmi ideyalar da dissertasiya işinin uğurla aparılmasında mühüm rol oynamışdır.

Dissertasiyamızın mövzusu ilə birbaşa bağlı olan tədqiqat işlərindən biri də S.D. Doğanın "Ədalətli dövlət başçıları keyfiyyətləri nümunəsində şagirdlərdə milli iftixar hissinin formalaşdırılması (ədəbiyyat və tarix materialları əsasında)" mövzusundakı pedaqogika üzrə fəlsəfə doktorluğu dissertasiyasıdır (101). Dissertasiya işi birbaşa tədqiqat mövzumuzla əlaqədardır. Ona görə də, onun təhlili üzərində nisbətən çox dayanmağı məqsədəmüvafiq bildik.

Dissertasiyada Azərbaycan və Türkiyə Respublikalarındakı ümumtəhsil məktəblərinin iş təcrübəsi əsas götürülmüş, müxtəlif mənbələrə müraciət edilmiş,

dövlət başçıları üçün vacib sayılan zəruri keyfiyyətlərə aydınlıq gətirilmişdir. Əsərdə həm Azərbaycan və həm də Türkiyə yazıçı və şairlərinin yaradıcılıqlarına müraciət olunmuş, onların yaratdıqları dövlət başçısı obrazları müqayisəli şəkildə nəzərdən keçirilmiş, ən əsası, Ümummilli liderimiz Heydər Əliyev, Türkiyə Respublikasının yaradıcısı və ilk prezidenti Mustafa Kamal Atatürk, eyni zamanda prezidentlərdən Turqut Özal və Süleyman Dəmirəl şəxsiyyətləri nümunə göstərilmiş və bu nümunələr əsasında şagirdlərin milli iftixar hissi tərbiyəsi ön plana çəkilmişdir. Dissertasiyada məktəb təcrübəsinə geniş müraciət olunmuşdur. Ümumiyyətlə, dissertasiya işinin elmi-nəzəri və praktik dəyəri vardır. Qeyd edək ki, bütün bunlara baxmayaraq, dissertasiyada nöqsanlar da kifayət qədərdir.

Süleyman Doğanın dissertasiya işi tədqiqatçı G.R. Məmmədovanın "Şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması" adlı monoqrafiyasında (80) təhlilə cəlb edilmiş və bir sıra haqlı nöqsanlar qeyd olunmuşdur.

Öncə qeyd edək ki, doğrudan da, dissertasiya qüsurlu planlaşdırılmış və bu qüsur əsərin məzmununda, ayrı-ayrı məsələlərin işlənməsi zamanı özünü aydın büruzə verir. Təqdim olunan iş tədqiqatdan, dissertasiyadan daha çox kitab xarakteri daşıyır. Dissertasiyanın mövzusu "Ədalətli dövlət başçıları keyfiyyətləri nümunəsində şagirdlərdə milli iftixar hissinin formalaşdırılması" olduğu halda, nə fəsillərin, nə də yarımfəsillərin adında "milli iftixar hissinin formalaşdırılması" ifadəsinə rast gəlinmir. III fəslin 7-ci yarımfəslində həmin fikir öz ifadəsini tapsa da, ancaq bu yarımfəsil də nədənsə dissertasiya mövzusunu olduğu kimi təkrar edir ("Ədalətli dövlət başçılarının keyfiyyətləri nümunəsində şagirdlərdə milli iftixar hissinin formalaşdırılması yolları"). Razılaşmalıyıq ki, doğrudan da, bu zaman belə bir sual meydana çıxır: yarımfəsil mövzusunu əhatə edirsə, o zaman başqa yarımfəsillərə və fəsillərə ehtiyac qalırmı?

Əsərin "Dövlət başçısı Əli Rza oğlu Mustafa Kamal Atatürk və Heydər Əliyev" adlanan üçüncü fəsli aşağıdakı yarımfəsilləri əhatə edir: "Əli Rza oğlu Mustafa Kamal Atatürk", "İqtidarın və seçkilərlə gələn dövlət başçıları Atatürk, Özal, Əliyev və Dəmirəl", "Əli Rza oğlu Heydər Əliyev", "Bir-birinə bənzər iki

lider və iki qədimi dost: Dəmirəl və Əliyev", "Atatürk və Əliyev arasındakı münasibət, oxşarlığı və təhlili". "Özal, Dəmirəl və Əliyevin münasibəti, oxşarlığı və təhlili", "Ədalətli dövlət başçılarının keyfiyyətləri nümunəsində şagirdlərdə milli iftixar hissinin formalaşdırılması yolları". "Tərbiyə üzərində bu əsərdən çıxan nəticələr". Göründüyü kimi, bu fəsildə yalnız "Ədalətli dövlət başçılarının keyfiyyətləri nümunəsində şagirdlərdə milli iftixar hissinin formalaşdırılması yolları" sərlövhəli yarımfəsil dissertasiyanın mövzusuna birbaşa uyğundur. Digər yarımfəsillərin nə adı, nə də ki məzmunu dissertasiyanın mövzusuna uyğun gəlir.

Dissertasiyanın planından o da aydın görünür ki, milli iftixar hissinin mahiyyətinə, yaş səviyyəsinə uyğun olaraq həmin hissin məzmununa tədqiqatçı münasibəti bildirilmir, mövcud elmi-pedaqoji ədəbiyyat və məktəb təcrübəsi, tədris proqramları, dərsliklər, dərs vəsaitləri mövzu baxımından təhlil olunub öyrənilməmiş, heç birinə yarımfəsil ayrılmamışdır. Hətta alınan nəticələr belə pedaqoji eksperimentdə yoxlanılmamış, buna aid də yarımfəsil nəzərdə tutulmamışdır. Məlumdur ki, pedaqoji tədqiqatlarda bu məsələləri araşdırmadan real elmi nəticə almaq mümkün deyil.

Süleyman Doğanın dissertasiyasında tədqiqatdan daha çox hökmdarlar və dövlət başçılarının fəaliyyətini səciyyələndirən materiallardan, müxtəlif məzmunlu rəvayətlərdən, türk və Azərbaycan şairlərinin həyat və yaradıcılığının hamıya məlum bəzi məqamlarının sadəcə təsvirindən, bəzən də hökmdarlarla, ölkənin idarə olunmasına aid fikirlərindən ibarətdir. Bununla biz də razılaşırıq, məktəblilərdə milli iftixar hissinin necə, hansı yollar və vasitələrlə formalaşdırılmasından söz açılmır. Nə təlim prosesində, nə də ki, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə və ailədə bu istiqamətdə görülən işlərin, hansı təşkilati formaların köməyilə, hansı prinsip və metodlar tətbiq olunmaqla həyata keçirilməsi barədə heç bir məlumat almaq olmur. Problemin məktəb təcrübəsində vəziyyəti geniş təhlil edilmir.

Dissertasiyada araşdırılması nəzərdə tutulan "milli iftixar hissinin formalaşdırılması" probleminin pedaqoji və psixoloji əsaslarına toxunulmur. Dissertasiyanın adında ədəbiyyat və tarix fənlərinin materiallarına müraciət

olunacağı göstərilsə də, nə fənn proqramları və dərsliklər, nə də mövcud elmi-pedaqoji və metodik ədəbiyyat təhlilə cəlb edilmir. Nəzərdə tutulmalı olan ədəbiyyat və tarix fənlərinin materialları əsasında milli iftixar hissinin formalaşdırılması üzrə işin sistemi işlənməyib, dissertasiya tədqiqatdan daha çox təsviri xarakterli yazıya oxşayır. Bütün bunlarla bərabər dissertasiyada çox orijinal, təqdirəlayiq müqayisələr də aparılır və dəyərli fikirlər söylənilir.

Tədqiqatçı "Bir-birinə bənzəyən iki lider və köhnə dost: Dəmirəl və Əliyev" yarımfəslində bu iki şəxsiyyəti belə səciyyələndirir: "Dəmirəl və Əliyev eyniyaşlı iki dövlət başçısı. Hər ikisi də siyasətdə bacarıqlı, məharətli və xalqı öz tərəflərinə çəkməyi bacaran iki sima" (101, 106).

Süleyman Doğan "Atatürk və Əliyev arasındakı münasibət, oxşarlığı və təhlili" yarımfəslində türk dünyasının iki dahi şəxsiyyətini müqayisəli şəkildə belə tərənnüm edir:

"Hər ikisinin atasının adı Əli Rzadır. Yaşadıqları dövr fərqli olsa da, hər ikisi lider ölkələrinin taleyində önəmli rol oynadılar. "Mən düşüncələrimi olduğu kimi söylərəm. Həqiqəti deməkdən çəkinmərəm" deyən Atatürk kimi Əliyev də ölkəsinin ayağa qalxması üçün ciddi-cəhdlə çalışır.

Atatürk kimi Əliyevdə də hərbiçi mətanəti vardı. Atatürk şəxsən özü müharibələrə qatılmış, I Cahan müharibəsində komandirlik etmiş, Balkanlarda azadlıq savaşlarında ön cərgədə olmuşdu. Əliyev isə Ermənistanla diplomatik bir savaşda olmuşdur. Atatürk də, Əliyev də güclü dövlət adamı, çağdaş bir rəhbərdirlər.

Atatürk öz dövründə sənətkara, yazıçı və şairə böyük dəyər vermişdir. Əliyev də sənətkarlara, yazıçı və şairlərə qayğı ilə yanaşırdı.

Atatürk Türkiyənin yenidən qurulmasında çox önəmli və birinci dərəcəli rol oynamışdı. Əliyev də ölkəsinin yenidən qurulması və inkişafı üçün eyni rolu oynamışdır.

Heydər Əliyev də Atatürk kimi xalqın arasında olaraq, onların problemini öyrənməklə və onların həlli yollarını aramaqla çalışır.

Atatürk daxili və xarici siyasəti "Yurdda sülh, cahanda sülh" deyə açıqlamış, Heydər Əliyev də dövlət başçısı keçəndən bir il sonra "Ölüm hökmünü" ləğv etdi. Bu, hər iki dövlət başçısının necə humanist olmasından xəbər verir. Qarabağ məsələsinin sülh yolu ilə həlli üçün Əliyev böyük səy göstərir. Atatürk Türkiyədə ərəb əlifbasından latın əlifbasına keçirmiş və buna görə ona "Baş müəllim" adı verilmiş. Əliyev də öz ölkəsində qəbul edilən latın əlifbasının inkişafı üçün böyük qeyrət göstərmiş, bununla bağlı Bakı Türk liseyi ona "Baş müəllim" adını vermişdir" (101, 111).

Təhlilə cəlb olunan dissertasiya işlərindən biri də H.V. İlyasovun "Ailədə kiçik məktəb yaşlı uşaqlarla vətəndaşlıq tərbiyəsi üzrə aparılan işin imkanları və yolları"dır (60). Müəllif ailədə kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi işinin imkanlarını və onlardan səmərəli istifadə yollarını müəyyənləşdirmişdir. O, tədqiqatın fərziyyəsində yazır: "Kişik məktəb yaşlı şagirdlərin vətəndaşlıq tərbiyəsi işinin imkanları və yolları o zaman səmərəli olur ki, ... ailədə Vətən, dövlət adı, Ana dili həmişə uca tutulsun, müxtəlif tədbirlərdə uşaqlarda vətənpərvərlik və *milli iftixar hissi* formalaşdırılsın" (60, 7). Göründüyü kimi, müəllif, fərziyyədə vətəndaşlıq tərbiyəsinin milli iftixar hissin formalaşdırılması üzərində qurulduğunu söyləməklə bərabər, işdə bu fərziyyənin doğruluğunu da sübut edir. Lakin o, milli iftixar hissinin kiçik yaşlı məktəblilərdə formalaşdırılması işinin imkanları və yollarına toxunmamışdır.

Təhlilə cəlb etdiyimiz başqa bir əsər "Tarixi şəxsiyyətlərə dair materialların öyrənilməsi yeniyetmələrin tərbiyəsinin vasitəsi kimi" (70) adlı pedaqogika üzrə fəlsəfə doktorluğu dissertasiyasıdır. Müəllif A.Q. Qasımova öncə problemin nəzəri məsələlərini diqqət mərkəzinə gətirmiş, fəlsəfə, etika, psixologiya, pedaqogika üzrə dərsliklərə, müxtəlif nəşrlərə, elm sahələri üzrə lüğətlərə müraciət etmiş, "şəxsiyyət" anlayışı, onun "fərd", "fərdiyyət", "insan", "adam" anlayışları ilə fərqli cəhət-ləri üzərində daha çox dayanmış, onları pedaqoji baxımdan bir daha aydınlaşdırmış, "şəxsiyyət" anlayışının mahiyyətində fərdin heysiyyatının, milli mənsubiyyətinin, milli qürurunun, milli mənliyinin dayandığını isə ötəri qeyd etmişdir. Daha sonra müəllif öz tədqiqat problemi baxımından V-IX siniflərin

proqram və dərsliklərini, ümumtəhsil məktəblərindəki mövcud vəziyyəti öyrənmiş, təhlil edərək ümumiləşdirmişdir.

Birbaşa tədqiqat məqsədi olduğuna görə A.Q. Qasımova tarixi şəxsiyyətləri, onların tarixi xidmətlərini dərin təhlilə cəlb edir və onları iki qrupa bölür. Dissertasiya işindən oxuyuruq: "Doğrudur tarixdə elə şəxsiyyətlər olmuşdur ki, bəşəriyyət onların əməllərini lənətlə yad etmiş və etməkdədir. Belələri nəinki digər ölkələrə və xalqlara, hətta öz dövlətinə və xalqına bəlalar gətirmişdir. Biz belə şəxsiyyətləri nəzərdə tutmuruq. Müsbət əməlləri, xidmətləri, ideyaları ilə nümunə ola biləcək şəxsiyyətləri əsas götürür, eyni zamanda onların yol verdikləri qüsurları xatırlamaqla bunlardan nəticə çıxarmağı şagirdlərə anladırıq" (70, 3).

Dissertasiya müəllifi nədənsə "hətta öz dövlətinə və xalqına bəlalar gətirən" tarixi şəxsiyyətləri xatırlamır. Lakin unutmamalıyıq ki, pis nümunə əsasında da yaxşı keyfiyyətləri tərbiyə etmək mümkündür. Digər tərəfdən, bəzi xalqlar belə tarixi şəxsiyyətlərlə indi də fəxr edir, onlarla qürur duyurlar. Ruslar I Pyotrla, gürcülər Stalin ilə, fransızlar Napoleon Bonapartla, almanlar Adolf Hitler ilə, xain ermənilər minlərlə türkü qətlə yetirmiş, türkün çörəyini yeyib ona xain çıxmış Andranik ilə bağlı qürur hissi keçirirlər. Dissertasiyada bu məsələlərə diqqətin yetirilməsi də məqsədə uyğun olardı. Bundan başqa əsərdə müəllif ümumtəhsil məktəblərinin V-IX siniflərində tədris olunan Azərbaycan tarixi və ədəbiyyatı, Azərbaycan Respublikasının fiziki coğrafiyası fənlərinin, sinifdənxaric təhsil-tərbiyə işlərinin imkanlarından istifadə edərək V-IX sinif şagirdlərini dövlətçiliyimiz və milli azadlıq hərəkatı tariximizdə, müstəqilliyimizin və suverenliyimizin qorunub saxlanması uğrunda mübarizədə, elmin və mədəniyyətimizin inkişafında mühüm rol oynamış şəxsiyyətlərin müsbət nümunələri əsasında tərbiyə etməyin imkan və yollarını müəyyən etməyə çalışır və buna tam nail ola bilir. O, əsərdə tarixi şəxsiyyətlərin, dövlət başçılarının tarixi xidmətləri ilə yanaşı onlardan bəzilərinin səhvlərinə də münasibət bildirir. Tədqiqatçı müxtəlif sahələrdə - dövlətçilik tarixində, milli-azadlıq hərəkatında (Cavanşir, Babək, Şirvanşah I İbrahim, Qara Yusif, Uzun Həsən, Sara Xatın, I Şah İsmayıl, Cavad xan, M.Ə.Rəsulzadə, Heydər Əliyev), elm (Nəsrəddin Tusi, Azad

Mirzəcanzadə, Ələsgər Lüfi-Zadə), mədəniyyət və incəsənət (Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Üzeyir Hacıbəyli, Səməd Vurğun və b.) tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini şərh etmiş, məktəbliləri həmin şəxsiyyətlərin nümunəsi əsasında tərbiyə etməyin yollarını göstərmişdir.

Proqram və dərslikləri təhlil edərkən tədqiqatçının belə bir mövqeyi də təqdirəlayiqdir: “Azərbaycanın dövlətçilik tarixində özünəməxsus rol oynamış, bu şəxsiyyətlərin dövlətin inkişafı, müdafiə qüdrətinin yüksəlməsi, ordunun döyüş hazırlığının güclənməsi sahəsindəki fəaliyyətlərinə dair dərsliklərdə verilmiş materiallar bir hökmdar kimi onlara rəğbət hissi oyadır. Müstəqil Azərbaycan dövlətini möhkəmləndirmək və torpaqları işğaldan azad etmək üçün düşmənlə inadlı mübarizəyə çağırır” (70, 13).

Qeyd edək ki, A.Q. Qasımova dissertasiyasında məktəblilərə milli qürur hissinin aşılanması imkanlarına konkret toxunmasa da, lakin onun formalaşdırdığı keyfiyyətlər milli qürur hissi tərbiyəsində mühüm əhəmiyyət daşıyır.

Mahiyyət etibarı ilə dissertasiyamıza yaxın olan bu tədqiqat əsərində A.Q. Qasımova sinifdənxaric tədbirlər zamanı tərbiyəçilərin tarixi şəxsiyyətlərə dair yeniyetmələrə hansı həcmdə və səviyyədə məlumatlar verdiklərini, bu məlumatları tərbiyəvi baxımdan hansı şəkildə istiqamətləndirdiklərini, şagirdlərin tarixi şəxsiyyətlərə münasibətlərini, həmin şəxslərin məhz hansı cəhətlərinin (fəaliyyətlərindəki və həmçinin şəxsi keyfiyyətlərindəki) onlara xoş gəldiyini, bu şəxsiyyətlərə dair nümunələrin yeniyetmələrin xarakterində, davranış və rəftarında, ətrafdakılarla qarşılıqlı münasibətlərində hansı müsbət təsir oyatdığını göstərmişdir.

Dissertasiyanın “Təlim prosesində və sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin tarixi şəxsiyyətlərin müsbət nümunəsində tərbiyə olunması” adlanan ikinci fəslində təlim prosesindən və sinifdənxaric tədbirlərdən konkret nümunələr gətirilir. Təlim prosesində Azərbaycan tarixi və ədəbiyyat, həmçinin Azərbaycan Respublika-sının fiziki coğrafiyası kurslarının problem baxımından imkanlarına müraciət olunur, tarixi şəxsiyyətlərə dair materiallardan istifadə etməklə yeniyetmələrin tərbiyəsinin təşkilinin səmərəli yolları göstərilir.

Dissertasiyada sinifdənxaric işin müzakirə, şagird konfransı, söhbət, disput, və s. kimi formalarından istifadə edilir. Bu zaman tarixi şəxsiyyətlərə aid materiallardan istifadənin imkanları göstərilir. Müəllif yazır: "Tarixi şəxsiyyətlərin müsbət nümunələri yeniyetmələrin əxlaqi müddəanı aydın təsəvvür etmələrinə və bu nümunələrdən ibrət götürmələrində müstəsna dərəcədə əhəmiyyətli rol oynayır. Müsbət nümunələr xüsusən təqlidə meylli yeniyetmələrdə yaxşı təsir oyadır" (70, 31). Belə bir yanaşma məktəblilərin milli qürur hissi tərbiyəsində də faydalı ola bilər.

Dissertasiyada yeniyetmələrin dövlətçilik ruhunda tərbiyə olunması üzrə maraqlı iş sistemi də verilir. Bu sistem V-IX siniflərdə tərbiyə işinin təşkili sahəsində böyük imkanlara mailk olsa da, lakin onun kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması baxımından imkanları çox zəifdir.

Respublikamızın dövlət rəmzlərinə hörmət və rəğbətin yaradılması, inkişaf etdirilməsi və şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmaları kiçik yaşlı məktəblilərdə milli qürur hissinin tərbiyə olunması üzrə işin mühüm tərkib hissələrindən, zəruri həlqələrindən biridir. Odur ki, Azərbaycan dövlət rəmzləri vasitəsilə məktəblilərin tərbiyəsi probleminin tədqiqat obyektinə çevrildiyi digər əsərləri də təhlilə cəlb etməli olduq. Belə əsərlərdən biri S.B. Bağırovun "Azərbaycan Respublikasının dövlət atributları vasitəsilə şagirdlərin vətəndaşlıq tərbiyəsi" (17) mövzusunda pedaqogika üzrə fəlsəfə doktorluğu dissertasiyasıdır. Tədqiqatda ictimai-humanitar fənlərin materialları əsas götürülmüşdür. Dissertasiyanın "Azərbaycanda dövlətçilik və onun atributlarının mahiyyəti" adlı yarımfəslində maraqlı cəhət odur ki, müəllif respublikamızın dövlət atributlarının yaranma tarixindən qürur hissi ilə danışır və bu hisslərin tərbiyəsi prosesində nəzərə almağı tövsiyə edir: "Bayraq, gerb, himn kimi atributlar milli dövlətçiliyin istiqlaliyyətini, varlığını, xalqın ən ali amallarını lakonik, obrazlı ifadə edən mühüm amillərdəndir. Hər bir şagird bilməlidir ki, istənilən ölkənin dünya dövlətləri sistemində mövqeyi, onun tarixi və milli dəyərləri, dövlətçilik ənənələri onun heraldika və rəmzlərində öz əksini tapır... Hər bir vətəndaş qürur duymalıdır ki, bütün dövrlərdə Azərbaycan dövlətinin də

özünəməxsus fərqləndirici əlamətləri – simvol və rəmzləri olmuşdur. Belə ki, Azərbaycanda möhürlərin, emblemlərin, gerb və medalların hazırlanmasında heraldika sisteminin mövcud olması bu işin təşkilinə kömək etmişdir. Təsadüfi deyildir ki, XX əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi bərpa olunan kimi onun yaradıcıları dövlətin milli əlamətlərini əks etdirəcək özünəməxsus rəmzlərin təxirə salınmadan yaradılması tədbirlərinə başladılar" (17, 13).

S.B. Bağırovanın müraciət etdiyi müxtəlif mənbələrdən ən səciyyəvi olanı N. Vəlixanlıdan gətirdiyi aşağıdakı iqtibasdır: "Tarixi mənbələr, maddi mədəniyyət və incəsənət abidələri sübut edir ki, keçmişdə Azərbaycan ərazisində yerləşən dövlətlərin müxtəlif rəmzləri, həndəsi və nəbati ornamentlərdən, quş və heyvan təsvirlərindən ibarət nişan və emblemləri, ərəb hərfləri ilə yazılmış xəttatlıq nişanələri – "tuğra"ları olmuşdur; məsələn, Şah İsmayıl Xətainin yaratdığı qüdrətli Səfəvilər dövlətinin 12 qırmızı zolaqlı baş geyimi fərqlənmə nişanı kimi qəbul olunmuşdur. Bununla yanaşı, "Qırmızı taclı", "qızılbaş şahı"nın özünəməxsus gerbi də olmuş – "Simurq quşu ilə əjdahanın döyüşü"nü təsvir edən "tuğra"sı dövlətin rəsmi rəmzi, bir növ emblemi mahiyyətini daşımışdır. Hökmdarlara məxsus belə rəmzlər xanlıqlar dövründə də geniş yayılmışdır. Bakıda İçərişəhərin darvazası üzərində daş lövhələrə həkk olunmuş buğa kəlləsi ilə qoşa şirlərin təsviri Şirvanşahlar dövlətinin qüdrətinə işarə edən monumental emblemdir" (17, 8).

S.B. Bağırova nəzərdən keçirdiyi problemin proqram və dərsliklərdə, metodik ədəbiyyatda, məktəb təcrübəsində mövcud vəziyyəti öyrənərək ümumiləşdirmələr aparmış, təlim-tərbiyə prosesində Azərbaycan Respublikasının dövlət atributları vasitəsilə şagirdlərdə vətəndaşlıq mövqeyinin yaradılmasının imkan və yollarını araşdırmışdır. Bu məqsədlə müəllim təlim prosesinin və sinifdənxaric tədbirlərin imkanlarını nəzərdən keçirmişdir. Tədqiqata ümumtəhsil məktəblərində tədris olunan Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan Respublikası Konstitusiyasının əsasları və İnsan və cəmiyyət fənlərinin imkanları üzərində dayanılmışdır.

Milli qürur hissinin aşılanmasına aid dəyərli fikirlərə Ə.Ə.Ağayevin "Məktəblilərin vətəndaşlıq borcu tərbiyəsi" (8), "Vətəndaş olmağa borclusan" (6),

P.B. Əliyev və H.H. Əhmədovun "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi" (Bakı, 2006) əsərlərində də rast gəlinir.

S.B. Bağırova "Azərbaycan Respublikasının dövlət atributları vasitəsilə şagirdlərin vətəndaşlıq tərbiyəsi" mövzusunda dissertasiya yazmış, M.İ. İlyasov və M.N. Nəzərov "Yuxarı sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsi" adlı kitabça nəşr etdirmişlər. Lakin həmin müəlliflər sırf kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanmasında məktəbin ailə ilə əlbir fəaliyyəti problemi ilə bağlı tədqiqat aparmamış, onun mahiyyəti və məzmununu şərh etməyə təşəbbüs göstərməmişlər.

Təhlilə cəlb etdiyimiz tədqiqat işlərindən biri də G.R. Məmmədovanın "Şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması" (80) adlı monoqrafiyasıdır. Monoqrafiyanın "Problemin nəzəri məsələləri" adlanan birinci fəslində şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması üzrə işin mahiyyəti və vəzifələri, problem baxımından mövcud ədəbiyyatın öyrənilməsi və təhlili, problem baxımından proqram və dərsliklərin təhlili, həmçinin problemin məktəb təcrübəsində vəziyyətinin öyrənilməsi və ümumiləşdirilməsi öz ifadəsini tapmışdır.

Monoqrafiyada milli qürur hissinin məktəblilərdə formalaşdırılması məsələsi konkret qoyulmamasına baxmayaraq müəllif dönə-dönə şagirdlərdə milli qürur hissinin yaradılmasına, onun vacibliyinə toxunur. G.R. Məmmədova göstərir ki, "şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması üzrə işin vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

- tarixi şəxsiyyətlərimizə, ölkəmizin maddi və mənəvi sərvətlərinə görə şagirdlərdə *milli qürur və iftixar hisslərinin yaradılmasına* və inkişaf etdirilməsinə nail olmaq;
- məktəblilərdə vətənə məhəbbət hisslərini daha da inkişaf etdirmək, onlarda torpaqlarımızın müdafiəsinə hazır olmaq tələbatı formalaşdırmaq;
- Azərbaycanın dövlətçilik tarixi ilə şagirdləri yaxından tanış etmək. Bu məqsədlə ailənin potensial imkanlarından, təlim prosesindən, dərsdənkənar tədbirlərdən faydalanmaq;

- Azərbaycanda ilk dövlət qurumunun nə zaman meydana gəldiyini məktəblilərə çatdırmaq. Azərbaycanda mövcud olmuş dövlət qurumları, həmin dövlətlərə başçılıq etmiş hökmdarlar haqqında ətraflı məlumatın verilməsi, dövlət başçılarının Azərbaycanın müstəqilliyi, tərəqqisi, daxili və xarici siyasətinin, inkişaf etdirilməsi ilə bağlı səylərinə məktəblilərin diqqətini yönəltmək;
- Azərbaycan tarixində e.ə. meydana gəlmiş dövlətlər də daxil omaqla bu günümüzə qədər mövcud olan dövlət qurumları və onlara başçılıq etmiş əsas şəxsiyyətlər barədə məlumatlarla şagirdləri silahlandırmaq (məktəblilər həmin dövlətlərin və tarixin səhnəsinə çıxmış Azərbaycan hökmdarlarının adlarını çəkməyi bacarmalıdırlar);
- məktəblilərdə Azərbaycanın dövlət qurumlarına və hökmdarlarına hörmət və məhəbbət hisslərinin inkişaf etdirilməsi;
- Azərbaycan dövlətlərinə və Azərbaycan hökmdarlarına həsr olunmuş elmi-kütləvi və bədii əsərlərlə şagirdləri tanış etməli, bu məqsədlə həmin əsərlərin məktəblilər tərəfindən mütaliəsinə nail olmaq. Eyni zamanda "Fətəli xan", "Cavad xan", filmlərinə baxışları təşkil etmək;
- Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, rəhbərləri, bu dövlətin gördüyü tarixi tədbirlərlə şagirdləri yaxından tanış etmək, Azərbaycan dövlətçilik tarixində onun rolunu aydınlaşdırmaq, Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyimizin bariz nümunəsi olmasına diqqəti yönəltmək;
- 1991-ci ildə müstəqillik qazanmağımızın tarixi rolunu aydınlaşdırmaq, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, müstəqil və yeni Azərbaycanın qurulmasında, ölkəmizin dünyanın ən qabaqcıl dövlətləri sırasında şərəfli yer tutmasında, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə misilsiz nailiyyətlərin qazanılmasında Heydər Əliyevin böyük xidmətlərini konkret faktlar və nümunələr əsasında məktəblilərə aydınlaşdırmaq;
- müstəqil Azərbaycanın yaradıcısı və memarı, ümummilli liderimiz Heydər Əliyev və ölkə Prezidenti İlham Əliyevə rəğbət və məhəbbət hisslərinin tərbiyə olunması şagirdləri Heydər Əliyev və İlham Əliyev nümunəsində tərbiyələndirmək;

- məktəblilərdə ölkəmizin Əsas Qanununa - Azərbaycan Respublikasının Konstitusiyasına rəğbət və məhəbbət hisslərinin yaradılması və inkişaf etdirilməsi;
- Azərbaycan dövlətinin rəmzlərinə (Azərbaycan Respublikasının dövlət bayrağına, dövlət gerbinə və dövlət himninə) rəğbət və məhəbbət hisslərinin yaradılması və inkişaf etdirilməsi;
- Dövlət dilimizə - Azərbaycan dilinə rəğbət və məhəbbət hisslərinin yaradılması və inkişaf etdirilməsi".

Deyilənlərdən görünür ki, istər məktəbdə, istərsə də ailədə yeniyetmələrin (həmçinin digər yaş qruplarına daxil olan məktəblilərin) Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə edilməsi və bununla qürur duyulması istiqamətində bu gün məqsədyönlü, sistemli, fasiləsiz işin aparılması həqiqətən təxirəsalınmaz bir işdir. Bu sahədə pedaqoji kollektivlərin, valideynlərin və ictimaiyyət nümayəndələrinin fəaliyyəti böyüməkdə olan nəsildə vətənpərvərlik hisslərinin qüvvətlənməsinə, ölkəmiz və onun maddi və mənəvi sərvətlərinə, Azərbaycan xalqına görə *milli iftixar və qürur hissləri* keçirmələrinə, dövlət rəmzləri, ana dilimiz, vətəndaşların hüquq və vəzifələri haqqında aydın təsəvvürə yiyələnmələrinə kömək göstərir, tarixən mövcud olmuş və şərəflə fəaliyyət göstərmiş Azərbaycan dövlətlərinə və hökmdarlarına, dövlət başçılarına hörmət və rəğbət hisslərini daha da artırır (80, 18-21).

N.Ş. Şəmsizadənin "Azərbaycan ideologiyası" monoqrafiyası (99) ilə də tanış olduq. N.Ş. Şəmsizadə öz əsərində milli Azərbaycan (azərbaycançılıq) ideologiyasının tarixinə nəzər salır, müxtəlif tarixi dövrlərdə bu ideologiyanın vəziyyətini, inkişafını və təşəkkülünü təhlil edir. Müəllifin aldığı nəticəyə görə, Azərbaycan ideologiyasının mənşəyi və təşəkkülü müdrik milli təfəkkür və əksi inanclardır. O, Azərbaycanı (ərazi kimi), Azərbaycan xalqını və Azərbaycanın dövlətçiliyini Azərbaycan ideologiyasının tərkib hissəsi hesab edir.

Prof. A.N. Abbasovun pedaqoji elmlər doktorluğu dissertasiyası (1) da dolayı yolla məktəblilərdə milli qürur hissinin formalaşdırılması baxımından material verir. Bu əsərlər şagirdlərin hüquq tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə fəaliyyətinə; A.Ş. Bədirovun pedaqogika üzrə fəlsəfə

doktorluğu dissertasiyası isə tələbələrdə hüquq mədəniyyətinin formalaşdırılması probleminə aiddir. Bu dissertasiya işlərində hamımızın qürur mənbəyi olan qanunumuza, birgəyaşayış qaydalarımıza, davranış normalarımıza – Azərbaycan Respublikasının Konstitusiyasına hörmət və rəğbət hisslərinin qüvvətləndirilməsi, şagirdlərdə və tələbələrdə öz hüquq və azadlıqlarını bilmələri, Konstitusiya ilə müəyyən olunmuş vəzifələrini yerinə yetirmək tələbatının formalaşdırılması diqqət mərkəzinə gətirilir.

Son dövrlərdə Respublikamızda milli mənlik şüurunun, vətəndaş ləyaqətinin və hərbi-vətənpərvərliyin tərbiyə olunmasına aid bir sıra tədqiqatlar aparılmış və dissertasiyalar yazılmışdır. Bu əsərlərin də tədqiq etdiyimiz problemlə bilavasitə bağlılığı var. Məsələn, Ə.Ə, Ağayevin "Vətəndaş olmağa borclusan" (6), "Həyatın astanasında" (7), ""Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi" (10), F.B. Sadıqov və O.Q. Həsənlinin "Tərbiyəşünaslıq" (97), Z.İ. Qaralovun "Tərbiyə: prinsiplər, məzmun, metodika" (69), Y.Ş. Kərimovun "Pedaqoji tədqiqat metodları" (68), Ş.Q. Əliyevanın "Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları" (39, 1), İ.H. Cəbrayılovun "Tarixi abidələr vasitəsilə şagirdlərdə milli mənlik şüurunun tərbiyə edilməsi" (19), A.R. Əliyevin "Yuxarı sinif şagirdlərində vətəndaşlıq ləyaqəti tərbiyəsi üzrə işin təşkili yolları" (33) mövzularında namizədlik dissertasiyalarını; M.İ. İlyasovun "Yuxarı sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsi" (59), H.İ. İlyasovun "Ailədə kiçik məktəb yaşlı uşaqlarla vətəndaşlıq tərbiyəsi üzrə aparılan işin imkanları və yolları" (60) adlı dissertasiyası, P.B. Əliyevin "Ədəbiyyatın tədrisi prosesində şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi" (34), S.H. Qasımovanın "Kiçik yaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsində tarix və mədəniyyət abidələrindən istifadə" (71) və s. mövzularda yazılmış monoqrafiyaların, pedaqogika üzrə fəlsəfə və elmlər doktorluğu dissertasiyalarını nümunə göstərmək olar. Bu tədqiqatlarda birbaşa olmasa da, dolayı yolla Azərbaycan dövlətçiliyə sədaqətlilik ruhunda, milli iftixar, milli qürur hissi ruhunda şagirdlərin tərbiyə olunmasının əhəmiyyətinə, roluna və vacibliyinə xüsusi diqqət yetirilir.

Bakı Dövlət Universitetində "Çağdaş dövr və sosial elmlərin aktual problemləri" mövzusunda 19 dekabr 2016-cı il tarixdə keçirilən Ümumrespublika elmi-praktik konfransında (21) yeniyetmələrin milli-ideoloji tərbiyəsi probleminə dönə-dönə toxunulmuşdur. G.İ. Əliyeva "Yeniyetmələrin milli-mənlik şüurunun tərbiyəsi təcrübəsindən" adlı məruzəsində milli qürur hissinə aydınlıq gətirmək məqsədilə göstərir: "Yeniyetmələrdə milli psixologiyanın, mənəviyyatın, milli qürur və iftixar hissinin, milli özünəməxsusluğun formalaşması və tərbiyə edilməsi çox zəruri məsələlərdəndir. Bu ilk növbədə ona görə zəruridir ki, onlar milli etnik məhdudluğa qarşı mübarizə apara bilir, bəsit hisslərdən uzaq olurlar.

Milli azadlıq, milli suverenlik sözlərinin tez-tez vurğulanması hələ milli-mənlik şüurunun mövcudluğu demək deyildir. Bu şüurun yeniyetmələrdə tərbiyə olunması, onlarda əqidə bütövlüyü, sözlə əməlin vəhdətinin təzahürü zamanı özünü reallaşdırır. Milli-mənliyi, milli qüruru, əqidəsi olan yeniyetmə tərbiyə etmək onları hər cür çətinliyə dözməsinə hazırlamaq deməkdir.

Milli-mənlik şüuru hər bir xalqın mövcudluğu və inkişafı, hər bir yeniyetmənin həyat fəaliyyəti və başqa adamlarla qarşılıqlı münasibətləri üçün ən zəruri amildir" (21, 244-245).

Azərbaycan Respublikası müstəqillik qazanandan sonra milli-mənəvi dəyərlər haqqında daha çox əsərlər yazılmağa başladı. Bunun ən başlıca səbəblərindən biri post-sovet məkanında qadağa qoyulmuş milli-tərbiyə sahəsini dirçəltməkdən və gənclərimizi milli ruhda tərbiyə etməyə başlamaqdan ibarət idi. Bu sahədə ən tutarlı iş Türk dünyasının böyük alimi Ziya Göyalpın "Türkçülüyün əsasları" adlı kitabıdır. Əsər (51) "Türkçülüyün mahiyyəti" və "Türkçülüyün proqramı" adlanan iki bölümdən ibarətdir. Uzun müddət müəllimlərimiz türkçülüyün tarixindən, mahiyyətindən danışarkən bu kitaba istinad etmişlər.

Kitab bütün dövrlərdə dəyərini saxlamışdır. Kitabın "Türkçülüyün proqramı" adlanan ikinci bölümü bütünlükdə milli mənəvi dəyərlərlə bağlıdır. "Dildə türkçülük", "əxlaqda türkçülük", "dində türkçülük" və s. sərlövhəli materiallar bunu bir daha göstərir. "Əxlaqda türkçülük" deyəndə buraya: 1) türklərdə əxlaq; 2) vətən əxlaqı; 3) məslək əxlaqı; 4) ailə əxlaqı; 5) cinsi əxlaq; 6)

gələcəkdə ailə əxlaqı necə olmalıdır?; 7) mədəni əxlaq və şəxsi əxlaq; 8) beynəlmiləl əxlaqı - aid etmişdir (51, 113-126).

Əxlaq, əxlaq tərbiyəsi məsələlərindən danışarkən Z. Göyalp göstərirdi ki, "...türklər əxlaqda birincilik qazanmışlar. Türk tarixi başdan-başa əxlaq üstünlüklərinin sərgisidir" (42, 113). Doğrudan da, xalqımızın milli-mənəvi dəyərlərinə nəzər yetirsək, görərik ki, hər dövrün özünəməxsus dəyərləri olmuşdur. Bunların içərisində məzmununu dəyişənləri də olmuşdur. Lakin, millətin qüruru, vətən sevgisi, vətən əxlaqı heç zaman öz dəyərini itirməmişdir. "Hər kəs vətənini sevməli, onun yolunda canından keçməyə hazır olmalıdır" şüarı bütün dövrlərdə azəri-türk millətinin amalı olmuşdur. Azəri-türk milləti haraya getsə əsas yurd yuvanı unutmamışdır, çünki müqəddəs saydığı ata-babalarının məzarı bu yurddadır. Uşaqlıq çağı, ata ocağı, ana qucağı, el-obamızda, yurdumuzda, Vətənimizdədir.

Türkün vətənsevərliyinə örnək kimi Hun dövlətinin qurucusu olan Metenin həyatı və rəhbərlik prinsipi parlaq nümunədir: Tatar hökmdarı müharibə məqsədi ilə bəhanə axtarır və bu məqsədlə Metedən onun çox sevdiyi atını istəyir. Bu at saatda min fərsəx uzunluğunda yol gedirdi. Mete əhalisini müharibənin müsibətlərinə məruz qoymamaq üçün atı tatar xaqanına göndərdi. Tatar xaqanı müharibəyə yenə bəhanə axtarırdı. Bu səfər də Metenin çox sevdiyi qadınını istədi. Bütün bəylər ümumi yığıncaqda müharibə elan etməyi irəli sürdükləri halda Mete: "Mən vətənimi öz eşqimin uğrunda tapdalada bilmərəm" deyərək sevgilisini düşmənə vermək kimi böyük bir fədakarlığı qəbul etdi. Belə olduqda, tatar xaqanı Hun ölkəsində heç bir məhsulu, tarlası, meşəsi, yeraltı sərvəti, əhalisi olmayan bir ərazi parçasını istədi. Qurultay bu faydasız torpağın verilməsində heç bir zərər olmadığını söyləyərkən, Mete: "Vətən bizim mülkümüz deyildir, məzarda yatan atalarımızın və qiyamətə qədər doğulacaq törəmələrimizin bu mübarək torpaq üzərində haqları vardır. Vətəndən, istər bir qarış qədər olsun, yer verməyə heç kəsin səlahiyyəti yoxdur. Buna görə də müharibə edəcəyik. Bax, indi mən atımı düşmənə doğru sürürəm. Ardımca gəlməyən edam olunacaqdır" deyərək tatarların

üzərinə yeridi. Əski türklərin gözündə vətənin nə qədər əziz olduğunu bu tarixi hadisədən anlaya bilərik (51, 114).

Vətən əxlaqı, millət əxlaqı, milli mənlik, milli qürur, milli iftixar bütün əxlaqlar içərisində həmişə aparıcı olmuşdur. Kitabda bu cəhət belə səciyyələndirilir: "Türklərin bundan sonra da ən çox dəyər-qiymət verəcəkləri əxlaq - vətən əxlaqı olmalıdır". Çünki, "...bizim kimi siyasi düşmənləri çox olan millətlər üçün ən böyük istinadgah vətən əxlaqı ola bilər. Vətən əxlaqımız qüvvətli olmazsa, nə müstəqilliyimizi, nə azadlığımızı, nə də vətənimizin bütövlüyünü qoruya bilərik" (51, 116). Türk dünyasının böyük alimi Z. Göyalp bu tövsiyələrini bizim gənclərə aid etmişdir.

Müstəqillik əldə etdikdən sonra çap olunan elmi ədəbiyyatın maraqlı mövzularından biri də "milli mənlik" və "milli qürur hissi" ilə əlaqədar olanlardır. İstər ümumfəlsəfi, istərsə də pedaqoji yönümlü tədqiqatlarda məsələ tam yeni prizmadan araşdırılır. Milli qürur hissinə milli varlığı, milli müəyyənliyi səciyyələndirən, millətə və xalqa aid keyfiyyətləri küll halında özündə cəmləşdirən ən mühüm əlamətləri aid edirlər. "Millətə aid bir çox cəhətlər milli-mənəvi sima, özünəməxsus cəhətlərin toplusu kimi, milli xasiyyət, emosional-psixi amillərin məcmusu kimi, milli psixologiya, həyat tərzi, adət və ənənələr, milli qürur hissi vasitəsilə daha qabarıq şəkildə təzahür edir" (56, 12).

Milli qürur, milli iftixar hissinin formalaşması şərtlərindən, onun məzmununda ümumbəşəri və milli cəhətlərin əlaqəsindən, inkişafında mədəniyyətin rolundan və s. bəhs edən Q. Hüseynli də vətənpərvərliyi önə çəkir. "Özünün milli mənsubiyyətini dolğunluğu ilə dərk etmiş, deməli milli mənlik şüurunun ünsürlərinə malik olan şəxs fədakar vətənpərvər, sadiq vətəndaş olmaq üçün hər cür imkana malik olur. Millət və xalqın, doğma vətənin adı ilə bağlı nə varsa, onun mənəvi dünyasına möhkəm daxil olur, milli təəssübkeşlik, milli heysiyyat və ləyaqət keyfiyyətləri tərbiyə edir. Milli mənlik şüuruna yiyələnmiş kəs milli həyatın heç bir hadisəsinə biganə deyildir. Vətən, torpaq qeyrəti onun canına və qanına hopmuş, möhkəm əqidəyə və yolgöstərən məfkurəyə çevrilmişdir..." (56, 17).

Ə.İ. Nicatov "Mənəviyyat, gözəllik, tərbiyə" (86) kitabında insanın mənəvi-əxlaqi özünütəkmilləşdirməsinin yol və vasitələrindən ətraflı danışır. Müəllif şəxsiyyətin gözəllik hissinin inkişafında estetik tərbiyənin əhəmiyyətini ayrıca nəzərə çarpdırır, ailədə, uşaq bağçasında və məktəbdə həyata keçirilən estetik tərbiyənin səciyyəvi xüsusiyyətlərini aydınlaşdırır, klassiklərimizin ədəbi irsinin estetik tərbiyə işindəki misilsiz rolunu aşkarlayır.

Təhlil olunan kitabın əsas qayəsi "Müstəqil dövlətimizin qurucuları olan gənclər zəngin, mənəvi aləmə, büllur kimi saf əxlaqa, yüksək gözəllik duyğusuna malik olmalıdır" fikridir. Kitabın "Sənin mənəvi aləmin" adlı fəslində "Əxlaqi borc", "Əxlaqi məsuliyyət", "İctimai rəy və şəxsiyyətin mənəvi tərbiyəsi", "Əşyaya pərəstiş və insanın mənəvi cəhətdən yoxsullaşması", "Fəal həyat mövqeyi mənəvi yetkinlik göstəricisidir", "Kollektivdə mənəvi-psixoloji iqlim", "Tənqid və özünütənqid mənəvi tərbiyə vasitəsidir", "Cəmiyyətin inkişafında insan amilinin rolunun artması", "Məktəblilərdə elmi dünyagörüşünün formalaşdırılması mühüm vəzifədir", "Sağlam həyat tərbiyəsi", "Qlobal problem", "Təbiət və şəxsiyyətin əxlaqi mədəniyyəti" (86, 3-36) məsələləri yeni yanaşma azərbaycançılıq ideologiyası baxımından izah olunur.

Müəllifin başlıca qənaəti ondan ibarətdir ki, öz əxlaqi borcunu, əxlaqi məsuliyyətini gənclik illərində dərk etməyən adam cəmiyyətdə baş verən və şəxsən özünə aid olmayan hadisələrə qarşı biganəlik göstərəcək, ictimaiyyətin fikri ilə hesablaşmağı lazım bilməyəcəkdir. Buna görə də yuxarıda adı çəkilən yarımfəsillərdə məsələnin mahiyyəti açıqlanmış və gənclərin əxlaq və mənəvi tərbiyəsinin yeni yolları verilmişdir.

Məktəblilərin milli mənəvi tərbiyəsinin ayrı-ayrı fənlərin tədrisi prosesində də həyata keçirildiyi nəzərə alınaraq tədqiq etdiyimiz problemə nisbətən yaxın olan bir qrup metodist alimlərin də elmi işləri tədqiqata cəlb olunmuşdur. Məktəblilərdə milli qürur hissinin formalaşdırılmasına humanitar fənlərin tədrisinin imkanları geniş olduğundan S.Ə. Rüstəmovanın "Nizami Gəncəvi yaradıcılığının öyrənilməsi və şagirdlərin mənəvi tərbiyəsi" adlı metodik vəsaiti (95) diqqəti cəlb edir. Əsərdə müəllif mənəvi tərbiyə baxımından nə özündən əvvəl, nə də ki, öz dövründə

yazılanları təkrar etməmiş, sinifdənxaric məşğələlər vasitəsilə şagirdlərin mənəvi tərbiyəsini formalaşdırmağa çalışmışdır. Kitabda "Nizami yaradıcılığı tərbiyə məktəbidir" adlı fakultativ kursun proqramını da işlənmişdir.

S.Ə. Rüstəmovanın milli-mənəvi tərbiyənin mahiyyətinə verdiyi şərh və məlumatlar maraq doğurur. Müəllif göstərir ki, "mənəvi tərbiyə" və "əxlaq tərbiyəsi", "milli-mənəvi tərbiyə", "milli əxlaqi tərbiyə", "milli ləyaqət tərbiyəsi" terminləri bir qrup pedaqoji ədəbiyyatda eyniləşdirilir. O, əsərin sonunda belə bir qənaətə gəlir ki, "milli qürurluluq tərbiyəsi" anlayışı "milli əxlaq tərbiyəsi"nə nisbətən, "milli əxlaq tərbiyəsi" anlayışı da "mənəvi tərbiyə"yə nisbətən daha konkret anlayışdır və bunların hamısı, milli mənəvi dəyərlər zəminində formalaşır. Məktəblilərin milli mənəvi cəhətdən yetkinliyi onlarda milli qürur hissinin formalaşmasında böyük rol oynayır.

Lakin müəllifin milli qürurluluq tərbiyəsi ilə bağlı fikirləri ziddiyyətlidir, bu fikirlərdə kommunist ideologiyasının təsiri güclüdür. Bunlar süzgəcdən bir daha keçirilməlidir.

Digər bir əsərdə (89) müəllif N.M. Muxtarova milli şüur və ləyaqətin mahiyyətini daha əhatəli və düzgün şərh edir. Müəllif yazır: "Bizim qənaətimizə görə, milli ləyaqət tərbiyəsi öz mahiyyəti, məzmunu və vəzifələri ilə birlikdə mənəvi tərbiyənin üzvi tərkib hissəsini təşkil edir və tərkibində öyrənilir. Milli tərbiyənin digər tərkib hissələrindən fərqli olaraq, mənəvi tərbiyə özü də tərkib hissələrə (komponentlərə, qollara) malikdir və hər bir tərkib hissənin özünün də məqsədi, vəzifələri vardır. Mənəvi tərbiyənin komponentlərinə daxildir: vətənpərvərlik tərbiyəsi, böyüyə hörmət tərbiyəsi, milli iftixar hissinin tərbiyə olunması, davranış mədəniyyəti tərbiyəsi, beynəlmiləlçilik tərbiyəsi, yaxşılıq və xeyirxahlıq tərbiyəsi, humanizm tərbiyəsi, düzlük və doğruçuluq tərbiyəsi, sadəlik və təvazökarlıq tərbiyəsi, yoldaşlıq və dostluq tərbiyəsi və s." (89, 10-11). Müəllifin izahı elmidir, lakin bəzi dəyərlər yaddan çıxmışdır.

Milli qürur hissi tərbiyəsi elə bir problemdir ki, onun tədqiqi ilə bir başa olmasa da, dolayı yolla digər sahənin mütəxəssisləri də məşğul olmuşlar. Bu baxımdan diqqətimizi professor N. Rzanın yazdığı "Təhsilin dili, mənəviyyat və

mədəniyyət" (96) adlı kitabı cəlb edir. Müəllif millətin varlığını onun milli qürurunun, ləyaqətinin qorunmasında, dilinin işləkliyində, mənəviyyatın zənginliyində və tarixi milli mədəniyyətində görür.

N. Rza insan mənəviyyatından danışarkən "mən" termini, sözü üzərində xüsusi dayanaraq yazır: "Mənəviyyat ərəb dilindən alınmış bu istilahın kökündə "mən" dayanır və insan fərdinin – şəxs və şəxsiyyətin, ailə üzvü və millət övladı – vətəndaş kimi borcunu, haqqını, düşüncə tərzini, əxlaqını, dini aləmini, adətlərini və davranış tərzini əhatə edir. Rus dilində bu anlayış "duxovnost", yaxud "kultura" sözləri ilə ifadə edilir. Birinci mənəviyyata daha yaxındır, ikincisi isə mənəviyyatla heç bir əlaqəsi olmayan – bitki, mikrob, heyvandarlıq, maddi – kulturu kimi söz birləşmələri şəklində işlədilir. Avropa dillərində də həmin cürədir" (96, 14).

Elmi-pedaoji ədəbiyyatda qeyd olunduğu kimi, müəllif digər lüğətləri nəzərdən keçirsə idi, bu sözün daha dəqiq izahını tapardı. "Rusca-azərbaycanca lüğət"də (Bakı, 1996 Mənəviyyat) və əxlaq sözləri bu şəkildə izah olunur: "Moral" – 1. əxlaq, tərbiyə, əxlaq qaydaları; "prinsipi morali" - əxlaq prinsipləri; 2. mənəviyyat: çelovek vısokoy morali – yüksək mənəviyyatlı adam: moralnost - əxlaqlılıq; "moralnıy" – 1. əxlaqi, 2. əxlaqlı, 3. mənəvi; nravstvennoe, udovletvorenie – mənəvi yaxınlıq".

Mənəviyyat anlayışının kökündə olan "mən" sözünü ayrıca götürüb təhlil edən müəllif izah edir ki, "mən" iki nöqtə arasında çəkilə biləcək yeganə bir düz xəttə bənzəyir. İkincisi çəkilə bilməz. Bu aksiom xəyalidir. Təcrübədə hər gün rast gəlinən təkrarolunmazlıqlardan biri də daktiloqramdır. Yəni bir şəxsin barmağının dərisinin gözlə görünməz məməciklərinin əşya üzərindəki izi başqa heç bir kəsin barmaq üzərində təkrar oluna bilməzliyidir. Kiçik bir sahədə minlərlə nöqtənin düzülüş şəkli heç vaxt iki şəxsdə eyni ola bilməz. Sadəcə olaraq bu mümkün deyil. Şəxsi və milli mənlik də elədir. Yüzlərlə xüsusiyyətin iki şəxsdə, yaxud iki millətdə tam eyni şəkildə üzə çıxması mümkünsüzdür. Ayrı-ayrı eyniliklər çox olur, ancaq yüzlərlə eynilik içində bir neçə fərd mütləq tapılır. İki tam eyni ailə də tapmaq mümkün deyil" (96, 14).

Əsərdə tədqiqat mövzumuzla bağlı diqqəti cəlb edən maraqlı cəhətlər çoxdur. Lakin mənəviyyatda, o cümlədən milli iftixarda yaxınlıq, hətta eynilik də ola bilər. Əgər şəxslər eyni milli-mənəvi dəyərlərdən bəhrələnirsə, strateji xəttimiz azərbaycançılıq ideologiyası üzərində qurulan milli dövlətçilikdirsə, təbii olaraq burada müəyyən yaxınlıq, eyniyyət olmalıdır.

R.İ. Əliyev şəxsiyyətin formalaşdırılmasının etno-pedaqoji əsaslarını tədqiq edərkən belə bir nəticəyə gəlir: "Milli xüsusiyyətlərin, milli özünütəsdiqin çoxsaylı atributları vardır. Bunlar həm ümumbəşəri, həm də fərdi olmaqla, yalnız o xalqa xas olan xüsusiyyətləri əks etdirir.

Xalqın kimliyi, onun mənəviyyatı da daim tərbiyə edilməli, cilalanmalıdır. Milli hiss, milli şüur, milli xarakter, milli mənlik və sairə bir tərəfdən xalqın adət-ənənələrində, davranışında, dünyagörüşündə özünü göstərirsə, eyni zamanda adət-ənənə, davranış, həyat tərzi özləri də milli hisslərə, milli şüura, milli xarakterə, milli mənliyə təsir göstərir" (36, 38).

Müəllif problemin tarixini, inkişaf tendensiyalarını araşdırmaqla yanaşı, həm də gələcəyi proqnozlaşdırmağa çalışmış, baş verən aşınmaların aradan qaldırılması yollarını da göstərmişdir. Tədqiqat işində diqqəti cəlb edən məsələlər içərisində azərbaycanlılara xas olan müsbət və mənfi keyfiyyətlərin ümumiləşdirilməsi daha maraqlıdır. Müəllif qonaqpərvərlik, torpağa, ailəyə, kökə bağlılıq, böyüyə hörmət, kiçiyə qayğı, kişi sözü, çörəyə hörmət, mərdlik, qeyrət, milli təəssübkeşlik, məğrurluq, milli mənlik, milli qürurluluq, qadına hörmət, sadəlik, istiqanlılıq, nəsillər arasında anlaşma (36, 89-90) kimi müsbət keyfiyyətləri diqqət mərkəzinə gətirmişdir ki, bunlar da xalqımızın minilliklərlə formalaşmış milli-mənəvi dəyərləridir. Bu dəyərlər bir millət kimi bütün dövrlərdə xalqımıza şərəf və hörmət gətirmiş, tarixən adı çəkilən milli-mənəvi dəyərlər yüksək qiymətləndirilmişdir. Fransız yazıçısı A. Düma "Qafqaz səfəri" əsərində yazırdı: "Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur. Söz verdi, qurtardı" (22, 55).

Atalar sözlərində, zərbi-məsələlərdə də milli ləyaqət, milli qürur, milli vüqar məfhumlarının mənası duyulur: “Kişinin sözü bir olar”, “Kişinin sözü ilə işi bir olar” və s.

H.H. Əhmədov tədqiqatçı-alimin yazdıqlarının əksəriyyəti ilə razılaşsa da, lakin “azərbaycanlılara xas olan başlıca mənfi keyfiyyət və xüsusiyyətlər” deməsi ilə razılaşmır. Buraya: paxıllığı, sadəlövhlüyü, yaltaqlığı, yekəxanalığı, tənbəlliyi, mənəm-mənəmliyi, fərdiyəçiliyi, haqqını tələb edə bilməməyi, qeybətçiliyi, biganəliyi, pintiliyi, zövqsüzlüyü, başqalarına ağıl verməyi, əşyapərəstliyi, başqalarına tez inanmağı, unutqanlığı, emosionallığı aid etmək ilə, H.H. Əhmədovun fikrinə görə, razılaşmaq doğru deyildir. Hər hansı topluya, kütləyə, qaraguruha, tayfaya, nəslə yuxarıdakı sözləri demək, bəlkə də mümkündür. Lakin bütün azərbaycanlılara şamil etmək məqsədəuyğun deyildir (35, 36).

Uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadənin imkan və yolları araşdırılarkən əmin olunmuşdur ki, milli-mənəvi dəyərlər milli tərbiyə prosesində ən qüdrətli vasitədir. Uşaq ədəbiyyatı yarandığı gündən xalqımızın yaşayışını, müdrik tərbiyəvi fikirlərini, nəsihətlərini, kəlamlarını özündə birləşdirərək qüdrətli tərbiyəvi rol oynamışdır. Bu ədəbiyyatda “ağayanalıq, alicənablıq, mətanətlilik, qürurluluq, təmkinlilik, səxavətlilik, vəfalılıq, sadiqlik, ədəbli və mərifətli olmaq, düzlük, doğma yurdunu, onun tarixini, ana torpağı, yaşadığı ölkəni və onun əhalisini sevmək, həyatını, canını və qanını həmin yurdun, torpağın, ölkənin, xalqın səadəti və xoşbəxtliyi uğrunda mübarizəyə həsr etmək, vətənin bərəkətli çöllərinə, təbii milli sərvəti olan dağlarına, çəməninə, meşəsinə, dənizinə, göllərinə, çaylarına, düzlərinə vurğun olmaq, Vətənin çiçəklənməsi üçün əlindən gələni etmək və lazım gəldikdə vətən yolunda mərdliklə, fədakarlıqla mübarizə aparmağa, hətta canından keçməyə hazır olmaq” kimi insani hisslər təqdim olunur (54, 62).

Əsərdə “Vətənə sədaqət və milli orduya məhəbbət”, “milli həmrəylik və sülhsevərlik”, “insanpərvərlik” və s. kimi yüksək fəzilət bildirən əxlaqi keyfiyyətlər ruhunda kiçik yaşlı məktəblilərin tərbiyə olunmasından bəhs edilir. Vətənə sadiqlik – xalqa, doğma torpağa, xalqın maddi və mənəvi sərvətlərinə, adət

və ənənələrinə məhəbbət, bağlılıq və vurğunluq kimi şərh olunur. Doğma torpağa məftunluq, onun qayğısına qalmağın Azərbaycan xalqının nəcib əxlaqi keyfiyyətlərindən olduğu vurğulanır. Bununla yanaşı, torpağa, ana yurda – Vətənə məhəbbət, ona hədsiz sədaqət mənəviyyatımızın ayrılmaz tərkib hissəsidir və buna görə də təbii olaraq həmin keyfiyyət həm şifahi, həm də yazılı ədəbiyyatımızda həmişə vəsf edilən yüksək mənəvi dəyərlərdən biri olmuşdur, belə bir dəyər olaraq da qalmaqdadır (54, 110).

Əsərin müəllifi uşaq ədəbiyyatında milli-mənəvi dəyərləri araşdırmış, kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində milli-mənəvi dəyərlərin oynayacağı yolları müəyyənləşdirmişdir. Müəllif tədqiqatın məqsədinə uyğun olaraq əsas diqqətini uşaqların ancaq əxlaq tərbiyəsinə yönəltmişdir. Əsərdə kiçik yaşlı məktəblilərin milli qürur hissi tərbiyəsinə yaxın müəyyən fikirlər söylənilsə də, lakin həmin tərbiyənin imkan və yollarına toxunulmamışdır. Bu nöqteyi-nəzərdən də tədqiq etdiyimiz  problem öyrənilməmişdir.

"İbtidai sinif dərsliklərindəki bədii nümunələrdə tərbiyə məsələləri" adlı əsərdə isə tərbiyə məsələləri belə qruplaşdırılır: elmə və əməyə çağırış, məktəb və maarif ideyalarının təbliği, vətənpərvərlik tərbiyəsi, ata-anaya hörmət, valideyn-övlad münasibətləri, əxlaq tərbiyəsi (40, 13-70). Müəllif əxlaq tərbiyəsini izah edərkən səhvlərə yol verir, "Özü haqqında düşünməyib, başqası üçün həyatını qurban vermək" ideologiyasını təbliğ edir. Qərb tərbiyəsində isə öndə şəxsiyyətin özünütəsdiqi, özünüqiymətləndirməsi durur. Digər tərəfdən, müəllif milli qürurluluq tərbiyəsinə ötəri toxunsa da, onun mahiyyətinə və məzmununa müdaxilə etməmişdir.

Uşaqlarda milli qürur hissinin tərbiyəsi təkcə məktəbdə aparılan işlə məhdudlaşmamalıdır. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində bu məsələ öz həllini belə tapmışdır: "Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir". 34-cü maddənin 4-cü bəndində isə yazılır: "Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur" (15). Göründüyü kimi hüquqi sənəddə uşaqların

tərbiyəsi işinin valideynlərin borcu olduğu göstərilmişdir. Bu baxımdan, X.Q. Fətəliyevin “Ailədə milli tərbiyə” (49) kitabı da maraqlıdır.

Millilik və şəxsiyyətin inkişafı, milli tərbiyənin məzmunu və qaynaqları, yeniyetmələrin milli tərbiyəsi, uşaq və yeniyetmələrdə milli ruhun aşılanması yolları, gəncliyin Vətən əxlaqı, piranilik və milli ləyaqətdən danışan müəllif uşaqların ailədə milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması problemini əhatə etmişdir. Milli tərbiyənin məzmununa: adət-ənənələrimizi, davranış normalarımızı, qaynaqlarına isə: filosofların fikirlərini, dini qaynaqları, məktəb qaynaqlarını, incəsənət nümunələrini, ənənə və xalq təbabətini (49, 29-74) aid etmişdir. O, əsas məqsədindən danışarkən milli tərbiyədə ailənin rolunu göstərməklə yanaşı, həm də ailədə milli tərbiyənin təşkili şərtlərini də müəyyənləşdirmişdir. Professor qeyd edirdi ki, ailədə milli tərbiyəni düzgün həyata keçirmək üçün aşağıdakı pedaqoji şərtlərə əməl etmək lazımdır: “Valideyn olmağa mənən və ruhən hazır olmalısınız. 2. Övladlarınızın tərbiyəsinin elmi əsaslarını öyrənməlisiniz. 3. Uşaqla tərbiyə prosesini səmərəli təşkil etməyin metodikasını düzgün qurmağı bacarmalısınız. 4. Uşaqla tərbiyə işinizi ardıcıl və səmərəli təşkil etməlisiniz. 5. Uşaqla tərbiyə işinin təşkilindən zövq almalısınız. 6. Uşaqların tərbiyəsində siz valideynlər vahid mövqedən hərəkət etməlisiniz və s.” (49, 82-91). Müəllifin göstərdiyi bu şərtlər yalnız milli tərbiyədə deyil, ümumiyyətlə tərbiyədə əsas götürülməlidir.

Azərbaycan pedaqoji fikir tarixindən, xalq pedaqogikası nümunələrindən aydındır ki, qədim zamanlarda pedaqoji tələbləri bilməyən ata-babalarımız çox gözəl milli-mənəvi dəyərlərə sadiq qalan uşaqlar tərbiyə ediblər. Ailədə uşaqların tərbiyəsində əsasən milli adət-ənənələr, həyat nümunəsi aparıcı yer tutmuşdur. “Azərbaycanda ailə-məişət adətlərini təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: qonaqpərvərlik, çörəyə hörmət, böyüyə hörmət, ailə bayram və ənənələri, dini mərasimlərin (məhərrəmlik, orucluq, qurban bayramı və s.) ailələrdə icra edilməsi, müəyyən dini inamların əhalinin bir hissəsi arasında təzahürü, müasir ailə adətləri” (49, 173).

Uşağın milli-mənəvi tərbiyəsində islam amilinin oynadığı rol da tədqiqatçıların xeyli hissəsini maraqlandırmışdır. Onlar göstərirlər ki, islam -

özlüyündə kamil əxlaq sisteminə malik olan sonuncu səmavi dindir. Qurani-Kərimdə Peyğəmbərə (s) xitabən "Sən böyük əxlaq üzərindəsən" buyurulur. Peyğəmbərimizin hədislərinin birində "mən əxlaq gözəlliklərini tamamlamaq üçün göndərilmişəm" – deyilir. Qurani-Kərim başdan-başa əxlaqi dəyərlərin təbliği üzərində qurulmuşdur. Peyğəmbərimizin həyatı, hədislər ən qüdrətli tərbiyə vasitəsidir. Bunları nəzərə alan Xatəmi-Ənbiya "Həzrəti Məhəmməd və həyatı" (Ankara, 1997) adlı kitabında göstərir ki, ata və ananın ən mühüm vəzifələrindən biri də uşaqların mənəvi saflığının qorunub saxlanmasına, mənəviyyatına, qüruruna diqqət yetirmələrindən ibarətdir (56, 26). Müəllif islamın uşaqların milli qürurluluq tərbiyəsində rolunu açıqlamamışdır.

İslamda tərbiyə məsələsinin qoyuluşu Z.İ. Qaralov tərəfindən daha geniş tədqiq edilmişdir. O, göstərir ki, Quranda əxlaqi təlim ən geniş yer tutur və iki istiqamətdə, iki məqsədlə tətbiq edilir. Birincisi, səhv yoldan çəkindirmək; ikincisi, düz yolla inkişafı sürətləndirmək (və ya inkişafa sövq etmək). Çəkindirmələrin tərkib hissələri: hədə, qorxutma, çağırış, lənətləndirmə, xəcalət, öyüd-nəsihət, moizə, məsləhət, anlatmaq, eyham, tənbeh, nəzərə çatdırmaq, töhmət, xəbərdarlıq, təcridetmə, cərimə. Bunlar bir növ cəza kimi tətbiq olunurlar...

Qorxutma vasitələri: Allahın qəzəbi, qiyamət günündəki mühakimə, cəhənnəm əzabı, xalqın qəzəbi (69, 31-32). Z.İ. Qaralov yüksək tədqiqatçılıq məharəti ilə Qurani-Kərimdə övlad-valideyn münasibətinin, qadınlara münasibət, Vətən, vətənpərvərlik, milli mənlik, milli iftixar məsələlərinin qoyuluşunu araşdıraraq milli tərbiyə konsepsiyasının sistemini vermişdir.

Qənaətimizə görə, islam dəyərlərindən istifadə ən yaxşı elmi təhlilini Z.İ. Qaralovun əsərində tapmışdır. Yeri gəldikcə, tədqiqatın fəsillərinə uyğun bu əsərin ideyalarına müraciət edəcəyik.

Beləliklə, deyilənlərdən belə qənaətə gəlmək olar ki, Azərbaycan Respublikası müstəqillik qazanandan sonra tədqiqatçılarımız şagirdlərin tərbiyəsində milliliyin aparıcı yer tutduğunu əsaslandırmağa çalışmış, imkanlarından və həyata keçirilməsi yollarından bu və ya digər dərəcədə söz

açmışdır. Lakin kiçik yaşlı məktəblilərin milli qürur hissi tərbiyəsində məktəb və ailənin birgə fəaliyyətinin imkanları və yolları tədqiqat obyekti olmamışdır.

Problem baxımından təhlilə cəlb etdiyimiz əsərlərdən biri də L.N. Qasımovanın "Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən" (Bakı, 2004) adlı əsəridir (72). Əsər böyüməkdə olan nəslin Azərbaycan xalqının milli-mənəvi dəyərlər əsasında tərbiyəsi məsələsinə həsr olunmuşdur. Monoqrafiyada problemin qoyuluşu, məzmunu, işlənmə səviyyəsi, tədris prosesində və sinifdənkənar tədbirlər zamanı xalqımızın milli-mənəvi dəyərləri əsasında şagirdlərin tərbiyəsinin optimal yolları ümumiləşdirilmişdir.

Problemin pedaqoji və psixoloji əsasları ilə bağlı göstərmişik ki, milli qürur hissinin məktəblərdə formalaşdırılmasında ən əlverişli vasitə xalqımızın milli və ümumbəşəri dəyərləridir. Bu baxımdan L.N. Qasımovanın aşağıdakı fikirləri diqqəti cəlb edir: "...milli və ümumbəşəri mənəvi dəyərlərin mənimsənilməsi insan mənəviyyatının və dünyagörüşünün formalaşmasında çox mühüm rol oynayır. Onlar bəşər sivilizasiyasının meydana gəldiyi vaxtdan bəri keçilmiş tarixi mərhələlərdən süzülüb gələrək zənginləşmiş, şüurlara həkk olunmuş, laylalarda, atalar sözlərində, nağıllar və dastanlarda, rəvayətlərdə, yazılı ədəbiyyatda, mütəfəkkirlərin və müdriklərin deyimlərində əxz olunmuşdur" (72, 3).

Milli qürur hissi məhfumu və milli qürurun formalaşdırılması baxımından əsər diqqəti bir də ona görə cəlb edir ki, milli qürur anlayışına çox yaxın olan "milli ləyaqət" məhfumu geniş aydınlaşdırılır. Göstərilir ki, "Ləyaqət, şərəf və vicdan da xalqımızın ən mühüm dəyərlərindəndir.

*Ləyaqət* - hər bir insanın bir şəxsiyyət kimi özünü dərk etməsi, öz heysiyyatını qoruması və başqalarının heysiyyatına hörmətlə yanaşması, kollektivdə, xalq, kütlə arasında nüfuz qazanmaq qabiliyyətidir.

*Şərəf* - əxlaqi kateqoriya kimi insan ləyaqətinin qorunub saxlanılması, kollektiv, xalq və cəmiyyət tərəfindən bəyənilən və qiymətləndirilən fəaliyyətin nəticəsidir.

*Namus* - insanın təbiətən daxili mənəvi ləyaqəti, mərdliyi, düzlüyü, alicənablığı və təmiz vicdanıdır. Namuslu insan–dogruçu, həqiqətpərəst, vicdanını

unutmayan, sözündə etibarlı və möhkəm əqidəli adamdır, ona hər şeyi etibar etmək olar.

*Namus* - insanın özünün, habelə ailəsinin ləyaqəti və şərəfini qorumaq, onların saf və ləkəsiz olmasına çalışmaq və onun uğrunda fəda olmaq deməkdir. Bu əxlaqi keyfiyyət azərbaycanlılarda daha müqəddəsdir. Vaxtilə azərbaycanlılar arasında da yayılmış qan düşmənçiliyinin əsas səbəbini namus və ləyaqət toxunulmazlığı təşkil etmişdir.

Onu da qeyd edək ki, bu mənəvi dəyərlər həmişə bir-birini tamamlamışdır, onlar arasında keçilməz sədd olmamışdır.

Ləyaqət insanın rəftar və davranış normalarına münasibətilə müəyyən olunur.

Ləyaqət, şərəf və namus şəxsiyyətin yüksəkliyini göstərən ən ülvi və mənəvi dəyərlərdir. İnsan şəxsiyyətinin bu ülvi dəyərləri əxlaqiliyin vicdan kateqoriyası ilə də sıx bağlıdır. Çünki vicdansız insanda nə ləyaqət, nə şərəf və nə də namus ola bilməz” (72, 19).

Azərbaycan xalqının, azəri-türk millətinin milli qürurunu, milli mənliyini nəzərdə tutan L.N. Qasımova yazır: “Milli mənəvi dəyərlər Azərbaycanımızın çox diyarlarında, kənd və obalarında, ailələrində hələ də qalmaqdadır. Onlar hələ də məişətimizdə davam etdirilməkdədir. Bunlar Azərbaycan xalqının mənliyini müəyyən edən meyar olmuşdur. İctimai həyatda və məişətdə baş verən köklü dəyişikliklərə baxmayaraq sözü gedən mənəvi dəyərlər indi də azərbaycanlılıq “məni”ni qoruyub saxlamaq üçün böyük əhəmiyyət kəsb edir” (72, 23).

Sözügedən əsər məktəblilərin milli mənəvi dəyərlər əsasında tərbiyə olunması istiqamətində faydalı əsər sayılsa da, mövzusu və məzmunu baxımından apardığımız tədqiqatdan fərqlənir.

Milli qürurluluğa və tədqiq olunan problemə az-çox, yaxın ədəbiyyat müstəqillik şəraitində daha çox yazılmışdır. Onların bir qismi, məsələn, “Müsəlman bayramları”, “İlaxır çərşənbələr” kitabları problem baxımından daha çox elmi maraq doğurur. Onlardan Azərbaycan xalqının mənəviyyatının tərkib hissələrindən olan müsəlman bayramlarının və novruz bayramı ilə bağlı ilaxır çərşənbələrin

mahiyyətinə, xalqımızın milli mənəviyyatını, milli qürurunu müəyyən edən etnik psixoloji xüsusiyyətlərin elmi, nəzəri mahiyyəti və praktik əhəmiyyətinə, milli təəssübkeşlik, milli mənlik, milli qürurluluq, milli qeyrətlilik nümunəsi olan qədim el adətlərinə dair elmi maraq doğuran materiallar verilmişdir. Xüsusən, "Müsəlman bayramları" kitabçasında, Ə.Z. Əhmədovun "Mənəviyyat, gözəllik, tərbiyə" və Z.İ. Qaralovun "Tərbiyə" adlı kitablarında problem baxımından dəyərli fikirlər vardır. Lakin Ə.Z. Əhmədovun sözügedən kitabı 1993-cü ildə nəşr olunmasına baxmayaraq, onda sovet ideologiyasının təsiri nəticəsində ifadə olunmuş sovet vətəndaşının qüruru, sovet adamının iftixar hissi ifadələrinə rast gəlirik. Kitabda "fəal həyat mövqeyi", "tənqid və özünütənqid" kimi məfhumlarının işlənməsi və onların şərh olunan mənası da buna nümunədir. İkincisi kitabda mənəviyyatdan qürur duymaqdan geniş bəhs edilsə də, onun yığcam mənası verilmir.

Z.İ. Qaralovun uç cildlik "Tərbiyə" kitabları da tədqiq etdiyimiz problemin öyrənilməsi nöqteyi-nəzərindən çox qiymətli əsərlərdir. Həmin kitablarda problemlə əlaqədar nəzəri və praktik əhəmiyyətə malik qiymətli məlumat, fikir və ümumiləşmələr öz əksini tapmışdır. "Tərbiyə" anlayışı və onun məzmunu, "tərbiyə nəzəriyyələri qurmağın prinsipləri", "insanı tərbiyələndirməyin təsir üsulları və vasitələri", "məktəblilərin tərbiyəsinə kompleks yanaşma" və bir sıra milli mənəvi dəyərlərə (ədalət, doğruçuluq, inam, mübarizlik, qənaətçillik, səxavətlilik, təəssübkeşlik, vətənpərvərlik, tərəfkeşlik, iftixar hissi keçirmək, etibarlılıq, azərbaycançılıq), Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, islam mədəniyyətinin tərbiyə məsələlərinə dair kitabda verilmiş geniş material və məlumatlar (69, 193-314) fikrimizi təsdiq edir.

Kitabda (3-cü cild) çağdaş tərbiyənin milli-hüquqi bazasına aid sənədlərin verilməsi də müasir dövrdə bütün pedaqoji tədqiqatlar, o cümlədən məktəblilərdə milli qürurluluq tərbiyəsinin araşdırılması üçün təqdirəlayiq vəsait hesab edilməlidir.

Tədqiq olunan problemə müəyyən yaxınlığı nöqteyi-nəzərdən. S.M. Quliyevin "Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti" (74; 75) əsərləri də maraq doğurur.

Həmin kitablar xalqımızın milli-mənəvi dəyərlərindən biri olan əxlaqiliyin ümumi nəzəri və təcrübi məsələlərinə həsr olunmuşdur. Onlardan əxlaq problemi, ədalətə, şərəfə, ləyaqətə, namusa, qeyrətə, xeyirxahlığa, təvazökarlığa, vətənpərvərliyə, yoldaşlığa, dostluğa, əməksevərliyə, təəssübkeşliyə, şəxsi qürura, iftixar duyğu-larına dair fikirlər, onların tərbiyəsi və aşılanmasında təlimin və ailə tərbiyəsinin rolu, milli mənəvi keyfiyyəti nizamlayan əxlaq normalarının mahiyyəti və məzmunu kimi məsələlər yığcam şəkildə şərh edilmişdir. Problemin öyrənilib mənimsənil-məsində bu əsərlərin əhəmiyyəti danılmazdır.

Lakin "Müasir gəncliyin əxlaq normaları"dan nədənsə "milli-mənəvi şüurun formalaşması əxlaq normalarının əsas əlamətlərindən biri kimi" verilməsi ilə razılaşmaq çətindir. Fikrimizcə, əksinə, əxlaq normaları milli-mənəvi şüurun formalaşması üçün əsas əlamətlərdən biri hesab edilə bilər.

X.Q. Fətəliyevin "Ailədə milli tərbiyə" adlı kitabı (49) adından göründüyü kimi ailədə milli tərbiyə məsələlərinə həsr olunmalı idi. Əsərdə ailədə milli tərbiyənin konkret yolları və təcrübəsindən yığcam şəkildə mənəvi tərbiyədən, onun mühüm aspektlərindən, təsnifatından, tərbiyədə irsiliyin, qismətin, taleyin, ictimai, təbii, sosial və iqtisadi mühitin rolundan, milli adət-ənənələr və davranış normalarından, milli tərbiyənin qaydalarından, mənəvi tərbiyədə ailənin rolundan və s. məsələlərdən bəhs olunmuşdur. Əsər sırf sovet ideologiyası, sovet vətənpərvərliyi ruhunda yazılmışdır.

N.M. Muxtarovanın "Məktəblilərdə milli şüur və milli ləyaqətin tərbiyə edilməsi" adlı kitabı (89) və eyni adlı doktorluq dissertasiyası ümumtəhsil məktəblərində şagirdlərdə milli şüur və milli ləyaqətin tərbiyəsi məsələlərini əhatə edir. Bunlarda təlim prosesində və sinifdənkənar tədbirlər zamanı məktəblilərdə milli şüur və milli ləyaqətin tərbiyə olunmasını təmin edən metod və üsullar araşdırılır. Kitab da, dissertasıya da respublikamızın yenicə müstəqillik əldə etdiyi dövr üçün mühüm əhəmiyyət daşımışdır.

A.M. Həsənovun "Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə" adlı monoqrafiyasında (54) Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən, xüsusən vətənə sədaqət və

milli orduya məhəbbət, milli həmrəylik və sülhsevərlik, insanpərvərlik, ədəb-ərkan, təbiətə məhəbbət, milli qürur, islam mədəniyyəti dəyərlərindən, təlim prosesində və dərsdənkənar tədbirlər zamanı kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə olunmasının nəzəri və təcrübi məsələləri ümumiləşdirilmişdir.

Sadaladığımız əsərlər kiçik yaşlı məktəblilərin milli qürur hissi tərbiyəsi yolun-da faydalı əsərlər olsa da, mövzunun məqsədi və məzmunu baxımından apardığımız tədqiqatdan fərqlənir.

Problemə bilavasitə aid olmasa da T.Ə. Cəlilovanın "Kiçik yaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması" adlı dissertasiyası (20) da maraq doğurur. Əsərdə kiçik yaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması diqqət mərkəzində dayanır. Bu işdə kiçik yaşlı məktəblilərin milli ideoloji tərbiyəsinə səthi toxunulur.

S.İ. Quliyevin həm pedaqogika üzrə elmlər doktorluğu dissertasiyasında (75), həm də monoqrafiyasında (74) məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyətinin imkanları müəyyənləşdirilir və bu imkanları reallaşdırmağın yolları göstərilir. Dissertasiya 30 il əvvəlki dövrü əhatə etdiyindən və kommunist ideologiyası əsasında yazıldığından müasir tərbiyə işlərində o qədər də yararlı deyil.

Mövcud pedaqoji ədəbiyyatın təhlilindən aydın olur ki, kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması üzrə işin sistemini yaratmaq xüsusi tədqiqatın obyekti olmasa da, problemin ayrı-ayrı məsələləri bu və ya digər tədqiqatçıların diqqət mərkəzində dayanmışdır. Lakin bizi maraqlandıran məsələlər məhdud çərçivədə, ötəri işıqlandırıldığından, onları daha əhatəli araşdırmağı qarşımıza məqsəd qoyuruq.

Elmi pedaqoji ədəbiyyatın təhlilindən aşağıdakı nəticələrə də gəlmək olar:

1. Elmi-pedaqoji ədəbiyyatın bir qismi sovet rejimi şəraitində yazıldığından onların əsas qayəsi kommunist - sovet ideologiyasına xidmət göstərmək, böyüməkdə olan nəsli "kommunizm qurucusunun əxlaq kodeksi", "inkişaf etmiş sosializm" cəmiyyəti ideallarına sadiqlik ruhunda tərbiyələndirməyin nəzəriyyə və təcrübəsini ümumiləşdirməkdən ibarət olmuşdur. Belə yanaşma tərzi, XX əsrin 90-

cı illərinin əvvəllərinə kimi nəşr olunmuş pedaqoji ədəbiyyatda da az-çox öz təsirini saxlamışdı;

2. Böyüməkdə olan nəslin milli ruhlu mənəvi tərbiyəsi, o cümlədən milli qürurluluq tərbiyəsi pedaqoji problem kimi XX əsrin 90-cı illərinin ikinci yarısından sonra meydana gəlməyə başlamışdır;

3. Problemə məktəb dövrü çərçivəsində ötəri yanaşılsa da, hələlik konkret şəkildə araşdırılıb ümumiləşdirilməmişdir;

4. Problem qismən öyrənilərkən əsas obyekt olaraq orta məktəbin V-IX sinifləri götürülmüşdür, ümumtəhsilin ibtidai pilləsi isə konkret şəkildə tədqiqat obyekti seçilməmişdir.

5. Bütün bunlar müstəqillik şəraitində ibtidai sinif şagirdlərinin milli qürurluluq tərbiyəsi zamanı məktəb və ailənin birgə fəaliyyətinin nəzəriyyə və təcrübəsini öyrənib ümumiləşdirməyin zəruriliyini zamanın çox vacib elmi tədqiqat vəzifələri sırasına çıxarmışdır.

## 1.4. Problem baxımından mövcud vəziyyətin öyrənilməsi və təhlili

Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması onların vətəndaşlıq tərbiyəsi sistemində mühüm əhəmiyyət daşıyan komponentlərindən biridir. Tədqiqat işinin predmeti uşaqların milli qürur hissi tərbiyəsində məktəbin ailə ilə birgə fəaliyyəti olduğundan tərbiyəçi-müəllimlərin yalnız ailə ilə bağlı apardığı işləri izləməyi qarşımıza məqsəd qoymuşuq. Uşaqlarda milli qürurluluq tərbiyəsinin səmərəliliyini artırmaq üçün ailənin məktəblə qarşılıqlı əlaqəsinin təsir dairəsini müəyyənləşdirmiş, təhsil müəssisəsi ilə ailənin problem baxımından qarşılıqlı əlaqəsinin təqdim etdiyimiz iş sisteminə daxil olan forma və yollarının səmərəliliyini üzə çıxarmağa çalışmışıq.

Uşaq məktəbə daxil olduqdan sonra onun həyatının yeni mərhələsi başlayır. Xüsusilə uşağın təlim fəaliyyətinə başlaması ilə məktəb onun həyatının mərkəzinə çevrilir. Məktəbdəki şagird kollektivi, müəllimin şəxsiyyəti və onun baxışları, söhbətləri, qarşılıqlı münasibətləri,şagirdlərin aldıqları biliklər, keçirilən müxtəlif

sinifdənxaric tərbiyəvi tədbirlər və s. bütün bunlar kiçik yaşlı məktəblilərdə milli qürur hissinin aşılanmasında və formalaşdırılmasında, o cümlədən vətəndaşlıq hazırlığında çox böyük rol oynayır.

Məktəbdə formalaşdırılan bilik, bacarıq və vərdişlərin ailədə daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi ibtidai sinif şagirdlərinin milli qürurluluq tərbiyəsi üçün mühüm əhəmiyyət daşıyır. Ailə və məktəbin tələblərdə vahidliyi, razılıqlı və qarşılıqlı əməkdaşlığı şagirdlərə verilən düzgün tərbiyənin başlıca şərtlərindən biridir. Tədqiqatdan müəyyənləşdirdik ki, bu əməkdaşlıq, əlaqə əsasən məktəbin təşəbbüsü ilə həyata keçirilir. Məktəbin valideynlərlə əlaqəsinin müxtəlif mütərrəqi formaları artıq geniş yayılmışdır. Ailənin təşəbbüskar kimi bu sahədə fəaliyyətini öyrənmək məqsədi ilə 150 ailədə (Gəncə, Göy-göl, Şəmkir, Daşkəsən şəhər və rayonlarda) anket sorğusu keçirdik (100 ailə şəhərdə, 50 ailə kənddə nəzərdə tutduq).

Anket sorğusuna daxil olan suallardan bəzisi belə idi:

1. Uşağınızı məktəbə qəbul etdirdikdən sonra məktəblə əlaqə saxlayırsınız?

2. Uşağınızın məktəbdəki təlim və tərbiyəvi fəaliyyəti ilə tanış olmaq, məktəbin (sinfin) təşkil etdiyi müxtəlif tədbirlərində iştirakını öyrənmək məqsədilə onun müəllimi ilə görüşürsünüz?

3. Uşağınızda milli qürur hissinin formalaşdırılması ilə əlaqədar müəllimlərdən məsləhət alırsınız?

4. Məktəbin valideynlər üçün keçirdiyi tədbirlərdə, o, cümlədən uşaqlarda milli qürur hissinin aşılanması ilə bağlı tədbirdə iştirak edirsiniz?

5. Müəllim ailəyə gələrək sizinlə uşaqlarınızda milli qürur hissinin formalaşdırılması barədə söhbətlər aparır?

Ailənin kənddə, yaxud şəhərdə yaşamasından, valideynlərin gənc və ya orta yaşlı olmasından, ailə başçılarının peşələrindən, ailənin sosial təminatından asılı olaraq müxtəlif cavablar alındı. Onlardan bəzilərinə diqqət yetirək.

1-ci sualla bağlı:

1. Əlaqə saxlamıram. Uşaq məktəbə gedəndən sonra onunla məşğul olmaq məktəbin borcudur.

2. Məktəblə əlaqə saxlamağa vaxtımız yoxdur.

3. Uşağı məktəbdən evə gətirməyə gedirəm. Əlaqəm yalnız belədir.

4. Bəzən əlaqə saxlayıram.

5. Müntəzəm əlaqə saxlayıram.

2-ci sualla bağlı:

1. Xeyir, görüşmürəm.

2. İş adamıyam. Görüşmək üçün vaxtım yoxdur.

3. Uşağı məktəbdən gətirərkən müəllimlə bu barədə danışıram.

4. Uşağın təlim fəaliyyəti ilə maraqlanıram, tərbiyəvi tədbirlərdə iştirakı ilə maraqlanmaq indiyədək yadıma düşməyib.

5. Ara-sıra məktəbə gedib, uşağımın təlim-tərbiyəsi ilə bağlı aparılan işlərlə maraqlanıram.

3-cü sualla bağlı:

1. Almıram.

2. Buna ehtiyac duymuram, uşağım ağıllıdır.

3. Bəzi hallarda uşaq evdə sözə baxmadıqda, xoşagəlməz hallara yol verdikdə müəllimindən məsələhət alıram.

4. Arabir məsləhət alıram.

5. Bəli, müəllimlərlə məsləhətləşirəm.

4-cü sualla bağlı:

1. İştirak etmirəm.

2. İştirak etmək istəyirəm, vaxt tapa bilmirəm.

3. Hərdənbir iştirak edirəm.

4. İştirak edirəm və tövsiyələrini yerinə yetirirəm.

5. Məktəbdə tez-tez oluram, amma uşaqların qüruru ilə bağlı tədbir görməmişəm.

5-ci sualla bağlı:

1. Müəllim evə gəlmir, uşağın adını məktəbə yazanda gəlib.

2. Lazım olanda babası məktəbə gedir. İclaslarda baba iştirak edir.

3. Uşağın tərbiyəsi ilə bağlı müəllim evə tez-tez gəlir, amma uşağın qüruru barədə söhbətlər aparmayıb.

4. Milli qürur çox yaxşı keyfiyyətdir. Müəllim söbbət etməsə də mən bunun tərəfdarıyam.

5. Müəllimin vətənpərvərlik tərbiyəsi ilə bağlı söhbətləri olub, lakin qürurluluq barədə yox.

Sorğunun nəticələrindən məlum olur ki, valideynlərin əksəriyyəti ya arzusu olmadığına, yaxud vaxt ayıra bilmədiyinə görə məktəblə əlaqə saxlamır. Və ya uşağı məktəbə aparıb-gətirəndə onun müəllimi ilə ani, ötəri söhbətlə kifayətlənir. Müəyyən qism valideynlər məktəbin təşəbbüsü ilə keçirilən tədbirlərdə iştirak edir, çox az qism valideyn isə, öz təşəbbüsü ilə məktəblə və müəllimlə əlaqə saxlayır, tədbirlərlə tanış olur, pedaqoji biliklərə yiyələnir və uşağın tərbiyəsində, o cümlədən vətənpərvərlik, milli təəssüb-keşlik tərbiyəsi üzrə işdə tələblərdə vahidliyi gözləyirlər. Beləliklə, öyrənilən ailələrin cəmi 35%-i tərbiyə işinin məktəblə qarşılıqlı əlaqədar qurduğunu qeyd etmişdir.

150 ailədən olan 300 uşaqla aparılan söhbətdən müəyyənləşdirdik ki, onların yalnız müəyyən qismi (10 şagird) milli mənəviyyat, milli adət-ənənələr, milli iftixar, milli qürur, vətənpərvərlik, azərbaycançılıq, dövlət, hüquq, borc, vəzifə anlayışlarına bələddirlər, ailədə öz əmək vəzifələri var, istər məktəbdə, istərsə də evdə milli adətənənələrin pozulmasına, milli mənsubiyyətin və əxlaqın ləkələnməsinə yol vermirlər. Öz marağının və mənafeyinin, dövlət, vətən mənafeyinin nədən ibarət olduğunu anla-yır, iftixarlıq, qürurluluq, məğrurluq, özünüməxsusluq, müstəqillik nümayiş etdirirlər (uşaqların milli qürurluluq tərbiyəsinə məqsədyönlü yanaşan, məktəbin milli-mənəvi tərbiyə ilə bağlı təşkil etdiyi tədbirlərində iştirak edən valideynlərin, eləcə də yüksək təhsilli ziyalıların uşaqları).

Təcrübi-eksperimental öyrənmə məqsədilə həmin 150 ailənin uşaqlarının oxuduqları məktəblərlə birlikdə valideynlərin hamılıqla iştirakı və əlaqəsini təmin edən, onları milli qürurluluq tərbiyəsinə aid pedaqoji biliklərlə silahlandırmağa imkan verən iş planı hazırladıq. Müxtəlif iş formalarından istifadə edildi. Vali-

deynlərlə bir illik ardıcıl, planlı, sistemli aparılan tədbirlərdən sonra tədricən ailə ilə məktəb arasında iş üslubu formalaşdı. Bu müddətdə, əlbəttə, məktəb də öz işini canlandırdı, yenidən qurdu. Tədqiqat göstərdi ki, ailədə bütövlükdə tərbiyəvi təsirlərin səmərəliliyi xeyli dərəcədə məktəbin bu işdə iştirakından asılıdır və valideynlərin məktəblə əlaqəsinin zəifliyinin əsas günahkarı başlıca olaraq elə məktəbin özüdür.

Ailə ilə məktəbin qarşılıqlı əlaqəsi, əməkdaşlığı şəraitində olan elə həmin 150 ailə ilə iki il sonra yenidən eksperimental-sınaq işi keçirərkən faydalılıq nəticəsi 75%-ə qalxmış, uşaqların isə 60%-ində milli iftixar, milli qürurluluq hissi formalaşmışdır.

Tədqiqat nəticəsində müəyyənləşdirdik ki, valideynlərin məktəblə əlaqəsini gücləndirmək, valideynlərin arzusunu nəzərə alaraq hər hansı tərbiyəvi sahədə, tutaq ki, bizim öyrəndiyimiz kiçik yaşlı məktəblilərin milli qürurluluq tərbiyəsi üzrə ailədə səmərəliliyi artırmaq üçün məktəb pedaqoji cəhətdən öz rəhbər rolunu həmişə yerinə yetirməli, valideynləri bu işə səfərbər etməli, hazırlamalıdır. Tərbiyə işinə həvəs göstərən, yaxud məktəblə müntəzəm əlaqə saxlayan, ailədə uşaqların milli qürurluluq tərbiyəsinə diqqət yetirən beş-on ailə ilə ümumi vətəndaşlıq tərbiyəliliyi səviyyəsinə nail olmaq qeyri-mümkündür. Odur ki, biz ilkin olaraq məktəbin ailə ilə problem baxımından işinin təşkilini həyata keçirdik. Məktəb pedaqoji kollektivlərinin valideynlərlə əlaqəli işini məlum iki istiqamətdə həyata keçirdik: fərdi və kollektiv. Bu istiqamətlərdə aparılan işlərin müxtəlif formalarından istifadə olundu. Məsələn, Gəncə Dövlət Universitetinin baza məktəbləri olan Gəncə şəhəri akademik Mehdi Mehdizadə adına 4 №li və Mir Cəlal Paşayev adına 39 №li tam orta məktəblərdə gənc valideynlər üçün "Pedaqoji bilik klubu" təşkil edildi, valideynlər üçün millimənəvi dəyərlər, o cümlədən uşaqlarda milli qürur hissinin formalaşdırılmasının əhəmiyyəti, vətəndaş tərbiyəsdində onun rolu mövzusunda ibtidai sinif müəllimləri və valideynlər üçün metodik dərslər təşkil edildi, şagirdlərin hərəkətləri milli qürur hissi tərbiyəsi baxımından müəllim və valideynlər qarşısında bizim tərəfimizdən təhlil edildi. Mütəmadi keçirilən belə tədbirlərdə valideynlərə Azərbaycan torpaqlarının bir hissəsini işğal edən erməni

təcavüzkarlarının vəhşi hərəkətlərini, ordumuzun müasir durumunu və döyüş imkanlarını əks etdirən filmlər göstərildi, milli qəhrəmanların validenləri və yaxın qohumları ilə görüşlər keçirildi, şagirdlərin evlərinə gedib ailəyə uşaqların milli iftixar, milli qürurluluq tərbiyəsinə aid məsləhətlər verildi və s.

Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması ilə bağlı valideynlərlə fərdi qaydada aparılan işin müntəzəm və məzmunlu olması problem baxımından xüsusi əhəmiyyətə malikdir. Valideynlərlə aparılan söhbətlər əsasında müəyyənləşdirdik ki, bu sahədə valideynlərlə iş aparılmamalıdır. Mürəkkəb və rəngarəng xarakterli milli qürur hissinin aşılanması və mərhələ-mərhələ formalaşdırılması prosesini müəllim planlı, ardıcıl və sistemli qurmalı, hər bir fərdi görüşün hansı nəticə verəcəyinə əvvəlcədən təxmini də olsa müəyyənləşdirməli, bu cavaba hazır olmalı və sonrakı addımı (mərhələni) düşünməlidir.

Fərdi iş müəllimin valideynlə fərdi görüşü formasında olduğu kimi, bu, valideynin də müəllimə müraciətində öz əksini tapmalıdır. Hər iki halda müəllim valideynin ən yaxşı məsləhətdaşına çevrilməlidir. Belə olduqda vəziyyət daha aydın aşkarlanır və məsələnin həlli asanlaşır, valideyn uşağın qüruruna, mənliyinə müsbət təsir edəcək problemləri, çətinlikləri, hətta heç kəsə söyləmədiyi ailədaxili münasibət-ləri barəsində müəllimlə məsləhətləşir. Bu halda müəllim tədqiq olunan problemlə bağlı ailədəki vəziyyəti, ailə üzvlərinin düşüncə tərzini, uşağa təsir edəcək anti milli və mənəvi hərəkət və davranışlarını dəqiq təsəvvür edə bilir, ona görə də problemə düzgün pedaqoji-psixoloji mövqedən yanaşmaq imkanına malik olur. Lakin burada müəllim və valideyn arasındakı qarşılıqlı etibar, bir-birinə inam hökmən nəzərə alınmalıdır. İkilikdə sirr olan vacib fərdi söhbətin məzmunu yalnız valideynlə müəllim arasında qalmalı, uşağa, və ya kiməsə çatdırılmamalıdır.

Valideyn əmin olmalıdır ki, müəllimə etibar edərək onunla uşağın qüruruna, mənliyinə, şəninə toxuna bilən hərəkəti, davranışı və s. haqqında danışdıqları müəllim tərəfindən yerli-yersiz uşaq üçün xatırlanmayacaq və anaya qarşı mənfi emosiya-lar doğurmayacaqdır. Təcrübi işi müşahidə edərkən bu cür faktlarla qarşılaşmışıq. Müəllim uşağın xalqa, millətə, vətənə, anaya qarşı etinasızlığından, biganəliyindən, davranışından narazı qalarkən onu danlayır və əlavə edib deyir ki,

elə anan da sənin evdə hərəkətlərindən, pintiliyindən gileylənirdi. Belə yanaşma, əksinə, uşaqda valideynə qarşı narazılıq yaradır və ümumiyyətlə işə, fayda vermir. Valideynlə söhbətdən uşağın milli mənəvi dəyərlərimizlə bağlı evdəki, ailədəki hərəkət və davranışının necəliyini öyrənən müəllim yalnız özü üçün qeydlər götürür, uşağın milli qürurluluq, milli iftixar hissləri, düşüncələri, mövqeyi, ümumi dünyagörüşü ilə bağlı valideynə məlumat verir, tələblərdə vahidliyi gözləmək üçün birlikdə təsir mövqeyi müəyyənləşdirirlər.

Müəllimlə valideynlərin qarşılıqlı fəaliyyətini şərtləndirən amillərdən biri də müəllimin də, valideynin də sözü ilə əməlinin bir olmasıdır. Əgər valideyn müəllimə uşağın səhhəti və davranışları ilə əlaqədar (unutqan olması, dözümsüzlüyü, qan azlığı, ürək qüsuru və s.) məlumat verir, bunun nəzərə alınmasını və ya aradan qaldırılması üçün təmrinlərdən istifadə olunmasını xahiş edirsə, müəllim bu cəhətləri nəzərə almalıdır. Əks təqdirdə, valideyndə inamsızlıq yaranacaq, əlbir fəaliyyət alınmayacaqdır.

Müşahidələr zamanı valideynlərin müəllimdən fərdi olaraq uşağının partada yerinin dəyişdirilməsini, yaxud onun tez-tez soruşulmasını, yaxud uşaqla münasibətdə yumşaq və ya sərt olmağı, küsəyənliyinin nəzərə alınmasını və s. bu kimi xahişlərin edildiyinin şahidi olmuşuq. Valideyn şıltaqlığından irəli gəlməyən bütün məlumatlar nəzərə alındıqda, xahişlər yerinə yetirildikdə valideyn-müəllim fərdi işi uğurlu alınır. Müəllimə valideynin inamı, şagirdlərin həm məktəbdə, həm ailədə hörmət və tələbkarlıqla, tələblərdə vahidliklə tərbiyə edilməsi onlarda vətənpərvərlik, milli mənəvi dəyərlərə hörmət və onlarla qürur duymaq kimi keyfiyyətlərin formalaşmasına ən münbit şərait yaranır, məktəbli vətəndaşlıq dərsləri alır.

Tədqiqatın gedişində onun da şahidi olduq ki, uşağa “qürurlu ol”, “iftixar hissi keçir”, “vətəndaş ol” deməklə, yaxud tez-tez “qürur”, “iftixar”, “fərəh” sözlərini işlətməklə uşaqda qürur hissi yaranmır və bu hiss tədricən milli qürur hissinə çevrilə bilmir. Əsas odur ki, bunun üçün mühit yaradılsın, milli qürurluluq əlamətlərini formalaşdıran və inkişaf etdirən şərait olsun, lazımi şərtlər nəzərə alınsın.

Kiçik yaşlı məktəblilərin ailədə milli qürurluluq tərbiyəsinin məqsədəuyğun gedişini təşkil etmək məqsədilə müəllim söhbətlərinin məzmununu Azərbaycan xalqüının milli-mənəvi dəyərləri ilə, müstəqil respublikamızın nailiyyətləri ilə, yeraltı və yerüstü sərvətləri ilə bağladıqda, daha uğurlu nəticələr alınaır.

Respublikamızın şəhər və kənd məktəblərində apardığımız müşahidələr zamanı 1-ci sinifdən başlayaraq hər bir valideynə konkret yaddaş – məsləhət kartoçkası verdik. Ailənin siyasi-ideoloji və mənəvi durumunu, psixoloji mühitini müəyyənləşdirmək üçün əvvəlcə ailəni, valideynləri öyrənməli olduq. Bu məqsədlə anket sorğusundan istifadə etdik. Valideynlərin cavablarından aydın oldu ki, ailənin tərkibi, marağı, sosial-iqtisadi, mənəvi vəziyyəti, təlabatı necədir və ona necə təsir göstərmək mümkündür.

Anket sorğusu aşağıdakılardan ibarət idi:

1. Valideynlərin, ailədəki digər üzvlərin adı, soyadı.
2. Yaşları. Təhsilləri. İş yerləri, tutduqları vəzifə.
3. Ailənin ən çox maraq göstərdiyi iş, yaxud sahə.
4. İctimai fəaliyyətləri
5. Ailənin məişət şəraiti
6. Ailənin ümumi gəliri (qazancı)
7. Ailədə Qarabağ uğrunda döyüş iştirakçısı varmı?
8. Ailədə hansı ailə ənənələri və bayramlar gözlənilir?
9. Ailə söhbətlərinin əsas məğzini nələr təşkil edir?
10. Ailə tərbiyəsi zamanı uşaqlarda qürur duymaq, iftixar hissi keçirmək üçün hansı işlər görülür?
11. Məktəbin hansı tədbirlərində, işlərində iştirak etmək istərdiniz? (Sizə lazım olanın altından xətt çəkin).

a) Valideyn hansı ixtisas sahibi ilə xüsusi söhbət etmək istərdi (hərbiçi, milli qəhrəman, Qarabağ döyüşçüsü, sosioloq, psixoloq, defektoloq, psixiator, musiqişünas, rəssam, aqronom və b.);

b) Maddi və mənəvi zənginliyimizlə bağlı dərs vəsaitinin hazırlanmasında;

c) Məktəb avadanlığının təmirində;

ç) Hərbi vətənpərvərlik dərnəyinə rəhbərlik etmək;

d) Maddi və mənəvi zənginliyimizlə bağlı yerlərə ekskursiyaların keçirilməsinə kömək etmək;

e) Milli qürur hissinin formalaşdırılmasına xidmət məqsədilə təşkil olunan kino, teatr, muzey və digər mədəni yerlərə gediş və görüşlərin təşkilində iştirak etmək;

ə) Olimpiya və ya dünya çempionları ilə məktəblilərin görüşündə iştirak etmək;

i) Respublikamızın idman nailiyyətləri ilə bağlı tədbirlərin təşkilində iştirak etmək;

j) Məktəbin əmək – təsərrüfat işlərində iştirak etmək.

Anketdə olmayan suallar valideynin özü tərəfindən əlavə edilə bilər.

II. Uşağın adı, soyadı

1. Uşağınız asudə vaxtda nə ilə məşğul olmağı xoşlayır və bundan qürur duyur?

2. Uşağın ən sevdiyi və maraq göstərdiyi milli idman növü hansıdır?

3. Uşağınız daha çox hansı hərbi-idman oyununu sevir, əylənir və bundan zövq alır?

4. Daha çox kimlərin yanında olub onlarla təmasda olmağı xoşlayir (valideynləri ilə, yaşıdları ilə, qohumları ilə) oynayır (oğlanlarla, yoxsa qızlarla)?

5. Yoldaşları arasında özünü necə aparır (fəal, passiv, miyanə, özündən razı, yaxşı əməlindən zövq alan)?

6. Respublikamızın inkişaf istiqamətlərindən hansılar uşağın daha çox marağına, diqqətinə səbəb olub.

7. Sizcə, uşağınıza milli qürur hissləri aşılanarkən onun hansı fərdi xüsusiyyətləri nəzərə alınmalıdır?

Alınan cavabları təhlil edən, ümumiləşdirən müəllim ailənin, valideynlərin, uşağın fərdi-spesifik xüsusiyyətlərini nəzərə alaraq münasibət göstərir və hər biri ilə problem baxımından ayrı-ayrılıqda iş aparır.

Problemin təcrübədəki vəziyyətindən məlim olur ki, uşaqları 1-ci sinifə gedəcək hər bir valideynə "Uşaqlar evdə nə etməli, nəyi bacarmalıdırlar" adlı plan-yaddaş verilməsi və bu yaddaş üzrə nəzarət-məsləhət işi aparılması da kiçik yaşlı məktəblilə-rin milli qürurluluq tərbiyəsinin səmərəliliyinə müsbət təsir göstərir. Əvvələn, yaddaş təkcə şagirdin deyil, valideynin də sistemli, planlı, məqsədyönlü tərbiyəvi fəaliyyətini təmin edir. İkincisi, milli qürurluluq tərbiyəsinə hazırlıq işində çox mühüm əhəmiyyət daşıyan rejimin gözlənilməsinə, fəaliyyətin şüurluluğuna şərait yaradır.

Yaddaş hər bir sinif şagirdi üçün ayrı-ayrılıqda hazırlanır və bu zaman fərdi-psixoloji xüsusiyyətləri, yaşı, təcrübəsi, bilik və bacarıq səviyyəsi və s. nəzərə alınır. Məsələn, "Birinci sinif şagirdi evdə nə etməli, nəyi bacarmalıdır", "İkinci sinif şagirdi evdə nə etməli, nəyi bacarmalıdır", "Üçüncü sinif şagirdi evdə nə etməli, nəyi bacarmalıdır", "Dördüncü sinif şagirdi evdə nə etməli, nəyi bacarmalıdır".

Yaddaşa, həmçinin ayrı-ayrı siniflər üzrə valideynlər üçün pedaqoji göstərişlər əlavə edilir. Məsələn, birinci sinif şagirdinin valideyni üçün yaddaşa qeyd edilir:

1. Yalnız məktəblə birlikdə uşaqların milli qürurluluq tərbiyəsində və təlimində istənilən nəticəni almaq olar. Müəllim sizin həmfikriniz və ailənizin dostudur. Onunla həmişə məsləhətləşin.

2. Valideynlər üçün maarifləndirmə məşğələlərinə və yığıncaqlarına gəlməyiniz vacibdir. Əgər gələ bilməsəniz, bu barədə müəllimə ya sifarişlə, ya da kağız göndərməklə bildirin.

3. Uşağınızın təlim və tərbiyə sahəsindəki müvəffəqiyyətləri ilə hər gün maraqlanın. Tərbiyəvi inkişafı izləyin, uşağınızda hansı tərbiyəvi keyfiyyətlərin, o cümlədən milli qürur hissi ilə bağlı keyfiyyətlərin necə inkişaf etdiyini izləyin.

4. Uşağınızda hər gün respublikamızın nailiyyətləri ilə bağlı yeni-yeni məlumatları öyrənməyə maraq oyadın. Alınan məlumatların təhlilini aparın, öz xalqından, millətindən, müstəqil dövlətindən, onun uğurlarından qürur duyan əsil insan, vətəndaş necə olmalıdır ideyasını həyati faktlarla aydınlaşdırın.

5. Uşaqlarınızın məktəbdə öyrəndikləri, küçədə görüb götürdükləri məlumatları dinləyin, ona həqiqəti anladın. Onları hadisə və faktlara düzgün münasibət göstərməyə alışdırın.

6. Uşağınızda xeyirxahlıq, ədalətlilik, məsuliyyət, cavabdehlik, düzlük və doğruçuluq, qənaətçillik, vətən torpağına qayğılı münasibət və məhəbbət, milli sərvətlərimizin qədrini bilmək hisslərinin inkişafına hər gün səy edin, onun ləyaqə-tinin, şərəfinin, mənsubiyyətinin qorunması üçün hazırlıq aparın və s.

Bütün bunlar valideynlərin tərbiyəçilik fəaliyyətini tənzimləməkdən başqa, bu prosesdə məktəblə birgə fəaliyyət göstərməsini, nəticədə kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşmasını təmin edir.

Tədqiqat nəticəsində onu da müəyyənləşdirdik ki, şagirdlərə milli qürur hissinin aşılanması ilə bağlı valideynlərlə aparılan fərdi işin mühüm mərhələsini ailədə hər bir uşağın həyatı ilə tanışlıq təşkil edir. Bu iş hələ uşağın məktəbə hazırlığı dövründən başlanır. Ailəyə gələn müəllim şagirdin həyat şəraiti ilə, ailənin, evin ümumi ab-havası ilə tanış olur. Hələ ilk tanışlıqdan ailə həyatının mənəvi və pedaqoji yönümü, ailə ahəngi haqqında bəzi nəticələrə gəlmək mümkündür. Sonralar isə müəllim ailənin mənəvi-psixoloji iqlimini, ailə üzvlərinin bir-biri ilə, onları əhatə edən digər insanlarla qarşılıqlı münasibətini, ailə ənənələrini, ailə həyatının təşkilini, ailə kollektivində uşağın yerini və s. öyrənir.

Ailə ilə tanışlıq həm də qarşılıqlı məsləhətləşmə, tərbiyəvi yönümün düzgün istiqamətə salınması ilə müşayiət olunur. Beləliklə, ailənin müşahidə ilə öyrənilməsi, anket sorğularının təhlili və ümumiləşdirilməsi, valideynlərlə fərdi söhbətlər, yaddaş üzrə işin aparılması və s. ailə və məktəb əlaqələrinin qarşılıqlı olaraq yüksək ahəngini təmin edir və bu, kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasına müsbət təsir göstərir.

Təqdim etdiyimiz sistemdə valideyn kollektivi ilə məktəbin iş formasına da diqqət yetirilmişdir.

Məktəbin valideynlərlə işinin kollektiv forması haqqında pedaqoji ədə-biyyatda çox yazılıb. Biz həmin mövcud formalardan problem baxımından istifadə etmiş, kompleks pedaqoji və tərbiyəvi təsirlə səmərəli nəticə alınmasına nail

olmuşuq. Bunlardan birincisi valideyn iclaslarından maksimum faydalanması və valideynlərin iclaslarda iştirakının mütəşəkkil təmin edilməsidir.

Valideyn iclasları təcrübənin meydana çıxarılmasına və hamıya çatdırılmasına imkan verir. Eksperimentin aparıldığı məktəblərdə valideyn iclaslarına aşağıdakı məsələlərin müzakirəsini çıxardaq:

– Müəllimin uşaqlarda milli qürur hisslərinin formalaşdırılmasına aid nəzəri-praktik söhbətinin dinlənilməsi;

– Sinif şagirdlərinin milli qürur hisslərinin, iftixar etmə hərəkətlərinin və davranışlarının müəllim tərəfindən faktlarla təhlili və birlikdə müzakirəsi;

– Milli qəhrəmanlarla görüşlərin, şəhidlər qəbiristanlığına gedişlərin və s. bu qəbilli işlərin nəticələrinin müzakirəsi;

– Respublikamızın inkişaf tarixi, onun qəhrəmanlıq səhifələri, nailiyyətlərimiz, inkişaf səviyyəmiz haqqında pedaqoji söhbətlərin keçirilməsi;

– Valideynin (valideynlərin) uşağın ailədə milli qürurluluq keyfiyyətlərinin tərbiyəsi təcrübəsinə aid çıxışının dinlənilməsi və müzakirəsi;

– Müəllimin sinifdə tədris-tərbiyə işinin vəziyyəti haqqında məlumatının dinlənilməsi, müzakirəsi və s. Hər bir valideyn iclası məktəbə və eləcə də ailəyə aid qərar çıxarır. Bu qərarın yerinə yetirilməsi izlənilir və növbəti iclaslardan birində müzakirə edilir, qiymətləndirilir.

Valideynin ilk dəfə iştirak etdiyi yığıncaq onun üçün də məktəb rolunu oynayır. Ona görə də ilk valideyn yığıncağı dövlətçiliyi, azərbaycançılığı, milli ruhlu olması, mütəşəkkilliyi, istiqamətvericiliyi ilə diqqəti cəlb etməlidir. Ümumməktəb valideyn yığıncaqları məktəblilərdə milli qürur hissinin formalaşdırılması baxımından valideynlərin geniş dairədə daha mütəşəkkil fəaliyyət göstərmələrinə əsaslı şərait yaradır. Bundan əlavə, valideynlərdə kollektiv söhbət və məsləhətlərin keçirilməsi uşaqların milli ləyaqət, milli iftixar duyğularının tərbiyəsi baxımından valideynlərin hazırlanmasına geniş şərait yaradır.

Məktəbdə açıq qapı gününün keçirilməsi də problem baxımından məsələlərin qoyuluşuna imkan verir. Həmçinin məktəb valideyn komitəsinin,

ictimaiyyətin də iştirak etdiyi valideyn konfranslarından da ibtidai sinif müəllimləri prolem baxımından istifadə etmək imkanı qazanırlar..

III-IV sinif şagirdlərinin ailələri ilə işin planlaşdırılması zamanı müəllim irəlidəki illərin bu sahədəki fəaliyyətini təhlil edir, dəyişikliklər aparır, milli qürur hisslərinin tərbiyəsi işinin yeni səviyyədə, yeni keyfiyyətlərlə inkişaf etdirilməsini təmin edə bilir.

Tədqiqat belə bir ümumiləşdirmə aparmağa imkan verir: kiçik yaşlı məktəblilərdə milli qürur hisslərinin formalaşdırılmasının ailədə səmərəli təşkili və uğurla aparılması valideynlərin pedaqoji maariflənməsindən çox asılıdır. Məktəb öz məqsədyönlü təsiri ilə hər bir ailəni bunun üçün hazırladıqda və tərbiyəvi təsirlərini, xüsusilə vətəndaşlıq hazırlığı işindəki fəaliyyətini onlarla birlikdə həyata keçirdikdə istənilən nəticə alınır.

# II FƏSİL. KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASINDA MƏKTƏB VƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİNİN İMKAN VƏ YOLLARI

## 2.1. Məktəb və ailənin birgə fəaliyyəti kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanması vasitəsi kimi

Azərbaycan xalqının dahi oğlu, Ulu Öndər Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun ən üstün cəhətini belə vurğulamışdır: “Müstəqil Azərbaycan dövlətinin ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” (23).

Ulu Öndər milli qürur hissinin formalaşdırılmasının başlandığı yeri də göstərmişdir. Bu xüsusda demişdir: “Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin... Əgər bunu bilmirsə, o, millətini qiymətləndirə bilməz. Əgər onu bilməsə, o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz” (23). Məktəb isə gənc nəsildə milli qürur hissinin formalaşdırılması sahəsində Heydər Əliyevin onun üzərinə qoyduğu vəzifələri təkbaşına yerinə yetirə bilməz. Bu sahədə o, ailənin qüvvəsinə arxalanmalıdır.

Araşdırmamızdan məlum oldu ki, məktəbli-gənclərdə milli qürur hissinin formalaşdırılmasında məktəbin ailə ilə birgə fəaliyyətinin ümumi məqsədini konkret olaraq belə ifadə etmək mümkündür: Ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərini, valideynləri, eləcə də ailələrin digər yaşlı üzvlərini (baba və nənələri, böyük bacı və qardaşları və b.) təlim-tərbiyə işinə cəlb etməklə məktəblinin şəxsiyyətinə mütəşəkkil, mütəmadi və məqsədyönlü şəkildə təsir göstərmək. Bu əsasda onda mənəvi şüur və mədəniyyət, milli iftixar hissi, milli qürur hissi, düzgün davranış adət və vərdişləri formalaşdırmaq, qanuna, hüquqa, birgəyaşayış qaydalarına hörmətli münasibət tərbiyələndirmək, vətənpərvərlik,

milli-mənlik və ləyaqət hisslərini inkişaf etdirməyə nail olmaq, onların müasir səviyyədə təhsili və inkişafı qayğısına qalmaq.

Ulu Öndər tərbiyədə milliliyə xüsusi önəm vermiş və milli tərbiyənin elmi-nəzəri əsasını da göstərmişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər" (3, 11). Bu böyük ideya bütün tərbiyə prosesini əhatə etdiyindən, onu milli qürur hissi tərbiyəsi prosesi üçün də metodoloji ideya kimi qəbul etmək olar. Ulu öndər müasir dövrdə milli qürur hissi məfhumuna, onun məzmununa da aydınlıq gətirərək demişdir: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (30).

Apardığımız tədqiqatdan aydın oldu ki, probleminin uğurlu həlli üçün valideynlər dövlətimizin böyüməkdə olan nəslin tərbiyəsi sahəsində təhsil orqanları və pedaqoji kollektivlər qarşısında qoyduğu vəzifələrlə, təhsil və tərbiyənin ümumi məqsədləri ilə yaxından tanış edilməlidirlər. Valideynlər ana dilimiz, milli-mənəvi dəyərlərimiz və mədəniyyətimizlə, tariximiz və tarixi qəhrəmanlıq ənənələrimizlə bağlı maariflənməlidirlər.

Ata-anaların pedaqoji maariflənməsi qayğısına isə məktəbdə qalınmalıdır. Əgər valideynlər gənc nəslin tərbiyəsinin məktəblilərdə milli qürur hissinin məqsəd və vəzifələrini dumanlı şəkildə təsəvvür edirlərsə, onlar öz övladlarının təlim-tərbiyəsində müvəffəqiyyət qazanmaz və öz-özlüyündə aydındır ki, məktəbə yaxından köməklik göstərə bilməzlər.

Bu müddəanı əsas götürərək, ibtidai sinif şagirdlərinin milli iftixar hissi, milli-vüqar, milli qürur hissi tərbiyəsi sahəsində məktəb və ailənin birgə fəaliyyətinin istiqamətini aşağıdakı şəkildə müəyyənləşdirmişik: a) məktəbin şagirdlərlə işi; b) məktəbin şagirdlərin valideynləri ilə işi; c) məktəbin ən nüfuzlu, xüsusi nailiyyətləri olan nümayəndələri ilə işi; ç) məktəbin valideynlərlə birlikdə uşaq yaradıcılıq mərkəzləri ilə, veteranlar təşkilatı ilə və s.

Sadalanan məsələlərin öhdəsindən yalnız məktəblə ailənin, müəllim və ailə başçılarının əlbir, məqsədyönlü və sistemli fəaliyyəti nəticəsində gəlmək mümkündür.

Pedaqoji nəzəriyyədən məlumdur ki, təlim-tərbiyənin məqsəd və vəzifələri onların məzmununu müəyyənləşdirir. Bunun kimi şagirdlərdə milli qürur hissinin formalaşdırılmasında məktəbin ailə ilə birgə fəaliyyətinin məqsəd və vəzifələri birgə fəaliyyətin məzmununu da müəyyənləşdirir. Başqa sözlə desək, təlim və tərbiyənin məzmunu onların məqsəd və vəzifələrindən nəşət etdiyi kimi, birgə fəaliyyətin məzmunu da birgə fəaliyyətin məqsəd və vəzifələrindən doğur. Lakin şagirdlərin məktəbdə təlim və tərbiyəsi işinin məzmunundan fərqli olaraq məktəb, ailə və ictimaiyyət nümayəndələrinin birgə fəaliyyətinin məzmunu daha geniş və daha əhatəlidir.

Məktəblilərdə milli qürur hissinin formalaşdırılması işinin məzmununa daxil olan məsələləri pedaqoji kollektivlərin bilmələri, həmin məzmunu aydın təsəvvür etmələri kifayət deyildir. Məktəb bu sahədə görülən işlərin müasir şəraitdə nə üçün aktuallıq kəsb etdiyini valideynlər və ictimaiyyət nümayəndələrinə aydınlaşdırmalı, onları milli tərbiyənin, azərbaycançılıq ideologiyası əsasında tərbiyənin məzmununa daxil olan məsələlərlə, məqsəd və vəzifələrlə tanış etməlidir və s.

Bütün tərbiyə prosesinin, o cümlədən məktəbli-gənclərdə milli qürur hissinin formalaşdırılması prosesinin müvəffəqiyyətini təmin edən şərtlərdən biri də bu prosesdə məktəb və ailənin qarşılıqlı əlaqədə olması, birgə fəaliyyət göstərməsidir.

Bu məsələ ilə bağlı Azərbaycan pedaqoji fikir tarixi nümayəndələri də öz parlaq ideyalarını bildirmişlər. Abdulla Şaiq məktəb və ailənin birgə fəaliyyətinə yüksək dəyər verərək bildirmişdir: “Ailə və məktəb bir şeydir. Bu iki tərbiyə ocağı bir-biri ilə hər zaman sağlam və qırılmaz rabitələrlə bağlanmalı və hər ikisi səviyyədə bir-birinə müsavi olmalıdır. Ancaq belə olduğu zaman bilik, əxlaq və tərbiyəvi baxımdan sağlam və qüvvətli nəsil yetişdirmək olar”(2, 330).

Müşahidələrimizdən aydın oldu ki, tədqiq olunan məsələ ilə bağlı məktəb və ailə bir-biri ilə əsasən üç formada əlaqə saxlaya bilir: a) fərdi, b) qrup halında, c) kollektiv.

*Fərdi əlaqə formaları:* 1. Dərsdə və məktəb həyatında intizamsızlıq edən, təlimdə müvəffəqiyyət qazana bilməyən, yaxud az müvəffəqiyyət qazanan, davranışları və rəftarı məktəbin ümumi tələblərinə uyğun gəlməyən şagirdlərin ailəsini öyrənmək, bu məqsədlə onun ailəsinə getmək;

2. Yuxarıda sadaladığımız səbəblərdən uşaqların valideynlərini məktəbə dəvət etmək.

Qeyd edək ki, hər iki halda başlıca məqsəd yalnız həmin uşağı islah etmək, tərbiyəsindəki qüsurları yox etmək, onu pedaqoji cəhətdən tərbiyəlilər sırasına daxil etmək yox, həm də belə uşaqların digər şagirdlərə mənfi təsirinin də qarşısını almaqdır.

3. Valideynlər üçün məktəbdə görüş gününün, yaxud saatlarının təşkil edilməsi, sinif rəhbərinin və ya müəllimin valideynlə fərdi əlaqəsinin yaradılmasıdır.

*Qrup halında əlaqə formaları:* Təlimdən yayınan, yaxud müntəzəm intizamı pozan, müəllimi eşitməyən bir qrup şagirdin valideyni ilə görüşlərin keçirilməsi; bəzi nümunəvi valideynlərin məktəbdə şagirdlərin təlim və tərbiyə prosesinə cəlb edilməsi, onların bilik və bacarıqlarından, həyat təcrübəsindən istifadə; şagirdlərin müxtəlif ictimai işlərə, dərnəklərə, komandalara cəlb edilməsində valideynlərin iştirakının təmin edilməsi; müxtəlif valideyn konfranslarının təşkil olunması və s.

Məktəb valideynlərlə kollektiv əlaqə formalarından da istifadə edir. Orta ümumtəhsil məktəblərində valideyn yığıncaqları və konfransları, pedaqoji biliklər universitetləri, valideyn həftəsi, valideynlər üçün pedaqoji mövzuda seminarların, viktorinaların və tematik gecələrin keçirilməsi, pedaqoji biliklər lektoriyaların təşkili geniş yayılmışdır.

Bu əlaqə formalarından bəzilərini tədqiq olunan problem baxımından qısa da olsa nəzərdən keçirək.

Göstərdik ki, fərdi əlaqə formalarından biri müəllimin ailəyə getməsidir. Şagirdin tədrisdəki müvəffəqiyyətsizliyi ilə əlaqədar müəllim ailəyə getdiyi kimi uşağın davranışında, onların milli-mənəvi tərbiyəsində uğursuzluqlar müşahidə olunduqda, həmin uşaqla fərdi iş səmərə vermədikdə, şagird kollektivi "çətin tərbiyə olunana" təsir göstərə bilmədikdə müəllimin həmin şagirdin ailəsinə getməsi məsləhətdir. Bu gediş tədqiq olunan məsələ ilə bağlı müəllimə şagirdi hərtərəfli öyrənmək, valideynin işinə münasibətini və onun pedaqoji savadının səviyyəsini aydınlaşdırmaq imkanı verir. Nəticədə məktəb və ailə uşağın milli ruhda tərbiyəsində əlbir hərəkət etməyə başlayırlar. Bu məqsədlə müəllimlərin "Ailələrlə aparılan işlər", "Valideynlərlə görüş", "Çətin kiçik yaşlı məktəbli aparılan işlər" və s. kimi xüsusi iş qovluqları ayırması faydalıdır. Ailələrə getməzdən əvvəl təxminən qarşıya aşağıdakı suallara cavab almaq məqsədini qoymaq faydalıdır: Şagirdin davranışında özünü büruzə verən xoşagəlməz davranış və hərəkətlərin səbəbi nədədir? Şagirdlərdə milli qürur hissinin formalaşdırılmasına ləngidici təsir göstərən amillər hansılardır? Ata-ananın, yaxud ailənin başqa üzvlərinin cəmiyyətdə mövqeyi, dövlətə sədaqəti, milli qeyrəti hansı səviyyədədir? Ailə tərbiyəsində valideynlərdən hansının nüfuzu, mövqeyi və tərbiyəvi təsiri daha üstündür? Həmin tərbiyəvi təsirin mahiyyəti, məzmunu və keyfiyyəti necədir? Valideynin özü cəmiyyətdə və ailədə öz qürurunu, öz mənliyini, milli təəssübkeşliyini qoruya bilirmi, o mənəvi etik normalara, hüquq qaydalarına lazımı səviyyədə əməl edirmi? Ata-anaların milli qürur hissinin mahiyyət və məzmunu ilə bağlı maariflənməsi, zəruri pedaqoji priyomları tətbiq edə bilmək bacarıqları hansı vəziyyətdədir? Ata, yaxud ana, ailənin digər yaşlı üzvləri uşaq və kiçik yaşlı məktəblilərlə müstəqil dövlətimizin tələblərinə, cəmiyyətdəki, mənəvi-etik normalara, qanunun tələblərinə uyğun hansı izahat işləri aparırlar?

Müəllim bütün bunları müəyyənləşdirdikdən sonra şagirdə və onun valideynlərinə milli iftixar, milli qürur hissinin formalaşdırılması ilə bağlı lazımı məsləhətlər verə bilər. Bununla da müəllim və valideynlər məktəblilərdə milli qürur hissinin formalaşdırılması işində birgə hərəkət etmiş olurlar.

Valideynin məktəbə dəvət edilməsi şagirdlərdə milli qürur, milli iftixar hisslərinin oyadılması və inkişafı işində başlıca formalardan biridir. Bu zaman sinif müəllimi, ayrı-ayrı müəllimlər, məktəb direktorları, tərbiyə işləri üzrə direktor müavinləri və b. Kiçik yaşlı məktəblinin valideynini məktəbə dəvət edə bilər. Belə görüşlər şagirdlərin milli-qeyrət, milli iftixar və qürur, milli vətənpərvərlik tərbiyəsində qarşıya çıxan çətinlikləri aradan qaldırır.

Valideynlərlə fərdi söhbət zamanı məktəblinin təlimində və davranışında özünü büruzə verən çatışmazlıqların səbəblərini və digər problemlər üzə çıxır. Bu zaman uğurun daha da inkişaf etdirilməsini müzakirə etmək, onların səbəblərini araşdırmaq, eyni zamanda valideynin tərbiyə işinə marağını və imkanını öyrənmək daha əlverişlidir. Bundan sonra kiçik yaşlı məktəblilərin milli ruhda tərbiyəsi işində valideynin qarşılaşdığı çətinliklərlə əlaqədar ona lazımı metodik istiqamət, pedaqoji məsləhətlər verməklə əməli kömək göstərmək mümkündür.

Valideyn kiçik məktəbyaşlı övladını məktəbə özü aparıb-gətirdiyi üçün onun sinif müəllimi ilə gündəlik görüşmək imkanı var. Ata-ana müəllimdən məsləhət alır, müəllim bu görüşmələrdə şagirdlə bağlı öz sözünü deyə bilir.

Respublikamızın orta ümumtəhsil məktəblərində aparılan müşahidələrin, sorğu və söhbətlərin nəticəsində aydın oldu ki, valideynlərin məktəbə dəvət olunması təcrübəsindən əsasən orta və yuxarı siniflərdə istifadə olunur. Lakin bir sıra hallarda yeniyetmə qanun pozğunluğuna yol verdikdə, intizamsızlıq göstərdikdə, müntəzəm surətdə davranış normalarından kənara çıxdıqda, təlim zamanı geridə qalıb, pis oxuduğu hallarda istifadə edilir. Əslində müəllimlərin intizamsız, "çətin" uşaqlarla yanaşı dərslərini müvəffəqiyyətlə yetirən, nümunəvi davranışa malik olan şagirdlərin valideynlərini də məktəbə çağırması məqsədəmüvafiqdir. Bu işdə tərbiyəçilərin valideyn günlərindən mütəmadi istifadə etməsi məsləhət görülür. Həmin günlərdə uşağın ailədə gün rejimi, təlim əməyinin təşkili, sağlamlığının mühafizəsi ilə bərabər, həm də onlarda milli qurur hissinin formalaşdırılması məsələləri ilə əlaqədar da dəyərli tövsiyələr vermək mümkündür.

Valideyn iclasları - məktəblə ailənin ən geniş yayılmış, ən çox istifadə olunan formalarından biridir. Valideynlərlə sıx əlaqə yaratmaq, şagirdlərin həm

təlimində, həm də tərbiyəsində valideynlərin məsuliyyətini artırmaq, onları bu işlərə fəal qoşmaq üçün sinif və ümumməktəb valideyn yığıncaqları keçirmək müstəsna əhəmiyyət daşıyır. Müşahidələrimizdən aydın oldu ki, tədqiq olunan məsələ ilə bağlı ümumməktəb valideyn iclaslarının sinif valideyn yığıncaqlarının mütəmadi, planlı və tədbirə yüksək vətənpərvərlik məzmunu verməklə çağırmaq daha faydalıdır. Həmin yığıncaqlar valideynlər arasında pedaqoji biliklərin təbliğində də müstəsna əhəmiyyət daşıyır. Burada müəllimin məktəblilərdə milli iftixar hissinin formalaşdırılması sahəsindəki müvəffəqiyyəti ilə yanaşı onların məktəbdə və ailədəki ümumi davranışında özünü göstərən bəzi çətinlikləri işgüzar şəraitdə müzakirə etməyə, onu uğurla həll etməyə imkan qazanır. O, eyni zamanda şagirddə yaranan milli qürur hisslərinin daha da inkişaf etdirilməsinə də yeni və münasib şərait yaratmış olur.

Valideyn iclasında tədqiq olunan problemdən başqa, həm də məktəblilər tərəfindən "Şagirdlər üçün qaydalar"a necə əməl olunması, ən çox hansı bəndlərin pozulması və yaxud uğur qazanılması və s. kimi məsələlərin müzakirəsini keçirmək mümkündür.

Şagirdlərdə milli qürur hissinin tərbiyə olunması məsələləri ilə bağlı valideynlərin pedaqoji mədəniyyətinin artırılmasında pedaqoji biliklər universitetləri və lektoriyaları da mühüm rol oynayır. Qeyd edim ki, belə universitet Gəncə Dövlət Universiteti tərəfindən öz baza məktəbləri olan Gəncə şəhəri akademik Mehdi Mehdizadə adına 4 №li və Mir Cəlal Paşayev adına 39 №li məktəblərdə yaradılmışdır. GDU-nun müxtəlif fənlər üzrə professor-müəllim heyəti tərəfindən orta məktəb müəllimləri və valideynlər üçün mütəmadi olaraq metodiki dərslər mühazirə və seminarlar, lektoriyalar, gecələr, konfranslar, görüşlər keçirilir. Tədbirləri məktəbin ayrı-ayrı müəllimləri, tərbiyə işləri üzrə direktor müavinləri, elmi işçilər, hüquq mühafizə orqanlarının əməkdaşları olan valideynlər də apara bilərlər. Mühazirələr üçün məzmunlu və aktual mövzuların müəyyənləşdirilməsi son dərəcə vacibdir.

Məktəblilərdə milli qürur hissinin inkişaf etdirilməsi ilə əlaqədar valideynlərin ictimai tapşırıqlar yerinə yetirmələri pedaqoji mədəniyyətin,

vətəndaşların ümumi mədəniyyətinin tərkib elementləri olan mənəvi, estetik, əmək, fiziki, iqtisadi, ekoloji və hüquq mədəniyyətinin yüksəldilməsinin də səmərəli forması olub, kiçik yaşlı məktəblilərin təlim və tərbiyəsi üzrə ümumi bacarıq və vərdişlərinin inkişafına da təkan verir, onların aktiv fəallığını artırır.

Tədqiqatdan aydın oldu ki, ümumtəhsil məktəblərində dissertasiyada nəzərdən keçirdiyimiz problemlə bağlı valideyn nə qədər çox ictimai tapşırıqların icrasına cəlb olunarsa, nəinki yalnız həmin valideynin uşağı, hətta sinfin digər şagirdləri də milli ruhda tərbiyə almaq imkanı qazanır, onlarda milli qürur hissinin formalaşmasının imkanları genişlənir. Əlbəttə, bu zaman valideynlərin həvəsləri də nəzərə alınmalıdır. Onlara elə tapşırıqlar verilməlidir ki, bu iş onların həm ürəyincə olsun, həm də o, həmin işin öhdəsindən layiqincə gələ bilsin, müsbət nəticələr qazana bilsin. Bütün bunları nəzərə alaraq, valideynlərlə aşağıdakı məzmunda sorğu aparmaq faydalıdır: "Məktəbə, sinfə hansı köməyi göstərə bilərsiniz ki, həm sizin övladınız bir valideyn kimi, bütün uşaqlar isə bir azərbaycanlı kimi sizinlə fəxr edə bilsin, sizinlə qürur duysun. Bu məqsədlə hansı işi icra etmək ürəyinizcə olar?"

Həmin sorğudan sonra artıq valideynə veriləcək ictimai tapşırıqlar necə gəldi bölüşdürülmür, onlar istəklərinə uyğun tapşırıqlar alırlar. Nəticədə fəaliyyət formal və könülsüz deyil, A.N. Abbasovun qeyd etdiyi kimi, real və könüllü xarakter daşıyır (2, 333).

Valideyn disputları da tədqiq olunan məsələ ilə bağlı valideynlərin pedaqoji maariflənməsinin yüksəldilməsində müstəsna əhəmiyyətə malikdir. Disput, milli qürur hissinin formalaşmasında valideynlərin rolu ilə əlaqədar tədbir iştirakçılarına rəy mübadiləsi keçirmək, hadisələri tutuşdurmaq, təhlil edib nəticə çıxarmaq imkanları qazandırır.

Məktəblilərdə milli qürur hissinin formalaşdırılmasının imkanlarından biri də vətənpərvərliyə, dövlətçiliyimizə, onun atributlarına, tarixi-qəhrəmanlıq ənənələrimizə, milli qəhrəmanlarımızın və əsgərlərimizin döyüş səhnələrinə və s. aid filmlərin nümayiş etdirilməsidir. Respublikamızda belə mövzulara həsr olunmuş onlarla bədii, sənədli, elmi-kütləvi filmlər var və indi də istehsal olunur.

Ailə tərbiyəsi, xalqımızın milli-mənəvi dəyərlərinə məhəbbət həmin filmlərin əksəriyyətinin qayəsinə çevrilib. Yeniyetmələrdə milli qürur hisslərinin formalaşdırılmasına xidmət göstərən bu filmlərin nümayişi valideynlərin milli mədəniyyətinin yüksəldilməsinə, onların pedaqoji maariflənməsinə kömək göstərir.

Tədqiq olunan məsələ ilə bağlı "Dədə Qorqud", "Nəsimi", "Nizami", "20 Yanvar", "Qanlı Yanvar", "Xocalı qətliamı", "Ögey ana", "Uzaq sahillərdə", "Dağlarda döyüş" və s. filmlərə baxmaq məsləhət görülür. Valideynlərin iştirakı ilə tədqiq olunan problem baxımından həmin filmlərin geniş müzakirəsini keçirməyin faydalılığı Gəncə Dövlət Universitetinin baza məktəblərində tədqiqatçı tərəfindən təşkil olunan müzakirələrin nəticələri də bir daha sübut etdi.

Şagirdlərdə milli qürur hissinin formalaşmasına şərait yaradan iş formalarından biri də sual-cavab axşamıdır. Müşahidələrdən görünür ki, mühazirə, izah və b. formalarda keçirilən tədbirlərdə heç də həmişə valideynlər onları maraqlandıran və düşündürən bütün suallara cavab ala bilmirlər. Ona görə də tədqiq olunan məsələ ilə bağlı pedaqoji biliklərin təbliğini gücləndirmək və valideynlərə yaxından kömək göstərmək məqsədilə sual-cavab axşamlarının təşkili məsləhətdir. Tədbirdə ata-analar övladlarında milli iftixar, milli qürur hissləri yarada bilən suallara daha dolğun cavablar ala bilirlər. Suallar, adətən qabaqcadan yazılı formada verilir. Axşamın gedişi prosesində əlavə suallar da meydana çıxa bilər.

Tədqiq olunan problemlə bağlı valideynlərlə ən əlverişli əlaqə formalarından biri də pedaqoji praktikumların təşkilidir. Çünki A.N. Abbasovun göstərdiyi kimi, "Pedaqoji praktikumlar valideynlərin qazandıqları bilikləri həyatda, ailə tərbiyəsində bacarıqla tətbiq etmələrinə şərait yaradır. Hər bir məşğələdən sonra pedaqoji təhsillərini, mədəniyyətlərini artırmaq üçün onlar tövsiyələr və ailədə yeniyetmələrin tərbiyəsinin yaxşılaşdırmağa doğru istiqamətlənmiş tapşırıqlar alırlar. Pedaqoji praktikum, adətən valideynə oxunmuş mühazirə və edilmiş söhbətə həsr olunur" (3, 134).

Məktəblilərdə milli qürur hissini aşılamaq, belə hissləri onlarda möhkəmləndirmək və bu məqsədlə ata-anaların məktəbə köməyini təmin etmək işində valideyn komitələrinin də xüsusi rolu vardır. Bu pedaqoji qurum həm ayrı-ayrı siniflər, həm də ümumməktəb üzrə müvafiq valideyn yığıncaqlarında seçilir. Valideyn komutələri xüsusi səriştəli valideynlərdən ibarət olur. Məktəb rəhbərləri valideyn komitələrinin tərkibinə milli dövlətçiliyimiz baxımından ciddi fikir verməli, ailələrlə aparılan işlərdə onların gücündən maksimum faydalanmalıdırlar. Artıq belə təcrübə Gəncə Dövlət Universitetinin baza məktəbi olan Gəncə şəhəri Mir Cəlal Paşayev adına 39№li məktəbdə formalaşmışdır.

Azərbaycan xalqının dahi oğlu, Ulu Öndər Heydər Əliyevin milli qürur hissinin formalaşdırılması ilə bağlı ideyaları ön plana çəkilməli və bu ideyalardan doğan tərbiyə işinin konkret məqsəd və vəzifələri müəyyənləşdirilməlidir. Valideynlərin (o cümlədən ailənin digər yaşlı üzvlərinin) tərbiyə işinə cəlb edilməsi tədqiq olunan məsələ ilə bağlı məktəbli şəxsiyyətinə mütəşəkkil, mütəmadi və məqsədyönlü metodik təsir göstərilməsini təmin edir. Bu təsirin formalarına da (məktəbin ailələrlə fərdi, qrup və kollektiv əlaqə formalarına) xeyli aydınlıq gətirilmiş, onların təşkilinin ümumi metodikası verilmişdir.

## 2.2. Ailədə kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanması imkanları

Pedaqoji nəzəriyyədən məlumdur ki, ailədə tərbiyə işlərinin təşkili zamanı bütün ailələrə eyni vaxtda şamil edilə biləcək standart, vahid forma və metodların, vasitələrin müəyyənləşdirilməsi qeyri-mümkündür. Çünki bütün parametrləri ilə eyniyyət təşkil edən iki ailə yoxdur. Lakin elə vasitələr müəyyənləşdirmək mümkündür ki, ondan bütün tərbiyə işlərində istifadə edilsin. Belə vasitələrdən biri tərbiyədə fərdi yanaşmadır.

Aparılan tədqiqatdan aydın olur ki, ailədə uşaqların milli qürur hissi tərbiyəsi işini təşkil edərkən tərbiyədə fərdi yanaşma müstəsna rol oynayır. Bu zaman uşağın fərdi xüsusiyyətlərini də nəzərə almaq lazım gəlir. Bəzi valideynlər, hətta bəzi müəllimlər fərdi yanaşma və fərdi tərbiyəni bir-biri ilə eyniləşdirirlər. Əslində onlar arasında kəskin fərq vardır. Həmin fərqləri hər bir valideynin bilməsi

və onu nəzərə alması vacibdir. Pedaqoji nəzəriyyəyə görə, fərdi tərbiyə uşağa təklikdə, kollektivdən tamamilə ayrılıqda tərbiyə verməyi nəzərdə tutur. Fərdi yanaşma isə uşağı kollektiv içərisində saxlamaqla ona düzgün təsir göstərmək üçün fərdi xüsusiyyətləri nəzərə almağı tələb edir. Fərdi tərbiyə tərbiyənin məqsədini uşağın şəxsi xüsusiyyətinə tabe edərək, hər uşağın tərbiyə məqsədini bu xüsusiyyətlərdən asılı etməyi nəzərdə tutur. Fərdi yanaşma isə uşağın fərdi xüsusiyyətlərinə uyğun olaraq, onu ümumi məqsədə gətirib çıxarmağı tələbata çevirir. Burada məqsəd uşağa tabe edilmir, üsul və vasitələr uşağın xüsusiyyətinə uyğun olaraq seçilir.

Müxtəlif tərkibli olsalar da, ailə də bir kollektivdir. Ailə kollektivində milli qürur hissi tərbiyəsinin xüsusiyyəti də onların hər birinə fərdi şəkildə, uşaqların fərdi xüsusiyyətlərini-temperament tiplərini, maraq və meyllərini, xarakterini nəzərə almaqla yanaşmağı tələb edir. Bununla bağlı böyük müəllim, ictimai xadimi mütəfəkkir N. Nərimanov keçən əsrin əvvəllərində belə demişdir: “Hər bir uşağın özünə görə bir qeyri-xasiyyəti, təbiəti olmağına binaən hamını bir ölçü ilə ölçmək olmaz. Uşaqların bir parası zehinli, zəkavətli, bir parası zehinsiz, fəhmsiz, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur” (90,70).

Doğrudan da, həyatda bir-birinin tam eyni olan ailələr olmadığı kimi, uşaqlar da yoxdur. Hər bir uşaq fərddir, ona görə də müvafiq fərdi xüsusiyyətə malikdir. Bəziləri təfəkkürlü, zehinli, tez anlayan, adama tez isnişən, digərləri sakit, nisbətən gec başa düşən, utancaq, qaraqabaq, bir qismi həddindən artıq mütəhərrik, davakar, nadinc, sözeşitməz, başqa qismi küsəyən, tez inciyən olur. Belə uşaqların hər birinin
öz istəyi, əyləncəsi, maraq və meyli olur. Biri idmanı, idman oyunlarını sevirsə, digəri kompüterlə oynamağı, filmlərə baxmağı xoşlayır, üçüncüsü, mal-qaraya qulluq etməyə, bağ-bağçanı becərməyə, dördüncüsü valideynlərin himayəsinə arxalanıb heç bir faydalı işlə məşğul olmamağa, tənbəlliyə, müftəxorluğa meyillənir.

Şübhəsiz ki, valideyn onların bu xüsusiyyətlərini nəzərdən qaçıra bilməz. Kor-koranə buyurmaq, kor-koranə nazını çəkmək, əzizləmək olmaz. Uşağın birinə tərs bir nəzər saldıqda o, təqsirini başa düşür, digərini çağırıb hərəkətinin pis olduğunu xatırlatmaq bəsdir, başqa birisini hökmən danlamaq lazım gəlir, bir qeyrisini cəzalandırmasan olmur.

Tapşırıqlar verilərkən, yaxud söhbət edilərkən sakit, nisbətən gec başa düşən, utancaq və cəsarətsiz uşaqlara xüsusi qayğı ilə yanaşmaq lazımdır. Onlar, adətən tez inciyən və küsəyən olur, danlamaqdan, tənbehdən təsirlənirlər. Ailədə milli qürur hissi tərbiyəsi prosesində fərdi yanaşmanın düzgün aparılması üçün ata və ana hər bir uşağı yaxşı-yaxşı öyrənməlidir. Uşaq hövsələsizdirsə, onda müəllim bilavasitə valideynlərin köməyi ilə şagirdlərdə səbirli, təmkinli olmaq, hər şeyə görə tez özündən çıxmamaq kimi dəyərli keyfiyyətləri də formalaşdırmağa başlamalıdır. Nəzərə almaq lazımdır ki, çox vaxt valideynin özünün hövsələsizliyi bu nəcib sifətin uşaqlarda təşəkkül tapmasına münasib şərait yaradır. Uşaqdakı həmin qüsuru aradan qaldırmaq üçün təbii ki, səbir, dözüm lazımdır. Hövsələsiz valideyn isə bunun öhdəsindən çətinliklə gəlir. Yaxşı olar ki, nisbətən səbirli olan o biri valideyn ana (yaxud ata) bu vəzifəni öhdəsinə götürsün.

Uşaqlarda milli ləyaqət, milli qürur, milli iftixar kimi keyfiyyətlərin formalaşmasına daha münbit, daha münasib şərait özündən razı, təkəbbürlü, fəxr etməkdən zövq alan uşaqların həyat tərzində daha tez yaranır. Bu zaman belə uşaqlara da fərdi yanaşmaq lazımdır. Aparılmış işlərin müsbət nəticəsində nə valideyn, nə də müəllim belə uşaqları tez-tələsik, yersiz tərifləməməlidir. Əks təqdirdə uşaqda özünü büruzə verən lovğalıq və qeyri-təvazökarlıq hissləri milli qürur hissinə nisbətən daha sürətlə inkişaf edər.

Ailə mühitində uşaqlarda milli qürur hissini formalaşdırmağın əsas şərtlərindən biri də metodik işin tərbiyə olunanların müsbət cəhətlərinə istinadən qurulmasıdır. Bu zaman uşağa daxilən xas olan və inkişaf edən müsbət təbii imkanlara əsaslanaraq onları təkmilləşdirmək sadalanan keyfiyyətlərinin formalaşmasının səmərəli təşkilinə kömək göstərir.

Məlum məsələdir ki, heç də bütün ailələrdə uşaqlar ahəngdar, normal və əxlaqlı böyümürlər. Qüsurlu ailə tərbiyəsi, üstəlik məktəbdə pedaqoji kollektivin tərbiyə işinə laqeyd baxması, nəinki uşaqlarda milli mənəviyyatın, milli ləyaqətin inkişafına təkan verir, əksinə, "çətin" uşaqların meydana çıxmasına şərait yaradır. Onlar çox zaman təəssübkeşliyə, milli ləyaqətə etinasızlıq göstərir, hətta ata-analarının, müəllimlərinin bu barədəki söhbətlərinə qulaq asmır, əksinə tez-tez davranış qaydalarını pozur, öz yoldaşlarının ləyaqətinə toxunan kobud hərəkətlər edirlər. Lakin hər bir uşağın, hər bir şagirdin, yeniyetmənin xarakterində mənfi keyfiyyətlərlə yanaşı, müsbət keyfiyyətlər də vardır. Müəllim həmin keyfiyyətlərin aşkara çıxarılmasına və valideynlərin fəaliyyətinin bu keyfiyyətlər zəminində qurulmasına nail olmalıdır. Uşaq və yeniyetmə nə qədər sözəbaxmaz, nadinc, davakar olsa belə, yenə də onda qürur hissi, ailəsinin, xalqının ləyaqətini qorumaq hissi formalaşdırmaq mümkündür. Bu isə yalnız müsbət keyfiyyətlərdən səmərəli faydalanmaqla mümkündür. Həmin sahədə valideynin işgüzarlığından və tərbiyəçinin pedaqoji ustalığından çox şey asılıdır.

Ailədə uşaqların milli ruhda böyüməsi, onlarda milli ləyaqətin formalaşdırılması işini təşkil etməyin başlıca şərtlərindən biri də tərbiyədə milli adət və ənənələrdən istifadə prinsipidir. Xalqımızın tərbiyə sahəsində özünəməxsus və zəngin adət və ənənələri mövcuddur. Oğlanların tərbiyəsində başlıca təsir vasitəsi ata, qızların tərbiyəsində isə anadır. Bunu nəzərə alaraq oğlanlarla aparılan tərbiyəvi tələblərin ailədə kişinin gördüyü işlərlə, qızlarla aparılan tərbiyəvi mövzuda metodik işlərin isə qadın işləri ilə bağlanması məqsədəuyğundur. Belə olan halda oğlan həm də ev təsərrüfatındakı ağır zəhmət tələb edən vəzifələri öz üzərinə götürməyə alışar, anaya, ataya, qadına, böyüyə hörmət, ailənin şərəfini, təmiz adını qorumaq, ana, bacı qeyrəti çəkmək ruhunda tərbiyə almış olur. Təsadüfi deyilməmişdir ki, qardaş bacıya çadradır. Qızlarda isə daha çox sədaqət, namusluluq, ismət, mərifət, ədəb-ərkan, yaxın adamlarla münasibətdə səmimilik, mehribanlılıq, evdarlıq və s. kimi milli ləyaqətin, milli qürurun əsasını təşkil edən səriştəyə yiyələnməsi, belə nəcib keyfiyyətlərin formalaşdırılmasına gətirib çıxarır.

Müşahidələrimizdən aydın olur ki, müasir azərbaycanlı ailələrində həmin dəsti-xətt gözlənilmir. Lakin milli mentalitetimiz, ata-babalarımızın müqəddəs ruhu tələb edir ki, bu dəsti-xəttə nəinki ayrı-ayrı valideynlər, habelə bütün ata-analar riayət etməlidirlər.

Milli qürur hissinin formalaşdırılmasına əks təsir göstərən cəhətlərdən biri, çox deyilsə də, lakin tərbiyə prosesində demək olar ki, nəzərə alınmayan, tələblərdə vahidliyin gözlənilməsi prinsipidir. Bir sıra hallarda məktəb, ictimaiyyət nümayəndələri və valideynlər vahid tələbdən çıxış etmirlər. Tərbiyədə müxtəlif tələblərə, müxtəlif yanaşmalara meydan verilir. Uşaq çaş-baş qalır, hansı tələbin düzgün olduğunu müəyyən etməkdə çətinlik çəkir, sonradan müxtəlif fəsadlarla, bədbəxtçiliklərlə qarşılaşır. Gündəlik informasiya vasitələrindən aydın görünür ki, son dövrlərdə həddsiz artan belə neqativ hallar (məsələn, öz torpağı işğal altında olduğu halda, başqa torpaqlar uğrunda müharibələrə qoşulur; yaxud başqa ölkələrə gedib vətənini, ata-anasını, bacı-qardaşını unudan, illərlə vətənə gəlməyənlər; və yaxud Azərbaycanın çörəyini yeyib ona naxələf çıxanlar və s., və s. ) çoxalır.

Bütün bunların səbəbi ailədən və kiçik məktəb yaşı dövründən başlayaraq böyüyən nəsildə vətənpərvərlik, milli qeyrət, milli ləyaqət, milli qürur kimi bir-biri ilə qarşılıqlı əlaqədə olan keyfiyyətlərin lazımınca formalaşmamasıdır.

Tədqiqatımızdan görünür ki, bu vacib prinsip bir neçə istiqamətdə həyata keçirildikdə öz səmərəsini verir: a) ailə və məktəbin tərbiyəvi təsirlərində vahidliyin gözlənilməsi. Sinif rəhbəri və müəllimlər tərəfindən verilən tələblər ailədə də gərək müdafiə oluna. Eləcə də valideynin uşaqdan etdiyi düzgün tələb müəllimlər tərəfindən dəstəklənməli, pedaqoji kollektivin digər üzvləri tərəfindən nəzərə alınmalıdır; b) ata və ananın tələbləri arasında vahidliyin gözlənilməsi. Bu, o deməkdir ki, valideynlərin tərbiyəvi təsirləri eyni məqsədə xidmət göstərməli, oğlan və qızlarda çaşqınlıq oyatmamalıdır. Əksər hallarda ailə başçıları (ata və ana) qoyduqları tələblərdə vahidlik prinsipinə əməl etmirlər. Məsələn, ata tərəfindən uşağa verilmiş tapşırıq, yaxud cəza sonradan ana tərəfindən ləğv edilir. Və yaxud əksinə; c) ailənin digər nüfuzlu üzvləri arasında vahidliyin gözlənilməsi. Ata və ananın verdiyi tələbləri baba və nənə, yaxud böyük bacı və

qardaş gözləməlidir. Eləcə də baba və nənənin haqlı tələblərinə ata və ya ana biganə qalmamalı, böyük bacı və qardaşların tələblərinə də yaşlılar diqqətlə və hörmətlə yanaşmalıdır. Bütün tərbiyə prosesində olduğu kimi, şagirdlərdə milli qürur hissinin formalaşdırılması məqsədilə tərbiyəvi işlərdə ailənin tərbiyəvi qüvvələri, ailənin tərbiyə potensialı parçalanmamalı, əksinə, birləşməlidir. ç) ailə ilə ictimaiyyətin, informasiya vasitələrinin məsələyə yanaşmasında vahidliyin gözlənilməsi. İnformasiya vasitələri özləri də bilmədən, şəxsiyyətin formalaşmasının təbliğində neqativ hallara yol verirlər.

Ailədə valideynlər, məktəbdə isə müəllimlər arasında yekdilliyin olmadığını, ona qarşı müxtəlif tələbkarlıq göstərildiyini görən məktəbli kənar təsirlərə məruz qalır, vətən, millət, ata-ana, bacı-qardaş qeyrəti kimi keyfiyyətlər tədricən unudulur, pis mühitə düşür və bu mühitə tədricən alışmağa başlayır (məsələn, müxtəlif kompüter oyunlarına, filmlərə baxmaqla vaxtını ötürmək, dərslərdən yayınmaq, dava-dalaşa alışmaq, oğurluq və s.), kənar şəxslərin mülahizələri və göstərişlərinə əsaslanaraq hərəkət edir. Bu isə qorxulu haldır. Valideyn buna yol verməməlidir.

Ailədə mili qürur hissinin formalaşdırılması epizodik və fasilələrlə yox, müəyyən sistem və ardıcıllıqla aparılmalıdır. Bu işlə hər gün, hər saat, hər an, müntəzəm şəkildə məşğul olmaq lazımdır. Sistemsizlik, pərakəndəlik məktəblilərdə milli qürur hisslərinin uğurla aşılanmasına maneçilik törədir. Sistemlilik o deməkdir ki, həyata keçirilən hər hansı tədbir bir-birini tamamlasın, tərbiyəvi təsir pərakəndə şəkildə deyil, müəyyən sistem təşkil etsin. Bu prosesdə öz hökmlərində ardıcıl, prinsipial və tələbkar olmayan müəllimin və valideynin nüfuzu olmur.

Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin aşılanmasında başlıca vasitələrdən biri də tərbiyəçi-müəllimin və valideynin şəxsi nümunəsidir. Valideyn, yaxud müəllim özü təqlid olunmağa layiq deyilsə, təbii ki, onun sözü kəsərdən düşəcək, şagirdlər də rəğbət bəsləməyəcəklər. Əgər ata ailəyə qayğı göstərmirsə, həyat yoldaşının, uşaqlarının rifahına, rahatlığına, istirahətinə, ləyaqətinə, şərəfinə biganədirsə, üstəlik ölkəsinin, vətəninin, millətinin uğurlarına

sevinib bundan qürur duymursa, özünü cəmiyyətdə, iş yerində, məhəllədə, qohumlar arasında nümunəvi aparmırsa, oğluna, qızına milli qürur hissinin aşılanmasında müsbət nümunə göstərməyə qadir deyildir. Eyni sözləri anaya da aid etmək mümkündür. Ləyaqət, şərəf, qürur hisslərinin formalaşması işində qadının davranışına xüsusən ciddi tələblər verilir. Ananın pis, mənfi nümunəsi xüsusən qızlara böyük təsir göstərir, onların qürurunu sındırır, valideyni ilə iftixar etməkdən məhrum edir. Bununla da, onlarda milli qürur hissi yaranması çox çətin və qeyri-mümkün bir işə çevrilir. “Anası gəzən ağacı qızı budaq-budaq gəzər”, ”Anasına bax, qızını al” məsəlləri təsadüfi yaranmamışdır. Ağır, təmkinli, ismətli, mərifətli, nəzakətli, namuslu, ləyaqətli, şərəfli, qeyrətli ananın qızı da çox zaman məhz həmin keyfiyyətlərə yiyələnir.

Etibarsız, ailəsinin şərəfini qorumayan sərxoş, davakar, əsəbi, tez-tez arvad alıb boşayan ata da oğlu üçün pis nümunədir. Həmin keyfiyyətlərin oğulda da təşəkkül tapıb formalaşması ehtimalı çoxalır.

Eləcə də müəllimin ailə həyatından xəbərdar olan və bu həyatın heç də fərəhli olmadığını, xəyanətlər, ixtilaflar, yersiz deyişmələr, söz-söhbətlərlə müşahidə edildiyini bilən məktəbli onun bütün öyüd-nəsihətini, məsləhətlərini də, hətta, milli-mənəvi dəyərlərimizlə bağlı ən faydalı fakir və ideyalarını da istehza ilə qarşılayacaqdır. Bu istehzanın arxasında isə belə bir irad dayanır; “Bizə məsləhət verincə, yol göstərincə, öz ailəsində nizam-intizam yaratsın, oğlunu elə-obaya layiq, şərəfli, qeyrətli oğul kimi böyütsün, qızına ağıllı tərbiyə versin...". Şagird müəlliminə, uşaq və yeniyetmə, yaxud ilk gənclik dövrünü yaşayan oğlan atasına, qız anasına oxşamağa çalışır.

Xalqımızın keçmişi və bu günü ilə bağlı dahi şəxsiyyətlərimizin şəxsi nümunəsi məktəblilərdə milli-qeyrət, milli qürur hissi tərbiyəsində bu gün də əvəzsiz rol oynayır.

Yuxarıda söylənilənlərdən bir daha görünür ki, ümumtəhsil məktəblərində tərbiyə işinin əsas vəzifələrindən biri də kiçik məktəb yaşından başlayaraq şagird-lərdə milli qürur hissinin müəllim və valideynlərin birgə fəaliyyəti ilə formalaşdırılması və bu ruhda onların tərbiyə olunmasıdır. Tədqiqat göstərir ki,

məktəb ibtidai sinif şagirdlərində milli iftixar, milli qürur hisslərinin formalaşdırılması sahəsində üzərinə düşən vəzifələri təkbaşına tam uğurla yerinə yetirə bilməz. Məktəb böyük tərbiyəvi imkanlara malik olan ailənin və ictimaiyyətin qüvvəsinə arxalanmalıdır. Bunu söyləməyə şagirdlərin tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə fəaliyyətinin müasir məqsədi də əsas verir. A.N. Abbasovun göstərdiyi kimi, həmin məqsəd valideynləri, ailənin digər yaşlı üzvlərini təlim-tərbiyə işinə cəlb etməklə məktəblinin şəxsiyyətinə mütəmadi, mütəşəkkil və məqsədyönlü şəkildə təsir göstərmək əsasında onlarda mənəvi şüur və mədəniyyət, vətənpərvərlik, milli mənlik və ləyaqət hisslərini inkişaf etdirməyə nail olmaqdan ibarətdir (1, 128-129).

Tədqiqatımızdan o da aydın oldu ki, qarşıda duran məqsədə çatmaq üçün ilk növbədə milli-mənəviyyat, milli-mənlik, milli iftixar, milli qürur hisslərinin mahiyyəti və müasir tərbiyə işində onların rolu, vəzifələri ilə bağlı valideynlərin maarifləndirilməsi qayğısına qalınmalıdır. Bu zaman ata-analar, baba və nənələr, böyük bacı və qardaşlara izah olunmalıdır ki, milli qürur hissi milli varlığın əsas cəhətlərindən biridir. Milli qürur hissi milli birliyin, milli tərəqqinin qüdrətli özəyidir, hər bir azərbaycanlının mənəvi dünyasıdır. Şagirdi mənəvi cəhətdən qüvvətli edən, onda nikbin duyğular oyadan, gələcəyə daha da inamlı edən yalnız şəxsi həyatında qazandığı uğurlar olmamalıdır. Xalqın qədim keçmişi, onun tarixi adət və ənənələri, tarixin ləyaqətli və qəhrəmanlıq səhifələri, keçmişin və indinin uğurlu nailiyyətləri, günbəgün artan siyasi və iqtisadi qüdrətimiz, dünya ölkələri içərisində artan nüfuzumuz anbaan şagird qəlbinə, şagirdin mənəvi dünyasına, onun varlığına daxil olaraq qəlbini qürur hissi ilə, iftixar hissi ilə doldurur.

Nəzərə alınmalıdır ki, milli qürur hissi məktəblinin psixi-emosional fəaliyyətinin bir növünü təşkil edir. Bu baxımdan milli qürur hissi şagirdin digər hissləri ilə çox sıx surətdə bağlıdır. Lakin bu hiss öz məzmun zənginliyi, məqsədyönlülüyü və ideologiyalılığı baxımından çox fərqlənir. Insan hisslərini şərh etmək, təsnif etmək zərurəti yarandıqda, Q.İ. Hüseynovun qeyd etdiyi kimi, "milli qürur hissini ən ali, ən uca hisslər qrupuna daxil etmək lazım gəlir" (56, 10). Valideyn bilməlidir ki, milli qürur fəaliyyətinə cəlb olunan hər bir Azərbaycan vətəndaşı bəsit düşüncədən

uzaqlaşır, sadə emosiyalar, mənasız əhvali-ruhiyyə, şəxsi mənafeyi və istəkləri onun qəlbini tərk edir, Azərbaycan xalqının, Azərbaycan millətinin adı ilə bağlı olan böyük arzuların, istəklərin, ali duyğuların dünyasına daxil olur. Bu zaman milli qürur hissi milli və şəxsi əhval-ruhiyyənin, milli mənlik şüurunun ən qüdrətli tənzimləyicisinə çevrilir. Bu hissin köməyilə tarixin ən mübahisəli, ən zəif öyrənilmiş sahələrinə dərindən nüfuz etmək mümkün olur.

Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəblə ailənin birgə fəaliyyətinin əsas məzmunu haqqında da ilk əvvəl valideynlərə yığcam məlumat verilməlidir. Aydındır ki, bu işin məzmunu daha geniş və əhatəlidir. Bu məzmunu yalnız müəllimlərin, pedaqoji kollektivin dərindən bilməsi, onu təkbaşına həyata keçirməsi kifayət deyil. Siyasi və iqtisadi sahədə inamla irəlilədiyimiz hazırkı vaxtda milli hisslərin, o cümlədən milli qürur və milli iftixar hisslərinin formalaşdırılması mexanizmi valideynlərə aydınlaşdırılmalı, bu işdə onların konkret vəzifələri göstərilməli, vəzifələrin icrasına başlanılmalı və işin mərhələlərlə gedişi vaxtlı-vaxtında təhlil və təshih olunmalıdır. Təhlillərin ümumi nəticələrinin valideyn komitələrində dinlənilməsi və müzakirəsi işin növbəti mərhələlərinə daha səmərəli təsir edir.

## 2.3. Kiçik yaşllı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasını şərtləndirən amillər

İdarəçilikdə və cəmiyyətdə daim milli-mənəvi dəyərlərə sadiq qalmış, etnik-mental baxımından əsl azərbaycanlı – türk dünyagörüşünə malik, böyük strateq və dövlət xadimi, siyasətdə mənəvi dəyərləri və əxlaqı, sadəlik, düzgünlük, ləyaqətlilik, məğrurluq, mərdlik, qorxmazlıq, milli mənlik, milli qürurluluq kimi normaları daim uca tutmuş, etimad göstərdiyi kadrların da bu keyfiyyətlərə malik olmasına ciddi fikir vermiş Ulu Öndər Heydər Əliyev 25 sentyabr 1998-ci ildə Azərbaycan müəllimlərinin qurultayındakı nitqində demişdir: "Azərbaycan müəllimlərinin bir məqsədi, bir amalı olmalıdır. Azərbaycanımızı çiçəklənən, inkişaf edən firavan, qüdrətli dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək..." (27, 644).

Bunun üçün təlim-tərbiyə prosesində müəllim-şagird-valideyn əməkdaşlığının yeni, daha səmərəli imkan və yolları müəyyən edilməlidir. Sözü gedən cəhət başqa bir məsələni - təhsilin bütün strukturlarında təhsilalanın bir şəxsiyyət, milli qürurlu vətəndaş kimi tərbiyə olunması amilini zəruriləşdirir, çünki yaxşı təhsillə bərabər, yaxşı tərbiyə də cəmiyyətin ortaya çıxardığı, tələb etdiyi vacib şərtlərdəndir.

Yaxşı tərbiyə nə deməkdir və bu gün yaxşı tərbiyə anlamı necə başa düşülür?

Bu sualın müxtəlif cavabları ola bilər. Suala tədqiq etdiyimiz problem baxımından cavab verməyə çalışaq. Təhsil müəssisələrinin tərbiyə sistemində milli dəyərlərimizə üstünlük verilməklə bərabər, milli dövlətçilik ənənələrimiz, Ümummilli Liderin tövsiyə etdiyi milli-azərbaycançılıq ideologiyasının xüsusiyyətləri də nəzərə alınmalıdır.

Milli ideologiya xalqın birlik və mütəşəkkillik amalıdır. Xalqın bütövlüyü, birliyi onun yaşamasının təməlidir. Milli ideologiya vətənpərvərlik amalıdır. Vətənpərvərlik və doğma yurda bağlılıq isə hər kəsin qəlbindən gələn istək və

sevgi olmalıdır. Azərbaycanın milli ideologiyası dövlətçiliyimizin və milli mənafelərimizin təminatçısı kimi daim inkişaf etmək və zənginləşmək imkanlarına malikdir. Çünki, dahi Heydər Əliyev amalına söykənən Azərbaycançılıq ideologiyası bütün azərbaycanlıların milli və mənəvi sərvəti kimi qiymətlidir.

Hazırda Azərbaycanın gənc vətəndaşı belə bir ruhda tərbiyə alır, böyüyür, formalaşır. Məhz bu tərbiyənin nəticəsində o, ləyaqətli bir şəxsiyyət olaraq vətənini, xalqını, dövlətini öz şəxsi maraq və mənafeyindən üstün tutur.

Deyilənlərə daha yüksək səviyyədə nail olmaq üçün az səmərə verən təlim-tərbiyə metodlarından əl çəkməklə yanaşı təhsildə azərbaycançılıq mühiti yaradılmalıdır. Hər bir müəllim bilməlidir ki, milli ideologiyaya malik olmadan, milli ləyaqəti, milli-mənəvi dəyərlərimizi, milli özünüdərk, milli mənlik, milli qürur hisslərini formalaşdırmadan, bu dəyərli keyfiyyətləri yeni cəmiyyəti möhkəmləndirməyə  və müstəqil dövlətin inkişafına həsr etmədən, bir sözlə ölkənin qeyrətli və qürurlu vətəndaşı olmadan dövlətimizin layiqli inkişafetdiricisi kimi formalaşmaq mümkün deyil. Buna görə də məktəblilər yüksək mənəvi keyfiyyətlərdən biri olan milli qürur hissinə yiyələnməlidirlər ki, güclü və qüdrətli Azərbaycanı müdafiə edə bilsinlər. Bu keyfiyyətlərə yiyələnən hər bir şəxs öz inkişafını, formalaşmasını təmin etməklə yanaşı xalqının xoşbəxt və azad olmasına çalışır.

Ümummilli lider Heydər Əliyev çıxışlarının birində demişdir: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, təhsilin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun!  Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır, gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır..." Göründüyü kimi, Heydər Əliyev gənclərimizin milli-mənəvi tərbiyəsini, milli dünyagörüşünü, milli mənliyini, qürurunu, ilk növbədə əsl azərbaycanlı kimi tərbiyə olunmalarını çox vacib sayır və bunu dövrün tələbi kimi irəli sürürdü.

Milli qürur hissinin kiçik yaşlı məktəblilərdə formalaşdırılması daimi, arasıkəsilməz bir prosesdir. Bu hiss ictimai-siyasi vəzifələrin varisliyi ilə şərtlənmişdir. İdeya inamına və mənəvi sərvətlərə dair məsələlərin çox böyük əhəmiyyət və aktuallıq kəsb etdiyi indiki dövrdə vətəndaşların milli qeyrət, milli mənlik, milli qürur, milli iftixar hisslərinin tərbiyə olunması və mənəvi borcu bütün tərbiyə sistemindən yüksək sayıqlıq, fasiləsiz, dərindən dərk olunmuş səmərəli fəaliyyət tələb edir.

Mənəvi borc – Vətənin çiçəklənməsi uğrunda mübarizə zərurətindən əmələ gəlir. Yüksək şüurluluq, dərin daxili tələbat qüvvəsi ilə yerinə yetirilir. Mənəvi borc anlayışının məzmununa həm cəmiyyətin öz üzvləri qarşısında irəli sürdüyü vəzifələr, həm də insanların cəmiyyət qarşısında daşıdığı məsuliyyət hissi daxildir. Bu həm də milli qürur hissi güclü olan, milli mənəvi dəyərlərlə zəngin olan, milli mənsubiyyəti ilə qürur duyan Azərbaycan vətəndaşının borcudur. Bütün amillər içərisində milli mənsubiyyəti ilə  milli-mənəvi dəyərlərilə fəxr etmək məfhumu özünün fəal, təsirli xarakteri ilə seçilir; onun davranışla, əxlaqi hərəkət aktı ilə əlaqəsi daha müstəqildir.

Vətəndaş kimi milli qürurluluğun tələbi cəmiyyətin tələbidir, obyektiv tarixi zərurətin formasıdır. Məzmununa görə milli şüur və milli mənsubiyyət anlayışlarına çox yaxın olan milli qürur hissi anlayışı onlardan həmişə öz konkretliyi, aydınlığı, milli ideologiyaya yaxınlığı ilə seçilir. Milli təəssübkeşliyin, milli qürur hissinin böyüyən nəslə aşılanması Azərbaycan vətəndaşı hazırlığı prosesini əmələ gətirən komponentlərdən biridir. Beləliklə, məktəblərimizdə kiçikyaşlı məktəblilərin milli qürur hissi tərbiyəsi məsələləri dövrümüzün ən aktual problemlərindən biri kimi qarşıda durur. Elmi-pedaqoji ədəbiyyatda milli qürur hissi tərbiyəsi yeni məsələ olsa da, bu problemlə bilavasitə və bilvasitə bağlı ədəbiyyata rast gəlmək mümkündür.

Hazırda Azərbaycan dövləti vətəndaşlardan vətənə sədaqətli olmağı, dövlət rəmzlərinə hörmətlə yanaşmağı, doğma vətəni müdafiə etməyi, milli və ümumbəşəri dəyərləri tarixi və mədəniyyət abidələrini, eləcə də zəngin milli mənəvi dəyərlərimizi, milli qeyrəti, xalqın və özünün milli qürurunu, namusunu və

digər mənəvi keyfiyyətləri qorumağı, bu keyfiyyətlərlə qürur duymağı tələbata çevirir.

Milli qürur əhatə dairəsi baxımından müxtəlif olur. Hər bir uşağın da, böyüyün də, millətin də qüruru var. Lakin ümummilli qürur bütün hallarda şəxsi qürurlardan qat-qat üstündür. Milli qüruru olmayan millətin sonu yoxdur. Milli qüruru olmayan millət əriyib digər millətlərə qarışar, assimliyasiya olar.

Milli qüruru xarakterizə edən atributlar varmı? Varsa, hansılardır? Milli qüruru necə ölçürlər? – suallarına tarixən filosof, pedaqoq və psixoloqlar müxtəlif cavablar vermişlər.

“Milli qürur milli ideologiyanın təkanverici qüvvəsidir”(73, 3-9) adlı kitabında müəllif F. Quliyev yazır: “ – Birincisi, milli qürur hər bir millətin genində olur, irsən nəsildən-nəslə ötürülür. Əgər hər hansı bir millət öz qürurunu nə vaxtsa itirsə, bu, mütləq başqa bir millətlə qarışmaq (yəni digər millətin nümayəndələri ilə nikah) və yaxud da başqa bir böyük millətin içərisində yaşamaqla həmin millətin adət və ənənələrinə, dilinə yiyələnərək tamamilə öz milli duyğularını itirməklə ola bilər;

– İkincisi, öz tarixini unutmaqla, yəni unutqanlıqla;

– Üçüncüsü, özünün milli ideologiyasının olmamasında və ya milli ideologiyanı inkişaf etdirə bilməməsində axtarılmalıdır” (73, 3).

Müəllif fikrini ümumiləşdirərək milli qürur anlayışına riyazi tərif də verir: “şəxsi qürur üstəgəl milli tarixi dəyərlərə hörmət və sayğı, üstəgəl genin qorunub saxlanması, vurulsun milli ideologiya, bölünsün inkişafda olan milli şüura, bərabərdir milli qürura. Yəni, milli qürur milli ideologiyanın əsas atributlarından biridir ki, milli qürura hər hansı bir formada zədə dəyirsə, milli ideologiya daha çox zərər görür”(73, 3).

Milli qürur hissinin formalaşmasında irsiyyətin rolu danılmazdır. Bu qənaətə gəlməyimizə şəxsiyyətin inkişafı və formalaşmasında irsiyyətin rolu ilə bağlı N.M. Kazımovun (63; 64), Ə.Ə. Ağayevin (7; 8; 10), A.N. Abbasovun (3;4), Y.R. Talıbovun (105;106), F.B. Sadıqovun (97) və b. Çox dəyərli elmi ideyaları da əsas vermişdir. Lakin milli qürurun genlə (irsən) də ötürülməsinə baxmayaraq, onun

formalaşmasında ailənin tərbiyəvi imkanlarının, valideynlərin rolunun əhəmiyyəti müqayisə olunmazdır. Ümumiyyətlə, ailə tərbiyəsi, o cümlədən ana laylasından alınmış ilk həzin, ürəyəyatan nəğmələrdəki sözlər, ananın övladının milli şüuruna təsir edəcək hər bir söz uşaq zehninə elə həkk olunur ki, onun silinməsi heç bir halda mümkün olmur. Ümumiyyətlə, görkəmli pedaqoqumuz N.M. Kazımovun təbirincə desək, irsən keçən fizioloji xüsusiyyətlər milli qürur hissinin formalaşmasında da zəmin, imkan rolunu oynayır (63; 64).

“Milli qürur hissinin formalaşmasında məktəblini əhatə edən mühit də çox böyük təsir gücünə malikdir. Çünki, pedaqogika nəzəriyyəsində deyildiyi kimi, şəxsiyyətin formalaşmasında mühitin rolu başlıca amildir. “Milli pedaqogika şəxsiyyətin formalaşmasında mühitin rolu haqqında” sərlövhəli yazısında prof. N.M. Kazımov göstərir ki, “Ətraf mühit amilləri mənəvi, əxlaqi, estetik, fiziki və s. keyfiyyətlərin yaranmasına və formalaşmasına təkan verir” (63, 67-68). Uşaq ikən ailələrdə, bağçalarda, məktəblərdə ətraf mühit milli ruhda köklənibsə, hər işdə, hər yerdə, hər sözdə, hər musiqidə, hər bir mətbuat və informasiya orqanlarında milli ruh, milli əqidə varsa, demək, belə əhatədə formalaşmış şəxs istər-istəməz milli ruhda tərbiyələnir və onun şüurunda milli ruh, milli qürurluluq hissləri kök salır” (68, 3-4). Belə əlverişli mühitin yaranmasına imkan verən vasitələr çox müxtəlifdir. Onlardan da biri kinofilmlərin imkanlarından məqsədyönlü istifadədir.

Məsələn, Azərbaycan kinosu rubrikasında “Dağlarda döyüş” filminin böyük tərbiyəvi imkanları var və ondan istifadə etmək mümkündür. Filmdə milli qürurun bütün atributlarına rast gəlinir. Filmə ailə kollektivinin birgə baxması, məktəbdə müəllimin rəhbərliyi və valideynlərin də iştirakı ilə uşaq təəssüratların dinlənilməsi və müzakirə olunması olduqca böyük səmərə verir.

Milli qürurun formalaşmasında başlıca amillərdən biri də dövlət atributlarına olan hörmət və ehtiramdır. Respublikamızın paytaxtında 03 noyabr 2013-cü il tarixdən başlayaraq mütəmadi olaraq keçirilən “Bayrağımız qürur mənbəyimizdir” adlı velosiped yarışı və belə xarakterli müxtəlif idman yarışları dövlət atributlarımıza olan ehtiramla bərabər, həm də vətəndaşlarda milli qürurluluq tərbiyəsində mühüm rol oynayır. “Azərbaycan Respublikasının dövlət rəmzləri”

(83) adlı kitabda müəlliflər M.C. Mərdanov və Ə.Ə. Quliyev Azərbaycanın üç rəngli bayrağını, səkkiz guşəli gerbini, milləti qəhrəmanlıqlara səsləyən himnini elə təhlil ediblər ki, bu məzmun hər bir şəxsdə milli qürur hisslərini coşdurur və inkişaf etdirir. Əgər hər hansı bir şəxs öz dövlət bayrağını sevmirsə, dövlət gerbini tanımırsa, öz dövlət himnini ürəklə oxumursa (bilmirsə), həmin vətəndaşın necə milli qüruru ola bilər? Həmin insan bu millətin övladı olduğu üçün necə qürur hissi keçirə bilər?".

"Milli qürurun formalaşmasında digər amillərdən biri də hər bir vətəndaşın dövlət orqanlarına və onun qanunlarına olan ehtiram və sayğısıdır. Hər bir insan öz dövlətinin müstəqilliyi, ordusu, polisi, dövlət başçısı, məhkəməsi və qanunları ilə fəxr etməli, onlara sayğıyla yanaşmalı və bundan qürur duymalıdır" (73, 4).

İqtisadiyyatımızın, idmanımızın, mədəniyyətimizin, elmimizin tərəqqisi milli qürurun inkişafı deməkdir.

Milli qürurun formalaşmasında önəmli əhəmiyyəti olan idmanla yanaşı, elm, maarif və incəsənətin də danılmaz yeri var. Milli ideologiyanın formalaşmasında da milli qürurun rolu böyükdür.

Bu gün musiqilərimiz dünyanın hər yerində sevə-sevə dinlənilirsə (Rəşid Behbudov, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Alim Qasımov və b.), məşhur musiqiçi Rastropoviçdən dünyanın hər hansı bir ölkəsində onun harada doğulub boya-başa çatdığını soruşduqda, o, bakılı olduğu demişdirsə, biz bununla da qürur duymaya bilmərik.

Əslən azərbaycanlı olan, hal-hazırda ABŞ-da yaşayan, dünya miqyaslı riyaziyyatçı-alim, qeyri-səlist məntiq nəzəriyyəsinin, bu nəzəriyyə əsasında idarəetmə kompüter texnologiyalarının və telekommunikası sistemlərinin banisi Ələsgər Lütfizadə böyük zəkası ilə bütün dünyanı heyrətləndirirsə, bu da bizim milli qürurumuzun formalaşmasında öz önəmli rolunu oynayır.

Ulu Öndər Heydər Əliyevin daim diqqətdə saxladığı və möhtərəm Prezidentimiz İlham Əliyevin də önəm verdiyi məsələlərdən biri də odur ki, gənclərə qayğı və diqqət artırılmalı, onlara sayğı və hörmət ən yüksək səviyyədə olmalıdır: "Gələcək savadlı gənclərin üzərində qurulmalıdır". İncəsənət sahəsində

qazanılan nailiyyətlərlə kifayətlənmək də düzgün deyil. İncəsənətin bütün sahələrini paralel şəkildə və yüksək formada inkişaf etdirilməlidir.

Azərbaycanın klassik musiqisi son zamanlar heç də ürəkaçan səviyyədə deyildir. Klassik musiqi əsasən dünyanın elita təbəqəsinin sevə-sevə dinlədiyi musiqi olduğundan bu sahəyə dövlət qayğısı əhəmiyyətli dərəcədə artırılmalıdır.

Rəssamlarımızın yaradıcılığına az önəm vermək ənənəsi da aradan götürülməlidir. Heydər Əliyev fondunun Prezidenti, YUNESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevanın bu sahəyə qayğısı və onun bu istiqamətdə fəaliyyəti hamımıza örnəkdir. Ayrı-ayrı rəssamlarımızın tez-tez sərgiləri təşkil olunmalı, həmin sərgilərə kiçik yaşlı məktəblilərdən başlayaraq bütün şagirdlərin, tələbələrin cəlb olunması, ayrı-ayrılıqda bütün nazirliklərin, dövlət idarə və müəssisələrin işçilərinin bu sərgilərə baxışının təşkil edilməsi vacib məsələyə çevrilməlidir.

Londonda, Parisdə, Vaşinqtonda Azərbaycan rəssamının sərgisi açılır və ya hər hansı bir bəstəkarımızın əsəri tamaşaya qoyulur, bütün dünya Azərbaycan övladlarının məharətini görür, izləyir və Azərbaycanın, onun vətəndaşlarının mədə-niyyətinin nə qədər yüksək səviyyədə olduğunun bir daha şahidi olur.

Muğamımıza, onun inkişafı və təbliğində, zənginliyinin bütün dünyaya çatdırılmasında möhtərəm Prezidentimizin və onun xanımı Mehriban xanım Əliyevanın çox böyük xidmətləri vardır. Möhtəşəm Muğam mərkəzindən səslənib bütün dünyada yayımlanan muğamımızla və bu işlərin təşkili səviyyəsi ilə qürur duyur, fəxr edirik.

Bu eynilə klassik musiqimizin tərəqqisinə də tətbiq olunmalıdır.

Hər bir azərbaycanlı da elmimizin, maarifimizin və incəsənətimizin korifeyləri ilə qürur duyur, fərəh hissi keçirir. Bu baxımdan doğma vətənimizin inkişafı istiqamətində yeni-yeni istedadların yaranması üçün onlara diqqət və qayğı günbəgün artırılır.

Dünyanın harasında olursa olsun, millətimizin təmsilçilərinin bu sahələrdəki nailiyyətləri milli qürurun formalaşmasında danılmaz və əvəzolunmaz rol oynayır.

«Azərbaycan övladı, sən öz millətinlə qürur duymalısan, çünki sən böyük millətin övladısan! Həmişə qürurlu olmalısan! Qürurumuzu uca tutmaqda Tanrı bizə yar olsun!» şüarları artıq neçə ildir bizi səfərbərliyə çağırır.

Azərbaycan dilinin və dinimizin (İslam dininin) milli qürur hissinin və milli ideologiyamızın formalaşdırılmasında çox böyük, əvəzolunmaz və özünəməxsus rolu, əhəmiyyəti vardır. Öz doğma Azərbaycan dilində sərbəst, səlis, aydın, məntiqli danışmaq və bu dilin gözəlliyi ilə fəxr etmək, iftixar hissi keçirmək hər bir vətəndaşımızın ümdə borcudur. Ana dilimizdə səlis, rəvan, məntiqli, dolğun danışmaq, dilin gözəlliyini nümayiş etdirmək, beləliklə, digər millətlərin nümayəndələrinin də bu dildə danışa bilməsinə çalışmaq bir azərbaycanlı kimi hamının müqəddəs işi olmalıdır. Azərbaycan dilinin necə bir gözəl dil olduğunu nümayiş etdirmək üçün milli mədəniyyətimizi, ədəbiyyatımızı və tariximizi də gözəl bilməliyik.

Öz dilimizə biganə olanları, F. Quliyevin dediyi kimi, dilimizdə danışmağı özlərinə ar bilənləri qınamaqla yanaşı, onlara dilimizin başqa dillərdən heç də geri qalmadığını, hətta başqa dillərdən daha dəqiq və səlis dil olduğunu anlatmalı və izah etməliyik (73, 6).

Respublikamızda fəaliyyət göstərən bütün firmaların, otellərin, market və mağazaların, irili-xırdalı bütün müəssisələrin, hətta xarici şirkət və firmaların adlarının və istehsal etdikləri məhsulların etiketlərinin də Azərbaycan dilində yazılmasına və reklamlarının da Azərbaycan dilində aparılmasına çalışmalıyıq. Eyni zamanda ölkəmizdə çalışan, təhsil alan əcnəbi vətəndaşların da dilimizi öyrənmələri üçün lazımi kömək göstərməli və hətta onların öyrətdikləri hər bir kəlməyə görə qürur duymalıyıq.

Azərbaycan dilini tədris və təbliğ edən Azərbaycan dili və ədəbiyyatı müəllimləri ilə bərabər ibtidai sinif müəllimlərinin də doğma dilimizə xüsusi vurğunluq və sevgi hissi olmalıdır. Onlar orta məktəblərdə milli qüruru formalaşdırmaqda xüsusi əhəmiyyəti olan dilimizi elə tədris etməlidirlər ki, hər bir şagird orta məktəbdə ikən dilimizin fanatı olsun və onun milli qürurun formalaşmasındakı müstəsna rolunu dərk etsin.

Dilimizlə yanaşı bundan heç də az əhəmiyyət kəsb etməyən dinimizin də milli qürurun formalaşmasında böyük əhəmiyyəti var (73, 6).

Kimsəsizlərin, zəiflərin, əzilənlərin hamisi kimi meydana çıxan, müqəddəs və son dövrlər xristian dünyasında da daha çox yayılmağa başlayan İslam dinimizin özünəməxsus gözəlliyini, insanları düzlüyə, sülhsevərliyə, paklığa, azadlığa, mərhəmətə, xeyirxahlığa, ədalətə, birliyə, bərabərliyə, nəfs toxluğuna dəvət etməsini, hər kəsin Allah qarşısında eyni olduğunu fəxrlə, qürurla təbliğ etməyi bacarmalıyıq.

Dinimizin mütərəqqi din olması, səmavi kitabların dördüncüsü, sonuncusu olan "Qurani-Kərim"i müsəlman dünyasına bəxş etməsi, öz müqəddəs kəlamlarında ailə tərbiyəsinə, elmə, elm öyrənməyə, təhsil, tərbiyə və təlimə yüksək qiymət verməsi ilə yanaşı insan amilinin, onun mənəviyyatının, qürurunun da önə çəkilməsi, islamın banisi və yaradıcısı Məhəmməd peyğəmbərin (s.ə.s.) dahiliyi bizə fəxr etməyə əsas verir.

Məhəmməd peyğəmbərin həyatı milli qürur hissinin formalaşdırılmasında ən güclü, qüdrətli və müqəddəs tərbiyə vasitəsidir. Çünki "Məhəmməddə Adəmin dürüst əxlaqı, Asəfin dərin zəkası, Nuhun ağlasığmaz cəsarəti, İbrahimin tükənməz mərhəməti, İsmayılın bəlağətli nitqi, Latın heyrətamiz bəsirəti, Yaqubun müəmmaları dərk etmək məharəti, Yusifin misilsiz gözəlliyi, Musanın sarsılmaz dəyanəti, İsanın dönməz iradəsi, Davudun təmənnasız xeyirxahlığı toplanmışdı" (47, 9-10). Biz də Məhəmməd Peyğəmbərimizin özü ilə həyatı ilə, onun yaratdığı ən yetkin, ən mükəmməl dinə sitayiş etdiyimizlə iftixar edir, qürur hissi keçiririk.

Bu baxımdan dinimizin inkişafına və təbliğinə geniş yer verməliyik. Dil və din tək milli qürur deyil, həm də milli ideologiyanın formalaşmasında çox əhəmiyyətli, demək olar ki, əvəzolunmaz rol oynayan elmlərdir (73, 7).

"Milli ideologiyanın ayrılmaz hissəsi olan milli qürur həyatımızın bütün sahələrində çoxşaxəli şəkildə özünü büruzə verməlidir" deyən filosof F. Quliyev milli qürurun formalaşmasında mühüm rol oynayan əsas amillərdən birinin də adət-ənənələrimizə saygı və hörmət olduğunu göstərir. Təkzib edilməz reallıqdır ki, ata-babalarımızdan bizə miras qalmış adət və ənənələrimizin özünəməxsus

gözəllikləri vardır. Özündən böyüklərə hörmət, qonaqpərvərlik, el-oba, vətən, torpaq, ailə namusu, qadınlara hörmət və s. bu kimi duyğular azərbaycanlılarda çox inkişaf etmiş, adət-ənənələr halında qorunub saxlanılmışdır. Bu adət-ənənələrin gələcək nəsillərə ötürülməsi də önəmlidir.

Biz də ona tərəfdarıq ki, gənclər və yeniyetmələr lap körpəlikdən − kiçik məktəb yaşı dövründən etibarən bu adət-ənənələrə mükəmməl yiyələnməli və hörmətlə yanaşmamalıdır. Şagirdlər bilməlidir ki, adət-ənənələrimizi qoruyub saxlamaqla biz həm də milli qürurumuzu mühafizə edirik. Biz, özümüz olmalıyıq, kiməsə bənzəməməliyik. Unutmamalıyıq ki, bizim ulu babalarımız şəhərləri yaradanda, yollar çəkəndə, hamamlar tikib, kanalizasiyalar salanda, qadınlarımız at minib ox atanda, dövlət həyatında fəal iştirak edəndə bu gün bizi qəbul etməyən bir çox yaxın ölkələr mağaralarda yarımvəhşi halda yaşayırdılar.

Son vaxtlara qədər müasir mədəniyyətdən uzaq olan, çəlləkdə çimən, taxta qaşıqla yemək yeyən, dövlətçilik ənənələrini bizdən öyrənənlər qarşısında biz həmişə alnıaçıq, üzüağ və qürurlu olmalıyıq.

Hər bir Azərbaycan vətəndaşı, o cümlədən kiçik məktəb yaşlı uşaqlar da bilməlidir ki, bizim milli qürurumuz hər şeydən yüksəkdir. Uşaqlarımıza öyrətməliyik ki, şəhərdaxili nəqliyyatdan istifadə edərkən milli adət və ənənələrimizə uyğun olaraq özümüzdən böyüklərə, əlillərə, qadınlara hörmətlə yanaşıb, onlara yer vermək, yüksəkdən danışıb başqalarının rahatlığına mane olmamaq, şəhərlərimizin, kəndlərimizin, küçə və parklarımızın, sinfin, məktəbin, ev-eşiyin, getdiyi nəqliyyatın təmizliyini qoruyub saxlamaq, xarici qonaqlarımıza hörmətlə yanaşmaq, onların problemlərinə qayğı ilə kömək etmək hər birimizin mənəvi borcudur və biz bundan qürur duymalıyıq.

İstiqanlı, səmimi və qonaqpərvər xalq olmağımıza söz yoxdur. Bu baxımdan hər bir əcnəbi qonağımıza göstərməliyik ki, biz ulu baba və nənələrimizdən öyrənib xalqımızın adət-ənənələrinə sadiqik. Qonaqpərvərlik, istiqanlılıq və səmimilik bizə ulu baba və nənələrimizdən mirasdır və bu mirası qorumağı və növbəti nəsillərə ötürməyi bacarmalıyıq.

Milli qürur çoxşaxəli olmalı və inkişaf etməlidir, ancaq keşmiş adət-ənənələr də unudulmamalı, zamanın tələbinə uyğunlaşdırılaraq daha da təkmilləşməlidir.

Milli qüruru olan yenilməzdir. Möhtərəm Prezidentimizin xüsusi diqqət və qayğısı sayəsində bizə həmişə başucalığı gətirən, qürur dolu anlar yaşadan idmanımızın müasir inkişaf səviyyəsinin, dünya və olimpiya çempionlarımızın parlaq qələbələrini, yəqin ki, bilməyən yoxdur. Azərbaycanın I Avropa oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsi, Azərbaycan idmançılarının (Boks üzrə Elmir Məmişzadənin, Albert Səlimovun, Pərviz Bağırovun, Teymur Məmmədovun, Abdulqədir Abdullayevin; Çüdo üzrə İlham Zəkiyevin, Səbinə Abdullayevanın; Güləş üzrə Rəsul Çunayevin, Elvin Mirzəliyevin, Toğrul Əsgərovun; Gimnastika üzrə Oleq Sterkonun; Karete üzrə Firdovsi Fərzəliyevin, Rafael Ağayevin, Ayxan Mamayevin; Taekvondo üzrə Ayxan Tağızadənin, Radik İsayevin, Fəridə Əzizovanın və b.) qızıl medallar alması, bununla da Azərbaycanın Dövlət Himninin səslənməsi, hamının ayaq üstə himnimizi dinləməsi nəinki böyüklərin, hətta kiçik yaşlı məktəblilərin də iftixar hissi keçirməsinə, onlarla qürur duymasına səbəb olmuşdur. Tərbiyəçi müəllimlərin təlim və tərbiyə işində çempionlarımızla fəxr etməyə, onların idman nailiyyətləri ilə qürur duymağa üstünlük verməsi kiçik yaşlı uşaqların milli-qürur hissi tərbiyəsində əvəzsiz imkanlardan biridir.

Milli qürurun formalaşdırılmasında tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərinin, şəxsi nümunələrinin, tarixin inkişafımızda oynadıqları rolun əhəmiyyəti də son dərəcə böyükdür. Azərbaycan xalqı özünün  tarixi şəxsiyyətləri ilə fəxr edir, qürurlanır. Diqqət yetirək: Sovetlər İttifaqının rəhbəri kimi Stalin mənfi qəhrəman obrazı kimi bütün dünyada tanınır, minlərlə günahsız insanın qatili və qəddar diktator olmuşdur. Bunu bütün dünya da bilir və son dövrlərdə keçirilən internet sorğusunun nəticəsində də qanlı diktatorların siyahısında adı birinci yerdə çəkilir. Lakin buna baxmayaraq, bizim dost qonşu Gürcüstanda  bütün gürcü xalqı onunla qürur duyur, fəxr edir, Stalin dedikdə, mütləq onun gürcü olması amili önə gəlir. Dünyanın bir çox ölkələrində müharibələrin səbəbkarı olan, neçə-neçə kəndləri, şəhərləri yandırıb xarabə qoyan Napoleon indi Fransada fransızların milli qüruru hesab edilir. Fransız xalqı onunla qürur duyur ki, onun Napoleon kimi

həmvətənliləri olmuşdur. Şimali Koreyanın keçmiş dövlət başçısı, qəddar diktator Kim İr Sen hakimiyyəti saxlamaq üçün öz yaxınlarını belə məhv etməkdən çəkinməmişdir. Ancaq buna baxmayaraq, o, Koreya xalqının fəxridir, onu dahi rəhbər hesab edərək xatirəsini əziz tuturlar. Belə nümunələrin sayını artırmaq mümkündür. Belə nəticə çıxarmaq olar ki, dahi şəxsiyyətlər tutduğu mənfi və ya müsbət mövqedən asılı olmayaraq millətinin qürur obyektinə çevrilə bilirlər.

Tarixi şəxsiyyətləri yetirən millətlərlə bərabər zamanın da bu şəxslərin formalaşmasında öz hökmü olur, ancaq əsas məsələ bunda deyil, şəxsiyyətləri yetirmiş millətlər sonradan həmin şəxslərlə fəxr etməklə yanaşı, həm də onların simasında həmin millətlər tanınırlar.

Məsələn, Sovet dönəmində Azərbaycan bir respublika, bir xalq, bir millət kimi Sovet İttifaqında çox az tanınırdı. Yalnız Bakı şəhəri az-çox neftə görə dilə gətirilirdi. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi və sürətlə onun fenomen bir şəxsiyyət kimi siyasət dünyasında tanınması, Azərbaycanın da onun kimi Sovet İttifaqında və dünyada tanınmasına səbəb oldu. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin Sov. İKP MK-nın Siyasi Bürosunun üzvü olması isə həmin dövrdə respublikamız üçün göstərdiyi cəsarətli xidmətləri xalqımızı dünya miqyasında tanıtdı.

Ş.T. Tağıyev öz xatirələrinin birində deyirdi: “Təhsil illərində Moskvada digər millətlərdən olan həmkarlarımdan həmişə «Вы можете гордиться со своим Гейдар Алиевым. Действительно, он большой политик и выдающий государственный деятель » cümlələrini eşitmək, doğurdan da, qəlbimizi qürur hissi ilə doldururdu”.

Şəxsiyyət isə bütün sahələrdə ola bilər: istər sərkərdə olsun, istərsə də siyasi xadim, idmançı, həkim, alim və s. və i. fərq etməz, yetər ki, həmin tarixi şəxsiyyət bütün dünya tərəfindən qəbul edilsin.

Milli qürurun formalaşması işində həyat və fəaliyyəti ilə ən önəmli yeri tutan şəxsiyyətlər arasında, əlbəttə ki, siyasi dövlət xadimləri (məsələn, Heydər Əliyev, Şah İsmayıl Xətai) və sərkərdələr daha çox önəm daşıyırlar. Təsəvvür edin ki, bir nəfər sərkərdə (məsələn, Babək, Həzi Aslanov, Suvorov, Kutuzov, Atatürk,

Cankaşi və s.) müharibələrdə qazandığı böyük bir zəfərlə öz ölkəsini və millətini necə tanıdır. Ulu Öndər Heydər Əliyevin timsalında müstəqil Azərbaycan dövlətinin, Osmanlı imperatoru Sultan Süleymanın və Atatürkün timsalında böyük Türkiyənin və türk xalqının, Çankaşinin timsalında balaca bir dövlət olan Tayvanın bütün dünyada tanınmasında oynadığı mühüm rol buna nümunədir.

Buradan belə nəticəyə gəlmək mümkündür ki, hətta kiçik bir millətin yetişdirdiyi böyük şəxsiyyət öz millətinin digər millətlər arasında layiqli yer tutmasına təkan verir və həmin millətin nümayəndələrinin milli qürurunun formalaşmasında müstəsna əhəmiyyət daşıyır.

Böyük iftixar hissi ilə qeyd olunmalıdır ki, azərbaycanlılar da dünyaya böyük şəxsiyyətlər bəxş edən xalqlar arasında özünəməxsus yer tutur. Biz də bir millət olaraq qürurla deyə bilərik ki, dünyada bütün sahələrdə bizim də korifeylərimiz olub və olacaqdır. Biz də millətimizn böyük oğulları: Heydər Əliyev, Babək, Şah İsmayıl Xətai, Nizami Gəncəvi, Məmmədəmin Rəsulzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Ələsgər Lütfi Zadə, Azad Mirzəcanzadə və s. kimi minlərlə böyük şəxsiyyətlərimizlə qürur duyuruq.

Milli qürur və milli ideologiyanın formalaşmasında mühüm rol oynayan əsas amillərdən biri də dövlətçiliyimizin əsasını təşkil edən atributlardır. Bunları ölkənin sərhəd toxunulmazlığı, ordusu, pulu, bayrağı, gerbi, himni, dil və dövlətçiliyi yaşadan, inkişaf etdirən dövlət strukturları və onun qanunları şərtləndirir.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-1920-ci illərdəki taleyi göstərdi ki, dövləti yaratmaq, onun müstəqil və suverenliyinə nail olmaq nə qədər çətindirsə, onu qorumaq, inkişaf etdirmək və dünya ölkələrinə tanıtmaq, qəbul etdirmək daha çətindir. Hər bir müstəqil, suveren dövlətin ilk növbədə müstəqil dövlət siyasəti olmalıdır. Bu siyasət müəyyən mərhələli dövrləri əhatə edir. Hər bir dövlətin onun sərhədlərini qorumaq imkanlarına malik güclü ordusunun olmasıdır.

Biz qürur duymalıyıq ki, dövlətimizin tam formalaşmış güclü ordusu var. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev qəti və inamla "Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var" söyləyərək bizi

əmin etməsi bütün Azərbaycan xalqının qəlbini iftixar və qürur hissi ilə doldurur. Fəxr edirik ki, ordumuz həm tam müasir hərbi texnika və silahlarla təmin olunub, əsgərlərimiz yüksək döyüş qabiliyyətinə malikdir. Əsgərlərimiz son damla qanına qədər döyüşmək əzmindədir. 2015-ci il Novruz bayramı ərəfəsində əsgərlərimizin sayıqlığı və yüksək döyüş qabiliyyəti sayəsində ermənilərin təxribatçı-kəşfiyyat qrupunun müəyyənləşdirilməsi və məhv edilməsi, bu münasibətlə həmin əsgər və zabitlərin mükafatlandırılması dediklərimizə əyani sübutdur.

2016-cı il aprelin ilk günlərində işğal olunmuş ərazilərdə erməni silahlı birləşmələrinin törətdiyi təxribat əməllərinə Azərbaycan Ordusunun layiqli cavab verməsi, düşmənin xeyli canlı qüvvəsinin və hərbi texnikasının darmadağın edilməsi, yaşayış məntəqələrinin və strateji yüksəkliklərin alınması respublikamızın hər yerində böyük qürur və sevinc ilə qarşılandı.

"Azərbaycan böyük hərbi qələbə qazandı"- söyləyən Ali Baş Komandan (26) aprelin 2-nin Azərbaycan Ordusunun tarixində parlaq zəfər günü kimi qalacağını bəyan etdi ("Azərbaycan" qəzeti, 5 aprel 2016-cı il). Ordumuzun qüdrətindən böyük qürur hissi ilə danışan möhtərəm Prezidentimiz İlham Əliyev cəbhənin təmas xəttində gedən döyüşlərdə yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbiçilərlə görüşündə demişdir: "Sağalın, sağlamlığınızı bərpa edin. Burada bütün şərait yaradılıb. Siz vətən uğrunda vuruşmusunuz, xəsarət almısınız, yaralanmısınız. Vətən bunu yüksək qiymətləndirir. Azərbaycan xalqı sizinlə fəxr edir. Ali Baş Komandan kimi Sizə minnətdarlığımı bildirirəm. Sağ olun".

Prezidentimiz digər əsgərlərlə söhbətindən: "Böyük qəhrəmanlıq göstərmisiniz. Biz sizinlə fəxr edirik ki, Azərbaycanın belə gözəl gənc nəsli var", "Allah şəfa versin. Tez sağalın və normal həyata qayıdın. Sizinlə fəxr edirik. Sağ olun".

Qüdrətli ordumuzun və qəhrəman əsgərlərimizin döyüş şücayətindən bütün xalqımızın, o cümlədən şəxsən özünün böyük qürur duyduğunu, möhtərəm cənab Prezidentimiz, şəhid ailələrin və yaralıların yaxınlarının bir qrupu ilə görüşündə də söyləmişdir: "Bu gün mən döyüşlərdə qəhrəmancasına vuruşmuş hərbiçilərlə, yaralı uşaqlarla görüşdüm, onları təbrik etdim. Bir vətəndaş, Ali Baş Komandan,

Prezident kimi onlara Azərbaycan xalqı, dövləti adından təşəkkürümü bildirdim. Biz onlarla fəxr edirik" ("Azərbaycan" qəzeti, 6 aprel 2016-cı il).

Ali Baş Komandanımızın başçılığı ilə Ordumuzun qazandığı qələbənin uşaqdan tutmuş böyüyə qədər hamıda böyük qürur hissi yaratdığı bütün mətbuat səhifələrində də işıqlandırıldı: "Qələbən mübarək, Vətən!", "Düşmənə ağır zərbə vuran qüdrətli Ordumuzla fəxr edirik!", "Azərbaycan ordusu hər birimizin qürur mənbəyidir!", "Qəhrəmanlıq ənənələri qələbəyə səsləyir", "Milli ordumuzun düşmənə sarsıdıcı zərbəsi suraxanılılarda böyük ruh yüksəkliyi yaradıb", "Azərbaycan düşmən üzərində zəfərin qürur və sevincini yaşayır!", "Ordumuzun uğurları hər bir gəncimizi sevindirir" ("Azərbaycan" qəzeti, 6 aprel 2016-cı il). "Qüdrətli Azərbaycan Ordusu, sizinlə fəxr edirik!", "Döyüşçülərimizin qəhrəmanlığından inanılmaz qürur hissi keçiririk", "Milli Ordumuzun rəşadəti cənub bölgəsində də böyük ruh yüksəkliyi yaradıb" ("Xalq" qəzeti, 7 aprel 2016-cı il) və s.

Azərbaycan torpaqlarının hər bir qarışı tək ordumuz üçün yox, bütün Azərbaycan vətəndaşları üçün müqəddəsdir. Necə deyərlər, "Vətənin hər qarışı Vətəndir". "Vətən müqəddəsliyini yaratmaq üçün isə vətən eşqi, vətən sevgisi insanlara doğulduğu gündən aşılanmalı, uşaq ikən onun beyninə vətən saygısı və məhəbbəti yeridilməlidir. Bunun üçün isə uşaq bağçalarında, məktəblərdə, universitetlərdə, radio və televiziya kanallarında, mətbuat orqanlarında, müxtəlif saytlarda uşaqların vətənpərvərlik ruhunda tərbiyəsinin inkişaf etdirilməsi üçün xüsusi rubrikalar ayrılmalı, ən əsası isə analara, bütün valideynlərə öz övladlarının bu ruhda böyütmək üçün xüsusi şərait yaradılmalıdır". Hətta bəzi ədəbiyyatlarda belə bir fikir də səslənir ki, "körpə uşaqların vətənpərvərlik ruhunda böyüdülməsi üçün dövlət tərəfindən xüsusi olaraq ayrıca qurum və ya nazirlik yaradılmalıdır" (7, 10). Şübhəsiz ki, bu tərbiyəvi prosesdə nümunənin rolu, uşaqlarda milli qürur hissinin formalaşdırılmasında Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıq nümunələrinin imkanları daha genişdir. Şəhidlərimizin göstərdiyi böyük qəhrəmanlıqlar və bu qəhrəmanlıqların, hətta, dünyanın ən super dövlət başçısının belə etiraf etməsi (məsələn, Rusiya dövlətinin başçısı V.V. Putinin milli qəhrəmanımız Mübariz İbrahimovun haqqında söylədiyi fikirlər) istənilən

azərbaycanlıda qürur hissi doğurmaya bilmir: "Mən qəribə və maraqlı məlumat almışam. Azərbaycanda yeni Rembo peyda olub. Bir gecədə erməni ordusuna qarşı silahlanıb hücuma keçərək 135 nəfər erməni əsgər və zabitini qanına qəltan eyləyib. Əgər rəsmi məlumat olmasaydı, mən bu xəbərə inanmazdım. Çünki biz, bu cür igidlikləri kinolarda görmüşük. Rembo təkbaşına 200 nəfərdən çox adam öldürəndə deyirsən ki, bu fantastikadır. Həqiqətən də, bu, fantastikaya oxşayır. Axı necə ola bilər ki, bir nəfər silahlı 200 nəfər silahlıya atəş açır. 200 nəfərin atdığı atəş 1 nəfərə dəymir. Həmin 1 nəfər isə sərrast atəşlə hamısını yerə sərir. Bu heç cürə ağlabatan deyil. Deməli, Rembo təkcə kinoda deyil, həyatda da var. Azərbaycanlı Mübariz göstərdi ki, bu həqiqətdir, heç də fantastika deyil. Çox maraqlıdır" – deyə Rusiya prezidenti V.V. Putin bildirmişdir (https://m.youtube.com. Mübariz İbrahimov, Putinin Mübariz İbrahimova Karşı Duyduğu şaşkınlıq).

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olur ki, uşaqlıq dövründən öz övladlarımıza dövlətimizin ən önəmli atributları olan: Ordu, Sərhəd, Vətən anlayışlarını elə mənimsətməliyik ki, onları bir-birindən ayrı təsəvvür belə etmək mümkün olmasın.

Növbəti mərhələ kiçik məktəb yaşı dövrünü əhatə edir ki, bu da uşaqlıq dövründən onun vətənpərvərlik dərsləri keçməsi və milli ruhu daha da möhkəmlətməyə və təkmilləşdirməyə xidmət göstərməlidir. Yuxarı siniflərdə inkişaf etdirilən bu keyfiyyətlər onunla nəticələnməlidir ki, orta məktəbi bitirmiş və dövlətin vətəndaşı sayılan hər bir kəs əsl vətənpərvər kimi yetişə bilsin.

Vətənpərvərlik ruhunun yüksəldilməsində pedaqoji elmin üzərinə də böyük məsuliyyət düşür ki, bu elm elə birinci sinifdən başlayaraq şagirdlərin milli ideologiya ruhunda tərbiyə olunması, onlarda milli qürur hissinin formalaşdırılması qayğısına qalmalıdır. Ədəbiyyatda hətta belə bir təklifə rast gəlinir: əlifba ilə yanaşı yeni bir ideoloji dərslik – "Vətənpərvərlik dərsliyi" də hazırlansın və ibtidai sinif fənlərini bilməkdən heç də az əhəmiyyət kəsb etməyən "vətənpərvərlik" dərsləri tətbiq edilsin (73, 11). Bu təklif bilavasitə məqsədimizə aid olmadığı və ayrıca müzakirə obyekti olduğu üçün onun üzərində ciddi dayanmırıq.

Uşaqlıq illərindən milli vətənpərvərlik tərbiyəsi ruhunda böyüyən şagird tam məsuliyyəti ilə anlayır ki, Vətən, Ordu və Sərhəd bir-birlərindən ayrılmaz faktorlardır.

Beləliklə, hərbi xidmətə, ölkənin müdafiəsinə çağırılan gənclərdə vətənə, ordumuza, torpaqlarımıza sevgi, məhəbbət və onu qorumaq hissi tam formalaşmış olur.

Hərbi xidmətdə, döyüş bölgələrimizdə erməni qəsbkarları ilə üz-üzə dayanan əsgərin milli dəyanət, milli qürur və milli mənlik kimi keyfiyyətlərə yiyələnməsi orduda ən əsas məsələ hesab edilən nizam-intizamın və döyüş keyfiyyətinin yüksək səviyyədə olmasının təməli deməkdir. Nizam-intizamı yüksək səviyyədə olan ordu isə uğurlu döyüş əməliyyatları aparır. Kiçik yaşlarından etibarən yüksək vətənpərvərlik ruhunda tərbiyə almış, köksündə ürəyi vətən sevgisi, vətənə məhəbbət hissi ilə döyünən əsgər ona verilən əmr və tapşırıqları uğurla, yüksək səviyyədə yerinə yetirməyə hazır olur. Belə bir ordunu idarə etmək, belə əsgərlərlə qələbələr qazanmaq isə qalır ordu rəhbərliyinin bacarığına. Bu ruhda tərbiyə almış əsgərdən savadlı və səriştəli ordu zabiti yetişdirmək də elə çətin olmur.

Azərbaycanda dövlətçilik atributları milli qürur hissinin formalaşmasının vasitəsi kimi. Azərbaycan xalqının istiqlaliyyətinin təminatçısı, milli dövlətçiliyimizin memarı, Ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və səyi nəticəsində Azərbaycan Respublikası özünün ADR dövründə mövcud olmuş tarixi dövlət rəmzlərini bərpa etdi. 1920-ci il mayın 3-də endirilmiş üçrəngli dövlət bayrağımız ilk dəfə 1990-cı il noyabrın 17-də Naxçıvanda, sonra isə bütün respublikamızda xalqın vüqarı, mənliyi, iftixarı kimi əzəmətlə dalğalanmağa başladı. Bu gün də dalğalanır, gələcəkdə də dalğalanacaqdır. Çünki "Bir dəfə yüksələn bayraq, bir daha enməz!"

1992-ci il mayın 27-də ADR dövründə yaradılmış "Azərbaycan marşı" respublikamızın Dövlət himni, 1993-cü il yanvarın 19-da isə ADR dövründə hazırlanmış dövlət gerbi layihəsi müəyyən təkmilləşdirmələrlə Azərbaycanın Dövlət gerbi kimi təsdiq olundu. (15, 8). Gerbin mahiyyətinə açıqlama verən prof. M.C. Mərdanov və Ə.Ə. Quliyev yazırlar: "Azərbaycan Respublikasının Dövlət

gerbi onun dövlət müstəqilliyinin müqəddəs atributlarından, rəmzlərindən biridir" (77, 99). Gerbimizlə bağlı aparılmış tədqiqatlar aşağıdakı mənaların kiçik yaşlı məktəblilərə çatdırılmasına imkan verir: Gerbdəki: qalxan - Azərbaycanın özünümüdafiə qüdrətinə malik olduğunu göstərir; qalxandakı səkkiz düymə - günəşin səkkiz şüasına müvafiq olaraq verilmişdir; qalxandakı üç rəng – türklüyü, müasirliyi və islamlığı, səkkizgüşəli ulduz - günəşi əks etdirir, alov - Azərbaycanın "odlar yurdu" olduğunu bildirir; palıd budaqları – milli hərbi qüdrətimizi əks etdirir, sünbül - ərazimizin bolluğunu, zənginliyini, çörəyin müqəddəsliyini bildirir; Günəşin ağ rəngdə verilməsi_– xalqımızın sülh, əməkdaşlıq tərəfdarı olduğunu göstərir (83, 198).

Dövlətçiliyimizin atributlarından biri olan Himn Azərbaycanın müstəqilliyini, suverenliyini, əzəmətini ifadə etməklə yanaşı mütəşəkkillik və səfərbərlik, milli qürur və milli iftixar rolu da oynayır. Himnin bayram şənliklərində, siyasi mərasimlərdə, hərbi paradlarda, idman qələbələrində və s. səslənməsi həm ailədə, həm məktəbdə, həm də ictimaiyyət arasında uşaqdan böyüyə kimi hamıda milli qürur və milli iftixar hissləri oyadır.

Araşdırmalardan belə nəticəyə gəlmək olur ki, Azərbaycanın bu günki dövlət rəmzlərinin çox uzun və şərəfli bir tarixi yol keçməsi, dövlətçilik ənənələrimizin minilliklər ərzində zaman-zaman qorunub saxlanması haqqında həm məktəbdə, həm də ailədə kiçik yaşlı məktəblilərə əlaqələndirilmiş formada çatdırmaq mümkündür və bu çox müsbət tərbiyəvi səmərə verə bilir.

Dövlət bayrağımızda əks olunan simvolların ailədə analitik təhlili ilə bağlı müşahidələrimiz göstərdi ki, mavi rəngin – türkçülüyü, qırmızı rəngin – müasirliyi və demokratiyanı, yaşıl rəngin – islamlığı, aypara və səkkizgüşəli ulduzun isə Ay və Günəşi bildirdiyini uşaq daha asan və şüurlu mənimsəməklə bərabər, bu biliklərindən böyük qürur hissi keçirir.

Analoji yolla uşaqlara çatdırmaq olur ki, dövlət gerbimiz milli ənənələrimizə, milli dövlətçiliyimizə, milli ideyalarımıza əsasən hazırlanmışdır. Qürur duyuruq ki, dövlət gerbimiz milli dəyərlərimizi özündə ləyaqətlə əks etdirir.

Dövlət himnimizin məzmununa, ideyasına, vətəndaşlarda milli vətənpərvərlik, milli qürur hisslərinin formalaşdırılmasına görə müstəsna əhəmiyyət daşıyır. Bu əlamətlərinə görə bu nadir musiqi əsəri hər bir Azərbaycan vətəndaşının vətənpərvərlik hisslərini daha da yüksəldir, vətən sevgisini artırır, onlarda milli iftixar, milli qürur hissinin formalaşmasını təmin edir.

Ümumtəhsil məktəblərində pedaqoji kollektivlər valideynlərlə birlikdə dövlət rəmzlərimizin təlim və tərbiyəvi imkanlarından maksimum bəhrələnməklə kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasına nail olmalıdırlar. Qeyd edək ki, bu günə qədər Azərbaycan Respublikasının dövlət atributları vasitəsilə ibtidai sinif şagirdlərində milli qürur, milli-mənlik, milli iftixar hisslərinin formalaşdırılması zamanı müəllim və valideynlərin əlbir fəaliyyəti konkret tədqiqat obyekti olmamışdır.

Azərbaycanda dövlət bayrağının tarixinə ekskursiya milli qürur hissi tərbiyəsində başlıca vasitələrdən biridir. Müasir Azərbaycan dövlətçiliyi minilliklər ərzində mövcud olmuş dövlət hakimiyyətinin həyata keçirilməsinin metod və vasitələrinin məcmusudur. Ona görə də belə hesab edirik ki, Azərbaycanda dövlətçilik və onun rəmzlərinin tarixinə, xüsusən də Dövlət Bayrağının ekskursiya etməklə şagirdlərdə milli qürur hissinin tərbiyəsi problemin həllinə daha obyektiv yanaşmaq mümkündür. Problemin həllinə bu kontekstdən də yanaşmağa kifayət qədər əsasımız var. Çünki Azərbaycan tarixşünaslığında Milli Bayrağımızın tarixi ilə bağlı yetərincə material var. Bu baxımdan “Azərbaycan Respublikasının dövlət rəmzləri” (77) adlı albom-kitabda verilən materiallar diqqəti xüsusi cəlb edir.

Nadir şahın ölümündən sonra Azərbaycanda müstəqil dövlətlər – xanlıqlar yaranmışdır.

Zəngəzurdan Araz çayınadək olan ərazi Naxçıvan xanlığı, Azərbaycanın şimali-qərb torpaqlarında İrəvan xanlığı, Murovdağ silsiləsindən Kür çayınadək uzanan ərazidə Gəncə xanlığı, Araz və Kür çayları arasındakı ərazilərdə Qarabağ xanlığı, Şirvan yaylasında Şamaxı xanlığı, Azərbaycanın şimali-qərbində Şəki xanlığı, Xəzərin Qərb sahilində Quba xanlığı, Abşeron yarmadasında Bakı xanlığı və s. meydana gəldi.

Bu xanlıqların hər birinin müstəqil bayrağı olmuş, bu bayraq altında öz dövlətçiliklərini qorumuşlar. Lazım gəldikdə bu "Bayraq" uğrunda şəhid olmuşlar. Çünki, Milli Bayraq – mənəvi-siyasi, ideoloji baxımdan bir dövlətin və bu dövləti təşkil edən millətin simvolu olub, onların mövcudluğunu göstərən rəmzidir.

Əfsanəvi Gəncə xanı Cavad xanın Sisyanova sonuncu – beşinci məktubundan - "O ki qaldı şəhərin təhvil verilməsinə, xam xəyaldan əl çək. Gəncəyə yalnız mənim cəsədimin üstündən keçə bilərsən. Bildinmi? Mən öləndən sonra özgə cür yox" cavabı göndərərək doğma vətənin müdafiəsi uğrunda qoşunu ilə birlikdə döyüş meydanında qəhrəmancasına həlak olur. Bu tarixi hadisə bütün Azərbaycan xalqının qürur mənbəyidir. Hazırda respublikamızın bütün şəhər və rayon məktəblərində möhtəşəm bayraq meydanlarının yaradılması, bu meydanlarda müstəqil Azərbaycan dövlətçiliyinin rəmzi olan Milli Bayrağımızın əzəmətlə dalğalanması nəinki məktəblilərdə, bütün Azərbaycan xalqında milli iftixar və milli qürur hisslərinin formalaşmasında müstəsna rol oynayır.

Dövlət bayrağımız Azərbaycanımızın ərazi bütövlüyü və toxunulmazlığının, dünya azərbaycanlılarının mənəvi-siyasi və mədəni birliyinin, vahidliyinin, bölünməzliyinin simvoludur. Bu bayraq millətimizin, dövlətimizin şərəf və ləyaqətininin, sarsılmazlıq və yenilməzliyinin rəmzidir (83, 39).

Məktəblilərin Bayraq meydanlarımıza vaxtaşırı ekskursiyalarının təşkili, ekskursiya zamanı bayrağımızın keçdiyi məşəqqətli tarixi yolun onlara çatdırılması, bu işdə valideynlərin də fəal iştirakının təmin olunması milli qürur hissi tərbiyəsində başlıca amillərdəndir.

Heydər Əliyev irsi şagirdlərdə milli qürur hissinin formalaşmasında başlıca mənbədir. Ulu öndər Heydər Əliyev ölkəmizdə gedən milli təhsil quruculuğu işində müdrik pedaqoq, metodoloq, alim kimi tərbiyə nəzəriyyəsini düzgün istiqamət vermiş və işıqlı yol göstərmişdir. Onun məruzə, nitq və çıxışlarında Azərbaycanda təhsil, Azərbaycan dilinə, müəllim əməyinə, müəllim şəxsiyyətinə, gənclərin vətənpərvərlik tərbiyəsinə, məktəblilərin əsl vətəndaş kimi yetişməsi, onlarda milli qürur hissinin formalaşması məsələlərinə qayğı mühüm yer tutur.

Ümummilli lider Heydər Əliyev döyüşlərdə və hərbi quruculuq işində hərbi-vətənpərvərliyin yerini və rolunu göstərməklə yanaşı milli vətənpərvərlik anlayışının özünə də yeni məzmun gətirmiş və elmi-pedaqoji tədqiqatlara istiqamətlər vermişdir. Belə ki, Ulu öndər insanı ucaldan, onu zənginləşdirən mənəvi tərbiyənin komponentlərinə: milli Azərbaycan vətənpərvərliyini, milli ləyaqəti, hərbi-vətənpərvərliyi, milli iftixarı, milli dəyanət və vicdanı, düşmənə nifrəti, xalqımızın adət və ənənələrini, ana dilini dərindən bilməyi, milli və ümumbəşəri mənəvi dəyərlərin vəhdətinin təmin edilməsini, böyüyə hörməti və s. keyfiyyətləri daxil edir.

Ümummilli lider Heydər Əliyev demişdir: “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”. “Milli Azərbaycan vətənpərvərliyi” ifadəsini ilk dəfə Ulu öndər Heydər Əliyev nitqində işlətmiş, onun mahiyyət və məzmununu açıqlamış, göstərmişdir ki, milli vətənpərvərlik keçmiş tariximizin qiymətləndirilməsidir. Torpaqlarımızın qorunmasıdır. Azərbaycan çoxmillətli, demokratik bir dövlətdir. Milliyətindən asılı olmayaraq, hər bir vətəndaş üçün Azərbaycan ana vətəndir. “Vətəndaş” sözü o deməkdir ki, hər bir vətəndaş öz vətəninə sadiq olmalı, onu göz bəbəyi kimi qorumalı və vətənin uğrunda, torpağının uğrunda, anasının-atasının müdafiəsi yolunda şəhid getməyə belə hazır olmalıdır. Milli vətənpərvərlik Azərbaycanda yaşayan bütün millətlərin vətənpərvərliyidir. Azərbaycan xalqı deyəndə Azərbaycanda yaşayan bütün xalqların birliyi başa düşülür. Bu xalqın vətənpərvərliyinin dərin kökləri vardır. Azərbaycan vətənpərvərliyi Azərbaycanın müstəqilliyinin qorunmasına xidmət edir.

Məlum olduğu kimi, Ulu öndər Heydər Əliyev çox uğurlu xarici siyasət aparmışdır. Bu siyasət sayəsində Azərbaycan Avropaya pəncərə açmış, böyük Çin səddini keçmiş, Amerikaya gedib çıxmışdır. Həmin siyasət xalqımızda yüksək mənəvi inam və əhval-ruhiyyə yaratmışdır. Bu mübarizə ruhunu məktəblilərə çatdırmaq və onlara bildirmək lazımdır ki, Dağlıq Qarabağ düyününü ancaq Heydər Əliyev irsinə yiyələnməklə çözmək mümkündür. Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti, onun yeritdiyi qlobal siyasət təqdirəlayiqdir. O,

şəhidlərin ruhu naminə, milli istiqlal naminə, böyük səy və gərgin zəhmətlə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmışdır. Bu bir həqiqətdir ki, "Hər bir məmləkətin öz siması, arzusu, istəyi, qayəsi, öz ləyaqəti və yalnız özünə xas olan xüsusiyyəti vardır" (İlya Çavçavadze). Hiyləgər ermənilər tarix boyu millətlərin bu xüsusiyyətlərini təhqir etməyə, Zaqafqaziyada yaşayan xalqların torpaqlarına sahib olmağa cəhd göstərmişlər. İndi də belədir. İlya Çavçavadzenin sözləri ilə desək, ermənilərin üzündən niqabı götürməyin, onları dünya ictimaiyyəti qarşısında ifşa etməyin vaxtı çatmışdır. Belə bir ifşanı dahi Heydər Əliyev çox gözəl bacarmışdır. O, ermənilərin vəhşi simasını açıb bütün dünya ictimaiyyətinə tanıtmışdır.

Ulu öndər Heydər Əliyevin tövsiyələrinə görə, indi də təhsil işçilərinin mühüm vəzifəsi gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gəncin müqəddəs borcu olmalıdır. Millətini, torpağını sevən hər bir namuslu adam torpağımızın işğalçıların əlində qalmasına razı olmamalıdır, hərbi xidmət gəncləri daha da mətinləşdirir, dözümlü, cəsarətli edir. Vətən məhəbbəti gənclərin mənəvi dünyasını zənginləşdirir. Milli Azərbaycan vətənpərvərliyi düşmənə nifrəti gücləndirməli, onlarda qisas hissini artırmalıdır. Ümummilli liderimiz Heydər Əliyevin şəxsi nümunəsi xalqına, elinə, vətəninə, dövlətinə əsl sədaqətlilik örnəyidir. Heydər Əliyev irsi öyrədir ki, hər bir gənc, hər bir azərbaycanlı öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı və yaşatmalıdır. Heydər Əliyev irsinə görə səxavətlilik Azərbaycanın Milli Ordusunda xidmət etmək əzmini formalaşdırır.

Ulu öndər Heydər Əliyev mənəvi keyfiyyətlərə yiyələnmiş, özünü vətənin, vətən torpağının bir zərrəsi sayan gənclərin tərbiyə edilib yetişdirilməsində müəllimə, onun şəxsiyyətinə yüksək qiymət vermişdir.

Hazırda Azərbaycan müəllimləri qarşısında çox böyük və şərəfli vəzifələr durur. Bu vəzifələrə xalqımız, dövlətimiz üçün yüksək mənəviyyatlı, bilikli, vətənpərvər, kamil vətəndaşlar yetişdirmək, Heydər Əliyev irsinə məhəbbət, ehtiram tərbiyə etmək, vətənə, sədaqətli, mərd gəncləri hazırlamaq daxildir.

Deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan xalqının müdrik oğlu, Ulu öndər Heydər Əliyevin vətənpərvərlik irsinin tərbiyə prosesində əsas götürülməsi, dövlətin təhsil siyasətinin həyata keçirilməsinə, xidmət edir. Heydər Əliyev irsi gənclərə yurdsevərlik, yüksək vətəndaşlıq hissi, dövlətimizə və onun atributlarına hörmət və rəğbət, milli sərvətlərimizə və mədəniyyətimizə, doğma təbiətə, adət və ənənələrimizə, ana dilimizə, xalqımıza məhəbbət duyğusu, milli qürur hissi aşılayır və ən başlıcası onları Vətənin müdafiəsinə hazırlayır.

Bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu böyük şəxsiyyət öz ideyaları ilə xalqımızın qəlbində daim yaşayacaq, əziz xatirəsi hər zaman yüksək ehtiramla anılacaq.

Ümummilli lider Heydər Əliyevin xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsasını qoydu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Ulu öndər ölkənin iqtisadi yüksəliş üçün təcili tədbirlər gördü. İttifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr qırıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə olunması və milli məhsulların xarici bazalara çıxışının təmin edilməsi mühüm əhəmiyyət daşıyırdı.

Azərbaycanın ötən iyirmi ildə keçdiyi inkişaf yoluna nəzər salanda insanın qəlbi iftixar hissi ilə dolur. Azərbaycanın dövlət müstəqilliyi ölkəmizin hər bir vətəndaşı üçün ən böyük sərvətdir. Fəxrlə demək mümkündür ki, müasir Azərbaycan Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi təməl prinsiplərini uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin başçılığı ilə ölkəmiz regionun lider dövlətinə çevrilmiş, dünya siyasi arenasında layiqli yerini tutmuşdur. Hazırda ölkəmiz dünyanın əksər nüfuzlu beynəlxalq təşkilatlarının üzvüdür və bu qurumlar vasitəsilə haqq işimiz bütün dünyaya çatdırılır. Azərbaycan diplomatiyası öz fəaliyyətini gücləndirərək BMT, ATƏT,

Avropa Şurası, Nato, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın təcavüzkar siyasətini pisləyən bir çox qətnamələr və qərarlar qəbul edilməsinə nail olmuşdur. Prezident İlham Əliyev Azərbaycan diasporunun inkişafına xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, müxtəlif ölkələrdəki diaspor təşkilatlarımızın sayı və fəaliyyəti daha da genişlənmişdir. Əgər 5 il əvvəl xaricdə 336 diaspor təşkilatımız vardısa, bu gün onların sayı 416-ya çatmışdır. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul edilməsinin əsası isə Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş çağdaş Azərbaycan diplomatiyasının yeni qələbəsi, Prezident İlham Əliyevin yürütdüyü müstəqil xarici siyasətin dünya birliyi tərəfindən etirafı idi.

Prezident İlham Əliyevin müəllifi olduğu yeni milli inkişaf konsepsiyasının uğurlu tətbiqi nəticəsində ölkəmiz keçid dövrünü arxada qoyaraq yeni mərhələyə qədəm qoymuşdur. Qeyd etmək yerinə düşər ki, 2007-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətə başlaması böyük strateji uğurlar olmaqla yanaşı, həm də Azərbaycanın dünya iqtisadiyyatına bir töhfəsi idi. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin düzgün istiqamətdə davam etdirilməsinin nəticəsidir ki, hazırda Azərbaycan iqtisadi artım sürətinə görə dünyada liderlər sırasındadır. Neft və qeyri-neft sektorları stabil inkişaf edir, ümumi daxili məhsul, dövlət büdcəsi və valyuta ehtiyatlarımız artır. Təsadüfi deyildir ki, dünyada gedən qlobal iqtisadi böhran şəraitində də ölkəmizdəki iqtisadi inkişaf tempi davam etməkdədir. Əminliklə deyə bilmək mümkündür ki, Azərbaycanın enerji təhlükəsizliyi təmin olunmuşdur. Ölkəmizdə müasir infrastruktur yaradılır, regionların inkişafı proqramı uğurla həyata keçirilir. Yeni yollar, hava limanları, körpülər salınır, tikilən müasir təhsil, səhiyyə, mədəniyyət ocaqları, muzeylər, parklar, idman kompleksləri ölkəmizi daha da gözəlləşdirir. Mühüm sosial əhəmiyyət daşıyan Oğuz-Qəbələ-Bakı su kəməri istismara verilmişdir. Hazırda tarixi ipək yolunun bərpası ilə bağlı Bakı-Tbilisi-Qars dəmir yolu və yeni limanın tikilməsi kimi irimiqyaslı strateji layihələr həyata keçirilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2003-cü ildən indiyədək imzaladığı 40-dan çox dövlət proqramı ölkə həyatının bütün sahələrində hərtərəfli islahatların əsasını qoymuş, inkişaf prosesində stabilliyin təmin edilməsinə şərait yaratmışdır. İqtisadiyyatda baş verən real struktur dəyişiklikləri onun neft amilindən asılılığının azaldılmasına, qeyri-neft sektorunun, xüsusən, kənd təsərrüfatının, emal sənayesinin, turizmin, xidmət sahələrinin genişlənməsinə, regionların inkişafına, insan resurslarından səmərəli istifadə olunmasına yönəlmişdir. Ölkəmizin büdcəsi xarici ekspertlər tərəfindən sosialyönümlü büdcə kimi səciyyələnir və bu sahəyə ayrılan vəsait hər il davamlı olaraq artırılır. Prezident İlham Əliyev bununla əlaqədar demişdir: "Sosial sahədə qarşımızda duran vəzifələr əhalinin rifah halını yaxşılaşdırmaq, aztəminatlı təbəqənin sosial müdafiəsini gücləndirmək, yoxsulluğu bütövlükdə Azərbaycanda aradan qaldırmaqdır".

Dahi Heydər Əliyevin siyasi kursunu yaradıcılıqla, müasir tələblərə uyğun şəkildə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycan intibah dövrünü yaşayır. Ölkəmizdə mövcud olan daxili sabitlik, əmin-amanlıq sürətli iqtisadi təkamülün arxasında dayanan mühüm amillərdəndir. Bu tərəqqi ümummilli lider Heydər Əliyev ideyalarının təntənəsi, möhkəm bünövrə üzərində davamlı inkişaf edən müstəqil ölkəmizin real mənzərəsidir. Bu gün qürurla deyə bilərik ki, ötən illər ərzində, xüsusilə də son onillikdə Azərbaycanın əldə etdiyi nailiyyətlərin arxasında onun güclü Prezidenti İlham Əliyev dayanmışdır.

### 2.4.Təlim və sinifdənxaric tədbirlər zamanı kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanması imkanları

Riyaziyyatın tədrisi zamanı kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması. I-IV siniflərdə riyaziyyat kursunun mövcud proqramlar əsasında tədrisi zamanı şagirdlərə sadə hərbi–texniki məlumatların verilməsi bir tərəfdən məktəblilərin gələcəkdə hərbi xidmətə daha keyfiyyətli hazırlanmasına, fənlərarası əlaqənin reallaşdırılmasına əlverişli şərait yaradır, digər tərəfdən, milli ordumuzla, onun təchizatı, texniki və döyüş keyfiyyətləri ilə qürur duymağa əsas verir.

Təlim prosesində hərbi məzmunlu çalışmalar vasitəsilə Azərbaycan Milli Ordusunun Vətəni müdafiə etməsi, onun döyüş epizodları, xalqımızın tarixi qəhrəmanlıq ənənələri, hərbi döyüş texnikası və silahları, taktiki döyüş priyomları və s. haqqında sadə, qısa və ilkin məlumatları kiçik yaşlı məktəblilərin nəzərinə çatdırmaq mümkündür.

İbtidai siniflər üzrə riyaziyyat dərsliklərindəki çalışmalardan bir qrupunun həlli zamanı məzmunda verilən, ordumuzun istifadəsində olan hərbi döyüş texnikasının şəklini göstərməyə, bu texnika haqqında sadə, yığcam və ümumi şəkildə söz açmağa imkanlar vardır. Bu zaman şagirdlər həmin texnikanın xarici görünüşü ilə tanış olur, onu görünüşcə başqa döyüş vasitələrindən fərqləndirə bilir, döyüş xüsusiyyətləri haqqında ilkin qısa məlumata yiyələnirlər. IV sinfin riyaziyyat dərsliyindəki 965-ci çalışmaya diqqət yetirək: "Sualtı qayığın suyun üstü ilə hərəkət vaxtı suyun altı ilə hərəkət vaxtından 20 dəfə azdır. Sualtı qayıq suyun altında suyun üstündə olduğundan 57 saat çox qalarsa, onun suyun üstündə nə qədər vaxt olduğunu tapın".

Müəllim həmin çalışmanı həll etdirməzdən əvvəl sualtı qayığın ümumi görünüşü öz əksini tapmış şəkli sinfə göstərir. Məlumat verir ki, sualtı qayıq həm suyun altı, həm də üstü ilə hərəkət edə bilir. Müasir hərbi texnikada sualtı qayıqlar qüvvətli döyüş vasitəsidir. Sualtı qayıqdan atılan raketlər və özü idarə olunan torpedolar vasitəsilə düşmənin suüstü və sualtı hərbi obyektlərinə suyun altından (yaxud üstündən) güclü zərbə vurulur.

İndi biz sualtı qayığın hərəkət sürəti ilə bağlı olan məsələ həll edəcəyik (Müəllim məsələni oxuyur və onun həllinə başlayır).

Riyaziyyat dərsliklərində elə çalışmalar da vardır ki, onların həlli məhəllədə mövqenin seçilməsi, onun koordinant sistemində qeyd olunmasına aiddir. Məsələn, IV sinfin "Riyaziyyat" dərsliyində 1244 və 1251-ci çalışmalar.

Yuxarı siniflərdə öyrədilir ki, gələcəkdə hər bir əsgər döyüş zamanı öz hərəkət istiqamətlini azimuta görə düzgün müəyyənləşdirməyi, hədəfin və özünün yerləşdiyi mövqeyi dəqiq göstərməyi, naməlum və yaxud az məlum olan ərazilərdə yerləşən məntəqənin və bu məntəqəyə gedən yolu asan tapmağı, topoqrafik

xəritələrdən faydalanmağı, hədəflə öz mövqelərini dəqiq bilməyi və döyüş zamanı mövqeləri qiymətləndirməyi bacarmalıdır. Bunun üçün əsgər bir sıra sadə məlumatları, o cümlədən miqyas, miqyas vahidləri, müxtəlif miqyaslı topoqrafik xəritələri, miqyasa görə müəyyən obyektin və ya ərazinin planını çəkməyi, yer üzərindəki məsafəni ölçərək onun miqyasa görə xəritəyə köçürməyi, yaxud xəritədə santimetrlərlə verilən məsafəyə uyğun gələn həqiqi məsafəni tapmağı, müşahidə məntəqəsindən düşmən obyektinə qədər olan ən qısa məsafəni müəyyənləşdirməyi, pərgarın köməyi ilə topoqrafik xəritədə müvafiq məsafəyə uyğun həqiqi məsafəni hesablamağı bacarmalıdır.

Dərsliklərdəki çalışmalardan bir qrupunun məzmunu şagirdlərdə milli orduya məhəbbət və rəğbət hissləri oyatmağa imkan verir. Məsələn, “yaz daşqını zamanı şəhəri su basmaq təhlükəsi yaranmışdır. Köməyə gələn ordu əsgərləri suyun qarşısını kəsən buz yığımını dağıtdılar. Bundan sonra suyun səviyyəsi birinci gün 1,2 m, ikinci gün isə 0,7 m dəyişdi. Çayda suyun səviyyəsi necə dəyişdi?” (IV sinfin riyaziyyat dərsliyi 12-ci çalışma).

Çalışmanın həllinə başlamazdan əvvəl məktəblilərə Azərbaycanın sülhsevər dövlət olması, onun ordusunun isə işğala məruz qalmış torpaqlarımızın azad edilməsi uğrunda apardığı döyüşlər, neçə-neçə Azərbaycan əsgərlərinin qəhrəmancasına həlak olması, yeri gəldikdə, əsgərlərin xalq təsərrüfatının müxtəlif sahələrindəki fədakar əməyi, təbiət təhlükələri və fəlakətləri gözlənildikdə köməyə gəlməsi haqqında yığcam məlumat verilir. Sonra müvafiq çalışma oxunur və yalnız bundan sonra həll etdirilir.

Bir sıra riyazi çalışmaların məzmunu güllə atıcılığına dair məktəblilərdə ilkin təsəvvürlərin yaradılmasına kömək göstərir. Məsələn, “hədəfə atəşin sayı 10 azalmış, hədəfə dəymənin sayı isə 3 artmışdır. Yayınmanın (hədəfə dəyməməyin) sayı necə dəyişmişdir?” (IV sinfin “Riyaziyyat” dərsliyində 1475-ci çalışma) “Yarışlarda hər atıcı 10 atəş açır. Hədəfə düşən hər atəş üçün 5 xal qazanır, dəymədikdə isə 1 xal itirir. Ən azı 30 xal toplayan şəxs qalib hesab olunur. Qaliblər sırasına çıxmaq üçün atıcı hədəfə neçə dəfə düşməlidir?”.

Riyaziyyat müəllimi bu tipli çalışmaların həllinə başlamazdan əvvəl əsgərin hədəfə atəş açmasını göstərən plakatı nümayiş etdirib AKM silahın ümumi görünüşü, onun maddi hissələri, güllənin lülədə və havada hərəkət trayektoriyası, onun ani müddətə hədəfə dəyməsi, haqqında qısa məlumat verir.

Bir sıra çalışmaların məzmununda döyüş şöhrəti yerləri haqqında qısa məlumatlara müraciət edilir. Məsələn, IV sinifdə bir çalışma partizan dəstələrinin döyüş əməliyyatlarına aiddir.

Belə çalışmaların həlli zamanı riyaziyyat müəllimi məktəbin "hərbi şöhrət" muzeyinin və yaxud hərbi guşənin materiallarına əsaslanaraq göstərə bilər ki, xalqımız Vətən müharibəsi apardığı indiki dövrdə Azərbaycan əsgərlərinin qəhrəmancasına döyüşdükləri və vətən yolunda minlərlə gənclərin əbədiyyata qovuşduğu yerlər döyüş şöhrəti yerləri adı ilə məşhurlaşır və gələcəkdə də bu əbədiləşəcək. Qarabağ uğrunda, Murov dağı ətrafında, işğal olunmuş hər qarış torpaqlarımız uğrundakı vuruşmalar buna nümunədir. Belə yerlər ölkəmizdə çoxdur. Xalqımız bu döyüş yerlərini və orada həlak olmuş əsgərlərimizi unutmur. Həmin torpaqlarda tarixi abidələr ucalacaq, ölməzliyin, igidlik və qəhrəmanlığın, Vətən sevgisinin rəmzi kimi qorunacaqdır. Məktəblilər isə belə döyüş yerlərinə yürüşlər təşkil edəcək, qəhrəmanların xatirəsinə həsr olunan müxtəlif yarışlar keçirəcəklər. Uşaqlar, indi bizim həll etdiyimiz məsələ də şagirdlərin belə döyüş şöhrəti yerlərinə yürüşləri ilə bağlıdır.

Dərslikdə elə tip çalışmalar da vardır ki, şagirdlərin həlli zamanı məktəblilərin hərbi-idman oyunları haqqında məlumatlarını genişləndirmək mümkündür. Məsələn, ənənə şəklini almış "Üfüqdə parıltı" hərbi–idman oyunu, təlimata əsasən, 4-7-ci sinif şagirdlərini əhatə edir. Oyun iştirakçıları qabaqcadan yarışa hazırlaşır və oyunda onlara lazım olacaq hərbi anlayışları mənimsəyirlər. Bunları nəzərə alaraq, riyaziyyat müəllimi hərbi–idman oyunlarına aid çalışmaların həllinə belə bir müsahibə ilə başlaya bilər:

- Siz hansı hərbi-idman oyunlarını tanıyırsınız? Hansı hərbi-idman oyununda iştirak etmisiniz və neçənci yeri tutmusuz? Hərbi-idman oyunları nə üçün keçirilir? Oyun zamanı siz hansı işləri görmüsünüz?

Bu suallara cavab aldıqdan sonra müəllim məsələni oxuyur və onun həllinə keçir.

Riyazi çalışmaların arasında elələri vardır ki, onlar hərbi təyyarələrin manevrlərinə aiddir. Məsələn, “Hərbi manevr zamanı tutucu təyyarə əvvəlcə 20 km qalxmış, sonra isə 5,5 km enmişdir. Təyyarənin qalxma hündürlüyü necə dəyişmişdir?” (93, çal. № 199). Riyaziyyat müəllimi məsələnin həllinə belə bir məlumatla başlaya bilər: keçmiş sovetlər ölkəsi aviasiyanın vətəni olmuşdur. Azərbaycanlı general Kərim Kərimovun sovet aviasiyasının yaranması və inkişafında xidmətləri əvəzsizdir.

Azərbaycan Milli Ordusunda qoşun növlərindən biri də Hərbi Hava Qüvvələridir. Bu qoşunlar müasir hərbi təyyarələrlə təchiz edilmişdir. Hərbi tapşırıqları müxtəlif tipli təyyarələr yerinə yetirir. Bunlar qırıcı, qırıcı–bombardımançı, tutucu, kəşfiyyatçı və s. təyyarələrdən, həmçinin vertolyotlardan ibarətdir. Tutucu təyyarə çox qısa müddətdə havadakı döyüş təyyarə və vertolyotlarının başının üstünü almağa, onları yerə endirməyə qadirdir. Reaktiv mühərrikli müasir hərbi təyyarələrin surəti 3 min km /saatdan çoxdur. Bu təyyarələr yerdən 30 km hündürlükdə uça bilir. Bizim indi həll edəcəyimiz məsələ də bu təyyarənin hərbi manevrinə aiddir.

Bir sıra çalışmalar da vardır ki, onlar yuxarı siniflərdə keçilən gənclərin çağırışaqədərki hazırlığı fənninin “Əsgərin döyüşdə davranış qaydaları” anlayışı ilə bağlıdır. Məsələn, 4-cü sinfin “Riyaziyyat”ındakı çalışma:

a) “Paraşütçü zülmət qaranlıqda bataqlıq bir rayonda (D nöqtəsində) yerə endi. Projektorların a və b şüaları və onların kəsişdiyi D nöqtəsi C məntəqəsindən görünmürsə, həmin məntəqədən qalxan vertolyot paraşütçünun dalınca hansı istiqamətdə uçmalıdır?” (62, 19-23).

b) “Paraşütçü paraşütünü açmadan 4 san. enirdi. O, birinci saniyədə 4,9 m hər sonrakı saniyədə isə əvvəlkindən 9,8 m çox enirdi. Paraşütçü 4 saniyədə neçə metr enmişdir?” (93, çal. № 968).

Belə çalışmaların həllinə başlayarkən yığcam məlumat vermək olar ki, müasir döyüşlər zamanı düşmənin arxa cəbhəsinə desant və kəşfiyyat qrupu

çıxarmaq məqsədilə paraşüt sistemindən istifadə edilir. Paraşütün köməyilə həm əsgərləri, həm də hərbi texnikanı və döyüş ləvazimatını istənilən yerə atmaq mümkündür. Müasir paraşütlər idarə ediləndir və onu istənilən əraziyə salmaq olur. Nəzərə almaq lazımdır ki, güclü külək paraşütün istiqamətini dəyişə bilər. Müəllim: "İndi bu şəkildə siz paraşütçünü görürsünüz", - deyərək şagirdlərə paraşütlə atılan əsgərin şəklini göstərir və paraşütün quruluşu haqqında yığcam məlumat verir, sonra məsələnin həllinə keçir.

Məşğələnin bu şəkildə əyaniləşdirilməsi riyaziyyat dərslərində müəllimin, yeri gəldikcə, hərbi-texnika elementlərinə müraciət etməsi, məktəbliləri fəal təfəkkür və fikri əməliyyatlara qoşması, məzmununda hərbi-texniki məlumatlar olan çalışmaların yerinə yetirilməsi gənc nəsildə bir tərəfdən sadə hərbi təsəvvürlərin yaranmasına, döyüş texnikası ilə tanış olmalarına kömək göstərir, digər tərəfdən, hərbi biliklərin mənimsənilməsinə maraq, döyüş texnikasına yiyələnmək həvəsi, Milli Orduda xidmətə tələbat, Vətənin müdafiəsinə hazır olmaq və s. bu kimi müsbət hislər tərbiyələndirir.

Azərbaycan maarifpərvərlərinin pedaqoji irsində milli qürur hissinin formalaşdırılması probleminin qoyuluşu. İnsan ictimai tərəqqi kontekstində, ictimai inkişafın gedişində şəxsiyyət səviyyəsinə yüksəlir. Onun qarşıya qoyduğu məqsəd və məram şüurlu dərketmə prosesində üzə çıxır. İnsan kimliyini dərk etdikcə kamilləşir, xaraktercə yeni məzmuna malik əxlaqi sifətlər sahibinə çevrilir. Həyat hadisələrindən özünün məntiqi zövqünə uyğun nəticələr çıxarıb bütövləşir. Özünü bir fərd kimi duyub qiymətləndirir, arzu və istəklərinin arxasınca mənalı ömür sərf edərək, yaşayışının mənasını bu yolla başa vurmağa çalışır. O özünün tarixi keçmişi, indisini və gələcəyini aydın dərk edib qiymətləndirir. Belə halda şəxsiyyətin xarakterində milli qürur, milli-mənlik şüuru formalaşır, ruhi aləmi yeni milli məzmun çaları alıb, cəmiyyət hadisələrinə milli dərketmə prizmasından nəzər salır. Müstəqil şəxsiyyətin ən vacib həyati keyfiyyətlərinin daşıyıcısına çevrilən mühüm psixoloji-idraki xüsusiyyətlər bu zəmindən nəşət alıb müasir gəncliyin ruhi aləmini, mənəvi təkamülünü təzələyir və ona milli ləyaqət, milli namus, milli həya,

milli təəssübkeşlik kimi nəcib zəruri xislət bəxş edir. Nəticədə təhsilalanlarda milli-özünüdərk, özünəqayıdış və milli qürur prosesləri güclənir.

Milli qürur hissinin formalaşdırılması dedikdə, biz, mənsub olduğumuz xalqın milli təfəkkür tərzinə, milli ləyaqətinə yiyələnməyi nəzərdə tuturuq. Öz soykökünə sıx bağlılığı, hər yerdə və hər zaman öz xalqının düşüncə tərzinə, milli ruhuna, adət-ənənələrinə uyğun davranmağı, fəaliyyət göstərməyi və bununla iftixar etməyi milli qürur hissinin əsas meyarları sayırıq.

Bu zəmindən ümumbəşəri əxlaqi keyfiyyətlərə - humanizmə, demokratizmə, xəlqiliyə, bəşəriliyə, insaniliyə, xeyirxahlığa, dini fütuhata, məhəbbət və nifrətə yiyələnməkdə hər bir xalqın vətənpərvərliyi ilkin olaraq milli hisslər zəmini üzərində qurulmuş, bu müqəddəs hissdə doğma Vətənə, doğma xalqa, onun tarixinə, dini etiqadına, mənəvi dünyasına və dilinə qızğın məhəbbət, hədsiz sədaqət xisləti çulğalaşmalıdır.

Azərbaycan maarifpərvərlərinin həyati düşüncə tərzində, milli-istiqlal harayında, maariflənmə ideyalarının yayılmasında bu problemlərin əhəmiyyəti böyükdür. Millilik odur ki, insan öz mayasının haradan yoğrulduğunu hiss etsin, duyub qiymətləndirməyi bacarsın. Bu münasibətlə vaxtilə deyilmiş bir kəlamı xatırlamaq yerinə düşər: "… Azərbaycanlılar milliyyət etibarilə Türk, din etibariylə İslam, mədəniyyəti etibarıyla şərqlidirlər. Kəndi ləhcəyi-məxsusəsi ilə Anadolu Türkcəsinə yaxın şivə ilə qonuşan Azərbaycan Türkü, müxtəlif şivələrə malik olduğu yerlərə nisbətlə müxtəlif isimlər daşıyan böyük Türk ağacının budağıdır…" (92, 7).

İndi milli özünüdərk prosesinin getdikcə dərinləşdiyi bir dövrdə təlim-tərbiyə qarşısında duran əsas vəzifələrdən biri də milli ruhda şəxsiyyət formalaşdırmaq, güclü milli ləyaqəti və milli qüruru olan azərbaycanlı yetişdirməkdir. Bu amillər isə zəngin pedaqoji və ictimai fikir mücahidlərimizin ideyalarında həmişə öncül problem olmuş, şüurlara yeni ab-hava gətirmişdir. Məlumdur ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində xalqın maariflənməsində, böyüyən nəslin milli ruhda tərbiyələndirilməsində böyük əmək sərf edən məktəbdarlarımız,

maarifpərvərlərimiz, pedaqoqlarımız öz pedaqoji fikirlərini yaymaq üçün milli qürur hissi aşılayan ideyaları geniş təbliğ edirdilər.

H. Zərdabinin, M.Ə. Sabirin, S.S. Axundovun, A. Şaiqin, A. Səhhətin, R. Əfəndiyevin, F. Köçərlinin ədəbi-pedaqoji fəaliyyətinə diqqət yetirsək görərik ki, onların əxlaqi keyfiyyətlər daşıyan əsərlərində zəngin sərvət olan milli qürur, milli-mənlik ideyaları mühüm yer tutur.

XIX əsrin sonu, XX əsrin əvvəllərində tərtib edilmiş dərslik və qiraət kitablarında [“Vətən dili” (1888), “Bəsirətül-Ətfal” (1901), “Birinci il” (1909), “İkinci il” (1908), “Üçüncü il” (Yeni məktəb-1900), “Uşaq çeşməyi” (1907), “Gülzar” (1912), “Balalara hədiyyə” (1912)] milli xalq düşüncəsində olan milli mənəvi sərvətlər toplanmışdır. Yeni nəslin əxlaqi keyfiyyətlərinin–xəlqiliyin, humanizmin, milli azadlığın, milli mənliyin, milli qürurun aşılanmasında bu dərsliklərin hər birinin özünəməxsus böyük rolu olmuşdur. Milli-mənəvi dəyərləri, o cümlədən milli qüruru ana dilinin, sadə xalq dilinin əsas mənbəyi hesab edən dərslik müəllifləri (A.O. Çernyayevski, S. Vəlibəyov, R. Əfəndiyev, F. Köçərli, A. Şaiq, A. Səhhət, M. Mahmudbəyov) ana dilindən söz düşəndə ilk növbədə xalq dili xalqın milli mənliyi, azadlığı məsələsini irəli sürürdülər. Dərsliklərdə və mətbuat səhifələrində K.D. Uşinskinin “Xalqın dili, onun mənəvi həyatının heç bir vaxt solmayan və daim çiçəklənən, tarix sərhədlərindən çox uzaqlarda başlanmış boyasıdır. Dildə bütün xalq, onun vüqarı və bütün vətəni canlanmış olur” fikrini daha geniş şəkildə təbliğ edirdilər.

Bildiyimiz kimi, keçmiş, indiki və gələcək nəsillər mənəvi keyfiyyətlər və eləcə də əxlaq haqqında toplanmış, tarixin imtahanlarından çıxmış, büllurlaşmış həmin təcrübə materiallarına əsaslanır, onları təfəkkür süzgəcindən keçirir, saf-çürük edib əxlaqi saflığı üçün ondan istifadə edir. Bu mənada tarixi təcrübə sınaqlarından keçib bizim dövrə qədər gəlib çatmış milli oyanış mənbələri ancaq keçmişə aid olmayıb, həm də gələcəyə aiddir.

Haqqında bəhs olunan tarixi dövrün məşhur maarifpərvərlərinin yaradıcılığında bu cəhətdən xarakterik olan həyat hadisələri sırasında milli-əxlaqi səciyyə daşıyan məsələlərin şərhi mühüm yer tuturdu. Onların əxlaqi səciyyə daşıyan

pedaqoji fikri və düşüncələrində xalqı düşünmək, elin qeyrətini çəkmək və bununla qürur duymaq, millətin qayğısına qalmaq, onun parlaq istiqbalı uğrunda fədakarlıqla çalışmaq, ictimaiyyətin xeyrinə olan işlərə daha möhkəm girişmək, bu yolda heç bir şeydən çəkinməmək, hətta, lazım gələrsə bu məslək, bu ideya yolunda candan belə keçmək təbliğinə geniş yer verilirdi. Bu cəhətdən dövrünün məşhur ədəbi və pedaqoji simalarından olan Seyid Hüseynin "Şikayət" adlı felyetonu daha səciyyəvidir. Müəllif əsil həqiqəti üzə çıxarıb tapmaq üçün milli əzəməti qoruyub saxlamağı başlıca amil hesab edərək yazırdı: "Ey bizim sahiblərimiz, allah xatirinə bizə yazığınız gəlib bizi minin də, əmma lap boynumuzda oturmayınız. Bizə nəsihət edəndə iki min söyüş deyib, millət adı ilə növbənöv yalanlar satmayınız. Bizim zəhmətimiz ilə pul qazananda, ay "millət yolunda xərc edirik" deyib əfsanə yalanlar ilə başımızı tovlamayınız. Üstümüzə minəndə istər ağ köynəkli, istəsə ağ sarıqlı, istər çəkməli, istər nəleyinli, tanrı xatirinə bizə dünya və axirət ilə guya tərbiyə verirsiniz deyə çox bizləməyiniz.

Ey bizim tacir sahiblərimiz. Özünüz ət yeyib biz pendir çörəklə dolanarıq, heç olmasa bizi o yeməkdən məhrum etməyiniz.

Ey bizim bəy və xan sahiblərimiz pullarımızı korlayıb kef çəkib murdar-murdar azarlığa giriftar olduqda əllərimizi bizim balalarımıza çəkib öz gününüzə salmayınız.

İstər incinar, istər həkim, istər vəkil, hər növ intiligent olur-olsun, bizə sahib olur da, bizi başa düşmədiyimiz özgə dil ilə dindirməyib öz dilimiz ilə danışınız.

Ey kef arzusuna düşüb meydana çıxan təzə cavanlar. Siz də bizi minəndə tez gedək deyə uzun, şiş ağaclar qayırıb nahaq yerə bizim qanımızı tökməyiniz. (24, 3).

Felyetonda əsas məqsədlərdən biri kimi öz doğma ana dilinə xor baxan burjua ziyalılarının ifşası, milli düşüncədən, milli qeyrətdən uzaq, rəncirə düşən üzdəniraq gənclərin dolaşıq əməlləri tənqid olunur, mədəni həyatı təzələşdirməyin ən başlıca yolu olan maarifçilik ideyalarını geniş yaymaq, köhnə, mürtəce adət və ənənələrə atəş açmaq, dil azadlığı uğrunda qətiyyətlə çalışmaq, dilimizin saflığını qorumaq, demokratik fikirləri müdafiə, birinci növbədə xalqın mənafeyini, onun

qürurunu əsas tutmaq üçün özündən əvvəlki maarifpərvərlərin– M.F. Axundovun, H.B. Zərdabinin, S.Ə. Şirvaninin, N.B. Vəzirovun, F. Köçərlinin bu barədəki fikirlərinə haqq qazandırır, onların bu yolda çəkdikləri zəhməti çox yüksək qiymətləndirirdi.

Bütün bu deyilən məsələləri müasir həyat hadisələri ilə vəhdətdə götürərkən onu qeyd etməliyik ki, tarixi dövrun sələflərinin öz dövrlərinə görə qiymətli ideyaları bu gün milli əxlaqımızın bütün cəhətlərini işıqlandırmaq yolunda dəyərli töhfədir. Bu irsdən faydalanmaq nəcib və müqəddəs işdir.

İndi respublikamızda gedən inqilabi dəyişikliklər prosesində uşaq və gənc-lərin tərbiyəsinə diqqət xeyli artmışdır. Çünki ölkədə təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya etdiyi bir dövrdə cəmiyyət üzvlərində milli qeyrətin, milli qürur hissinin olması çox mühüm bir şərtdir. Belə bir milli qürur hissi dövlətin gələcəyi olan gənc nəslə aşılanan tərbiyədən çox asılıdır. Təsadüfi deyil ki, ağıllı hikmət sahibi olan yaşlı nəslin nümayəndələri çox gözəl demişlər: gələcək xeyli dərəcədə bizim bu gün necə gənclər tərbiyə etməyimizlə müəyyən olunur.

Cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafının yeni mərhələsində məktə-bin sosial rolunun artması, böyüyən nəsillə kompleks şəkildə aparılan tərbiyəvi işin, məktəbin ailə ilə əlaqələrinin getdikcə mürəkkəbləşməsi bütün tərbiyəvi iş sisteminə yanaşmanın genişlənməsini zərurətə çevirir. Bu cəhətdən məktəbli şəxsiyyəti kompleks tərbiyə nümunəsində, məktəbin ailə ilə əlbir fəaliyyəti nəticəsində formalaşdırılmalıdır. Əlbəttə, bundan başqa, hər bir ailə və məktəb özü də tərbiyə işinin ayrı-ayrı sahələri üzrə mövcud iş quruluşundan və nümunəsindən faydalanmağı da inkar etmir.

Bu cəhətdən uşaqlarda elmi dünyagörüşün, milli-mənlik şüurunun, milli qürur hisslərinin formalaşdırılması amilləri də müstəsna əhəmiyyət daşıyır. İndi milli təhsil konsepsiyasının uğurla həyata keçirildiyi, Təhsil Qanununa uyğun milli tərbiyənin geniş istiqamətdə tədqiq və tətbiq edildiyi, xalqın qiymətli adət-ənənə-lərinin, milli bayramlarının, dini etiqadlarının özünə qaytarıldığı, tarixin açılmamış qatlarının aşkarlandığı bir dövrdə uşaqlarda milli mənlik şüuru və milli qürur hissi kimi mənəvi keyfiyyətlərin formalaşdırılması zəruri həyati tələbatdan irəli gəlir.

Respublikamızın demokratikləşmə və müstəqillik yolunda inamlı addımlar atmağın ən vacib və labüd şərtlərindən biri kimi milli tərbiyə zəminində pedaqoji fikir nümayəndələrinin tarixin sınaqlarından çıxmış fikirlərinə əsaslanmaq hazırda çox vacib həyati tələbatdır. İllər boyu bizi soykökümüzdən ayıran sovet təhsil sistemi milli şüurumuzu, mənliyimizi, qürurumuzu məhv etmiş, öz tariximiz, mədəniyyətimiz əvəzinə, başqalarını öyrənmiş və təbliğ etmişik.

Hazırkı şəraitdə ailə, məktəb və ictimaiyyət arasında milli mənlik şüurunun və milli qürur hissinin qoyuluş tərzinin hansı forma və metodlarla həyata keçirməyin imkan və vasitələrini də ciddi şəkildə mənimsəməliyik.

Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşmasında məktəbin ailə ilə əlaqəli fəaliyyətinə dair. Tərbiyə işinin başlıca aparıcı qüvvəsi olan ailə, məktəb və ictimai təsir vasitələri kimi "pedaqoji üçbucaq" birgə əməkdaşlıq şəraitində şagirdlərdə milli qürur hissini formalaşdırmalıdır.

Müşahidələrdən görünür ki, bəzən ailə uşağın bu yönümdən tərbiyə almasını yalnız məktəbin vəzifəsi hesab edir, övladlarının idrak maraqlarının və idrak fəallığının formalaşdırılmasının başlıca atributlarını ictimaiyyətin öhtəsinə buraxırlar. Əslində isə, mənəvi tərbiyənin ən güclü nüvəsi olan milli mənlik şüuru, milli qürur hissi öz məzmununda doğma yurda, Vətənə, dinə və onun tarixinə yeni münasibətlər zəminindən dərin məhəbbət hisslərini ehtiva edib, bunların qarşılıqlı əlaqəsini tənzim etməlidir. Ümumtərbiyə işində ailə, məktəb və ictimaiyyətin uşaqlarda milli qürur hissinin aşılamaq səyi də bu iradi keyfiyyətlər əsasında qurulmalıdır. Xüsusən valideynlər bu sahədəki işin məzmununu zənginləşdirən vasitə və imkanlardan səmərəli faydalanmalıdırlar. Axı, milli qürur, milli ləyaqət, vətəndaşlıq dəyanəti "xoşbəxtliyin açarıdır". O kəsin ki, o millətin ki, tarixi ənənələri, el-oba bayramları, mərasim günləri, müqəddəs ziyarətgahları tarixən qorunub saxlanılır və nəsildən-nəslə keçərək, bu günümüzün dirçəliş gününə xidmət edir. O xalq heç vaxt basılmaz, heç vədə də naqis nəsil yetişdirməz. Onu da qeyd edək ki, xalq bütün tarixi dövrlərdə öz milli mədəniyyətini yaşatmalı və bununla həmişə qürur duymalıdır. Bunların əsasında isə milli-mənlik, milli qürur şüurunun dərk edilməsi ən mühüm cəhətdir. Çalışıb elə etməliyik ki, pedaqoji

elmin müasir təlim və tərbiyə metodlarının köməyilə respublikamızın qədim tarixə malik milli mədəniyyətinin qorunub saxlanması, inkişafı ilə, gələcək nəslin bu axarda tərbiyələnməsi ilə fəxr etmək mümkün olsun.

Bu nöqteyi-nəzərdən müasir hadisələr zəminində böyüyən nəsli həyat proseslərinin, cəmiyyət hadisələrinin real dərkinə səfərbər edib bunlardan doğru-düzgün nəticə çıxarmaqla eyni zamanda mümkün imkan və vasitələrdən də faydalanmalıyıq.

Bununla əlaqədar mətbuat səhifələrində əksini tapmış və dövrün mədəni inkişaf səviyyəsini, milli qürur hissini, milli-mənlik şüurunu ən parlaq fəhmlə təlqin etmə nümunələrini bu günkü gənc nəslə çatdırmalıyıq. Şagirdləri çox gərəkli olan fakt və hadisələrlə tanış etmək işində həm ailə, həm də məktəb və ictimaiyyət maraqlı olmalı, bunu xeyirxah əməl baxımından həyata keçirməlidir. İbtidai sinif şagirdlərində milli qürur hissinin formalaşdırılmasında tarixi-hikmət xəzinəmizdən istifadə xüsusilə böyük tərbiyəvi imkanlara malikdir. Məsələn, XIX əsrin sonu, XX əsrin əvvəlində yaşayıb yaratmış, ağır repressiyaya məruz qalmış, vətən həsrəti çəkmiş, vətən harayında olmuş şairimiz Almas İldırımın yaşadığı ictimai və mənəvi mühitin, bu mühitin milli qürur hissinin oyanmasına təsiri ilə bağlı nümunəni şagirdlərin nəzər-diqqətinə çatdırmaq yerinə düşər:

… Xəbər alsam Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan gülümdən,
Kim demiş ki, düşmüş adı dilimdən…
Azərbaycan, mənim eşsiz yurdum oy…
Ölməz eşqim, içimdəki dərdim oy…

Könlümə tək Kəbə etdim səni mən,
Sənsiz neylim qürbət eldə günü mən,
Sənsiz neylim Allahı mən, dini mən…
Azərbaycan, mənim tacım, taxtım oy…
Oyanmazmı kor olası battım oy…

Belə xarakterli mətnlərin tədris materialı kimi müqayisə yolu ilə öyrənilməsi şagirdlərin müasir həyat hadisələrinə açıq gözlə baxmasına şərait yaradır, milli ruh, milli qürur, milli iftixar, milli mənəviyyatla bağlı problemlərinə, dövrün səciyyəvi xüsusiyyətləri ilə səsləşən həyati ənənələrdən gələn prinsiplərinə bu günün tələbi baxımından diqqət yetirib qiymətləndirməyə imkan verir. Pedaqoji prosesdə bu işin reallaşdırılmasında ən başlıca vasitə müəllimin şifahi şərhidir. Bu iş müəllimin ustalığından da çox asılıdır. Məsələyə bu cəhətdən yanaşdıqda göstərməliyik ki, bütün bu cəhətləri nəzərə alaraq azad, müstəqil və uğurla inkişaf etdiyimiz indiki şəraitdə hər bir müəllim öz nəzəri və əməli fəaliyyətində şagirdlərin milli qürur hissi zəminində formalaşan mənəvi tərbiyə ideyalarına xüsusi yer verməlidir.

Göstərilən məsələlər üzrə araşdırmalardan məlum olur ki, müəllimlərin bir qismi milli qürur hissinin, milli iftixar hissinin, Vətənə məhəbbət hissinin öz-özünə kortəbii qaydada yaranıb təşəkkül tapmasına ümid bəsləyir. Əlbəttə, burada pedaqoji mühitin rolu inkaredilməzdir. Bununla belə, insanlarda, o cümlədən məktəblilərdə milli vətənpərvərlik duyğusu və milli qürurunu təkcə kortəbii axın qaydasında təşəkkül tapmasına ümid bəsləmək düzgün deyildir. Milli qürur ideyalarını, milli iftixar duyğusunu və şüurunu adamlarda, həm də mütəmadi olaraq aşılamaq, tərbiyə etmək lazımdır.

Şübhəsiz ki, uzun müddət içərisində yaşadığımız çürük bir rejimin, ideoloji təbliğatın və digər ideya təsiri vasitələrinin gücü ilə milli qürurumuza, milli dəyərlərimizə ləkə vurmaq mümkün olmuşsa, onda aydındır ki, daha sağlam əsaslarla qurulan milli ideya-mənəvi tərbiyə amillərinin gücü ilə xalqımızın tarixi yaddaşını oyatmaq, keçmiş qəhrəmanlıq ənənələrini dirçəldib yada salmaq, habelə indinin özündə döyüşlərdə göstərilən əsl fədakarlıq, qəhrəmanlıq nümunəsində yeniyetmələri milli ruhlu vətənpərvər kimi yetişdirmək də mümkündür və buna yüksək səy lazımdır. Bununla əlaqədar əsl milli dərkin, milli vətənpərvərliyin, milli qürur hissinin nə kimi əhəmiyyət və xüsusiyyətlərlə səciyyələndirildiyini, onun nə kimi mənəvi-əxlaqi dəyərləri özündə cəmləşdirdiyini də bilmək vacibdir. Bunu yaşadığımız müasir həyat tələb edir.

## 2.5. Pedaqoji eksperiment və onun nəticələri

Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılmasında məktəbin ailələrlə birgə fəaliyyəti üzrə hazırlanmış iş sisteminin səmərəliliyini yoxlamaq məqsədi ilə 2012/2013, 2013/2014 və 2014/2015-ci tədris illərində Gəncə şəhəri akdemik Mehdi Mehdizadə adına 4 №li və Mir Cəlal Paşayev adına 39 №li, Samux rayonu 2 №li  və Göy-göl rayonu Üçtəpə kənd tam orta məktəblərində pedaqoji eksperiment keçirilmişdir. Eksperiment üç mərhələdə (müəyyənləşdirici, öyrədici və yoxlayıcı) təşkil olunmuşdur. Eksperimental siniflər kimi Gançə şəhəri 4 №-li orta məktəbin $IV^a$, $IV^b$ sinifləri (müəllimlər G. Bəşirova, G. Eyvazova), Gəncə şəhəri 39 №-li orta məktəbin $III^b$ sinfi (müəllim R. Əliyeva), Samux rayonu 2 №li məktəbinin $IV^1$ sinfi (müəllim H. Əmirova), Göy-göl rayon Üçtəpə kənd məktəbinin $IV^2$ sinfi ( müəllim H. Qəmiyeva) götürülmüşdür.

Kontrol siniflər kimi isə Gəncə şəhəri 4 №-li tam orta məktəbin $IV^c$ sinfi (müəllim B. Ələkbərova) və 39 №-li tam orta məktəbin $III^a$ (müəllim Z. Bağırova), Samux rayonu 2 №-li orta məktəbin $IV^2$ sinfi (müəllim H. Sayadov), Göy-göl rayonu Üçtəpə kənd məktəbinin $IV^1$ sinfi (müəllim D. Salmanova) nəzərdə tutulmuşdur.

Eksperimental siniflərdə müəllim işlərini eksperimentator tərəfindən hazırlanmış metodik sistemi əsasında qurmuşdur. Bu zaman həmin metodik sistem ilk növbədə təlimati seminarda eksperimental sinif müəllimlərinə izah edilmişdir. Beləliklə, eksperimental siniflərin müəllimləri öz işlərini dissertasiyanın II fəslinin məzmununa uyğun hazırlanmış iş sistemi əsasında, kontrol siniflərin müəllimləri isə öz ənənəvi metodlarına uyğun qurdular.

2012/2013-cü tədris ilində keçirilən müəyyənedici eksperimentin nəticələri təhlil olundu. Bu zaman pedaqoji səhvlər və üstünlüklər diqqətlə izlənildi, müqayisəli şəkildə təhlil edildi və nəticədə hazırlanmış yeni iş sistemində zəruri dəyişikliklər aparıldı. 2014/2015-ci və 2014/2015-ci tədris illərində isə öyrədici və yoxlayıcı eksperiment təşkil olundu.

Eksperimental və kontrol siniflərin müəllimləri ixtisasartırma kursu keçmiş gənc kadrlardır. Onların iş stajı 5 ildən artıq olmaqla hamısı magistratura təhsilini başa vurmuş müəllimlərdir.

Tərtib olunmuş qrafikə uyğun olaraq eksperiment şəhər və kənd məktəblərində eyni zamanda aparıldı. Şəhər məktəblərində eksperimentin aparılmasına tədqiqatçının özü bilavasitə nəzarət etmiş, digər məktəblərdəki eksperimentin gedişi isə vaxtaşırı nəzarətdə olmuşdur. Bu məktəblərdə frontal, diferensial və fərdi iş aparıldı, şifahi və yazılı sorğular keçirildi, eksperimentin ayrı-ayrı mərhələlərinin göstəriciləri ümumiləşdirilərək müəllimlərə istiqamət verildi. 2013/2014-cü tədris ilində sentyabr ayının sonlarından başlayaraq uzunmüddətli eksperimentin keçirilməsinə başlanıldı.

Eksperimental siniflərin müəllimləri kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması ilə bağlı hazırlanmış eksperiment materialları ilə ətraflı tanış edilmişdir. Kontrol siniflərin müəllimlərinə isə bildirilmişdir ki, ibtidai təlim və tərbiyə zamanı şagirdlərdə milli qürur hissinin formalaşdırılması məqsədilə onların sinifləri kontrol sinif kimi götürülür. Eksperimentdə başlıca vəzifə məktəb və ailənin birgə fəaliyyətinin təşkili üzrə müəllim və valideynlərin müvafiq bilik və bacarıqlarını və kiçik yaşlı məktəblilərdə milli qürurun aşılanması səviyyəsini aşkara çıxarmaqdır. Kontrol sinif müəllimlərinin arzu və istəkləri də nəzərə alınmış, onlar arzularına uyğun olaraq müxtəlif əyani vəsaitlərlə və metodik ədəbiyyatla təchiz edilmişdir.

Öncə ibtidai sinif şagirdlərinin milli qürurluluqla bağlı keyfiyyətlərin aşılanması vəziyyəti yoxlanılmışdır. Bu zaman, məsələn, "Həyat bilgisi" fənni III siniflərdə tam, IV sinifdə isə "Sənin cəmiyyətdə yerin" bölməsinin (bilavasitə, "Dövlətçilik", "Dövlət orqanları", "Vətəndaşlıq" mövzularının) tədrisindən sonra eksperimental və kontrol siniflərdə yoxlama yazı işi aparıldı. Yoxlamanın məqsədi "Həyat bilgisi" fənninin tədrisindən sonra ibtidai sinif şagirdlərində milli qürur hissinin formalaşdırılması səviyyəsini müəyyən etmək idi.

Yazı işinin mətni:

1. “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” fikrinin müəllifi kimdir? Nə üçün həmin şəxsiyyət azərbaycanlı olması ilə qürur duyur?

2. Nə üçün Azərbaycanın neft milyonçularından biri olan Hacı Zeynalabdin Tağıyevlə qürur duyuruq?

3. Azərbaycanda bütün şəhidlərin, o cümlədən, Milli qəhrəmanların xatirəsi əziz tutulur və mütəmadi olaraq yad edilir. Siz onların qəhrəmanlıqları ilə qürur duyursunuzmü? Nə üçün?

4. Biz Azərbaycanın qüdrətli dövlət olması ilə fəxr edə bilərikmi? Nə üçün?

5. Azərbaycanın hansı sərvətləri ilə fəxr edə bilərik? Nə üçün?

6. Olimpiya və dünya çempionu olan idmançılarımızdan kimləri tanıyırsınız? Nəyə görə bu idmançılarla hamımız fəxr edir, qürur duyuruq?

7. Hansı milli bayramımızı qeyd etmək bizdə daha çox fərəh doğurur? Nə üçün onu qeyd etməkdən qürur duyuruq?

8. Mübariz İbrahimov kimdir? Niyə bütün xalqımız onun xatirəsini əziz tutur, yad edir və onun azərbaycanlı olması ilə qürur duyuruq?

9. Nə üçün hər bir azərbaycanlı öz dövlət müstəqilliyi ilə fəxr edir?

Yazı işinin nəticələri həm keyfiyyətcə, həm də kəmiyyətcə təhlil olundu. Şagirdlərin cavablarındakı mühakimələrin səviyyələrini keyfiyyətcə daha dəqiq müəyyənləşdirmək və müqayisə etmək üçün milli qürur hissinin formalaşdırılması üzrə mənimsənilmiş biliklər əsasında aparılmış yazı işlərinin nəticələrini 4 səviyyəyə bölmək mümkün oldu. Hər səviyyə ilk növbədə keyfiyyətcə şagirdlərin müvafiq fənlərin, məsələn, “Həyat bilgisi” fənninin təlimi zamanı mənimsədikləri bilgilərlə qürur duyduqlarını əsaslandıra bilmək bacarığının səviyyəsini səciyyələndirir. Şagirdlərin cavablarını və mühakimələrini qruplaşdırarkən həm də belə bir prinsipi əsas götürürük. Şagirdlərin cavabı ölkəmizlə, milli mənəvi dəyərlərimizlə, uğurlarımızla bağlı nələr ilə və nə üçün qürur duyduqlarını, fəxr etdiklərini əsaslandırmaqla tam və məntiqi cəhətdən bitkin mühakimə formasında olmalıdır.

*Birinci səviyyəli* cavablar tam cavab adlandırılır. Belə cavablarda şagird suala sərbəst şəkildə tam, konkret və düzgün cavab verir, nə ilə qürur duyduğunu inamla söyləyir. Cavabın ikinci hissəsində nə üçün qürur duyduğunu, fəxr etdiyini tam əsaslandırır, cavabı bitkin mühakimə formasında olur. Belə cavablar nümunəvidir.

*İkinci səviyyəli* cavablar qismən tam cavab adlandırılır və elə şagirdlərin cavablarını əhatə edir ki, bu zaman məktəbli nə ilə və nə üçün qürur duyduğunu söyləsə də, mühakimələri tərəddüdlüdür. Soruşulan bilgilərin də yalnız 2/3 hissəsi barədə məlumat verə bilir. Uşaqlar düşüncələrində nisbətən az sərbəstdirlər, cavabının məzmununda istifadə etdiyi məlumatların ardıcıllığını tam müəyyənləşdirə bilmir, buna görə də cavabında məntiq və mühakimə kifayət qədər deyil.

*Üçüncü səviyyəli* cavablar natamam cavablar adlandırılır. Bu qrupa elə şagirdlərin cavabları daxil edilir ki, onlar nə ilə qürur duyduqlarını desələr də, kiminlə fəxr etdiklərini söyləsələr də, söylədikləri şəxsiyyətlərlə nə üçün fəxr etdiklərini izah etməyə çalışsalar da, buna nail ola bilmirlər. Buna görə də əsasən dağınıq olan cavabda məntiq və izahetmə əhəmiyyətli dərəcədə deyil, qürurluluq hisslərini aydınlaşdırmağa təşəbbüs göstərsələr də, onların mühakimələrindəki dəlillər (faktlar) düzgün əlaqələndirilmir. Bu halda məktəblilərin cavabları mühakiməsiz cümlələrdən ibarət olur və nə üçün qürur duyduqları əsaslandırılmamış qalır.

*Dördüncü səviyyəli* cavablar qrupuna (qeyri-kafi cavab) suala düzgün cavab verə bilməyən, nə ilə və nə üçün fəxr etdiklərini əsaslandırmağı bacarmayan şagirdlərin cavabları daxil edilmişdir. Şagirdlərə istiqamətverici təşəbbüslərin göstərilməsi də faydasız olmuşdur.

Şagirdlərin cavablarının keyfiyyətcə belə səciyyələndirilməsi onların bilik-lərindəki dəyişkənliyin səviyyə müxtəlifliyinin izlənilməsinə və düzgün təhlilinə imkan verir. Eksperimental və kontrol siniflərdə şagirdlərdən alınan cavabların səviyyələr üzrə müqayisəsi miqdarca da aparıldı və faiz göstəriciləri çıxarıldı. Bununla da, hazırlanmış eksperimental materialın üstünlüyü müəyyən edildi.

2012/2013-cü illər eksperimentin müəyyənedici dövrü olmuşdur. Bu müddətdə problemin praktik vəziyyəti və hazırlanmış materialın məktəblilərdə hansı nəticə verə biləcəyi öyrənilmiş, eksperimentin aparılması metodikası dəqiqləşdirilmişdir. Məlum olmuşdur ki, kiçik yaşlı məktəblilərdə milli qürur hissinin aşılanması, bu sahədə mənimsədilən bilik və bacarıqların tədricən formalaşdırılması məqsədilə məktəbin ailə ilə səmərəli fəaliyyət sistemini yaratmaq mümkün imiş.

Cədvəl 1.

Eksperimental və kontrol siniflərdəki müəyyənedici eksperimentin nəticələri

| Məktəblər | Siniflər | | Şagirdlə-rin sayı | Cavablar (səviyyələr üzrə) | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | I | II | III | IV |
| Gəncə şəhəri 4 №-li məktəb | eksper. | IV[1] | 25 | 3(12,0%) | 4(16,0%) | 9(36,0%) | 9(36,0%) |
| | | IV[2] | 20 | 1(5,0%) | 5(25,0%) | 6(30,0%) | 8(40,0%) |
| | kont. | IV[3] | 19 | 1(5,3%) | 3(15,8%) | 7(36,8%) | 8(42,1%) |
| Gəncə şəhəri 39 №-li məktəb | eksper. | III[b] | 21 | 1(4,8%) | 3(14,3%) | 9(42,8%) | 8(38,1%) |
| | kont. | III[a] | 18 | 2(11,1) | 3(16,7%) | 7(38,9%) | 6(33,3%) |
| Göy-göl rayonu Üçtəpə kənd məktəbi | eksper. | III[a] | 20 | 0(0,0%) | 3(15,0%) | 5(25,0%) | 12(60,0%) |
| | kont. | III[b] | 15 | 0(0,0%) | 4(26,7%) | 6(40,0%) | 5(33,3%) |
| Samux rayonu 2 №-li məktəbi | eksper. | IV[a] | 18 | 1(5,6%) | 1(5,6%) | 6(33,3%) | 10(55,5%) |
| | kont. | IV[b] | 16 | 1(6,2%) | 2(12,5%) | 9(56,3%) | 4(25,0%) |

Gəncə şəhəri 4 və 39 №-li məktəblərdə keçirilmiş müəyyənedici eksperimentin nəticəsindən görünür ki, eksperimental siniflərdə müəllim və valideynlərlə sistematik və xüsusi hazırlanmış tərbiyəvi işlərin sistemi tətbiq edilmədiyi halda milli qürur hissləri ilə bağlı verilən suallara 66 şagirddən 5-i (7,6%) birinci, 12-si (18,2%) ikinci, 24-ü (36,4%) üçüncü, 25 (37,8%) nəfəri isə dördüncü səviyyəli, həmin məktəblərin kontrol siniflərində isə 37 şagirddən 3 (8,2%) nəfəri birinci, 6 (16,2%) nəfəri ikinci, 14 (37,8%) nəfəri üçüncü, 14 (37,8%) nəfəri isə dördüncü səviyyəli cavablar vermişlər.

Samux rayonu 2 №-li və Göy-göl rayon Üçtəpə kənd məktəblərinin eksperimental siniflərində 38 şagirddən 1 (2,6%) nəfəri birinci, 4 (10,6%) nəfəri ikinci, 11 (28,9%) nəfəri üçüncü və 22 (57,9%) nəfəri isə dördüncü səviyyəli cavablar vermişlər.

Nəticə onu göstərir ki, eksperimental və kontrol siniflərdə şagirdlərin səviyyələri əsasən, bərabərdir. Qeyd edək ki, müəllimlərin də metodik imkanları, nəzəri və praktik dünyagörüş səviyyələri, cəmiyyətdəki mövqeləri, pedaqoji bilik və bacarıqlarının səviyyələri də, demək olar ki, eynidir.

2014/2015-ci tədris ilində kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması məqsədi ilə müəllim və valideynlərin birgə fəaliyyəti ilə bağlı hazırlanmış materiallar əsasında eksperimental siniflərdə sistemli dərslər və

sinifdənxaric tədbirlər keçirilmiş, nəticələri yoxlanılmış və cədvəl 2-də verilmişdir.

Cədvəl 2.

Eksperimental və kontrol siniflərdəki yoxlayıcı eksperimentin nəticələri

| Məktəblər | Siniflər | | Şagirdlə-rin sayı | Cavablar (səviyyələr üzrə) | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | I | II | III | IV |
| Gəncə şəhəri 4 №-li məktəb | eksper. | IV$^{1}$ | 25 | 8(32,0%) | 9(36,0%) | 5(20,0%) | 3(12,0%) |
| | | IV$^{2}$ | 20 | 5(25,0%) | 8(40,0%) | 5(25,0%) | 2(10,0%) |
| | kont. | IV$^{3}$ | 19 | 2(10,6%) | 3(15,8%) | 7(36,8%) | 7(36,8%) |
| Gəncə şəhəri 39 №-li məktəb | eksper. | III$^{b}$ | 21 | 6(28,5%) | 7(33,3%) | 4(19,1%) | 4(19,1%) |
| | kont. | III$^{a}$ | 18 | 2(11,1%) | 5(27,8%) | 6(33,3%) | 5(27,8%) |
| Göy-göl rayonu Üçtəpə kənd məktəbi | eksper. | III$^{a}$ | 20 | 6(30,0%) | 5(25,0%) | 5(25,0%) | 4(20,0%) |
| | kont. | III$^{b}$ | 15 | 1(6,7%) | 4(26,7%) | 5(33,3%) | 5(33,3%) |
| Samux rayonu 2 №-li məktəbi | eksper. | IV$^{a}$ | 18 | 5(27,8%) | 7(38,9%) | 4(22,2%) | 2(11,1%) |
| | kont. | IV$^{b}$ | 16 | 2(12,5%) | 3(18,8%) | 7(43,7%) | 4(25,0%) |

Cədvəldən görünür ki, iş sisteminin nəzərə alınması nəticəsində eksperimental siniflərdə keyfiyyət əsaslı şəkildə yüksəlmişdir. Belə ki, Gəncə şəhəri 4 və 39 №li məktəblərdə eksperimental sinif şagirdlərinə milli qürur, milli təəssübkeşlik, milli ləyaqət ilə bağlı verilən suallara 66 şagirddən 19-u (28,8%) birinci, 24 (36,6%) nəfəri ikinci, 14 (21,2%) nəfəri üçüncü, 9 (13,6%) nəfəri dördüncü, həmin məktəblərin kontrol siniflərində isə 37 şagirddən 4-ü (10,8%) birinci, 8 (21,6%) nəfəri ikinci, 13 (35,2%) nəfəri üçüncü, 12 (32,4%) nəfəri dördüncü, Göy-göl rayonu Üçtəpə kənd və Samux rayonu 2 №-li məktəblərin eksperimental siniflərində 38 şagirddən 11 (28,9%) nəfəri birinci, 12 (31,6%) nəfəri ikinci, 9 (23,7%) nəfəri üçüncü, 6 (15,8%) nəfəri dördüncü, həmin məktəblərin kontrol siniflərində isə 31 şagirddən 3 (9,7%) nəfəri birinci, 7 (22,6%) nəfəri ikinci, 12 (38,7%) nəfəri üçüncü, 9 (29,0%) nəfəri isə dördüncü səviyyəli cavablar vermişlər.

Deməli, eksperimentin sonunda kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması zamanı məktəbin ailə ilə birgə fəaliyyətinin metodik modelinə uyğun olaraq milli qürur hisslərinə, onun komponent və əlamətlərinə mükəmməl

malik olan, öz təlim və həyat fəaliyyətində bu komponent və əlamətləri düzgün mənimsəyən və onu əsaslandırmağı bacaran, milli uğurlarımız, milli nailiyyətlərimiz, milli müstəqilliyimiz, siyasi və iqtisadi nailiyyətlərimizlə qürur duyan, iftixar hissi keçirən şagirdlərin sayı tədris ilinin əvvəli ilə müqayisədə kontrol siniflərə nisbətən eksperimental siniflərdə, xeyli artmışdır.

Beləliklə, eksperimental siniflərdə kiçik yaşlı məktəblilərdə milli qürur hisslərinin formalaşdırılmasının keyfiyyət faizi kontrol siniflərdəki keyfiyyət faizinə nisbətən artıqdır.

Eksperimental və kontrol siniflərin müqayisəsindən belə bir nəticəyə gəlmək olur ki, kiçik yaşlı məktəblilərdə milli qürur hisslərinin formalaşdırılmasında məktəbin ailə ilə müntəzəm və qarşılıqlı əlaqə sistemini yaratmaq mümkündür. Bu sistemin reallaşdırılması kiçik yaşlı məktəblilərlə təlim və tərbiyənin də keyfiyyətinin yüksəldilməsini təmin edə bilir.

# NƏTİCƏ

Tədqiqatdan məlum olur ki:

1. Məktəbin ailə ilə birgə fəaliyyətinin təşkili zamanı milli qürur hissinin məqsədi, mahiyyəti və əhəmiyyəti, onun tərbiyəvi imkanları və təşkili yolları sinif müəllimləri tərəfindən aydın təsəvvür olunduqda, kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması daha keyfiyyətli şəkildə reallaşır.

2. Hər millətin özünün minilliklər ərzində formalaşmış adət-ənənəsi, tərbiyəsi, davranış norması vardır. Onlar buna alışmış və əldə etdikləri bu mədəniyyət sərvətlərini bəyənmiş, yaratmış və ondan ayrıla bilməmişlər. Eləcə də bir millət digərinin adət-ənənəsini, hətta ən mütərəqqilərini belə ya götürə bilməmiş, ya da götürmək istəməmişdir. Əgər kimsədə belə meyillər olmuşsa da, yenə sonda özününkünə qayıtmış, onunla yaşamışdır. Deməli, öz tarixi milli-mənəvi dəyərlərinə əsaslanmadan milli əqidə, milli ruh, milli vətənpərvərlik, milli qürur yarana bilməz.

3. Azərbaycan xalqının milli qürur heysiyyatı onun minillik tarixi boyu hansı yolu keçməsindən, nə kimi adət-ənənəsi olmasından, maddi və mənəvi mədəniyyətindən, folklorundan, musiqisindən, tərbiyə ənənəsindən və s. asılıdır. Ailədə milli qürur hissi aşılanmasının təşkili zamanı bu amillərin nəzərə alınması zəruridir, bunsuz ailə şəraitində şagirdlərdə milli qürur hissi aşılamaq mümkün deyil.

4. Müəllimin rəhbərliyi ilə ailədə milli qürur hissinin aşılanması xalqın tərbiyə üsullarına söykənməlidir. Çünki xalqın tipik tərbiyə üsulları etnik ümumiliyi, başqa sözlə, etnosun psixologiyasını formalaşdırır.

Ailədə kiçik yaşlı uşaqlarla aparılan milli qürur hissinin formalaşdırılması ilə bağlı işin məktəblə qarşılıqlı əlaqədə qurulması tələblərdə vahidlik prinsipinə cavab verir, tərbiyə işinə ailədə birtərəfli yanaşmanı aradan qaldırır.

5. Milli qürur hissinin formalaşdırılmasını ailədə təşkil etmək üçün zəngin kulinariyamız, mətbəx ləvazimatlarımız, ev əşyalarımız, mənzil-məişət avadanlıqlarımız vardır. Onlar əsrlər aşaraq müasir elmi-texniki inqilabın zərbələrinə qalib gələrək yaşamaqdadır. Onları da milli adət-ənənələrimizin tərkib hissəsi kimi

ailədə tədricən kiçik yaşlı məktəblilərin yaddaşına köçürmək onlarda milli qürur hissinin formalaşdırılması üçün əsaslı zəmin yaradır.

6. Minilliklər boyu Azərbaycan xalqının sınaqdan çıxmış adət-ənənələri, milli mənəvi dəyərləri yaranmış və bunlar tarixi yazılı abidələrimizlə bizə gəlib çatmışdır. Onların (çörək məmulatları, milli xörəklər, şirniyyatlar, şərbətlər və mürəbbələr, geyim və mətbəx ləvazimatları, ev əşyaları, qab-qaşıqlar və s.) məişətimizə gətirilməsi, onların yaranma tarixinin kiçik yaşlı məktəblilərə ailə şəraitində öyrədilməsi milli qürur hissi tərbiyəsinin təşkilinin başlıca şərtlərindən biridir.

7. Tərbiyəçi müəllimin birbaşa nəzarəti və rəhbərliyi ilə ailədə milli qürurluluq keyfiyyətlərinin formalaşdırılması zamanı valideynlərin xalqımızın qədimdən bəri yaşatdığı etik qaydalara (davranış, söz demək, oturub-durmaq, hərəkət və sükut, bayramlarda və digər mərasimlərdə hərəkət və s.) əməl etmələri zəruridir. Bunun üçün ata-anaların özlərinin bu keyfiyyətləri bilmələri və yerli-yerində onlara əməl etmələri vacibdir.

8. Kiçik yaşlı məktəblilərdə milli qürur hissinin formalaşdırılması zamanı müəllim və valideynlərin birgə fəaliyyətinin səmərəliliyi qürur duyulacaq faktın (hadisənin, əlamət və ya keyfiyyətlərin) məzmunundan və müasirliyindən çox asılıdır. Müasir ailələrdə atanın və ananın, məktəbdə isə tərbiyəçinin fəaliyyəti milli-mənəvi dəyərlər üzərində köklədikdə uşaqlarda milli qürur hissinin formalaşdırılması daha asan və keyfiyyətli olur.

9. Gələcəkdə ölkəmizin ləyaqətli vətəndaşları kimi yetişməsində kiçik məktəb yaşı dövründən başlayaraq məktəblilərin milli qürur hissinə yiyələnmələrinin rolu böyükdür. Bu işdə sistemli, məqsədyönlü, planauyğun müəllim-valideyn fəaliyyəti lazımdır.

10. Milli-mənəvi dəyərlərimizlə, tarixi adət və ənənələrimizə, təbii sərvətlərimizə, Azərbaycan dövlətinə, dövlət başçılarına, dövlət rəmzlərimizə dair bilik və məlumatları milli ideoloji tərbiyə işində böyük rol oynayır. Bu sahədə ailədə ata-analar və ailənin digər yaşlı üzvləri ilə sinif müəllimlərinin ciddi uzlaşdırılmış (koordinə edilmiş) əlbir fəaliyyəti mühüm rol oynayır. Şəhər və

rayonlarımızda dövlətçiliyimizin tarixinə (məsələn, Bakıda, İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinə), Azərbaycan hökmdarlarına (Bakıda I Şah İsmayıl Xətaiyə, Gəncədə Cavad xana və b.) və dövlət başçılarına (respublikamızın bütün şəhər və rayonlarında Ümummilli lider Heydər Əliyevin), həmçinin, Azərbaycanın milli qəhrəmanların şərəfinə və şəhidlərimizin xatirəsinə həsr olunmuş abidələr, onların adlarına verilmiş məktəblər, prospekt və küçələr və s. güclü tərbiyəvi təsir göstərir.

11. "Dövlət rəmzləri" kiçik yaşlı məktəblilərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda, milli-mənəvi ruhda tərbiyə olunmalarına yaxından kömək göstərməklə bərabər onlarda milli qürur hisslərinin formalaşdırılmasına imkan və şərait yaradır.

12. Tədqiqatın fərziyyəsində irəli sürdüyümüz belə bir ideya pedaqoji eksperimentin köməyilə özünü doğruldur ki, müəllimlərin valideynlərlə sistemli, məqsədyönlü, planauyğun və fasiləsiz işin aparılması kiçik yaşlı məktəblilərdə milli qürur hissinin daha şüurlu və möhkəm formalaşdırılmasını təmin edə bilir.

Ailədə milli qürur hissi tərbiyəsinin daha səmərəli təşkili üçün aşağıdakı təkliflərin nəzərə alınmasını məqsədəmüvafiq sayırıq:

1. Nikahda olan hər bir cütlük valideyn olmağa mənən və ruhən hazır olmalıdır. Çünki milli qürur hissinin aşılanması yalnız o vaxta qədər mürəkkəb və çətin bir iş olur ki, ata-analar, ailədə nüfuz sahibi olan bacı və qardaşlar, nənə və babalar özlərini bu ruhda tərbiyə etməmiş olsunlar. Belə valideynlərin nə öz uşaqlarının, nə də başqa birisinin tərbiyə işinə nüfuz etmələri məsləhət deyil.

2. Kiçik yaşlı məktəblilərə milli qürur hissinin aşılanmasını elmi-pedaqoji və psixoloji əsaslarla qurmağa valideynləri maarifləndirmək lazımdır. Valideynlər də, sinif müəllimləri də nəzərə almalıdırlar ki, milli qürur hissinin formalaşdırılması işi kənardan nə qədər asan görünsə də, bir o qədər çətin və mürəkkəb bir prosesdir.

3. Məktəblilərlə aparılan milli qürur hissinin formalaşdırılması üzrə işin ardıcıl və müntəzəm aparılması məqsədəuyğundur. Bu müəllim və valideynin gündəlik işi olmalıdır. Ona görə də darıxmadan, səbirlə, təmkinlə uşaqla oturulmalı, əylənilməli, suallarına düzgün cavablar verilməlidir və s.

5. İbtidai sinif şagirdlərində milli qürur hisslərinin formalaşdırılması zamanı tələblərdə vahidlik prinsipinin gözlənilməsi məcburidir. Sinif müəllimləri də, valideynlər də vahid mövqedən çıxış etməlidir.

6. Ailədə uşaqlara milli qürur hissinin aşılanması zamanı valideynlərin aşağıdakı pedaqoji şərtləri bilmələri və onlara ciddi əməl etmələri məqsədəuyğundur:

- uşaqların milli qürur hissi tərbiyəsində səbirlilik, təmkinlilik əsas prinsip kimi gözlənilməlidir;

- milli qürur hissi tərbiyəsi işi müntəzəm və ardıcıl aparılmalıdır;

- tərbiyə işində uşaqların yaşına uyğun məzmun müəyyənləşdirmək, tələblər qoymaq, fəaliyyət göstərmək, davranmaq lazımdır; bu zaman məktəbliyə münasibətdə orta hədd gözlənilməlidir;

- şagirdlərin milli qürur hissi tərbiyəsi işində hər bir valideynin özü gözəl nümunə və örnək mənbəyi olmalıdır.

7. Azərbaycan dövlətçiliyi, Azərbaycan hökmdarları və dövlət başçıları, dövlət rəmzləri, dövlət dili, ordu quruculuğu, ölkənin müdafiə qüdrətinin, iqtisadiyyatının möhkəmləndirilməsi və s. ilə qürrələnmək və fəxr etmək kimi əldə etdikləri ilkin bilik və məlumatlar məktəbdə daha da genişləndirilməli, dərinləşdirilməli, sistemləşdirilməli, ümumiləşdirilməlidir. Bu istiqamətdə sinifdənxaric və məktəbdənkənar tədbirlər mühüm əhəmiyyət daşıyır.

8. İbtidai sinif şagirdlərinin milli qürur hissinə yiyələnmələri özünəməxsus rola malikdir. Bu zaman valideynlərin bilavasitə iştirakı ilə keçirilən söhbət və mühazirələr, müzakirə, disput, görüşlər, müsabiqə və yarışlar, tarixi abidələrə, teatr və kinofilmlərə, televiziya tamaşalarına baxışlar, şagird konfransları əlverişli imkanlara malikdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abbasov A.N. Ümumtəhsil məktəb şagirdlərini ailə həyatına hazırlamağın nəzəriyyəsi və metodikası: Ped. elm. dok. ... dis. Bakı, 1995, 309 s.
2. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2010, 356 s.
3. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Dərslik. Bakı: Mütərcim, 2016, 324 s.
4. Abbasov A.N. V-X sinif şagirdlərinin hüquq tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə fəaliyyəti: Ped. elm. nam. ... dis. Bakı, 1987, 187 s.
5. Abbasov Ə.T. Şagird nailiyyətinin qiymətləndirilməsi: müasir baxışlar və konseptual yanaşmalar // Azərbaycan məktəbi, 2007, № 4, s. 36-39
6. Ağayev Ə.Ə. Vətəndaş olmağa borclusan. Bakı; Maarif, 1982, s. 31-102.
7. Ağayev Ə.Ə. Həyatın astanasında. Bakı: Maarif, 1986, 100 s.
8. Ağayev Ə.Ə. Məktəblilərin vətəndaşlıq borcu tərbiyəsi. Bakı, 1998, s. 36-72
9. Ağayev Ə.Ə., Talıbov Y.R., Eminov A.O., İsayev İ.N. Pedaqogika: Ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərs vəsaiti. Bakı: Adiloğlu, 2006, 184 s.
10. Ağayev Ə.Ə. Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi: Monoqrafiya. Bakı, Maarif, 2005, 340 s.
11. Allahverdiyeva S.O. Bədii ədəbiyyatın tələbə gənclərin ləyaqət tərbiyəsinə təsiri. Bakı: Elm və təhsil, 2004, s. 18-41
12. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimində nitqi. “Xalq qəzeti”, 2003, 01 noyabr
13. Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı. 13 mart 1998-ci il. *anl.az/el/alf7/eih-ardr.pdf*
14. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: Təhsil, 2003, 68 s.
15. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2011, 48 s.
16. Azərbaycan müəllimlərinin XIV qurultayı. Bakı: Çaşıoğlu, 2013, 304 s.

17. Bağırova S.B. Azərbaycan Respublikasının dövlət atributları vasitəsilə şagirdlərin vətəndaşlıq tərbiyəsi (I-XI siniflərdə ictimai-humanitar fənlərin materialları əsasında): Ped. elm. nam... dis. Bakı, 2007, 150 s.
18. Bayramov Q.B. Mənəvi həyatda millilik və beynəlmiləlçilik. Bakı: Gənclik, 1980, 103 s.
19. Cəbrayılov İ.H. Tarix və mədəniyyət abidələri vasitəsilə şagirdlərdə milli mənlik şüurunun tərbiyə edilməsi: Ped. elm. nam... avtoref. Bakı, 1994, 25 s.
20. Cəlilova Ə.T. Kiçik yaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə işin sistemi. Ped. ü. fəl. dok. ...dis. Bakı, 2014, 154 s.
21. "Çağdaş dövr və sosial elmlərin aktual problemləri" mövzusunda Ümumrespublika elmi-praktik konfransın materialları. 19 noyabr 2016-cı il. Bakı: BDU nəşriyyatı, 2016, 647 s.
22. Düma A. Qafqaz səfəri. Bakı: Qanun, 2014, 192 s.
23. Dünya Azərbaycanlılarının I qurultayı. Bakı, 2002.
24. Dilənçi "Şikayət", "Kəlniyyət", 1912, № 8, 13 iyul, s. 3
25. Əhmədov Ə.M. Mənəviyyat, gözəllik, tərbiyə. Bakı: Gənclik, 1993, s. 34-71
26. Əliyev İ.H. Azərbaycan böyük hərbi qələbə qazandı. // Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı. "Azərbaycan" qəz., 2016, 05 aprel
27. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, məktublar, müraciətlər, fərmanlar. Bakı: Azərbaycan, 1997-2007, s. 642-648, 731-754
28. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir / Tərtibçilər: M. Mərdanov, Ə. Quliyev. Bakı, Təhsil, 2002, s. 138-191
29. Əliyev H.Ə. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir ("İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumda çıxışından). Bakı: İrşad, 1999, s. 7-13
30. Əliyev H.Ə. Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan prezidenti Heydər Əliyevin nitqi: Dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində çox mühüm tarixi mərhələ. "Azərbaycan" qəz., 2011, 10 noyabr
31. Əliyev H.Ə. Gənclərin I Respublika Forumunda çıxışı. Bakı, 1996.
32. Əliyev A.X. Milli əxlaq və ailə etikası proqramı. Bakı, 1996, 32 s.

33. Əliyev A.R. Yuxarı sinif şagirdlərində vətəndaşlıq ləyaqəti tərbiyəsi üzrə işin təşkili yolları: Ped. elm. nam. ... avtoref. Bakı, 1996, 19 s.
34. Əliyev P.B. Ədəbiyyatın tədrisi prosesində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi: Ped. elm. nam. ... avtoref. Bakı, 1988, 27 s.
35. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006, 264 s.
36. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, Nurlan, 2000, s. 66-91
37. Əliyev R. İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007, s. 51-76
38. Əliyev R.İ. Mentalitet. Bakı: Elm və təhsil, 2009, 232 s.
39. Əliyeva Ş.Q. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları: Ped. ü. elm. dok. ... dis. Bakı, 2014, s. 67-91
40. Əliyeva R.M. İbtidai sinif dərsliklərindəki bədii nümunələrdə tərbiyə məsələləri. Bakı: Adiloğlu, 2003, s. 11-28
41. Əliyev İ.İ. İbtidai siniflərdə dərs zamanı şagirdlərin müstəqil işlərinin səmərəliliyini artırmağın şərtləri. Ped. elm. nam. ... dis. Naxçıvan, 1988, 158 s.
42. Əliyev İ.İ. İbtidai siniflərdə dərs zamanı şagirdlərin müstəqil işlərinin səmərəlilik şərtləri. Monoqrafiya. Bakı: Nurlan, 2007, 146 s.
43. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası: Dərs vəsaiti. Bakı: Maarif, 1988, 192 s.
44. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər: psixopedaqoji məsələlər. Bakı: ADPU, 2006, 294 s.
45. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya (I, II kitab). Bakı: ADPU, 2010, s. 105-137
46. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika. Dərslik. Bakı: Adiloğlu, 2013, s. 24-36
47. Ələddin B. Məhəmməd Peyğəmbərin hekayəti. Bakı: Gənclik, 1991, 101 s.

48. Fərhad Shouren Kandı Esmail oğlu. Təlim prosesində ibtidai sinif şagirdlərinin islam mənəvi dəyərləri əsasında tərbiyə olunması: Ped. ü. fəl. dok. ... avtoref. Bakı, 2011, 28 s.
49. Fətəliyev X.Q. Ailədə milli tərbiyə. Bakı: Maarif, 1996, 185 s.
50. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan" qəz., 2002, 12 may
51. Göyalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, s. 18-160
52. Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Ped. elm. dok. ... dis. Naxçıvan, 2005, 360 s.
53. Həsənli O.Q. Diyarşünaslıq materiallarından istifadə mənəvi tərbiyənin vasitəsi kimi: Ped. elm. nam. ... avtoref. Bakı, 1992, 27 s.
54. Həsənov A.M. Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə. Bakı: İşıq, 1997, s. 3-21
55. Həşimov Ə.S., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı: Patrionat, 1993, 275 s.
56. Hüseynli Q. Milli qürur hissi. Bakı: Azərnəşr, 1991, 127 s.
57. Hüseynov Q.İ. Milli iftixar hissi. Bakı: Bilik cəmiyyəti, 1990, 194 s.
58. Hüseynzadə R.L., Allahverdiyeva L.Z. Ailə pedaqogikası: Dərslik. Bakı: ADPU, 2016, 340 s.
59. İlyasov M.İ. Şagird şəxsiyyətinin sosiallaşması və peşə seçmə // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2008, № 3, s. 152-154
60. İlyasov H.V. Ailədə kiçik məktəb yaşlı uşaqlarla vətəndaşlıq tərbiyəsi üzrə aparılan işin imkan və yolları: Ped. ü. fəl. dok. ... avtoref. Bakı, 2016, 27 s.
61. İlaxır çərşənbələr. Bakı: Gənclik, 1992, 102 s.
62. İsmayılov İ.Z. Azərbaycan vətənpərvərliyi XX əsrdə. Bakı: Mütərcim, 2003, 200 s.
63. Kazımov N.M. Milli pedaqogika yollarında: Monoqrafiya. Bakı: Ağrıdağ, 2001, s. 94-146

64. Kazımov N.M. Məktəb pedaqogikası: Dərslik. Bakı: OKA Ofset, 2009, 436 s.
65. Kazımov N.M. Müqayisənin nəzəri və əməli problemləri. Ağlın sönməz məşəli. Bakı: Çaşıoğlu, 2003, 96 s.
66. Kazımova L.A. Əyanilik kiçikyaşlı məktəblilərdə təlimə marağı artıran prinsip kimi: Ped. ü. fəl. dok. ... avtoref. Bakı, 2014, 24 s.
67. Kərimov Y.Ş. Sinif müəlliminə verilən müasir tələblər // "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" mövzusunda respublika elmi-praktik konfransın materialları. Bakı: Təhsil, 2010, s. 26-36
68. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: Azərnəşr, 2009, 280 s.
69. Qaralov Z.İ. Tərbiyə: prinsiplər, məzmun, metodika. Üç cilddə, I, II, III c., Bakı: Pedaqogika, 2003, 291 s.
70. Qasımova A.Q. Tarixi şəxsiyyətlərə dair materialının öyrənilməsi yeniyetmələrin tərbiyəsinin vasitəsi kimi: Ped. elm. nam. ... dis. Bakı, 2003, 168 s.
71. Qasımova S.N. Kiçik yaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsində tarix və mədəniyyət abidələrindən istifadə: Ped. elm. nam... avtoref. Bakı, 1999, 19 s.
72. Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004, 220 s.
73. Quliyev F.T. Milli qürur milli ideologiyanın təkanverici qüvvəsidir. Bakı: Azərnəşr, 1994, 96 s.
74. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı: Maarif, 1987, 168 s.
75. Quliyev S.M. Məktəblilərin əxlaq tərbiyəsində məktəb, ailə, ictimaiyyət və əmək kollektivlərinin əlbir fəaliyyətinin nəzəri əsasları: Ped. elm. dok. ... avtoref. Tbilisi, 1988, 57 s.
76. Quliyeva K.R. Heydər Əliyev irsində mənəvi tərbiyə məsələləri. Ped. ü. fəl. dok. ...dis. Bakı, 2012, 157 s.
77. Qumilyov L.M. Qədim türklər. Bakı: Gənclik, 1983, s. 66-81
78. Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov, V. Məmmədəliyev. Bakı: Azərnəşr, 1991, s. 34-46
79. Lenin V.İ. Əsərlərinin tam külliyyatı, 17-ci cild, s. 704-705.

80. Məmmədova G.R. Şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmasının imkan və yolları: Ped. elm. nam. ... dis. Bakı, 2012, 170 s.
81. Məmmədova Ü.R. İbtidai siniflərdə təlim prosesinin təşkilində inteqrasiyadan istifadənin imkanları və yolları: Ped. ü. fəl. dok. ... avtoref. Bakı, 2011, 24 s.
82. Mərdanov M.C. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı: Təhsil, 2005, s. 105-124
83. Mərdanov M.C., Quliyev Ə.Ə. Azərbayca Respublikasının dövlət rəmzləri. Bakı: Çaşıoğlu, 2002, 272 s.
84. Mərdanov M.C. Davamlı inkişaf və təhsil. Bakı: Çaşıoğlu, 2007, s. 12-210.
85. Məhəmməd Peyğəmbərin hekayəti. Bakı: Gənclik, 1986, 33 s.
86. Məmmədov Ş.N. Şagirdlərin əxlaq tərbiyəsində milli dəyərlərdən istifadə (humanitar fənlər üzrə): Ped. elm. nam. ... dis. Bakı, 1996, 148 s.
87. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006, 372 s.
88. Müsəlman bayramları. Bakı: Gənclik, 1993, 42 s.
89. Muxtarova N.M. Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyə edilməsi: Monoqrafiya. Bakı: BDU-nun nəşriyyatı, 1993, 270 s.
90. Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1985, s. 68-71
91. Nicatov Ə. İ. Mədəniyyət, gözəllik, tərbiyə. Bakı: Maarif, 1993, s. 14-24
92. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 113 s.
93. Riyaziyyat. 4-cü sinif üçün dərslik. Bakı: Maarif, 1983, məsələ № 968.
94. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən: Dərs vəsaiti. Bakı: ADPU, 1992. 137 s.
95. Rüstəmova S.Ə. Nizami Gəncəvi yaradıcılığının öyrənilməsi və şagirdlərin mənəvi tərbiyəsi: Müəllimlər üçün metodik vəsait. Bakı: Maarif, 1993, s. 46-51
96. Rza N. Təhsilin dili, mənəviyyat və mədəniyyət, Bakı: Maarif, 2000, s. 18-41
97. Sadıqov F.B., Həsənli O.Q. Tərbiyəşünaslıq. Bakı: Elm və təhsil, 2015, 360 s.
98. Səməd Vurğun. Milli qürur və gənclik. Əsərləri. 6-cı cild. Bakı: Azərnəşr, 1972, 496 s.

99. Səfərova G.R. İbtidai siniflərdə şagirdlərin əxlaq tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanları: Ped. ü. fəl. dok. ... avtoref. Bakı, 2016, 29 s.
100. Sultanova İ.H. Məktəbəqədər yaşlı uşaqlarda milli hisslərin formalaşdırılması. Bakı: Çaşıoğlu, 2004, s. 14-71
101. Süleyman Doğan. Ədalətli dövlət başçıları keyfiyyətləri nümunəsində şagirdlərdə milli iftixar hissinin formalaşdırılması (ədəbiyyat və tarix materialları əsasında): Ped. elm. nam... dis. Bakı, 1998, 163 s.
102. Şəmsizadə N. Azərbaycan ideologiyası. Bakı: Sabah, 1997, 103 s.
103. Şirzadova M.H. Milli-mənəvi dəyərlərimizin ədəbi, bədii və pedaqoji abidəsi: Monoqrafiya. Bakı: Elm və təhsil, 2015, 140 s.
104. Tağıyev Q.H. Məktəblilərin mənlik hissinin tərbiyəsində milli və ümumbəşəri dəyərlərin əlaqələndirilməsi. Ped. elm. nam. ... avtoref. Bakı, 1998, 23 s.
105. Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Gənclərin milli-mənəvi tərbiyəsi problemi. Bakı: Ünsüzadə, 1999, 271 s.
106. Talıbov Y.R., Pirverdiyeva S.B., Talıbov E.Y., Cabbarlı B.Ə. Məktəblilərin milli mentalitet əsasında tərbiyə edilməsi. Bakı: Nurlan, 2004, 320 s.
107. Xatəmi-Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara, 1997, s. 7-54
108. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu // Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiysı. Bakı: Elm, 2010, s. 280-322
109. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, 480 s.
110. Бабанский Ю.К. Педагогический эксперимент / Введение в научное исследование по педагогике. М.: Просвещение, 1988, с. 91-140
111. Гегель. Изв.соч.т.3, с. 81
112. Макаренко А.С. Избранные педагогические сочинения. Т. 4, М.: Учпедгиз, 1957, 691 с.
113. Marks K., Engels F. Seçilmiş əsərləri. Üç ciliddə. 1-ci cild. Bakı, 1983, 451 s.
114. Подласый И.П. Педогогика начальной школы. М.: Владос, 2000, 214 с.
115. Рубинштейн С.Л. Бытие и сознание. М.: Мир, 1957, с. 194-228

116. Рубинштейн С.Л. Основы общей психологии. Санкт-Петербург, ЛГРИ, 1999, 720 с.

117. Самарин Ю.А. Очерки по психологии: Особенности умственной деятельности школьников. М.: Высщая школа, 1992, 504 с.

118. Сеидов С.И. Феноменология творчества (История, Педагогика, Личность). Баку: Чашыоглу, 2009, 264 с.

119. Сластении В.А., Каширин В.П. Психология и педагогика. М.: Изд-во Академия, 2003, с. 216-241

120. Ушинский К.Д. Человек как предмет воспитания: опыт педагогической антропологии / Пед. соч. т.5. Сост. С.Ф. Егоров. М.: Педагогика, 1999, 331 с.

121. Biology! Bringing science to life / Jhon H. Postlethwait, Janet L. Hopson, Ruth C. Veres. New York – London, 1991, s. 334-335.